# AZƏRBAYCAN PROKURORLUĞU

Elmi-praktiki jurnal




№ 1
2025

www.genprosecutor.gov.az



**Vətən həsrəti ilə yaşamış insanlar üçün ən yaxşı şəraiti yaratmaq dövlətimizin borcudur. Mənim də Prezident kimi əsas borcum bu gün bundan ibarətdir.**

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

# AZƏRBAYCAN PROKURORLUĞU

**Təsisçi:**
Azərbaycan Respublikasının
Baş Prokurorluğu

**REDAKSİYA HEYƏTİ**

**Baş redaktor:**
Heydər Məmmədov

**Baş redaktorun müavini:**
Talıb Cəfərov

**Redaksiya heyətinin üzvləri:**
Tural Aslanov
Natiq Hüseynov
Aynur Osmanova
Erkin Əlixanov
Elnur Musayev
Vüqar Əliyev
Mahir Abbasov
Asəf Sarıkişiyev
Şəfahət İmranov

**Məsul katib:**
Fərizə Mirzəyeva

**Redaksiyanın ünvanı:**

Bakı şəhəri, Binəqədi rayonu,
Süleyman Sani Axundov küçəsi 160.

**Telefon:** 361 14 26
**www.genprosecutor.gov.az**

*Elmi-praktiki jurnalın 1-ci nömrəsi*

*Yanvar - Mart (2025-ci il)*

“Media haqqında” Azərbaycan Respublikası Qanununa müvafiq qaydada təsis edilmişdir.

Jurnal 2003-cü ildən etibarən rübdə bir dəfə dövriliklə dərc edilir.

Azərbaycan Respublikası Baş prokurorunun 19 may 2021-ci il tarixli, 09/06 nömrəli əmri ilə “Azərbaycan Prokurorluğu” elmi-praktiki jurnalının redaksiya heyətinin yeni tərkibi təsdiq edilmişdir. “Azərbaycan Prokurorluğu” elmi-praktiki jurnalının fəaliyyəti üçün məsul qurum Baş Prokurorluğun Elm-Tədris Mərkəzidir.

Yazılardakı məlumatların doğruluğuna jurnalın redaksiya heyəti məsuliyyət daşımır.

Jurnalda dərc edilmiş məlumatlardan istifadə zamanı jurnala istinad etmək vacibdir.

Azərbaycan Respublikası Baş Prokurorluğunun mətbəəsində səhifələnmiş və 350 nüsxə kağız, 150 nüsxə elektron daşıyıcıda çap edilmişdir.

*Jurnalın çapına məsul:* Rövşən Abdullayev
*Texniki heyət:* Samir Vahidov, Səttar Əliyev

Çapa imzalanmışdır: 23.04.2025
60x84 1/8 formatda 172 səhifə həcmdədir.

© “Azərbaycan Prokurorluğu”, 2025

MÜNDƏRİCAT

## ÖLKƏDƏ


**5** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfər edib

**7** Prezident İlham Əliyev Dünya İqtisadi Forumunda iştirak edib

**10** Prezident İlham Əliyev bələdiyyə seçkiləri ilə bağlı 1 saylı seçki məntəqəsində səs verib

**11** Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda metronun "Gənclik" stansiyasının yaxınlığında "Antena" sahəsi adlanan ərazidə yeni yaradılan parkın açılışında iştirak ediblər

**12** Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdama səfər çərçivəsində aparılan tikinti-quruculuq işləri ilə tanış olublar

**17** Dövlətimizin başçısı Xankəndi şəhərində sosial-mədəni müəssisələrin açılışında və təməl qoyulmasında iştirak edib, Xocalı sakinləri ilə görüşüb

**23** Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif Azərbaycanda rəsmi səfərdə olub

**26** Azərbaycan və Türkiyə prezidentləri İğdır-Naxçıvan qaz kəmərinin videobağlantı formatında açılış mərasimində iştirak ediblər

**29** Bakıda "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi" mövzusunda XII Qlobal Bakı Forumu keçirilib

**34** Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdərəyə səfər çərçivəsində bir sıra tədbirlərdə iştirak ediblər


## PROKURORLUQDA


**38** Baş Prokurorluqda "Prokurorluq orqanları tərəfindən 2024-cü ildə görülmüş işlərin yekunları və qarşıda duran vəzifələrə dair" Geniş Kollegiya iclası keçirilib

**43** Baş prokurorun rəhbərliyi ilə Azərbaycan Prokurorluğunun sisteminə daxil olan orqanlarda 2024-cü il üzrə görülmüş işlərin yekunu ilə bağlı əməliyyat müşavirələri və kollegiya iclasları keçirilib

**52** Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Vyetnama səfər edib

**54** Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Milli Aviasiya Akademiyası arasında əməkdaşlığın inkişafına dair Anlaşma Memorandumu imzalanıb

**55** Prokurorluq orqanlarında qulluğa yeni qəbul edilmiş gənc hüquqşünasların andiçmə mərasimi keçirilib

**57** 20 Yanvar faciəsinin 35-ci ildönümü ilə əlaqədar prokurorluq əməkdaşları Şəhidlər xiyabanını ziyarət edib

**58** İstanbulun Baş prokuroru ölkəmizdə səfərdə olub

**60** Kürdəmir rayon prokurorluğunun yeni inzibati binasının açılış mərasimi keçirilib

**62** Prokurorluq əməkdaşlarına və media qurumlarına mükafatlar təqdim olunub

**64** Baş Prokurorluqda 8 Mart - Beynəlxalq Qadınlar Günü ilə bağlı tədbir keçirilib

**67** Baş prokuror İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiyanın (İCMP) Baş direktoru ilə görüşüb

**68** Baş Prokurorluqda aktual hüquqi problemlərin həlli üçün yeni təkliflər müzakirə edilib

**70** Baş prokuror Kamran Əliyev və Baş Prokurorluğun rəhbərliyi, o cümlədən prokurorluq əməkdaşları və prokurorluğun veteranları Azərbaycan Dövlət Akademik Musiqili Teatrının təqdimatında Novruz Bayramına həsr olunmuş konserti izləyib

**71** OECD-nin Şərqi Avropa və Mərkəzi Asiya üçün Anti-Korrupsiya Şəbəkəsinin ekspertləri tərəfindən ölkəmizdə bir sıra dövlət orqanları və digər qurumların iştirakı ilə bu sahənin qiymətləndirilməsi həyata keçirilib

**73** Baş prokurorun yerlərdə qəbulları

**76** "Konstitusiya və Suverenlik İli: gənclərin hüquqi dövlət quruculuğunda yeri və rolu" adlı konfrans keçirilib

**78** Qanunsuz miqrasiyanın təşkili cinayətinin istintaq metodikası prokurorluq işçilərinə tədris edilib

**78** Prokurorluq, ədliyyə və vergi orqanlarının əməkdaşları üçün kurs təşkil edilib

**79** Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə "Qadın iştirakçılığının təbliği" mövzusuna həsr olunan konfrans keçirilib

**80** Təhsil işçiləri üçün regionlarda korrupsiyaya qarşı mübarizəyə həsr edilmiş təlimlər keçirilib

**81** Prokurorluq işçiləri ekoloji hüquqpozmalarla mübarizə sahəsində tədrisə cəlb edilib

**82** Azərbaycan Respublikası Hərbi Prokurorluğunun təşkilatçılığı ilə hərbi hissələrdə Gənclər Günü ilə bağlı tədbirlər keçirilib

## MÜNDƏRİCAT


**83** Hərbi Prokurorluqda Xocalı soyqırımının 33-cü ildönümü ilə əlaqədar elmi-praktik konfrans keçirilib

**86** Respublika Hərbi Prokurorluğunda Beynəlxalq Qadınlar Günü qeyd olunub

**87** "Azərbaycan ərazisi (1918-2025)" adlı kitabın təqdimat mərasimi keçirilib

**89** Şərur və Sədərək rayon İcra Hakimiyyətlərində "Yetkinlik yaşına çatmayanlar və ailə münasibətləri əleyhinə olan hüquqpozmalar və onların profilaktikası" mövzusunda tədbir keçirilib

**90** Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı ilə "Kibercinayətkarlıq və ona qarşı mübarizə üsulları"' mövzusunda tədbir keçirilib

**91** Ordubad rayonunda "Müstəqilliyimiz əbədi, inkişaf isə məqsədimizdir!" mövzusunda tədbir keçirilib

**92** Naxçıvanın Dövlət Sosial Müdafiə Fondunda "Kibercinayətkarlıq və ona qarşı mübarizə üsulları"' mövzusunda tədbir keçirilib

**93** Babək rayon İcra Hakimiyyətində "Yetkinlik yaşına çatmayanlar və ailə münasibətləri əleyhinə olan hüquqpozmalar və onların profilaktikası'' mövzusunda tədbir keçirilib

**94** Culfa rayonunda "Konstitusiya və Suverenlik İli" çərçivəsində "Müstəqilliyimiz əbədi, inkişaf isə məqsədimizdir!" mövzusunda tədbir keçirilib

**95** Kəngərli rayonunda "Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda tədbir keçirilib

### BEYNƏLXALQ ƏLAQƏLƏR

**96** Brüssel şəhərində kibercinayətkarlıq üzrə beynəlxalq seminar keçirilmişdir

**97** Baş Prokurorluğun əməkdaşı beynəlxalq tədbirdə iştirak edib

**98** Baş Prokurorluğun əməkdaşı BMT-nin Narkotik Vasitələr üzrə Komissiyasının iclasında iştirak edib

**98** Baş Prokurorluğun əməkdaşı BMT tərəfindən təşkil olunan tədbirdə iştirak edib

### PROKURORLUQ VƏ CƏMİYYƏT

**99** Mətbuat xidmətinin məlumatı

**105** *Şahin Əliyev* – Azərbaycan Respublikasının 1995-ci il Konstitusiyasının preambulasının xüsusiyyətləri

**111** *Talıb Cəfərov* – Ətraf mühitin mühafizəsinin hüquqi, iqtisadi və sosial əsaslarını müəyyən edən qanunvericilik

**120** *Səbuhi Şahverdiyev* – Ekologiya sahəsində aparılan islahatların mahiyyəti və nəticələri

**128** *Selcan Familzadə* – Məhkəmənin hökmünü, qərarını, yaxud digər aktını icra etməmə cinayətinin istintaqının metodiki tərəfi

**130** *İradə Xəlilova* – Azərbaycan hüquq elminə töhfə verən təsisatlar (ikinci hissə)

**136** *Faiq Səfərov* – Daşnak vəhşiliyi: Saqqarsu və Yaycı qətliamları

### İKİ HÜQUQŞÜNAS – İKİ FƏRQLİ HÜQUQİ MÖVQE

**139** *Fərizə Mirzəyeva* – Xüsusi müsadirənin təyin olunmasına fərqli yanaşmalar

**142** *Nigar Qələndərli* – MDB məkanında qarşılıqlı fəaliyyət çərçivəsində elektron vahid daşıyıcıların idarə edilməsi

### HƏMKARLARIMIZLA MÜSAHİBƏ

**146** Şimali Kiprin Lefkoşa Rayon Məhkəməsi hakiminin müsahibəsi

### PROKURORLUĞUN VETERANLARI

**149** Qulluq keçmələrinə xitam verilmiş prokurorluq işçiləri və prokurorluğun veteranı təltif olunub

**149** Veteran prokurorluq işçisiləri təbrik edilib

**151** Prokurorluğun veteranı Fazil Hüseynovun müsahibəsi

### HÜQUQİ AKTLAR

**154** Qanunvericiliyə dəyişikliklər

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfər edib







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın dəvəti ilə 2025-ci il yanvarın 13-də Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfər edib.

Əbu-Dabinin Zayed Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb. Prezident İlham Əliyevi Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan qarşılayıb.

Həmin gün Əbu-Dabidə prezidentlərin görüşü olub. Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti 2024-cü ildə Azərbaycana rəsmi və COP29 ilə bağlı səfərlərini, bu səfərlər çərçivəsində dövlətimizin başçısı ilə keçirdiyi görüşləri və aparılmış müzakirələri məmnunluqla xatırlayıb.

Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinin COP29-da iştirakını bir daha yüksək qiymətləndirən dövlətimizin başçısı qeyd edib ki, bu mühüm beynəlxalq tədbirin uğurla başa çatdırılmasında Azərbaycanın Birləşmiş Ərəb Əmirlikləri ilə əməkdaşlığı və bu ölkənin konsepsiyası da öz rolunu oynayıb.

Siyasi münasibətlərimizin mükəmməl səviyyədə olduğunu deyən Prezident İlham Əliyev iqtisadi-ticari əlaqələrin genişləndiyini qeyd edib, Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycanın bərpaolunan enerji sahəsinə qoyduğu investisiyaların da dostluğumuzun və tərəfdaşlığımızın nümunəsi olduğunu vurğu-









layıb. Həmçinin ölkələrimizin ənənəvi enerji sahəsində yaxından əməkdaşlıq etdiyi qeyd olunub.

Söhbət zamanı ikitərəfli, regional, qlobal, həmçinin qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

2025-ci il yanvarın 14-də Əbu-Dabi Dayanıqlılıq Həftəsinin rəsmi açılışı və Zayed Dayanıqlılıq Mükafatının təqdimat mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

# Prezident İlham Əliyev Dünya İqtisadi Forumunda iştirak edib





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dünya İqtisadi Forumunda iştirak etmək üçün 2025-ci il yanvarın 20-də İsveçrə Konfederasiyasına səfər edib.

Dövlətimizin başçısı həmin gün Davosda CGTN (China Global Television Network) telekanalına müsahibə verib.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2025-ci il yanvarın 21-də Davosda qarşı tərəfin müraciəti əsasında Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçs ilə görüşüb. Edqars Rinkeviçs dövlətimizin başçısı ilə bundan əvvəlki görüşlərini məmnunluqla xatırladıb. O, təyyarə qəzasında həlak olanlarla bağlı Azərbaycan Prezidentinə başsağlığı verib.



Dövlətimizin başçısı başsağlığına görə minnətdarlığını bildirib. Prezident İlham Əliyev də öz növbəsində bugünkü görüşün əməkdaşlığımızın perspektivlərinin müzakirəsi baxımından önəmini vurğulayıb.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün qarşı tərəfin müraciəti əsasında İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid ilə görüşüb.



COP29-da Azərbaycana səfərini məmnunluqla xatırlayan Əbdüllətif Camal Rəşid bu mühüm tədbirin uğurla keçirilməsi münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırıb.

Dövlətimizin başçısı İraq Prezidenti ilə görüşlərini və bu görüşlər



əsnasında aparılmış müzakirələri məmnunluqla xatırlayıb. Görüşdə Azərbaycanla İraq arasında ikitərəfli əlaqələrin inkişaf etdirilməsi, birbaşa təyyarə reyslərinin təşkili və hökumətlərarası komissiyanın fəaliyyəti ilə əlaqədar məsələlərə toxunulub. Həmçinin Yaxın Şərqdəki vəziyyət müzakirə edildi, regionda sülhün və sabitliyin bərqərar olunmasının vacibliyi bir daha vurğulanıb. Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılıb.





***




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2025-ci il yanvarın 21-də Davosda qarşı tərəfin müraciəti əsasında Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts ilə görüşüb.

Söhbət zamanı ikitərəfli münasibətlərə, eyni zamanda, Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığının inkişaf etdirilməsi perspektivlərinə dair fikir mübadiləsi aparılıb, qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub. Kansler Almaniyanın Cənubi Qafqaz regionunda davamlı sülhün və sabitliyin təmin olunması istiqamətində səyləri dəstəklədiyini bildirib.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün qarşı tərəfin müraciəti əsasında İsrail Dövlətinin Prezidenti İsxak Hersoq ilə görüşüb.

Görüşdə Azərbaycan ilə İsrail arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi qeyd olunub. Söhbət zamanı iqtisadi-ticari sahədə əməkdaşlığın yaxşı səviyyədə olduğu bildirilib, hökumətlərarası birgə komissiyanın işi yüksək qiymətləndirilib.





Azərbaycanlılarla yəhudilər arasında ənənəvi, tarixi dostluq münasibətlərinin mövcud olduğu vurğulanıb, ölkəmizdə digər icmaların nümayəndələri ilə yanaşı, yəhudi icmasının nümayəndələrinin də sülh, əmin-amanlıq və qarşılıqlı anlaşma mühitində yaşamaları üçün hərtərəfli şəraitin yaradıldığı məmnunluqla qeyd edilib.

***





2025-ci il yanvarın 22-də Davosda baş tutmuş görüş zamanı Xorvatiya Respublikasının Baş naziri Andrey Plenkoviç COP29-un uğurla keçirilməsi münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırıb.



Prezident İlham Əliyev Xorvatiyanın Baş nazirinin COP29-da iştirakına görə təşəkkürünü bildirib. Söhbət zamanı COP29 çərçivəsində qlobal iqlim gündəliyinin irəli aparılması üçün çox mühüm qərarların qəbul edildiyi vurğulanıb.

Azərbaycan Prezidenti və Xorvatiyanın Baş naziri ölkələrimiz arasında münasibətlərin mövcud səviyyəsini yüksək qiymətləndiriblər, xüsusilə enerji sahəsində olan əməkdaşlığı qeyd ediblər.

Azərbaycanın bu gün Xorvatiyanın enerji təhlükəsizliyində oynadığı rol, ölkəmizdən Xorvatiyaya neft və qaz ixracı xüsusilə vurğulanıb, həmçinin qaz ixracının həcminin artırılması perspektivləri müzakirə olunub.

Dövlətimizin başçısı qeyd edib ki, Azərbaycan bu gün 10 Avropa ölkəsinə qaz ixrac edir ki, onlardan da səkkizi Avropa İttifaqına üzv ölkələrdir. Vurğulanıb ki, Azərbaycan Avropa İttifaqı tərəfindən pan-Avropa enerji təchizatçısı kimi qiymətləndirilib.

Görüşdə ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi və Azərbaycanın Avropa İttifaqı ilə əlaqələri məsələsinə dair fikir mübadiləsi aparılıb, hökumətlərarası komissiyanın rolu qeyd olunub.

Xorvatiya Baş naziri dövlətimizin başçısını ölkəsinə rəsmi səfərə dəvət edib.

# Prezident İlham Əliyev bələdiyyə seçkiləri ilə bağlı 1 saylı seçki məntəqəsində səs verib







2025-ci il yanvarın 29-da Azərbaycanda növbəti bələdiyyə seçkiləri keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı şəhərinin 7 saylı Səbail seçki dairəsinin 6 nömrəli orta məktəbdə yerləşən 1 saylı seçki məntəqəsində səs verib.

Qeyd edək ki, Bakı şəhərinin 7 saylı Səbail seçki dairəsinin 1 saylı seçki məntəqəsində 576 seçici qeydiyyata alınıb. Bu seçki dairəsi üzrə 31 namizəd mübarizə aparıb.



# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda metronun "Gənclik" stansiyasının yaxınlığında "Antena" sahəsi adlanan ərazidə yeni yaradılan parkın açılışında iştirak ediblər



2025-ci il fevralın 7-də Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya yeni parkda yaradılan şərait barədə ətraflı məlumat verib.

"Antena" sahəsi kimi tanınan bu ərazidə yararsız vəziyyətdə olan bəzi tikililər sökülüb, tarixi inzibati bina isə saxlanılıb və bərpa olunub. Söküntü işlərindən sonra parkın ərazisi daha da genişləndirilib və 19 hektara çatdırılıb.





Yeni salınan parkda sakinlərin və qonaqların asudə vaxtlarının səmərəli təşkili üçün qısa müddətdə gözəl şərait yaradılıb. Belə ki, burada müasir tələblərə cavab verən iki restoran inşa olunub. Həmçinin burada fəvvarə də quraşdırılıb. Bu da istirahət məkanına əlavə gözəllik verir.

Müasir istirahət kompleksinin ərazisinin 14 hektarında yaşıllıq sahələri salınıb, 20 mindən çox ağac və kol əkilib. Parkda avtomat suvarma sistemi, su və yanğın çənləri, nasosxana, təhlükəsizlik müşahidə kameraları quraşdırılıb. Həmçinin işıqlandırma sistemi yeni layihə əsasında ən müasir standartlara uyğun şəkildə qurulub. Parkda piyada və velosiped yolları çəkilib, uşaq-əyləncə və açıq hava şəraitində müasir məşq qurğuları ilə təchiz edilmiş idman meydançaları yaradılıb.



Yeni parkla yaxınlıqdakı "Dədə Qorqud" parkını əlaqələndirən yeraltı keçid də inşa olunub. Bu da sakinlərin təhlükəsiz və rahat hərəkətinə şərait yaradır.

Bakının və regionların simasını dəyişməklə yanaşı, ölkəmizdə ekoloji vəziyyətin yaxşılaşdırılmasında da mühüm rol oynayır.

Yeni istifadəyə verilən park da paytaxtımızın daha da gözəlləşməsi, şəhərdə yaşıl guşələrin sayının artırılması və insanların səmərəli istirahəti baxımından mühüm əhəmiyyət daşıyır.

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdama səfər çərçivəsində aparılan tikinti-quruculuq işləri ilə tanış olublar









Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2025-ci il fevralın 18-də Ağdam şəhərində "Hilton Garden İnn" hotelində aparılan tikinti işləri ilə tanış olublar.

Dövlətimizin başçısına və birinci xanıma hoteldə görülən işlər barədə bildirildi ki, "Hilton Garden İnn" hoteli Ağdam şəhər mərkəzinə yaxın ərazidə inşa olunub. Ümumi sahəsi 2,16 hektar olan hotel 2, 6 və 7 mərtəbəli 3 bloklu binadan ibarətdir. Ən müasir standartlara cavab verən hotel binasında 127 otaq var, qonaqların zövqünü oxşayan interyer işləri görülüb.

Birinci mərtəbədə qonaqları foye və rahat gözləmə zonası qarşılayır. Hoteldə müxtəlif tədbirlərin keçirilməsi üçün konfrans və iclas zallarının yaradılması nəzərdə tutulur. Buradakı restoran, banket zalları qonaqların həm yüksək səviyyədə qidalanmalarına, həm də asudə vaxtlarını keçirmələrinə geniş imkanlar yaradır.

Müasir hoteldə qonaqların sağlamlığını və istirahətini təmin etmək məqsədilə hovuz, fitnes və SPA mərkəzləri də yaradılır.

Bildirilib ki, hoteldə işlərin icrası 60 faiz yerinə yetirilib. "Hilton Garden İnn" hotelində 100-dən çox işçinin fəaliyyət göstərməsi nəzərdə tutulub.






Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam Muğam Mərkəzində görülən tikinti işləri ilə tanış olublar. Dövlətimizin başçısına və birinci xanıma Muğam Mərkəzində görülən işlərlə bağlı məlumat verilib.

Ümumi sahəsi 1,4 hektar olan Mərkəzin birinci mərtəbəsində kafe, kinozal, kitabxana və iki rəqs zalı yaradılıb. Buradakı 507 yerlik konsert zalında müxtəlif mədəni tədbirlər, o cümlədən muğam gecələri təşkil etmək üçün hərtərəfli şərait var.

İkinci mərtəbədə inzibati otaqlar yerləşir. Mərkəzdə 14 dərs otağı, sərgi salonu, iclas zalı, müəllimlər otağı və digər otaqlar fəaliyyət göstərəcək.

Ağdam Muğam Mərkəzinin ərazisində 1250 kvadratmetrlik açıq amfiteatr da inşa edilib. Tikinti-quraşdırma işləri artıq yekunlaşmaq üzrədir. Hazırda tamaşa zalında, binanın çöl hissəsində son tamamlama işləri görülür, müvafiq avadanlıq və mebellər quraşdırılır.






“Ağdam Residence” yaşayış kompleksində yaradılan şəraitlə tanış olan dövlətimizin başçısına və birinci xanıma görülən işlərlə bağlı məlumat verilib. Bildirilib ki, ümumi sahəsi 1,55 hektar olan ərazidə ilkin 6 yaşayış binası inşa edilib. Kompleksdəki binalar 6 mərtəbəlidir və ümumi blokların sayı 11-dir.

Dövlətimizin başçısı və birinci xanım yaşayış kompleksində hazır mənzillərə baxıblar. Mənzillərin 45-i birotaqlı, 108-i ikiotaqlı, 48-i üçotaqlı, 8-i isə dördotaqlıdır.

Kompleksdə tikinti-quraşdırma işləri artıq yekunlaşıb. Sakinlərin rahat yaşayışı üçün kompleksin ərazisində park, istirahət guşələri, sosial-məişət obyektləri, avtodayanacaqlar, velosiped yolları, uşaq oyun və idman meydançaları istifadəyə veriləcək, geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək.









Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2025-ci il fevralın 18-də Ağdam şəhərində 1268 mənzilli 2-ci yaşayış kompleksində aparılan tikinti işləri ilə tanış olublar.

Məlumat verilib ki, ümumi sahəsi 14 hektara yaxın olan yaşayış kompleksi Ağdamın mərkəzi küçəsində, şəhərin təsdiq edilmiş Baş Planına uyğun salınıb. Burada tikilən yaşayış binalarındakı mənzillərdən 114-ü birotaqlı, 464-ü ikiotaqlı, 536-sı üçotaqlı, 154-ü isə dördotaqlıdır.

Ərazisinin böyük bir hissəsi yaşıllıq zonasından ibarət olacaq kompleksdəki binaların inşasında modern memarlıq yanaşmalarından və milli naxış elementlərindən istifadə olunur. Burada idman meydançalarının, istirahət guşələrinin, velosiped dayanacaqlarının və digər zəruri infrastruktur obyektlərinin yaradılması nəzərdə tutulur.









Ağdam şəhərində 1 nömrəli körpələr evi-uşaq bağçasında aparılan tikinti işlərlə tanış olan dövlətimizin başçısına və birinci xanıma körpələr evi-uşaq bağçasında görülən işlər barədə məlumat verilib.

Qeyd edilib ki, 160 yerlik körpələr evi-uşaq bağçasının tikintisinə 2023-cü ildə başlanılıb. Zirzəmi və iki mərtəbədən ibarət binanın ümumi sahəsi 2700 kvadratmetrdən çoxdur. Burada müxtəlif otaqlar, uşaqların təlim-tərbiyəsi üçün bütün zəruri şərait yaradılacaq.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam şəhər 1 nömrəli tam orta məktəbdə aparılan tikinti işləri ilə tanış olublar.

Dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verilib ki, ümumi tikinti sahəsi 4300 kvadratmetrdən çox olan yeni məktəb binası üç mərtəbədən ibarətdir. Təməli 2021-ci ilin mayında qoyulan məktəb 960 şagird yerlikdir. Burada kitabxana, muzey, iki yeməkxana, fənn kabinetləri ilə yanaşı, fizika, kimya, biologiya laboratoriyaları, akt və idman zalları, həmçinin 8 STEAM otağı olacaq.

Məktəbin tikintisinin 2025-ci ildə başa çatdırılması nəzərdə tutulub.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövlətinin işğaldan azad olunmuş ərazilərdə həyata keçirdiyi bərpa və yenidənqurma prosesi çərçivəsində müasir, innovasiyalara əsaslanan təhsil ocaqlarının yaradılmasına xüsusi diqqət göstərilir. Hazırda inşası davam etdirilən Ağdam şəhər 1 nömrəli tam orta məktəb bunun daha bir nümunəsidir. Bu orta təhsil müəssisəsi Böyük Qayıdış Proqramı çərçivəsində şəhərə qayıdacaq şagirdlərin müasir standartlara uyğun təhsil almalarına xidmət edəcək.

# Dövlətimizin başçısı Xankəndi şəhərində sosial-mədəni müəssisələrin açılışında və təməl qoyulmasında iştirak edib, Xocalı sakinləri ilə görüşüb









Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2025-ci il fevralın 19-da Xankəndi şəhərində əsaslı təmir və bərpadan sonra “Bulud” hotelinin açılışında iştirak edib.

Ümumi sahəsi 5325 kvadratmetr olan hotel beş mərtəbədən ibarətdir. Hoteldə 45 nömrə var və 91 qonaq qəbul edə biləcək. Müasir iaşə məkanlarının yaradıldığı hoteldə “Lobby lounge”, kafe, açıq və qapalı restoranlar fəaliyyət göstərəcək.

Hoteldə 50 nəfər işlə təmin olunub.

Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərimiz tarixi-mədəni abidələrlə yanaşı, füsunkar təbiətə, yeraltı və yerüstü sərvətlərə, geniş turizm imkanlarına malikdir. Bölgədə müalicəvi turizm, istirahət turizmi, ekoturizm və turizmin digər növlərinin inkişaf etdirilməsi üçün böyük imkanlar var. “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nda nəzərdə tutulan əsas prioritetlərdən biri də məhz bu bölgədə turizmin müxtəlif növlərinin inkişafı üçün zəruri təminatların yaradılmasıdır. Artıq son illər bu istiqamətdə genişmiqyaslı işlər görülür. Füzuli və Zəngilanda yaradılan, Laçında tikintisi davam edən beynəlxalq hava limanları, inşa olunan müasir hotellər və həyata keçirilən digər infrastruktur layihələri azad olunan ərazilərimizin turizm potensialının reallaşmasında, turistlərin bu bölgələrə cəlb edilməsində mühüm rol oynayacaq.





Prezident İlham Əliyev həmin gün Xankəndi şəhərində Zəfər parkının təməlqoyma mərasimində iştirak edib.

Xankəndi şəhərində Zəfər parkının salınması məqsədilə 12,9 hektar ərazidə söküntü işlərinin aparılması nəzərdə tutulub. Ərazi şərti olaraq iki hissəyə bölünüb və 8,3 hektar sahəsi olan birinci hissədə söküntü işləri artıq yekunlaşıb. İkinci hissə isə 4,6 hektar ərazini əhatə edir. Burada da söküntü işləri aparılacaq.

Ərazidəki mövcud ağacların qorunması məqsədilə aidiyyəti təşkilatlarla birgə baxış keçirilib və müxtəlif növ 262 ağac müəyyən edilib. Bundan başqa, parkın ərazisində 21 növ üzrə 300-dən çox ağacın əkilməsi nəzərdə tutulur.

Hazırda ərazidə planlaşdırma işləri görülür.

Qeyd edək ki, ölkəmizdə yaradılan Zəfər parkları xalqımızın Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın, qazandığı möhtəşəm tarixi Qələbənin, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpasının rəmzidir.







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2025-ci il fevralın 19-da Azərbaycan-Özbəkistan birgə müəssisəsi olan Xankəndi tikiş fabrikinin fəaliyyəti ilə tanış olub.

Dövlətimizin başçısına istehsal müəssisəsi barədə məlumat verilib ki, ərazisi 1,2 hektar olan fabrikin inşası Azərbaycan və Özbəkistan arasında iqtisadi və investisiya əməkdaşlığının dərinləşdirilməsinə dair iki ölkə prezidentlərinin tapşırıqlarına əsasən həyata keçirilib. Layihənin ümumi investisiya dəyəri 11 milyon manat təşkil edir. İndiyədək 5,5 milyon manat investisiya qoyulub. Fabrikin xammal tədarükü üçün birgə sənaye əməkdaşlığı həyata keçirilir. Həmçinin fabrik tam gücü ilə işlədikdən sonra yerli pambıq xammalı əsasında parça toxunması üçün istehsal sahəsinin yaradılması nəzərdə tutulur.

Ümumilikdə burada 800 iş yeri yaradılacaq. Layihənin ilkin mərhələsi üzrə peşəkar təlim almış 300 nəfər hazırda işlə təmin olunub. Müəssisədə əsasən işğaldan azad edilmiş ərazilərə qayıdan və ətraf rayonlarda yaşayan vətəndaşların məşğulluğuna xüsusi diqqət yetirilib.

Müəssisə fəaliyyətə başlayandan bəri 50 minə yaxın idman köynəyi istehsal edilib. Bu il 924 min ədəd köynək istehsalı planlaşdırılır. Gələcəkdə isə Xankəndi tikiş fabrikində ildə 3-5 milyon ədəd müxtəlif trikotaj məhsulları istehsal edilməsi nəzərdə tutulur. Fabrikdə istehsal olunacaq məhsullar müxtəlif ölkələrə də ixrac ediləcək.

Azərbaycan-Özbəkistan birgə müəssisəsi olan Xankəndi tikiş fabriki yüngül sənayenin inkişafı üçün yeni imkanlar açır və ölkələrimiz arasında ənənəvi dostluq, qardaşlıq, iqtisadi tərəfdaşlıq əlaqələrini möhkəmləndirir.
















Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xocalı rayonunun Ballıca kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olub, sonra kəndə köçən bir qrup sakinlə görüşüb.

Dövlətimizin başçısı görüşdə çıxış edib.

## Prezident İlham Əliyevin çıxışı

– İki aydır ki, Ballıca kəndində keçmiş köçkünlər yaşayır. Mən bu gün burada bir neçə keçmiş köçkünlə görüşmüşəm, ev şəraitinə baxmışam. Şadam ki, uzun fasilədən sonra Ballıca kəndinə də artıq həyat qayıdıb. Keçmiş köçkünlər indi demək olar ki, hər ay hissə-hissə, qrup-qrup öz dədə-baba torpaqlarına qayıdırlar. Böyük Qayıdış Proqramı icra edilir. Demək olar ki, vaxtilə işğal altında olan bütün torpaqlar bərpa edilir. Dünən Ağdam rayonunda gedən quruculuq-bərpa işləri ilə tanış olmuşam. Bu gün buradayam. Eyni za-





manda, Xankəndidə də olmuşam, orada da gözəl işlər görülür, yeni iş yerləri, yeni müəssisələr yaradılır. Mənim Sərəncamımla Qarabağ Universiteti yaradılmışdır. Orada mindən çox tələbə oxuyur. Orta məktəblər, tibb məntəqələri inşa olunur. Yəni, həyat üçün nə lazımdırsa, hər şeyi edirik, həm şəhərləri, həm də kəndləri bərpa edirik.

Ballıca kəndinin də bərpası artıq son mərhələdədir. Mənə verilən məlumata görə, 137 ev artıq bərpa edilib və 60-a yaxın ev hələ bərpa olunacaq. Ballıcada artıq 460 keçmiş köçkün yerləşib. Evləri bərpa etmişik, kənd təsərrüfatı ilə məşğul olmaq üçün









imkanlar yaxşıdır, torpaq münbitdir, hava da təmizdir. Bütün Qarabağ bölgəsi, Şərqi Zəngəzur bölgəsi dirçəlir və hər gün biz bunu əyani şəkildə görürük.

Əlbəttə ki, Vətən həsrəti ilə yaşamış insanlar üçün ən yaxşı şəraiti yaratmaq dövlətimizin borcudur. Mənim də Prezident kimi əsas borcum bu gün bundan ibarətdir. İşğala son qoyduq, 2023-cü ildə antiterror əməliyyatı nəticəsində bu bölgəni də işğaldan azad etdik. Ballıca və yüzlərlə digər yaşayış məntəqəsi artıq işğalçılardan tam azad olunmuşdur və indi həyatı bərpa edirik. Yəni, hər şeyi mərhələli yollarla edirik, öz gücümüzlə, bizə heç kim kömək etmir. Ancaq öz imkanlarımız daxilində, öz gücümüzə arxalanaraq, Azərbaycan xalqının imkanlarına arxalanaraq, dövlət hesabına bütün bərpa-quruculuq işləri aparılır, özü də qısa müddət ərzində.

İndi İkinci Qarabağ müharibəsindən dörd il keçibdir, baxın nə qədər böyük işlər görüldü, hər yerdə, təkcə Xocalı rayonunda yox. Halbuki Xocalı şəhərini bərpa etmək bizim ən başlıca borcumuz idi. Çünki müharibədən və işğaldan, Birinci Qarabağ müharibəsinin çətin vəziyyətindən əziyyət çəkən ən çox elə xocalılılar olmuşdur, onlara qarşı soyqırımı törədilmişdi. Ona görə Xocalını azad etmək hər zaman gündəlikdə duran məsələ idi. İkinci Qarabağ müharibəsi 2020-ci il noyabrın 10-da dayanandan sonra yenə də bütün köçkünlər bilirdilər ki, Xocalı azad olunmayana qədər biz işimizi bitmiş hesab etməyəcəyik. Nəinki Xocalı, Xankəndi də, Ağdərə, Xocavənd və Əsgəran rayonları da işğalçılardan tam azad edildi. Yüzlərlə kənd artıq öz sahiblərini gözləyir.

Ballıca kəndi bərpa etdiyimiz və keçmiş köçkünlərin qayıtdığı 10-cu yaşayış məntəqəsidir. Yəni, bu, Böyük Qayıdış Proqramının birinci mərhələsinə aiddir. Artıq burada, yenə də deyirəm, 500-ə yaxın insan yaşayır. Həm o vaxt bu bölgədə yaşayan vətəndaşlar, eyni zamanda, onların uşaqları, nəvələri, nəticələri qayıdıblar. Bu, bir daha onu göstərir ki, xalqımız öz torpağına nə qədər bağlıdır. Bu gün bölgəni, bu yerləri görməyən balaca uşaqlar, yaxud da ki, gənc insanlar həvəslə qayıdırlar, işləyirlər, qururlar, yaradırlar. Öz torpaqlarına qayıdan keçmiş köçkünlərlə çoxsaylı görüşlər əsnasında həmişə gənclərdən soruşuram ki, siz darıxmırsınız burada? Deyirlər, yox, darıxmırıq. Çünki doğma Vətən, doğma torpaq bizi çəkir və bu, bir daha xalqımızın nə qədər yüksək mənəvi keyfiyyətlərə malik olduğunu göstərir.

Mən sizi təbrik edirəm. Yenə də deyirəm, artıq iki aydır ki, siz burada mərhələli yollarla məskunlaşırsınız, dekabrın 13-dən başlayaraq bu günə qədər. Hələ ki, proses davam edir. Hələ bərpa ediləsi evlər var, onları da bərpa edəcəyik. Burada insanlar rahat, təhlükəsiz və xoşbəxt yaşamalıdırlar. Bunun üçün Azərbaycan dövləti bundan sonra da hər şeyi edəcəkdir. Bir daha sizi təbrik edirəm!

Sakinlər yaradılan şəraitə görə dövlətimizin başçısına minnətdarlıqlarını bildirdilər.

# Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif Azərbaycanda rəsmi səfərdə olub









Azərbaycan Respublikasına dövlət səfərinə gələn Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin 2025-ci il fevralın 24-də rəsmi qarşılanma mərasimi olub.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Pakistanın Baş nazirinin şərəfinə Fəxri qarovul dəstəsi düzülüb.

Azərbaycan Prezidenti İlham Əliyev Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifi qarşılayıb. Hər iki ölkənin dövlət himnləri səsləndirilib.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Prezident İlham Əliyevin və Baş nazir Məhəmməd Şahbaz Şərifin qarşısından keçib.







Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif ilə geniş tərkibdə görüşü olub.

## Dövlətimizin başçısının görüşdə çıxışı

– Əziz qardaşım, cənab Baş nazir, nümayəndə heyətinin hörmətli üzvləri Azərbaycana xoş gəlmisiniz.

Hazırda dövlət səfərinə gəlmiş əziz qardaşımı ölkəmizdə qəbul etməkdən çox məmnunam. Ötən il Pakistana dövlət səfərimdən, mənə və nümayəndə heyətimə göstərilmiş qonaqpərvərlikdən xoş xatirələrim var. Biz buna görə çox minnətdarıq.

Bu gün cənab Baş nazirlə görüşüm əsnasında ikitərəfli gündəliyin əsas hissəsini artıq nəzərdən keçirdik və hazırda söhbət nümayəndə heyətləri ilə davam edir.



Əminəm ki, səfər ölkələrimiz arasında qardaşlıq əlaqələrini gücləndirəcək. Biz beynəlxalq təsisatlarda bir-birimizi dəstəkləməkdə davam edəcəyik. Bu gün çox geniş iqtisadi gündəliyi razılaşdırdıq və iqtisadi əməkdaşlığımıza, eləcə də sərmayə imkanlarına aid praktiki layihələri müzakirə etdik. Azərbaycanın Pakistana sərmayələri ilə bağlı imzalanacaq sənədlərin bir ay ərzində hazırlanması məqsədilə artıq öz heyətlərimizə fəal çalışmaq təlimatlarını verdik. Mənim Pakistana dövlət səfərim zamanı rəsmən bəyan etdim ki, Azərbaycan Pakistanda müxtəlif layihələrə minimum 2 milyard dollar sərmayə yatırmağa hazırdır.

Biz təxminən bu yaxınlarda həmin layihələrin siyahısını artıq almışıq və heyətlərimiz onları dəyərləndirir. Beləliklə, hər bir məsələni yekunlaşdırmaq və bizə hesabat vermək üçün qardaşımla birgə bir ay müddət veririk. Münasibətlərimiz nəinki xalqlarımız, o cümlədən təmsil etdiyimiz regionlar üçün həqiqətən vacibdir. Pakistan ilə Azərbaycan arasında bu cür qardaşlıq münasibətlərini görmək iki qardaş müsəlman ölkəsi arasında tərəfdaşlığın yaxşı nümunəsidir. Biz beynəlxalq təsisatlarda hər zaman bir-birimizi dəstəkləyirik, ölkələrimizin ərazi bütövlüyünə, suverenliyinə güclü dəstək veririk və qeyd etdiyim kimi, qarşımızda çox geniş sərmayə gündəliyi dayanır. Əminəm ki, bu gün əhatə edəcəyimiz bütün məsələlər, eləcə də bir çox digər sahələr üzrə işimiz Biznes Forumunda davam edəcək və aramızda daha sıx tərəfdaşlıq olacaq. Biz iqtisadi tərəfdaşlığımızı siyasi sahədəki səviyyəyə çatdırmalıyıq və bu, qarşılıqlı siyasi iradənin aydın təzahürünə çevriləcək.

Əziz qardaşım, bir daha xoş gəlmisiniz və Sizə Bakıda xoş səfər arzu edirəm.




2025-ci il fevralın 24-də Bakıda Azərbaycan-Pakistan biznes forumu keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif biznes-forumda çıxış ediblər.





# Azərbaycan və Türkiyə prezidentləri İğdır-Naxçıvan qaz kəmərinin videobağlantı formatında açılış mərasimində iştirak ediblər









Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2025-ci il martın 5-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə Ankaraya işgüzar səfərə gəlib.

Həmin gün Ankarada İğdır-Naxçıvan qaz kəmərinin videobağlantı formatında açılış mərasimi keçirilib. Azərbaycan və Türkiyə prezidentləri tədbirdə iştirak ediblər.

Açılış mərasimində çıxış edən Azərbaycanın energetika naziri Pərviz Şahbazov bildirib ki, İğdır-Naxçıvan qaz boru kəməri layihəsi Naxçıvanın qaz təchizatını şaxələndirməklə yanaşı, həm Naxçıvan, həm də İğdır əhalisinin rifahına xidmət edəcək. Layihənin daha bir özəlliyi ondan ibarətdir ki, bu gün kəmərin maksimum ötürmə gücü 730 milyon kubmetrdirsə, gələcəkdə layihənin genişləndirilməsi imkanları da var.

Sonra Türkiyənin enerji və təbii sərvətlər naziri Alparslan Bayraktar çıxış edərək İğdır-Naxçıvan qaz kəməri layihəsini Türkiyə və Azərbaycan qardaşlığının daha bir simvolu adlandırıb. Nazir bütün Naxçıvanı qazla təmin edəcək İğdır-Naxçıvan qaz kəməri layihəsinin ərsəyə gəlməsinə görə dövlət başçılarına təşəkkür edib.

Azərbaycan Prezidenti mərasimdə çıxış edib.



## Prezident İlham Əliyevin çıxışı



– Hörmətli Cümhurbaşqanı, əziz Qardaşım.

Hörmətli mərasim iştirakçıları.

Bu gün Türkiyə-Azərbaycan dostluq, qardaşlıq tarixində önəmli bir gündür – İğdır-Naxçıvan qaz xəttinin açılışı qeyd edilir. Burada deyildiyi kimi, Naxçıvanda hörmətli Cümhurbaşqanı ilə birlikdə bir il yarım bundan öncə biz bu qaz xəttinin təməlini qoyduq və artıq bu gözəl mərasimdə iştirak edirik.

Bildiyiniz kimi, Naxçıvan qədim Azərbaycan torpağıdır. Ancaq artıq bir əsrdən çoxdur ki, Azərbaycanın əsas hissəsindən ayrılıb. Bunun səbəbi ondan ibarətdir ki, Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci ildə süqut edəndən beş ay sonra sovet hakimiyyəti Qərbi Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana birləşdirdi və beləliklə, Azərbaycanın əsas hissəsi ilə onun ayrılmaz hissəsi olan Naxçıvanla quru bağlantısı pozulub. Bir əsrdən çox davam edən bu ədalətsizlik Naxçıvanda yaşayan bizim soydaşlarımızın həyatına çox mənfi təsir göstərmişdir. Xüsusilə Birinci Qarabağ savaşı başlayan kimi Ermənistan Qarabağı işğal etdi və eyni zamanda, Naxçıvanı blokadaya aldı. Onların planları Naxçıvanı da işğal etmək idi. Ancaq o zaman mənim atam Heydər Əliyev Naxçıvanın rəhbəri kimi buna imkan vermədi və Naxçıvanı qorumaq üçün bütün naxçıvanlılar səfərbər oldular, öz doğma torpaqlarını qorudular və işğalçını yerində oturtdular.

Naxçıvanın o zaman işğal altına düşməməsinin səbəblərindən biri də o idi ki, o zaman Naxçıvanı Türkiyə ilə birləşdirən “Ümid” körpüsü inşa edilmişdir və Türkiyədən gələn yardımlar Naxçıvanın qorunmasına çox önəmli töhfə vermişdir.

Bu gün Türkiyə və Azərbaycan - iki qardaş ölkə nəhəng layihələr reallaşdırır. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP kimi neft-qaz boru xətləri layihələri nəinki ölkələrimizi birləşdirdi, eyni zamanda, Avrasiyanın enerji xəritəsini dəyişdirdi. Bu gün Azərbaycandan Türkiyə ərazisindən gedən qaz bir çox ölkələrin enerji təhlükəsizliyini təmin edir. Keçən il Azərbaycanın qaz ixracatı 25 milyard kubmetrə çatmışdır. Onun təxminən yarısı Türkiyəyə olan ixracatdır və Türkiyədən başqa da 11 ölkə, onlardan 10 Avropa ölkəsi Azərbaycan qazını alaraq öz enerji təhlükəsizliyini gücləndirir.









Bu gün açılışında iştirak etdiyimiz layihə Naxçıvanın enerji təhlükəsizliyini təmin edəcək. Çünki Azərbaycandan gələn qaz Türkiyə ərazisindən svop şəklində Naxçıvana ötürüləcək, artıq Naxçıvanı da bu problemdən xilas etmiş olacaqdır.

Bizim birgə həyata keçirdiyimiz enerji layihələrimiz, eyni zamanda, nəqliyyat layihələrinin reallaşmasına da imkan verdi. Bu gün Türkiyəni Azərbaycanla birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu çox gözəl üstünlüklər təmin edir, həm ölkələrimiz üçün, həm daha geniş coğrafiya üçün. Xüsusilə Türk dünyasını birləşdirmək üçün bu nəqliyyat bağlantısının çox böyük mənası, çox böyük faydası var və təbii olaraq, Türkiyə ilə Azərbaycan arasındakı birlik, qardaşlıq bütün Türk dünyasına böyük bir töhfədir. Türk dünyasının birləşməsi yolunda əziz Qardaşım, hörmətli Cümhurbaşqanının çox böyük rolu var. Onun liderliyi ilə həm Türkiyədə böyük uğurlar əldə edildi, həm Türk dünyasının daha da sıx birləşməsi üçün yeni imkanlar yarandı. Azərbaycan da hər zaman Türk dünyasının birləşməsinə çox böyük önəm verirdi və öz tərəfindən bu birliyi təmin etmək, bunu əbədi etmək və ortaq maraqlar və ortaq tarix üzərində əlaqələri qurmaq üçün səylərini əsirgəmirdi.

Bugünkü mərasim bir daha Türkiyə-Azərbaycan birliyini, dostluğunu, qardaşlığını göstərir, onun əyani təzahürüdür. Əminəm ki, Naxçıvanda yaşayan 500 minə yaxın soydaşımız bu gün gözəl Ramazan ayında bu mərasimi də bayram kimi qeyd edəcək. Bütün bu işlərdə iştirak etmiş yoldaşlarımıza, dostlarımıza öz adımdan təşəkkürümü bildirirəm. İnşaat işləri qısa müddət ərzində, cəmi bir ildən bir qədər çox çəkdi və biz artıq bu gözəl mərasimdə iştirak edirik.

Bir daha hər birimizi, Türkiyəni və Azərbaycanı bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm, xalqlarımıza, dövlətlərimizə yeni uğurlar diləyirəm. Sağ olun.

# Bakıda “Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi” mövzusunda XII Qlobal Bakı Forumu keçirilib




2025-ci il martın 13-də Bakının “Gülüstan” sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə “Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi” mövzusunda XII Qlobal Bakı Forumu işə başlayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Forumun açılış mərasimində iştirak edib.

XII Qlobal Bakı Forumunu açıq elan edən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin tədbir iştirakçılarını salamlayıb, Forumda aparılan müzakirələrin xüsusi əhəmiyyət daşıdığını vurğulayıb. Sonra çıxış üçün sözü Prezident İlham Əliyevə verib.

## Prezident İlham Əliyevin çıxışı

– Xanımlar və cənablar!

Sabahınız xeyir, Bakıya xoş gəlmisiniz.

Mən bütün qonaqlarımızı illik Qlobal Bakı Forumunda salamlayıram. Əvvəlcə, mən bizimlə olduğunuza görə sizə təşəkkürümü bildirirəm. Mən, eyni zamanda, Nizami Gəncəvi Beynəlxalq Mərkəzini təbrik edirəm ki, bu illər ərzində çox əla işlər görmüşdür və belə bir mühüm beynəlxalq tədbiri təşkil edir.

Biz çox fərəhlənirik ki, Qlobal Bakı Forumu qlobal gündəlikdəki mühüm məsələlərin həllində aparıcı beynəlxalq platformalardan birinə çevrilib. Mən dünən İdarə Heyətinin üzvləri ilə görüşdüm.

Bu gün söyləmək istərdim ki, biz Mərkəzin bütün üzvlərinə, onun İdarə Heyətinə, həmsədrləri – xanım Vayra Vike Freyberqaya, cənab İsmayıl Serageldinə Mərkəzin həqiqətən böyük transformasiyasına verdikləri töhfəyə və dünya miqyaslı fəaliyyətinə görə minnətdarıq. Mən, həmçinin söyləmək istəyirəm ki,




biz Beynəlxalq Mərkəzin üzvlərinin Azərbaycanda ötən ilin noyabrında keçirilmiş COP29 tədbirində fəal iştirakını görməkdən çox məmnun olduq. Mərkəzin bəzi üzvləri Məşvərət Komitəsində iştirak edirdilər. Mərkəz 16 panel müzakirəsi keçirdi. Əslində, onlara ev sahibliyi etdi, onları təşkil etdi və öz pavilyonu ilə daha çox panel müzakirələrdə iştirak etdi. Bir sözlə, həqiqətən, bu, COP29-un uğuruna bö-




yük töhfə idi. Bu, ötən il Azərbaycanda əsas beynəlxalq tədbir idi.

Biz həqiqətən çox fərəhlənirik ki, təxminən 200 ölkənin yekdil qərarı ilə seçildik. Bu, bizə olan hörmətin, etimadın təzahürü, eləcə də yaşıl keçid üzrə fəaliyyətimizə verilən qiymət idi. Baxmayaraq ki, biz faydalı qazıntılarla zənginik, gündəliyimizdə bərpaolunan enerjiyə diqqət yetirilir. Bu gün artıq qərara alınıb ki, gələn illərdə Azərbaycanın bərpaolunan enerji imkanları faydalı qazıntıdan olan enerji istehsalına demək olar ki, bərabər olacaq. Bu gün Azərbaycanda yaradılmış enerji istehsalı imkanları 8 giqavatdır. 2030-cu ilə qədər bizim bərpaolunan enerjidən, əsasən günəş və küləkdən, o cümlədən Azərbaycanın azad edilmiş ərazilərdəki hidroresurslardan əlavə 6.5 giqavatlıq enerji güclərimiz olacaq. Beləliklə, biz bu günə olan potensialımızı demək olar ki, iki dəfə artıracağıq.

Bunun sayəsində biz nəinki neft və qazı, o cümlədən yaşıl enerjini də ixrac edə biləcəyik. Bu rəqəmlər tamamilə realdır. Onlar artıq imzalanmış müqavilələrə və anlaşma memorandumlarına əsaslanır.

Biz artıq həmin layihələrin icrasını görürük. Beləliklə, düşünürəm ki, Azərbaycanda COP29-u təşkil etmək qərarı Azərbaycanın öz enerji sərvətlərinə çox məsuliyyətli yanaşmasından irəli gəlir.

Bir daha qeyd etmək istəyirəm ki, ölkə enerji təchizatı baxımından qıtlıqla üzləşmir. Əksinə, bu gün Azərbaycan ondan artıq ölkənin enerji təhlükəsizliyinə töhfə verir. Onların 12-si Azərbaycandan təbii qaz alır. Bu 12 ölkədən 10-u Avropa ölkəsidir.

Təsadüfi deyil ki, Avropa Komissiyası Azərbaycanı etibarlı tərəfdaş və Pan-Avropa enerji təchizatçısı kimi tanıyır. Bir sözlə, bu gün Azərbaycandan nəql olunan neft və qaz bir çox ölkələrin enerji təhlükəsizliyində və əslində, onun möhkəmləndirilməsində həqiqətən böyük dəyişiklik yaradır. Buna yaşıl enerji mənbələrimizi, o cümlədən Azərbaycandan Avropaya gedən, qismən Qara dənizin dibi ilə çəkilən yeni enerji kabelini əlavə etsək, bu, məsuliyyətimizin digər təzahürü və bir çox ölkələrlə sıx tərəfdaşlıq münasibətlərimizin nümayişidir. Təkcə enerji sərvətlərinin olması kifayət deyil. Siz gərək qonşularınızla, onların qonşuları ilə yaxşı münasibətdə olasınız ki, enerji, təhlükəsizlik və bağlantı layihələrini icra edə biləsiniz.

Bağlantı məsələlərinə gəldikdə, mən demək istəyirəm ki, son geosiyasi dəyişikliklərdən irəli gələrək Azərbaycandan keçən yüklərin daşınması həcmi kəskin şəkildə artmışdır. Biz bunun üçün yaxşı hazırıq, çünki biz üzərimizə düşən işi artıq icra etmişik. İndi isə biz, sadəcə, dəniz limanı, dəmiryolu infrastrukturunun buraxılış qabiliyyətini artırmalıyıq ki, son illər ərzində Azərbaycana istiqamətləndirilmiş bütün yükləri qəbul edə bilək. Beləliklə, əlbəttə ki, bölgəmizin – Cənubi Qafqaz bölgəsinin geosiyasi əhəmiyyəti artır və həmin bölgədə biz sülhün bərqərar olunması üçün hələ də çalışırıq.

COP-la bağlı əlavə daha nəyi deyə bilərəm? Birincisi, çox çətin idi, çünki biz tədbiri bir ildən az olan müddətdə təşkil etməli idik. Adətən, ölkələrə hazırlaşmağa iki il vaxt verilir. Bu, yekdil rəy əsasında uğurla həyata keçirildi.

İkincisi, biz nəticələrə nail olmalı idik. Burada, bizə şaxələndirilmiş xarici siyasətimiz kömək etdi. Dörd il ərzində 120 ölkəni birləşdirən təşkilatda –




Qoşulmama Hərəkatında sədrlik etdik və fərqli durumda olan üzv dövlətlərə, o cümlədən COVID vaxtlarında 80-dən artıq ölkəyə humanitar və maliyyə yardımı göstərməklə onlara fəal dəstək verdik. Eyni zamanda, biz Avropa tərəfdaşları ilə fəal əlaqədə olaraq Qlobal Cənub ilə Qlobal Şimal arasında körpü salan tərəf kimi öz rolumuzu gördük. Düşünürəm ki, biz uğur qazandıq, çünki COP29 zamanı bir sıra mühüm məsələlər üzərində razılığa gəlmək asan deyildi.

Əsas mərhələlərdən, nailiyyətlərdən biri 10 ildən artıq keçilməz nöqtə olan Paris Sazişinin 6-cı maddəsi üzərində konsensus idi. On ildən artıq idi ki, tərəflər razılığa gələ bilmirdi. Lakin biz burada konsensus əldə edə bildik və karbon bazarını işlək etdik. Bir sözlə, bu, prosesin gələcəkdə inkişafı üçün çox əhəmiyyətlidir. Digər mühüm nailiyyət ondan ibarət idi ki, Bakıda COP29-da biz bərpaolunan enerji layihələri üçün maliyyələşmənin əvvəlki 100 milyarddan 300 milyard dollara qədər artırılmasına nail olduq. Bəli, bilirik ki, bəzi ölkələr bundan tam razı qalmadı. Onlar daha böyük artım istəyirdilər. Lakin, düşünürəm ki, bizdə maliyyələşmənin üç dəfə artırılması lazımınca qiymətləndirilməlidir. Buna görə, Bakıdakı COP29 "Bakı sıçrayışı" adlandırıldı və bu, mühüm irsdir.

Deməliyəm, əfsuslar olsun ki, bu qlobal beynəlxalq tədbir bəzi Qərb medialarında kampaniya ilə müşayiət olundu. Prezident Tramp onları yalan, saxta xəbər adlandırır və onunla tam razıyam. Bu, Azərbaycanı gözdən salmaq, bizi qaralamaq, şayiələr və müxtəlif dezinformasiya yaymaq kampaniyası idi. Bizi ittiham edirdilər ki, neft və qaz hasil edən ölkəyik. Lakin bizdən əvvəl bir sıra ölkələr, o cümlədən Avropada nefti və qazı olan ölkələr var idi. Lakin dırnaqarası media tərəfindən buna məhəl qoyulmaması normal bir hal kimi qəbul olunmuşdur. Azərbaycanın neft hasilatı, məsələn, Kanadanın hasilatından on dəfə azdır. Bizim qlobal qaz emissiyalarında payımız cəmi 0,1 faizdir. Biz isə qlobal qaz emissiyalarına ən böyük töhfə verənləri bilirik. Amma bununla belə, dövri əsaslarla bəzən gün ərzində ondan artıq məqalə Azərbaycanın bir neft dövləti kimi təsvir edilməsinə yönəlirdi. Yəni deyirdilər, bir ölkə kimi biz qlobal, beynəlxalq tədbirin keçirilməsinə layiq deyilik. Bütün bunlar bir neçə mərkəzdən, əslində, ikisindən qaynaqlanırdı. Onlardan biri - ABŞ-ın Dövlət Departamenti idi. "Vaşinqton Post", "Nyu-York Tayms", "Politico", "Newsveek" və "Assoşieyted Press" kimi yalan xəbər mənbələri, sadəcə, ABŞ Dövlət Departamentinin təlimatlarını icra edirdilər.

İkinci mənbə isə Fransa prezidentinin ofisi, cənab Makron, onların "Le Monde", "Fiqaro" və digər bu kimi saxta xəbər mətbuatı idi. Bir sözlə, bu, COP29-un boykot edilməsinə yönəlmiş qarayaxma və böhtanın əlaqələndirilmiş kampaniyası idi.

Bunun da müxtəlif səbəbləri ola bilər. Lakin onlardan biri ondan ibarətdir ki, onlar bizə öz iradəsini

yeridə bilmədilər. Onlar suverenliyimizin, ərazi bütövlüyümüzün tam bərpasına yönəlmiş siyasətimizi dəyişə bilmədilər. Onlar o faktla razılaşa bilmirdilər ki, burada, Qafqazda öz milli maraqlarını güdən ölkə, yəni böyük bosslar qarşısında hər zaman “bəli, cənab” deməyən ölkə var. Əfsuslar olsun ki, Fransa hökuməti hətta COP29-u boykot etmək üçün bir çox ölkələri təhrik edərək, daha uzağa getdi. COP29-da iştirak etmiş dünya liderlərindən etibarlı informasiyamız var və onlar bizə bu haqda məlumat verdilər. Hətta gəlməyən rəhbərlər mesaj göndərdilər ki, şəxsən Fransa prezidenti COP29-a qarşı kampaniya aparırdı.

Bu, elə bir siyasətdir ki, heç bir kəsə başucalığı gətirmir. Buna baxmayaraq, böyük tərkibdə iştirak oldu. Qeydiyyata alınmış 77 min iştirakçı oldu. Onların sırasında 197 ölkədən təmsilçilər, 70 dövlət və hökumət başçısı var idi. COP29-u boykot edən yeganə ölkə Ermənistan idi.

Ermənistan-Azərbaycan prosesinə gəldikdə, biz işğal illərini, o cümlədən Ermənistanın işğalı və təcavüzü nəticəsində Azərbaycan xalqının çəkdiyi əzab-əziyyətləri yaddan çıxara bilmərik və çıxarmayacağıq. Azad olunmuş ərazilərə səfər edənlər barbarlıq səviyyəsini görə bilər. Bütün şəhərlərimiz xarabalığa çevrilib. İndi isə biz onları yenidən tikirik. Hər bir şey yerlə-yeksan olunubdur və bu, kəndlərimizə, şəhərlərimizə qarşı bilərəkdən urbisid idi, dinimizə və tarixi irsimizə qarşı bilərəkdən zərbə idi. 65 məscid dağıdılıb və nəinki azərbaycanlıların, o cümlədən bütün dünya müsəlmanlarının hisslərini təhqir etmək üçün orada donuz və mal saxlayıblar. Biz bunu yaddan çıxarmayacağıq.

Biz 613 insanın, onlardan 60-dan çox uşağın və 100-dən artıq qadının ermənilər tərəfindən qətlə yetirildiyi Xocalı soyqırımını yaddan çıxarmayacağıq. Lakin, eyni zamanda, biz gələcəyə nəzər salmalıyıq. Biz Cənubi Qafqazda sülhə nail olmalıyıq. Bu baxımdan, Azərbaycan sülh prosesinin təşəbbüskarı olub. Əslində, Azərbaycan hətta bu gün Ermənistanla müzakirə olunan və əsasən razılaşdırılmış sülh sazişi layihəsinin, həmin sülh müqaviləsinin müəllifidir. Bəndlərin əksər hissəsi razılaşdırılıbdır.

Mübarizəmiz ədalət, beynəlxalq hüquq və ləyaqətimiz üçün mübarizə idi. BMT-nin Təhlükəsizlik Şurasının 27 il kağız üzərində qalan qətnamələrini icra etdik. Əgər torpağımızı güclə azad etməsəydik, onlar növbəti 27 il də kağız üzərində qalardı. Burada biz mühüm meyara gəlib çıxırıq ki, bəzən sülhə nail olmaq və ədaləti bərpa etmək üçün siz gücdən istifadə etməlisiniz. Bu gün biz bunu görürük. Görürük ki, Avropa, Avropa İttifaqı güclü hərbi potensial qurmaq üçün bu gün öz siyasətini necə dəyişməyə çalışır. Görürük ki, digər ölkələr öz resurslarını hərbi potensialına və infrastrukturunun qurulmasına yönəldir. Biz bunu ən azı 20 ilə etdik, 2005-ci ildən etibarən etdik və ərazimizi azad edən, separatçılığa, separatçılara son qoyan güclü ordu yaratdıq. Bir sözlə, bu gün ərazi bütövlüyü və suverenliyin tam bərpası nəinki Azərbaycan xalqının güclü iradəsinin təzahürüdür, o cümlədən beynəlxalq ədaləti nümayiş etdirir. Eyni zamanda, əlbəttə, artıq qeyd etdiyim kimi, bizim yaddaşımız yaxşıdır. Hamımız xatırlayırıq ki, İkinci Qarabağ müharibəsindən əvvəl Ermənistanın cari hökuməti özünü necə aparırdı. Hamımız “Qarabağ Ermənistandır” söyləyən Ermənistan rəhbərinin bəyanatlarını xatırlayırıq. Bu, Xankəndidə deyilmişdir. Hamımız işğal olunmuş Şuşa şəhərində onun davranışını xatırlayırıq. Bunu internetdə tapa bilərsiniz. Çox maraqlı videodur.

Bu gün bəzi Avropa bürokratları Ermənistanı sülh göyərçini kimi təqdim etməyə çalışırlar. Lakin onlar həmin hökumətin keçmişdə nəyi etdiyini yaddan çıxarırlar. Onlar yaddan çıxarırlar ki, İkinci Qarabağ müharibəsində ermənilər bizim şəhərlərimizi, kəndlərimizi atəşə tuturdu. Yüzdən artıq vətəndaşımızı həmin raketlərə, ixracı qadağan olunmuş “İsgəndər M” raketinə görə itirdik. Biz hələ də suala cavab almamışıq: Ermənistan ordusu “İsgəndər M” raketini necə əldə edib? Çünki Rusiyada bu raketin ixracı yasaqdır. İnanmayanlar isə, – buradan cəmi 5-10 dəqiqəlik yoldur, – getsinlər Hərbi Qənimətlər Parkına və Şuşada tapdığımız “İsgəndər M” raketini görsünlər. Biz onu artıq 2021-ci ilin yazında tapdıq, çünki o, qarın altında qalmışdı. Biz Şuşanı azad etdiyimiz zaman o, şəhərə atılmışdı.

Bu, Ermənistanın baş nazirinin əmri ilə edilmişdi. Gəncə, Tərtər, Bərdə, Mingəçevir, Ağcabədi və bir çox digər şəhərlər dövri olaraq Ermənistanın atəşinə tutulurdu. Biz isə bunu etmədik. Biz Ermənistan ordusuna, işğalçı Ermənistanın ordusuna qarşı mübarizə aparırdıq. Onlar isə mülki şəxslərlə mübarizə aparırdı. Fərq bundadır. Bu, Birinci Qarabağ müharibəsində də eyni idi. Onlar bir növ bufer zonası yaratmışdılar. Belə adlandırırdılar. Əslində isə bu, işğal olunmuş ərazilər idi. Onlar yüz minlərlə azərbaycanlını qovdular və etnik təmizləmə apardılar. Biz bunu heç vaxt yaddan çıxarmayacağıq. Sizə bir məsələni də deyə bilərəm ki, Ermənistana etimad səviyyəsi sıfra bərabərdir. Beləliklə, biz onların hər hansı bir sözünə inanmırıq.

Çünki onlar elə insan deyillər ki, biz inana bilək, o cümlədən onların indiki hökuməti. Bir daha bütün bunlar göstərir ki, onların dediyi bizim üçün sıfır məna kəsb edir. Bizə sənədlər, yazılı kağızlar lazımdır. Bizə lazımdır ki, onların Konstitusiyasında Azərbaycana qarşı ərazi iddiaları olmasın. Orada Azərbaycana qarşı ərazi iddiaları hələ də qalır. Bizə lazımdır ki, ATƏT-in Minsk qrupu buraxılsın. Biz bu mesajı Ermənistana çatdırırıq və deyirik ki, Minsk qrupunun saxlanılmasında məntiq yoxdur. O, Qarabağ məsələsinin həlli üçün yaradılmışdı. İndi Qarabağ məsələsi həll olunub. Ermənistan Qarabağı Azərbaycanın ərazisi kimi tanıyır. ATƏT-in həmin qrupunun buraxılması üçün ümumi müraciətdə siz bizə niyə qoşulmursunuz? Onlar istəmirlər. Belə çıxır ki, onlar bir ayağını ərazimizdə yer saxlamaq üçün edir. Əlbəttə ki, virtual olaraq. Onların silahlanması – bu, nəyi göstərir?

Bu göstərir ki, onlar yeni müharibəyə hazırlaşırlar. Kim onları yenidən müharibəyə sürükləyir? Fransa və onun Prezidenti. Onların Ermənistanı təchiz etdiyi məhvedici silahlar bizə qarşı yönəlir. Bu gün başqa yerdə lazım ola biləcək "Sezar" haubitsaları Ermənistana göndərilir. Əslində, Avropa İttifaqının kəşfiyyat missiyası olan dırnaqarası Avropa monitorinq missiyası gecə-gündüz casus kimi sərhədlərimizdə dayanır və baxırlar ki, bəlkə haradan, bir yerdən girə bilsinlər. Bizim də həmin dırnaqarası monitorinq missiyası barədə kifayət qədər kəşfiyyat məlumatımız var. Avropanın Sülh Fondu milyonlarla dolları Ermənistanı silahlandırmaq üçün ona verir. Bəli, onlar deyir ki, bu pul qeyri-məhvedici hərbi qurğular üçündür.

Birincisi, bunu kim yoxlaya bilər? İkincisi, siz onlara 10 milyon verirsiniz və sonra isə digər 10 milyon planlaşdırılır. Beləliklə, Ermənistana silah almaq üçün pula qənaət imkanı yaranır. Nəinki Fransa onlara məhvedici silahlar göndərir. Onda onlar bunu niyə edir? Onlar nəyə hazırlaşır? Əgər sülh istəyirlərsə, buna ehtiyac yoxdur. Dəfələrlə biz bu məsələni erməni nümayəndələrinin və onların Brüsseldəki yeni ağalarının qarşısında qaldırmışıq. Çünki onlar indi böyük qardaşını dəyişiblər. Bu gün bu, Brüsseldir. Prezident Trampın qələbəsinə qədər bu, Dövlət Departamenti, USAID idi. Məhz indi ciddi problemlərlə üzləşən Menendes kimi rüşvətxor Amerika siyasətçiləri idi. Menendes siyahıda hələ sonuncu deyil. Necə deyərlər, bir qaranquşla bahar olmur. Xeyli digərləri var ki, erməni pulunu ciblərinə qoyurlar. Mən onların adını çəkə bilərəm, adları məlumdur: cənab Adam Şif, cənab Frenk Pallone, xanım Nensi Pelosi və bir çox digərləri var. Onlar onilliklər ərzində Azərbaycana hücum çəkmək və onu gözdən salmaq üçün Birləşmiş Ştatlarda erməni diaspor təşkilatlarından pullar alıblar. Beləliklə, biz Prezident Trampa bataqlığın qurudulmasında uğurlar arzu edirik. Bu, asan deyil. Lakin edilməlidir. Həmçinin, biz USAID-in Azərbaycanda qeyri-qanuni fəaliyyəti ilə bağlı Amerikanın orqanları ilə məlumat mübadiləsinə hazırıq. Onlar insanlara necə rüşvət verirdilər?! Onlar qeyri-qanuni maliyyə kanallarından necə istifadə edirdilər?! Onlar Azərbaycanın qanunlarını və normalarını necə pozurdular?! İndi məsuliyyətli olmaq vaxtı yetişib. Biz əlimizdə olan bütün informasiyanı təqdim etməyə hazırıq.

Birmənalı olaraq, Forumda yeni geosiyasi vəziyyət müzakirə olunacaqdır. Siz, yəqin, mənim şərhlərimdən təsəvvür edirsiniz ki, biz hazırda Amerikada nə baş verirsə, ona çox böyük maraq göstəririk. Nəyə görə? Səbəb çox sadədir. Çünki cənab Antoni Blinkenin Azərbaycana aid siyasəti, əslində, 30 il qurduğumuz ABŞ-Azərbaycan münasibətlərini heçə endirdi. Biz hər zaman ABŞ-ın çox etibarlı, yaxın tərəfdaşı olmuşuq. Biz onlara lazım olanda onlarla idik. Biz onlara İraqda lazım olanda, qoşunla onlarla idik. Biz onlara Əfqanıstanda lazım olanda, 2001-ci ildə Əfqanıstanda əməliyyatlara qoşulan ilk qeyri-NATO ölkələrindən idik və oradan sonuncu çıxdıq. Lakin biz çıxandan sonra onlar bizə sanksiya tətbiq etdilər. Xatırlayıram ki, bu, Azərbaycanda böyük məyusluq yaratdı. Mən onların bəzi nümayəndələrinə söylədim ki, biz sizə necə inana bilərik? Biz sizə lazım olanda sanksiyanı dayandırırsınız. Biz sizə artıq lazım olmayanda, sanksiyanı yenidən tətbiq edirsiniz. Onda uzunmüddətli münasibətləri sizinlə necə qura bilərik? Beləliklə, çox maraqla baxırıq. Birincisi, ona görə ki, biz Azərbaycanda Dövlət Departamentinin bütün səylərinə baxmayaraq, ABŞ-Azərbaycan münasibətlərini uçurumdan tam xilas etdik. İkincisi, ümid edirik ki, yeni Administrasiya ilə Cənubi Qafqaz, sülh, təhlükəsizlik, antiterror əməliyyatları, regionumuzun müasir inkişafı üçün hər zaman vacib olmuş güclü tərəfdaşlığımızı yenidən quracağıq.

Birmənalı olaraq, bu gün Forumda bütün natiqləri dinləmək çox maraqlı olacaq. Həmişə olduğu kimi, əminəm ki, Forum və onun üzvləri xüsusən də indi, kəskin geosiyasi dəyişikliklərdən sonra keçirilən tədbirdə ideya və yanaşmalar irəli sürəcəklər.

Bir daha bizimlə olduğunuza görə təşəkkür edirik. Dəvətimizi qəbul etdiyinizə görə minnətdarıq və Foruma uğurlar arzu edirəm.

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdərəyə səfər çərçivəsində bir sıra tədbirlərdə iştirak ediblər





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2025-ci il martın 18-də Sərsəng su anbarından Ağdərə rayonunun Umudlu kəndinə gedən avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak ediblər.

Qeyd edək ki, Prezident İlham Əliyevin ötən il imzaladığı Sərəncama uyğun olaraq Sərsəng su anbarından Ağdərə rayonunun Umudlu kəndinə gedən avtomobil yolunun yenidən qurulması işləri yüksək səviyyədə həyata keçirilib.

Dördüncü texniki dərəcəli avtomobil yolunun uzunluğu 9,4 kilometr, hərəkət zolaqlarının eni isə 6 metrdir. Yolda nəqliyyatın rahat və təhlükəsiz hərəkəti üçün zəruri işlər görülüb.

Azərbaycanın dövlət siyasətində yol infrastrukturunun yaxşılaşdırılması prioritet istiqamətlərdəndir. Dövlətimizin başçısının tapşırıq və göstərişlərinə əsasən, yol təsərrüfatının bərpası, yenidən qurulması və müasir standartlara uyğunlaşdırılması istiqamətində işlər işğaldan azad olunmuş ərazilərdə də sürətlə davam etdirilir. Bu ərazilərdə icra olunan yol layihələri yenidən öz doğma torpaqlarına qayıdan əhalinin həyat şəraitinin yaxşılaşdırılması, iqtisadi əlaqələrin gücləndirilməsi və təhlükəsiz nəqliyyat şəbəkəsinin təmin edilməsi baxımından da önəm daşıyır. Sərsəng su anbarından Ağdərə rayonunun Umudlu kəndinə gedən avtomobil yolunun yenidən qurulması da belə mühüm layihələrdən biridir. Həyata keçirilən yenidənqurma işləri bu yolda rahat gediş-gəlişi təmin edəcək, yük və sərnişin daşınmasını asanlaşdıracaq, bölgənin turizm potensialının inkişafına da töhfə verəcək.






Həmin gün Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdərə rayonunun Həsənriz kəndində buraya köçən bir qrup sakinlə görüşüb, fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olublar və sakinlərlə söhbət ediblər.

Sonra dövlətimizin başçısı və birinci xanım Həsənriz kəndindəki Bayraq meydanında olublar. Burada üçrəngli Bayrağımız 17 metr hündürlüyündə dirəkdə dalğalanır. Bayraq meydanının yeri elə seçilib ki, buradan Həsənriz kəndi ilə yanaşı, digər kəndlərə də gözəl mənzərə açılır.














Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva həmçinin Ağdərə rayonunun Suqovuşan kəndində inşa olunan yaşayış kompleksinin istifadəyə verilməsi mərasimində iştirak edib, yeni mənzillərə köçən kənd sakinlərinə evlərin açarlarını təqdim ediblər.

Dövlətimizin başçısına və birinci xanıma burada görülən işlər barədə məlumat verilib. Bildirilib ki, kəndə köçlə bağlı ümumilikdə 180 ailə (591 nəfər) siyahıya alınıb. 2,3 hektar sahədə yaradılan kompleks 5 mərtəbəli olmaqla 5 yaşayış binasından ibarətdir. Bu binalarda ümumilikdə bir, iki, üç və dördotaqlı 190 mənzil var.

Kənddə yararsız vəziyyətdə olan 144 şagird yerlik tam orta məktəbin binasında da əsaslı təmir işləri aparılıb. Bundan əlavə, ümumi gücü 7,8 meqavat olan "Suqovuşan-1" və "Suqovuşan-2" Kiçik Su Elektrik stansiyaları yenidənqurmadan sonra istifadəyə verilib. Suqovuşanda "istirahət kompleksi layihəsi" icra olunub. Ərazisi 6 hektar olan kompleksdəki 16 kottec və 2 mərtəbəli hotel binasında əsaslı təmir işləri aparılıb.

Dövlətimizin başçısı sakinlərlə görüşüb söhbət edib.







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2025-ci il martın 18-də Ağdərə rayonunun Suqovuşan kəndində məscidin açılışında iştirak ediblər.

Eyni vaxtda 100-ə yaxın insanın ibadət edə biləcəyi məscidin birinci mərtəbəsi kişilər, ikinci mərtəbəsi isə qadınlar üçün nəzərdə tutulub. Məscidin həyəti də yaşıllaşdırılıb. İbadət ocağının daxilində xüsusi bəzək elementlərindən istifadə olunub.

Bu məsciddə yaradılan şərait bir daha təsdiqləyir ki, milli-mənəvi dəyərlərimizin qorunması və inkişaf etdirilməsi Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir. Dövlətimizin başçısının təşəbbüsünə və tapşırıqlarına əsasən, paytaxtda və ölkəmizin bölgələrində onlarla məscid, dini məbəd, tarixi abidə və ziyarətgah inşa edilib və ya əsaslı şəkildə bərpa edilib.





# Baş Prokurorluqda “Prokurorluq orqanları tərəfindən 2024-cü ildə görülmüş işlərin yekunları və qarşıda duran vəzifələrə dair” Geniş Kollegiya iclası keçirilib








2025-ci il yanvarın 27-də Azərbaycan Respublikasının Baş Prokurorluğunda Mərkəzi aparatın, Respublika Hərbi, Naxçıvan Muxtar Respublikası və Bakı şəhər prokurorluqlarının rəhbər heyətinin, rayon (şəhər) və ərazi hərbi prokurorlarının iştirakı ilə 2024-cü ildə prokurorluq orqanları tərəfindən cinayətkarlığa qarşı mübarizə, istintaq işi, prokuror nəzarəti sahələrində görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş Geniş Kollegiya iclası keçirilib.

Tədbirdən öncə Baş Prokurorluğun Kollegiya üzvləri ölkəmizdə məhkəmə-hüquq islahatlarının banisi, Ulu Öndər Heydər Əliyevin büstü önünə əklil və gül dəstələri qoyub, unudulmaz xatirəsini ehtiramla yad edib.

Həmçinin, iştirakçılar tərəfindən Kollegiya iclasının başlanğıcında Ümummilli Lider Heydər Əliyevin, vətənimizin ərazi bütövlüyü uğrunda şəhid olmuş əsgər və zabitlərimizin, vətəndaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Kollegiya iclasında giriş nitqi ilə çıxış edən Baş prokuror Kamran Əliyev 2024-cü ilin Azərbaycan Respublikası üçün tarixi və siyasi baxımdan əhəmiyyət kəsb edən hadisələrlə zəngin bir il olduğunu bildirib.

Qeyd edilib ki, Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti, diplomatik səriştəsi və qətiyyəti sayəsində tarixin ağır sınaqlarından qalib çıxmış və dünya dövlətləri arasında öz layiqli yerini tutmuş ölkəmiz Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında 2024-cü ildə bir sıra ilklərə imza atmışdır. Belə ki, müstəqillik tariximizdə ilk dəfə olaraq Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində ötən ilin 07 fevral tarixində növbədənkənar Azərbaycan Respublikası Prezidenti, 01 sentyabr tarixində isə Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərinin demokratik, insan və vətəndaş hüquq və azadlıqlarının ən üst səviyyədə təminatı şəraitində keçirilməsi hər bir azərbaycanlı üçün qürurverici bir hadisə kimi yadda qalmışdır.

Keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində cənab Prezident İlham Əliyevin mütləq səs çoxluğu ilə (92,12%) yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsi isə xalqımızın öz rəhbərinə olan inam və etimadının, eyni zamanda xalq və hakimiyyət arasında olan vəhdətin bariz göstəricisi olmuşdur.

Vurğulanıb ki, Prezident cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu diplomatiya nəticəsində Ermənistan tərəfindən 30 ildən artıq işğal altında olan Qazax rayonunun 4 kəndi Azərbaycan Respublikasına qeyd şərtsiz qaytarılmışdır.

Bundan əlavə Prezident cənab İlham Əliyevin rəhbərliyi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın

yaxından iştirakı ilə işğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işləri 2024-cü ildə də intensiv şəkildə davam etdirilmiş, bir sıra rayonlarda ölkə rəhbəri tərəfindən yeni kəndlərin və qəsəbələrin təməli qoyulmuş, çoxsaylı yaşayış binaları, ictimai, iaşə, kommunikasiya obyektlərinin, o cümlədən Qarabağ Universitetinin açılışları olmuş, vaxtilə öz doğma el-obalarından didərgin düşmüş soydaşlarımızın həmin ərazilərə köçürülməsi işləri davam etdirilmişdir.

2024-cü ili yaddaqalan edən əsas hadisələrdən digəri isə 2024-cü ilin noyabr ayında 197 ölkədən qatılmış 76 min nəfərin iştirakı ilə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində Azərbaycanın iqlim dəyişiklikləri və ətraf mühitin qorunması sahəsində bəşəri əhəmiyyət kəsb edən qlobal müzakirələrə ev sahibliyi etməsi və həmin tədbirdə bütün dünya üçün mühüm əhəmiyyət kəsb edən tarixi qərarların qəbul edilməsi olmuşdur.

Təəssüf hissi ilə qeyd edilib ki, Ermənistan tərəfinin apardığı mina terroru nəticəsində 2024-cü ildə də mina və partlamamış hərbi sursat partlayışları nəticəsində 5 nəfər həlak olmuş, 36 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri almışdır. 2020-ci ilin noyabr ayından hazırki vaxtadək isə ümumilikdə 382 şəxs bu terrorun qurbanı olmuş, onlardan 70 nəfəri həlak olmuş, 312 nəfəri müxtəlif dərəcəli bədən xəsarəti almışdır.

Xüsusilə vurğulanıb ki, Ermənistan dövləti və onun silahlı qüvvələri, o cümlədən Ermənistan tərəfindən vaxtilə Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma "Dağlıq Qarabağ respublikası" və onun qanunsuz silahlı birləşmələri tərəfindən Azərbaycan dövlətinə və xalqına qarşı sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibə aparma, soyqırımı, əhalini məcburi köçürmə, təqib, işgəncə, hərbi soyğunçuluq və digər qanunsuz əməllərə görə təqsirləndirilən 16 şəxsin barəsindəki cinayət işlərinin ibtidai istintaqı yekunlaşdırılaraq aidiyyəti üzrə baxılması üçün Bakı Hərbi Məhkəməsinə göndərilmiş və artıq həmin cinayət işi üzrə məhkəmə hazırlıq iclasları keçirilməkdədir.








Bundan əlavə Kamran Əliyev tərəfindən təəssüf hissi ilə qeyd edilib ki, ötən ilin sonunda ölkəmiz və xalqımız üçün böyük faciə hesab olunan "Azərbaycan Hava Yolları" aviaşirkətinə (AZAL) məxsus J2-8243 nömrəli Bakı-Qroznı reysini yerinə yetirən "Embraer 190" təyyarəsinin Rusiya hava məkanında kənar fiziki və texniki müdaxilə nəticəsində Aktau şəhəri yaxınlığında qəzaya uğraması faktı ilə bağlı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən hadisənin səbəblərinin araşdırılması üçün Baş nazirin rəhbərliyi ilə Dövlət Komissiyası yaradılmış və dövlət başçısının tapşırığına əsasən cinayət işi başlanılmışdır.

Məlumat üçün bildirilib ki, Qazaxıstan Respublikası və Rusiya Federasiyasının prokurorluq və digər aidiyyəti qurumları ilə hadisənin baş verməsinin əsl səbəblərinin müəyyən edilməsi istiqamətində hazırda qarşılıqlı əməkdaşlıq şəraitində istintaq hərəkətləri davam etdirilir və qısa müddət ərzində konkret nəticələrin əldə edilməsi təmin olunacaqdır.

Baş prokuror Kamran Əliyev prokurorluğun əsas fəaliyyət istiqamətləri üzrə görülən işlərə və statistik göstəricilərə istinad etməklə hesabat dövründə Respublikada kriminogen durumun nəzarətdə saxlanıldığını, daxili işlər, dövlət təhlükəsizliyi və digər hüquq mühafizə




orqanları ilə əlaqəli şəkildə ölkəmizdə ictimai-siyasi sabitliyin qorunduğunu, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi sahəsində zəruri tədbirlərin görüldüyünü qeyd edib.

Bildirilib ki, 2024-cü ildə ölkə ərazisində 33379 cinayət qeydə alınmaqla onların 87,6 faizinin açılması təmin edilmiş, ümumilikdə ölkə üzrə cəmi 17155 cinayət işinin istintaqı tamamlanmışdır ki, bunlardan 1086-sı prokurorluq orqanlarında istintaq edilmişdir.

Bu müddət ərzində prokurorluq orqanları tərəfindən 735, ümumilikdə isə digər istintaq qurumları ilə birgə 13551 cinayət işinin ibtidai istintaqı yekunlaşdırılaraq baxılması üçün məhkəmələrə göndərilmişdir ki, ibtidai istintaqı tamamlanmış cinayət işləri və bəraətverici əsaslar olmadan rədd edilmiş materiallar üzrə ümumilikdə 913 milyon 744 min manat məbləğində maddi ziyan vurulduğu müəyyən edilərək onun 31 faizinin, yəni 283 milyon 411 min manat hissəsinin ödənilməsinə nail olunmuşdur.

Prokurorluq orqanlarında ibtidai istintaqı aparılaraq yekunlaşmış cinayət işləri üzrə ümumilikdə 170 milyon 958 min manat məbləğində maddi ziyan vurulduğu müəyyən edilərək istintaq tədbirləri ilə onun 44 faizinin, yəni 75 milyon 300 min manat hissəsinin ödənilməsinə nail olunmuş, habelə 33 milyon manatdan artıq məbləğdə əmlak üzərinə həbs qoyulmuşdur.

Xüsusi qeyd edilib ki, prokurorluqda aparılan müasir məzmunlu islahat tədbirlərinin davamı kimi qurumun maddi-texniki bazasının möhkəmləndirilməsi, elmi-texniki nailiyyətlərdən istifadə etməklə fəaliyyətdə səmərəliliyinin artırılması işində müstəsna önəmə malik cənab Prezident İlham Əliyevin 7 may 2021-ci il tarixli Fərmanında öz əksini tapmış "Elektron prokurorluq" informasiya sistemi artıq prokurorluq orqanlarının bütün fəaliyyət sferalarında tətbiq edilir, bununla yanaşı 2024-cü ildə həmin sistem üzərindən həyata keçirilən xidməti fəaliyyətin təkmilləşdirilməsi istiqamətində zəruri işlərin icrası davam etdirilməklə ümumilikdə 19 yeni modulun istifadəyə verilməsi və "EPİS"in digər informasiya sistemlərinə inteqrasiyası istiqamətində intensiv işlərin icrası təmin edilmişdir.

Daha sonra vurğulanıb ki, hesabat dövründə dövlət başçısının siyasi fəaliyyətinin prioritet istiqamətlərindən olan korrupsiyaya, rüşvətxorluğa qarşı barışmaz mübarizənin ötən dövrlərdə olduğu kimi davam etdirilərək Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən ölkə vətəndaşlarını ciddi narahat edən korrupsiya cinayətlərinin və hüquqpozmalarının daha geniş yayıldığı idarəçilik və xidmət sahələri aşkar edilməklə təqsirli şəxslərin məhkəmə məsuliyyətinə verilməsi təmin edilmişdir.

Hesabat dövründə Baş Prokurorluğun İstintaq idarəsi tərəfindən 61 şəxs barəsində 27 cinayət işinin ibtidai istintaqı aparılmaqla baxılması üçün məhkəmələrə göndərilmiş, bunlardan 5 şəxs barəsində 2 iş qəsdən adam öldürmə faktları ilə bağlı olmuşdur.

Kollegiya iclasında daxili işlər, dövlət təhlükəsizliyi və ədliyyə orqanları ilə birgə keçirilmiş peşəkar istintaq-əməliyyat tədbirləri ilə ötən illərdən bağlı qalmış qeyri-aşkar şəraitdə törədilmiş 6 qəsdən adam öldürmə cinayətlərinin açılması təmin edilməklə hesabat dövründə onlardan 2-si üzrə təqsirli şəxslərin məhkəmə məsuliyyətinə verildiyi xüsusi vurğulanıb.

Baş prokuror ötən illərdən bağlı qalmış və hesabat ilində qeydə alınmış qeyri-aşkar cinayətlərin açılmasında, ictimai sabitliyin və təhlükəsizliyin, dünya miqyaslı tədbirlərin ölkəmizdə təhlükəsiz şəraitdə keçirilməsinin təmin edilməsi ilə bağlı daxili işlər, dövlət təhlükəsizliyi xidməti və digər qurumların fəaliyyətini xüsusi qeyd edərək, göstərilən səmərəli və peşəkar əməkdaşlığa görə həmin qurumların rəhbərliyinə və kollektivinə təşəkkürünü bildirib.

2024-cü ildə prokurorluq orqanları tərəfindən 1869 apellyasiya və 587 kassasiya protestləri verilmiş, 843 apellyasiya protesti və 127 kassasiya protestləri təmin olunmaqla nəticədə məhkəmə səhvlərinin aradan qaldırılması təmin olunmuşdur.

Bununla belə, Respublikanın tabe rayon və şəhər, o cümlədən Bakı şəhəri üzrə bəzi tabe rayon prokurorluqlarına fəaliyyətlərində yol verdikləri nöqsanlarla bağlı, xüsusən də CPM-nin 303 və 318-ci maddələri ilə məhkəmələr tərəfindən ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirmiş prokurorlara işlərin qaytarılması və bəraət hökmlərinin çıxarılması hallarının hələ də mövcud olması ilə bağlı ciddi iradlar bildirilmişdir.

2024-cü ildə istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarətin səmərəliliyinin artırılması məqsədilə prosessual rəhbərlik və effektiv nəzarətin həyata keçirilməsini təmin edəcək mexanizmin təkmilləşdirilməsi üçün zəruri tədbirlər görülməklə cinayət işləri üzrə icraata xitam verilməsinə dair 894 qərar əsassız və qanunsuz hesab edilərək ləğv olunub, habelə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorlar tərəfindən 255 halda ittiham aktları

təsdiq edilməyərək cinayət işləri əlavə istintaq aparılması üçün qaytarılmışdır.

2024-cü il ərzində cinayət təqibindən kənar icraatlarla əlaqədar inzibati xəta haqqında protokol tərtib etmək səlahiyyətinə malik qurumlarla işgüzar əlaqələrin qurulması təmin olunmaqla yanaşı, prokurorluq orqanları tərəfindən inzibati xəta haqqında işlər üzrə 3561 icraat başlanıb, inzibati xəta haqqında iş üzrə icraatın dayandırılması haqqında digər qurumlar tərəfindən qəbul edilmiş 122 qərar ləğv edilib.



Qeyd edilib ki, Baş Prokurorluğun "961 Çağrı Mərkəzi"nə 2024-cü ildə daxil olmuş müraciətlərdən 29747 müraciət üzrə vətəndaşlara onları maraqlandıran müvafiq hüquqi izahlar verilib, 4426 məlumat isə cinayət xarakterli olduğu üçün qeydə alınaraq araşdırılması aidiyyəti struktur qurumlara tapşırılmış və həmin məlumatlar üzrə cinayət işləri başlanmış, habelə müvafiq prokuror təsir aktları qəbul edilməklə zəruri tədbirlər görülmüşdür.

Kollegiya iclasında qeyd edilib ki, ötən ildə xidməti, icra və əmək intizamının daha da möhkəmləndirilməsi, fəaliyyətlərində qanunsuzluq hallarına və prokurorluq işçisinə yaraşmayan hərəkətlərə yol verən işçilərə münasibətdə tələbkarlıq artırılıb, aparılmış xidməti yoxlamalar nəticəsində müxtəlif xətalar törətdiklərinə görə 19 prokurorluq əməkdaşı intizam məsuliyyətinə cəlb edilib ki, onlardan 11-nə töhmət və ya şiddətli töhmət elan edilib, 7 nəfər vəzifədən azad edilib, 1 nəfər rütbədən məhrum edilməklə prokurorluq orqanlarından xaric edilib.

Hesabat dövründə prokurorluq orqanlarının beynəlxalq nüfuzunun artırılması istiqamətində xarici ölkələrin müvafiq orqanları və beynəlxalq təşkilatlarla əlaqələr genişlənib, Baş Prokurorluğun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin həyata keçirdiyi tədbirlərlə 51 nəfər təqsirləndirilən şəxsin ölkə xaricindən ekstradisiyası təmin edilib.

Həmçinin qeyd olunub ki, 2024-cü ilin 28 sentyabr – 2 oktyabr tarixlərində Bakı şəhərində dünya prokurorlarının ilk və yeganə qlobal təşkilatı olan Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraiyyə Komitəsinin 58-ci iclası, 29-cu İllik Konfransı və Ümumi Yığıncağı keçirilmişdir. Sentyabrın 29-da müxtəlif ölkələrin baş prokurorları və digər yüksək vəzifəli şəxsləri də daxil olmaqla, 88 ölkə, 95 yurisdiksiya, 10 beynəlxalq təşkilatdan ümumilikdə 500-dən artıq şəxsin iştirakı ilə Bakı Konqres Mərkəzində tədbirin açılış mərasimi olmuşdur.

Bundan əlavə aidiyyəti dövlət qurumlarının, eləcə də bir sıra dövlətlərin prokurorluq və digər hüquq mühafizə orqanlarının rəhbər şəxslərindən ibarət tərkibdə, ümumilikdə 200 şəxsin iştirakı ilə COP29 çərçivəsində noyabr ayının 15-də Azərbaycan Respublikasının Baş Prokurorluğu, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi və Birləşmiş Ərəb Əmirliklərinin Daxili İşlər Nazirliyinin həmsədrliyi ilə COP29 Sədrliyinin təşəbbüslərindən (Presidency initiative) biri olan "İqlim dəyişikliyi ilə mübarizədə hüquq mühafizə orqanlarının səfərbər edilməsi" mövzusunda yüksək səviyyəli iclas keçirilmişdir.

Vurğulanıb ki, 2024-cü ildə də vətəndaş müraciətlərinə baxılması və onların qəbulu işinin düzgün təşkili daim diqqətdə saxlanılmış, müraciətlərə baxılması və vətəndaşların qəbulu sahəsində nöqsanların aradan qaldırılması, şəhid ailələri və qazilərin müraciətlərinə xüsusi həssaslıqla yanaşılması, informasiya-kommunikasiya texnologiyalarının nailiyyətlərindən istifadə olunması, əməkdaşların peşə hazırlığının yüksəldilməsi istiqamətində zəruri tədbirlər görülüb.

Bu müddətdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Baş prokuror tərəfindən Respublikanın 30 rayon və şəhərində, o cümlədən Naxçıvan şəhəri daxil olmaqla ümumilikdə 1504 vətəndaş qəbul edilməklə müraciətlərdə qaldırılan və bilavasitə prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan məsələlərin qanunauyğun həlli barədə Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe prokurorlara müvafiq göstərişlər verilmiş, həmçinin təsərrüfat, əmlak, mülki xarakterli mübahisələrə və sosial məsələlərə dair müraciətlərin müvafiq mərkəzi, yerli icra hakimiyyəti və məhkəmə orqanlarında zəruri tədbirlərin görülməsi məqsədilə aidiyyəti üzrə göndərilməsi təmin edilib.

Hesabat dövründə həmçinin Azərbaycan Respublikası Baş Prokurorluğu tərəfindən Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Bakı Dövlət Universiteti ilə birlikdə Xankəndi, Şəki və Naxçıvan şəhərlərində "Ətraf mühitin gücləndirilməsi: maarifləndirmə və hüquq mühafizə tədbirləri" ECOLEAD platforması çərçivəsində geniş iştirakçı auditoriyasında elmi-praktiki konfransların keçirilməsi




kollegiya iştirakçılarının diqqətinə çatdırılıb. Əlavə olaraq qeyd edilib ki, 2024-cü ildə Qarabağ Universiteti ilə Baş Prokurorluq arasında əməkdaşlığa dair memorandum imzalanıb.

Hesabat ilində Azərbaycan Respublikası Prokurorluğunun başlıca fəaliyyət istiqamətlərindən olan ölkəmizin hüquq ictimaiyyəti, aparıcı elm və təhsil müəssisələri, hüquq mühafizə orqanları akademiyaları ilə əməkdaşlıq əlaqələrinin daha da inkişafına töhfə verən Baş prokuror yanında Elmi-Məsləhət Şurasının iclasları keçirilməklə geniş müzakirələr və faydalı fikir mübadiləsinin aparıldığı bildirilib.

Kollegiya iclasında hesabat dövrü ərzində görülmüş müsbət işlərlə yanaşı, fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinə mənfi təsir göstərən hallar Baş Prokurorluğun müvafiq struktur qurumlarının rəhbərlərinin iştirakı ilə ətraflı təhlil olunmaqla, istintaq işi və ibtidai araşdırmaya prosessual rəhbərliyin həyata keçirilməsinin keyfiyyətinin artırılması, cinayət prosesi iştirakçılarının hüquqlarının təmin olunması, habelə hüquqi və fiziki şəxslərə vurulmuş zərərin ödənilməsi, vətəndaş müraciətlərinə baxılması və onların qəbulu ilə əlaqədar işin təşkilinin daim diqqət mərkəzində saxlanılması istiqamətində zəruri tədbirlərin görülməsi tələb olunub.

Xüsusilə Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda şəhid olmuş və itkin düşmüş şəxslərin ailə üzvlərinin, yaxın qohumlarının, o cümlədən sağlamlığını itirmiş vətəndaşlarımızın müraciətlərinə təxirəsalınmadan baxılmaqla, onların dərhal qəbul edilmələrinin təmin edilməsi, bu kateqoriyadan olan şəxslərə diqqət göstərilməsinin vacibliyi vurğulanıb.

Baş Prokurorluğun əlaqədar struktur qurumları və müvafiq tabe prokurorlar tərəfindən daxili işlər orqanları ilə əlaqəli şəkildə 2024-cü ilin nəticələrinə görə artımı müşahidə olunan cinayətlərin profilaktikası istiqamətində zəruri tədbirlərin görülməsi, eyni zamanda, cəzanın labüdlüyü prinsipinin təmin edilməsi məqsədilə bağlı qalmış cinayətlərin açılması və təqsirkar şəxslərin cinayət məsuliyyətinə cəlb olunması üçün müvafiq tədbirlərin görülməsinin zəruriliyi diqqətə çatdırılıb.

Daha sonra Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini Elçin Məmmədov, müavinləri Elmar Camalov və Heydər Məmmədov hesabat dövründə fəaliyyət, bu zaman yol verilmiş nöqsanlar və onların aradan qaldırılması istiqamətində görülməli tədbirlər barədə, Samux, Ağcabədi və Şuşa rayon prokurorları hesabat dövründə görülmüş işlərlə bağlı, Kadrlar idarəsinin rəisi Natiq Hüseynov isə "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq icrası həvalə olunmuş vəzifələrə təyinatlara razılıq verilməsi ilə bağlı məruzələrlə çıxış edib, məruzələr ətrafında fikir mübadiləsi aparılmaqla qarşıda duran vəzifələrə dair tapşırıqlar verilib.

Baş prokuror tərəfindən cari ildə Azərbaycan Respublikası Prokurorluğu orqanlarının qarşısında duran vəzifələr barəsində danışılarkən bir sıra mühüm məsələlər, o cümlədən əvvəlki illərdən bağlı qalmış cinayət işlərinin açılması məqsədilə zəruri istintaq və əməliyyat tədbirlərinin icrası, ibtidai istintaq üzərində prosessual rəhbərliyin və prokuror nəzarətinin keyfiyyətinin artırılması, itkin düşmüş və axtarışda olan şəxslərin yerlərinin müəyyən edilməklə tapılmasına yönəlik əməliyyat-axtarış fəaliyyətinə nəzarətin gücləndirilməsi, habelə 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi barədə Azərbaycan Respublikasının Prezidentinin 28 dekabr 2024-cü il tarixli Sərəncamdan irəli gələn vəzifələrin icrası ilə bağlı zəruri tədbirlərin həyata keçirilməsi, cari ilin 19-23 may tarixlərində Bakı şəhərində keçirilməsi nəzərdə tutulan Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıq İdarəsinin Korrupsiyaya qarşı mübarizə üzrə Qlobal Əməliyyat Şəbəkəsinin (GLobE) İdarə Komitəsinin 10-cu və Plenar görüşünün 6-cı iclaslarına hazırlıq işlərinin görülməsi və həmin beynəlxalq tədbirin yüksək səviyyədə keçirilməsinin təşkili barədə müvafiq tapşırıqlar verilib.

Kollegiya iclasına yekun vuran Kamran Əliyev Azərbaycan Respublikasının Prokurorluğu orqanlarının Prezident cənab İlham Əliyev tərəfindən qarşıya qoyulmuş və uğurla həyata keçirilən dövlətçilik siyasətinin, dövlətimizin və xalqımızın mənafeyi naminə bundan sonra da digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi üçün zəruri tədbirlərin icrasında öz bilik və peşə bacarıqlarını bütünlüklə səfərbər edəcəklərinə əminliyini ifadə edib.

# Baş prokurorun rəhbərliyi ilə Azərbaycan Prokurorluğunun sisteminə daxil olan orqanlarda 2024-cü il üzrə görülmüş işlərin yekunu ilə bağlı əməliyyat müşavirələri və kollegiya iclasları keçirilib






2025-ci il yanvar ayının 13-də Azərbaycan Respublikasının Baş prokuroru, I dərəcəli dövlət ədliyyə müşaviri Kamran Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikası, Naxçıvan şəhər və digər tabe rayon prokurorluqlarının əməkdaşlarının iştirakı ilə videoformat rejimində 2024-cü il ərzində cinayətkarlığa qarşı mübarizə, ədalət mühakiməsinin həyata keçirilməsində iştirak, qanunların icra və tətbiq olunmasına nəzarət, cinayət mühakimə və cinayət təqibindən kənar icraatlarda insan hüquq və azadlıqlarının müdafiəsi və qanunla müəyyən edilmiş digər sahələrdə görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş kollegiya iclası keçirilmişdir.

Giriş nitqi ilə çıxış edən Baş prokuror Kamran Əliyev tərəfindən qeyd edilib ki, müstəqil, qüdrətli Azərbaycan dövlətinin varlığı Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun uzaq görən siyasətinin, vaxtında və qətiyyətlə atmış olduğu hər bir addımının bəhrəsinin bu gün bütün Azərbaycan xalqı, o cümlədən bizlər şahidi oluruq. O, cümlədən Naxçıvan Muxtar Respublikasının bugünkü inkişafının əsasının Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulduğu xüsusilə vurğulanıb.

Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən möhtərəm Prezident cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən Naxçıvan Muxtar Respublikasının hərtərəfli, o cümlədən iqtisadi-sosial inkişafı, insanların yüksək səviyyədə rifahının təmin edilməsi istiqamətində mühüm islahatlar aparılmış və bu hazırda da davam etdirilməkdədir.

Çıxışda həmçinin qeyd edilib ki, yola saldığımız 2024-cü il eyni zamanda tarixi və əlamətdar hadisələrlə zəngin bir il olub. Məhz həmin ildə ölkəmizin tarixində ilk dəfə olaraq suveren ərazilərimizdə 7 fevral 2024-



cü il tarixdə keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində İlham Əliyev seçicilərin 92,12 faiz səsini qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

Ötən ilin digər əlamətdar hadisələrindən biri isə Azərbaycan Respublikası Prezidentinin 28 iyun 2024-cü il tarixli Sərəncamı ilə 01 sentyabr 2024-cü il tarixdə Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin keçirilməsi olmuşdur.

2024-cü ilin prokurorluq orqanları üçün də əlamətdar il olduğu konkret misallarla qeyd edilmişdir.

Daha sonra hesabat məruzəsi ilə çıxış edən Naxçıvan Muxtar Respublikası prokuroru Sənan Paşayev fəaliyyət istiqamətləri üzrə görülən işlərə və statistik göstəricilərə istinad etməklə hesabat dövründə Muxtar Respublikada kriminogen durumun nəzarətdə saxlanıldığını, daxili işlər, dövlət təhlükəsizliyi və digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə ölkəmizdə ictimai-siyasi sabitliyin qorunduğunu, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi sahəsində zəruri tədbirlərin görüldüyünü qeyd edib. Bildirilmişdir ki, 2024-cü il ərzində Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanlarında 37 cinayət işinin ibtidai istintaqı aparılmış və həmin cinayət işlərindən 13-nün istintaqı tamamlanaraq baxılması üçün aidiyyəti üzrə məhkəmələrə göndərilmiş, habelə hesabat dövründə prokurorluq orqanları tərəfindən istintaq edilmiş cinayət işləri üzrə müəyyən edilmiş 376667 manat maddi ziyandan 367302 manatının (97,51%) ödənilməsi təmin olunmuşdur. Bundan əlavə 2024-cü ildə Naxçıvan Muxtar Respublikası prokurorluğu orqanlarına 584 müraciət daxil olmuş, həmçinin Naxçıvan Muxtar Respublikası Prokurorluğunda 197, tabe rayon (şəhər) prokurorluqlarında isə 391 olmaqla, ümumilikdə 588 vətəndaş qəbul edilərək dinlənilmiş, müraciətlərinə müvafiq olaraq izahların verilməsi və onların həlli istiqamətində müvafiq tədbirlərin icrası həyata keçirilmişdir.

Geniş Kollegiya iclasında görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin icrasına toxunulmaqla əldə olunan uğurlar, habelə xidməti fəaliyyət zamanı yol verilmiş nöqsanlar ətraflı müzakirə edilib.

Geniş Kollegiya iclasına yekun vuran Kamran Əliyev xidməti fəaliyyətin təkmilləşdirilməsi, hesabat dövründə yol verilmiş nöqsanların aradan qaldırılması, həmçinin Azərbaycan Respublikası Prezidentinin 28.12.2024-cü il tarixli Sərəncamı əsasında Azərbaycan Respublikasında 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi ilə bağlı zəruri tapşırıqlar verərək sonda Muxtar Respublikanın Prokurorluq orqanlarının hər bir əməkdaşının gələcək fəaliyyətləri zamanı qanunla üzərlərinə qoyulmuş vəzifələrin icrası istiqamətində öz bilik və bacarıqlarını bütünlüklə səfərbər edəcəklərinə, dövlətimizin və xalqımızın mənafeyi uğrunda xidməti öhdəliklərini layiqincə yerinə yetirəcəklərinə əminliyini ifadə edərək, onlara uğur arzu edib.







2025-ci il yanvar ayının 15-də Azərbaycan Respublikasının Baş prokuroru, I dərəcəli dövlət ədliyyə müşaviri Kamran Əliyevin rəhbərliyi ilə Bakı şəhərinin prokurorluq orqanları tərəfindən 2024-cü il ərzində cinayətkarlığa qarşı mübarizə, istintaq işi, prokuror nəzarəti sahələrində görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş əməliyyat müşavirəsi keçirilib.

Müşavirəni giriş nitqi ilə açan Baş prokuror Kamran Əliyev bildirib ki, 2024-cü il dövlətimiz, eləcə də xalqımız üçün bir sıra əlamətdar və tarixi hadisələrlə yadda qalmışdır. İlk dəfə ərazilərimizin suverenliyinin tam təmin olunduğu şəraitdə 7 fevral 2024-cü il tarixdə keçirilmiş növbədənkənar seçkilərdə möhtərəm Prezident cənab İlham Əliyev seçicilərin mütləq əksəriyyətinin səsini qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilib.

Bundan əlavə yola salınan ildə paytaxtımız bir sıra dünya miqyaslı tədbirlərin keçirilməsinə ev sahibliyi edib. Belə ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu Sessiyası (COP 29), həmçinin 27 sentyabr - 2 oktyabr tarixlərində Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraiyyə Komitəsinin 58-ci iclası, 29-cu İllik Konfransı və Ümumi Yığıncağının Bakı şəhərində yüksək təşkilatçılıqla keçirilməsi təmin olunub.

Baş prokuror bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı nəticəsində paytaxtımızın inkişafı, abadlaşdırılması, vətən-

daşlarımızın rahat həyat şəraitinin və istirahətlərinin təmininə istiqamətlənmiş kompleks tədbirlərin icrası 2024-cü ildə də davam etdirilmişdir. Bakıda “Xaqani” bağının, Mərkəzi Parkın üçüncü hissəsinin və Mərkəzi Nəbatat Bağının və vətəndaşlarımızın istifadəsinə verilmiş bir sıra digər park, müəssisə, tarixi və mədəni abidələrin açılışı bu kimi tədbirlərə misal göstərilmişdir.






Çıxışı zamanı Baş prokuror eyni zamanda Azərbaycan Respublikası Prokurorluğuna göstərilən dövlət qayğısından bəhs edərək məhz bu sayədə hesabat dövründə əməkdaşların xidməti iş şəraitinin yaxşılaşdırılması məqsədilə bir sıra prokurorluqların, o cümlədən Bakı şəhəri Nərimanov rayon prokurorluğunun ən müasir standartlara cavab verən yeni inzibati bina ilə təchiz edildiyini bildirib.

Kamran Əliyev tərəfindən qeyd edilib ki, əvvəlki ildə olduğu kimi 2024-cü ildə də vətəndaş məmnunluğunun təmin edilməsi məqsədilə Bakı şəhərinin rayon prokurorluqları tərəfindən vətəndaşların qəbulu həyata keçirilməklə qəbulda olmuş ümumilikdə 587 vətəndaşın müraciətləri üzrə müvafiq tədbirlər görülmüşdür.

Hesabat dövründə görülmüş işlərə münasibətdə isə diqqətə çatdırıldı ki, Bakı şəhər prokurorluq orqanları tərəfindən cinayətkarlığa qarşı mübarizə, istintaq işi, vətəndaş məmnunluğunun təmin olunması istiqamətində zəruri işlər görülmüşdür.

Müşavirədə hesabat məruzəsi ilə çıxış edən Bakı şəhər prokuroru, III dərəcəli dövlət ədliyyə müşaviri Elşən Abbasov hesabat dövründə paytaxtın prokurorluq orqanlarının digər hüquq mühafizə orqanları ilə birlikdə cinayətkarlığa qarşı mübarizə, vətəndaş məmnunluğunun təmin olunması, Baş prokurorun rəhbər göstərişlərinin icrası istiqamətində görülən işlər barədə məlumat vermişdir.

Qeyd olunmuşdur ki, 2024-cü il ərzində Bakı şəhər prokurorluq orqanlarında 649 cinayət işinin ibtidai istintaqı aparılmış və həmin cinayət işlərindən 194-nün istintaqı tamamlanaraq baxılması üçün aidiyyəti üzrə məhkəmələrə göndərilmiş, habelə hesabat dövründə prokurorluq orqanları tərəfindən istintaq edilmiş cinayət işləri üzrə müəyyən edilmiş 16 milyon 979 min 167 manat maddi ziyandan 12 milyon 425 min 084 manatının (73,2%) ödənilməsi təmin olunmuşdur. Bundan əlavə 2024-cü ildə Bakı şəhər prokurorluq orqanlarına 21411 müraciət daxil olmuş, həmçinin Bakı şəhər Prokurorluğunda 2387, tabe rayon (şəhər) prokurorluqlarında isə 6831 olmaqla, ümumilikdə 9218 vətəndaş qəbul edilərək dinlənilmiş, müraciətlərinə müvafiq olaraq izahların verilməsi və onların həlli istiqamətində müvafiq tədbirlərin icrası həyata keçirilmişdir.

Həmçinin vurğulanıb ki, 2024-cü il ərzində Bakı şəhərinin prokurorluq və daxili işlər orqanları üzrə cəmi 14925 cinayət hadisəsi qeydiyyata alınmışdır ki, onların 88,8 %-nin açılması təmin olunub.

Bakı şəhərinin daxili işlər orqanları ilə qurulmuş peşəkar əməkdaşlıq münasibətləri zəminində həyata keçirilən tədbirlər nəticəsində hesabat dövründə qeydə alınmış 50, həmçinin ötən illərdən bağlı qalan 2 qəsdən adam öldürmə cinayətlərinin açılması təmin edilib.

Xidməti, icra və əmək intizamının pozulması hallarına qarşı tələbkarlıq artırılmış, şəhər prokurorluq orqanları əməkdaşlarından 1 nəfər intizam məsuliyyətinə cəlb olunaraq tutduğu vəzifədən azad edilmiş, 15 əməkdaşa xəbərdarlıq edilmişdir.

Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev şəhər prokurorluğunun struktur qurumları və tabe rayon prokurorluqlarının hər birinin fəaliyyətini təhlil edərək cinayətkarlığa qarşı mübarizə, istintaq işi, prokuror nəzarəti, müraciətlərə baxılması, vətəndaşların qəbulu, xidməti, icra və əmək intizamının möhkəmləndirilməsi sahəsində işlərin səmərəliliyinin daha da artırılması istiqamətində konkret tapşırıqlar vermişdir.



2025-ci il yanvarın 16-da Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin sədrliyi ilə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində 2024-cü il ərzində korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş əməliyyat müşavirəsi keçirilmişdir.

Müşavirədə giriş nitqi ilə çıxış edən Kamran Əliyev müasir və müstəqil Azərbaycanın qurucusu Ümummilli Lider Heydər Əliyevin 1969-cu ildən etibarən korrupsiya kimi neqativ tendensiyaların yolverilməzliyini bəyan etməsini və ona qarşı qətiyyətlə mübarizə aparmasını diqqətə çatdırmaqla yanaşı korrupsiyaya qarşı mübarizənin müstəsna dərəcədə vacibliyinin daim Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin çıxışlarında xüsusi vurğulanmasının, habelə bu istiqamətdə hüquq münasibətlərini tənzimləyən normativ bazanın müntəzəm olaraq təkmilləşdirilməsinin mövcud siyasi iradənin göstəricisi olmaqla effektiv icraetmənin qarantı olduğunu bildirmişdir.

Qeyd edilmişdir ki, Prezident cənab İlham Əliyevin rəhbərliyi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yaxından iştirakı ilə sosial sahədə həyata keçirilən bir sıra islahatlar ölkə vətəndaşlarının rifahının və həyat şəraitinin yaxşılaşdırılmasına xidmət etməklə yanaşı, eyni zamanda qeyd edilən sahədə korrupsiya hallarına son qoyulması ilə nəticələnmişdir. Hazırda fəaliyyət göstərməklə bir sıra dünya ölkələrinin diqqətini üzərinə cəmləşdirmiş və dünyada Azərbaycan məhsulu kimi qəbul edilmiş “ASAN xidmət” və “DOST” mərkəzlərinin uğurlu fəaliyyətləri bu mənada xüsusi ilə vurğulanmışdır.

Bununla yanaşı, Baş prokuror tərəfindən xüsusi vurğulanmışdır ki, qiyabi icraat və üzərinə həbs qoyulmuş əmlakın idarə edilməsi kimi mütərəqqi hüquqi institutların cinayət-prosessual qanunvericiliyinə əlavə edilməsi, habelə digər normativ hüquqi aktların günün tələbinə uyğun olaraq təkmilləşdirilməsi ölkədə cinayətkarlığa və onun ən təhlükəli təzahürlərindən olan korrupsiya hallarına qarşı təsirli mexanizm formalaşdırmaqdadır.

Eləcə də, prokurorluq orqanlarının da korrupsiyaya qarşı mübarizə siyasətinin subyektlərindən biri kimi onun səmərəli icrası üçün sərgilədiyi aktiv mövqeyə toxunan Kamran Əliyev qurum tərəfindən əsas fəaliyyət istiqamətlərindən əlavə milli qanunvericiliyin tətbiqi vəziyyətinin vətəndaş müraciətləri, habelə istintaq təcrübəsində müşahidə edilən tendensiyalarla əlaqəli şəkildə mütəmadi təhlil edildiyini bildirmişdir.

Qeyd edilmişdir ki, aparılmış təhlillərin nəticələrindən asılı olaraq bir çox məqamlarda prokuror təsir tədbirləri tətbiq edilmiş, milli qanunvericiliyin beynəlxalq standartlara uyğunlaşdırılması üçün cinayət təqibinin rəqəmsallaşdırılması, maraqlar toqquşmasının qarşısının alınması, əmlakın bərpası və digər sahələrdə normativ hüquqi akt layihələri hazırlanaraq baxılması üçün aidiyyəti orqanlara təqdim olunmuşdur.

O da diqqətə çatdırılmışdır ki, yeni dövr islahatlarının mahiyyətinə uyğun olaraq Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 may tarixli Fərmanında təsbit edilməklə 2022-ci il 3 mart tarixli digər Fərmanla Əsasnaməsi təsdiqlənmiş “Elektron prokurorluq” informasiya sisteminin fəaliyyəti digər dövlət orqanlarının informasiya sistemlərinin inteqrasiyası və optimallaşdırıcı modulların əlavə edilməsi yolu ilə təkmilləşdirilməklə müasir informasiya-kommunikasiya texnologiyalarının prokurorluq orqanlarında tətbiqi prosesi sürətlənmiş, bu göstərici isə öz növbəsində



korrupsiyaya qarşı mübarizədə xüsusi əhəmiyyət kəsb edən şəffaflıq və hesabatlılıq meyarlarını daha da möhkəmləndirmişdir.

Baş prokuror korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın önəmindən, bu sahədə mövcud beynəlxalq təcrübənin Baş İdarənin əməkdaşları tərəfindən mənimsənilməsi zərurətindən bəhs edərkən qeyd etmişdir ki, digər beynəlxalq təşkilatlarla yanaşı BMT-nin Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə İdarəsi (UNODC) ilə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin qarşılıqlı əməkdaşlıq sahəsində fəaliyyəti uğurla davam etdirilməkdədir. Belə ki, Çin Xalq Respublikasının paytaxtı Pekin şəhərində 2024-cü ilin 24-27 sentyabr tarixlərində baş tutmuş Şəbəkənin 5-ci Plenar Görüşündə həmin təşkilatın 15 üzvdən ibarət icraiyyə komitəsinə keçirilmiş seçkilər nəticəsində Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsinin rəisi Natiq Eyvazov idarəçilik orqanına üzv təyin edilmiş, bundan əlavə Şəbəkənin İdarə Komitəsinin 10-cu və Plenar görüşünün 6-cı iclaslarının 2025-ci ilin 19-23 may tarixlərində Bakı şəhərində keçirilməsi qərara alınmışdır.

Müşavirədə hesabat məruzəsi ilə çıxış edən Azərbaycan Respublikası Baş prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbov hesabat dövrü ərzində Baş İdarədə baxılmış müraciətlər, cinayət xarakterli məlumatlar, həyata keçirilmiş əməliyyat və qabaqlayıcı tədbirlər, onların müsbət nəticələri, beynəlxalq təşkilatlar və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əməkdaşlıq, Baş İdarədə başlanmış, ibtidai istintaqı tamamlanmış və məhkəmələrə göndərilmiş cinayət işləri, istintaq zamanı vurulmuş ziyanın ödənilməsi ilə əlaqədar görülmüş tədbirlər barədə olan statistik məlumatları müqayisəli şəkildə təhlil etməklə müşavirə iştirakçılarının diqqətinə çatdırmışdır.

Bildirilmişdir ki, qeyd olunan dövrdə Baş İdarə tərəfindən vətəndaşların 10296 müraciətinə baxılmışdır.

Bundan başqa, əlaqəli dövlət qurumları ilə birgə yerinə yetirilmiş tədbirlər nəticəsində vətəndaşlar tərəfindən “161-Qaynar xətt” əlaqə mərkəzinə daxil olmuş müraciətlərdən böyük əksəriyyətinin müsbət həll edilməsi təmin edilmiş, zəruri hallarda cinayət-hüquqi tədbirlər görülmüşdür.

Baş İdarə tərəfindən korrupsiyaya qarşı mübarizədə qabaqlayıcı tədbirlərin mühüm əhəmiyyəti nəzərə alınaraq, korrupsiya cinayətlərinə şərait yaradan halların aradan qaldırılması və gələcəkdə bir daha törədilməməsi üçün prokuror təsir tədbirləri qismində müxtəlif qurumlara 185 təqdimat göndərilmişdir. Həmin təqdimatlara əsasən bir sıra işçilər intizam məsuliyyətinə cəlb edilmiş və bu kimi digər zəruri tədbirlərin görülməsi təmin olunmuşdur.

Bununla yanaşı, müvafiq dövr ərzində Baş İdarədə 1049 vətəndaşın qəbul edilməsi təmin edilmişdir.

Qeyd edilən müddət ərzində Baş İdarədə 381 müraciət və digər məlumatlara cinayət xarakterli material kimi baxılmış, 314 material üzrə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işləri başlanmış, 67 material üzrə isə vurulmuş maddi ziyan məbləğlərinin ödənilməsi də nəzərə alınmaqla cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarlar qəbul edilmiş və digər prokuror təsir tədbirləri tətbiq edilmişdir.

Əməliyyat qurumları tərəfindən 170 cinayət işi başlanılmış, keçirilmiş 42 əməliyyat-axtarış tədbiri nəticəsində korrupsiya cinayəti törədən 43 şəxs cinayət başında yaxalanmış, habelə bu qəbildən cinayətlərin törədilməsi ilə bağlı axtarışda olan 8 nəfər saxlanılmışdır.

Hesabat dövrü ərzində Baş İdarə tərəfindən 226 şəxs barəsində 158 cinayət işi baxılması üçün məhkəmələrə göndərilmişdir. Məhkəmələrə göndərilmiş cinayət işlərinin mütləq əksəriyyəti üzrə ittiham hökmləri çıxarılmış, qalanları isə hazırda məhkəmə baxışındadır.

İstintaqı tamamlanmış cinayət işlərindən 111 şəxs barəsində 67 iş ağır cinayətlər məhkəmələrinə,





5 şəxs barəsində 3 iş hərbi, eyni zamanda 110 şəxs barəsində 88 cinayət işi isə rayon (şəhər) məhkəmələrinə göndərilmişdir.

Hesabat ili ərzində istintaqı başa çatdırılmış cinayət işləri üzrə ümumilikdə özgə əmlakına vurulmuş 131 milyon 365 min 409 manat məbləğində maddi ziyandan 50 milyon 394 min 439 manatının, o cümlədən icraatına xitam verilmiş cinayət işləri üzrə özgə əmlakına vurulmuş 19 milyon 726 min 167 manat məbləğində maddi ziyanın tam olaraq ödənilməsi təmin olunmuşdur.

Zərərin ödənilməsi məqsədilə istintaqı başa çatdırılmış cinayət işləri üzrə 31 milyon 930 min 592 manat məbləğində əmlak üzərinə həbs qoyulması təmin olunmuşdur.

Hesabat dövrü ərzində Baş İdarənin fəaliyyətinin və antikorrupsiya qanunvericiliyinin təkmilləşdirilməsi və bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirilmişdir.

Ümumilikdə ötən illər ərzində görülmüş işlərin nəticəsi kimi Avropa Şurasının Pulların Leqallaşdırılmasına və Terrorçuluğun Maliyyələşdirilməsinə Qarşı Mübarizə Tədbirlərinin Qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsi (MONEYVAL) və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üzrə Anti-korrupsiya Şəbəkəsi də daxil olmaqla beynəlxalq təşkilatların hesabatlarında ölkəmizdə bu istiqamətdə həyata keçirilən bir sıra tədbirlər müsbət dəyərləndirilmişdir.

Dövlət başçısının fəaliyyətinin prioritet istiqamətlərindən olan korrupsiya və rüşvətxorluğa qarşı mübarizədə beynəlxalq əməkdaşlığın önəmini və qarşılıqlı təcrübənin paylaşılmasının əhəmiyyətini nəzərə almaqla bu sahədə ixtisaslaşmış beynəlxalq təşkilatlarla və digər dövlətlərin müvafiq orqanları ilə əlaqələrin qurulmasına, habelə daha da inkişaf etdirilməsinə xüsusi diqqət yetirilmişdir.

Əməliyyat müşavirəsinə yekun vuran Baş prokuror Kamran Əliyev hesabat və məruzədə qeyd edilən göstəricilərə münasibət bildirməklə yanaşı vətəndaşların qəbulu, onların müraciətlərinə baxılması, "161-Qaynar xətt" əlaqə mərkəzinin fəaliyyətinin daha da təkmilləşdirilməsi, mərkəzə daxil olan hər bir vətəndaş müraciətinə həssas yanaşılması, korrupsiya faktlarının artımı müşahidə edilən sahələrin müəyyən edilməsi məqsədilə aparılan təhlillərin davam etdirilməsi, bu cür halların qarşısının alınmasına yönəlik önləyici tədbirlərin icrası, korrupsiyaya qarşı mübarizə sahəsində effektiv nəticələrin əldə edilməsi üçün digər hüquq mühafizə orqanları ilə əlaqəli fəaliyyətin davam etdirilməsi, əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinin diqqətdə saxlanılması, vurulmuş maddi ziyanların ibtidai istintaq dövründə ödənilməsinin təmin edilməsi, əmlakın bərpası, qətimkan tədbirlərinin səmərəli tətbiqi kimi məsələlərin diqqətdə saxlanılması, nüfuzlu beynəlxalq təşkilatlarla qarşılıqlı əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsi, xidməti, icra və əmək intizamının möhkəmləndirilməsi sahəsində işlərin səmərəliliyinin daha da artırılması istiqamətində öz tapşırıq və tövsiyələrini vermişdir.



2025-ci il yanvarın 21-də Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda cinayətkarlığa qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, insan və vətəndaş hüquqlarının, azadlıqlarının qorunması sahəsində 2024-cü ildə görülən işlərin və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunan Geniş Kollegiya iclası keçirilib.

Əvvəlcə Hərbi Prokurorluğun inzibati binasında yerləşən "Heydər Əliyev guşəsi"ndə Ulu Öndərin büstü önünə gül dəstələri düzülərək, nəhəng tarixi şəxsiyyətin parlaq xatirəsinə dərin ehtiram ifadə olunub.

Kollegiya iclasından öncə iştirakçılar Ümummilli Lider Heydər Əliyevin və canlarını Vətən uğrunda fəda etmiş bütün şəhidlərin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edib, qazilərə şəfa diləyiblər.

Çıxış edən Azərbaycan Respublikasının Baş prokuroru, I dərəcəli dövlət ədliyyə müşaviri Kamran Əliyev dünyaşöhrətli siyasətçi, xalqımızın və dövlətimizin xilaskarı Heydər Əliyevin mükəmməl siyasətini dövrün tələbləri ilə uzlaşdıraraq yüksək məharətlə davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə ötən 21 ildə ölkəmizdə bütün sahələrdə əldə olunmuş böyük uğurlardan danışıb. O, keçən ilin noyabr ayında uğurla keçirilən COP29 tədbirindən, iqlim konfransının əhəmiyyətindən bəhs edərək, milləti və dövləti qarşısındakı misilsiz xidmətləri ilə bütün liderlərdən seçilən dövlət başçımızın xalqın sonsuz sevgisini qazandığını xüsusi vurğulayıb. Baş prokuror Kamran Əliyev bildirib ki, əldə olunan uğurlarda Birinci vitse-prezident Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti mühüm əhəmiyyət kəsb edir.




Daha sonra hesabat məruzəsi ilə çıxış edən Baş prokurorun müavini, hərbi prokuror, ədliyyə general-leytenantı Xanlar Vəliyev müasir Azərbaycanın qurucusu Heydər Əliyevin sürətli inkişaf strategiyasını müasir müstəvidə uğurla reallaşdıran, xalqına xidmətdə digər liderlərə örnək olan Prezident İlham Əliyevin dühası sayəsində 2024-cü ildə ölkəmizin daha da qüdrətlənməsi və əhalinin rifahının yaxşılaşdırılması prosesinin davamlılığının təmin edilməsindən, eləcə də ötən il əldə edilən digər nailiyyətlərdən danışıb. Qazaxın 4 kəndinin bir güllə belə atılmadan, qan tökülmədən, diplomatik yolla və vasitəçisiz qaytarılması xüsusi vurğulanıb. Xanlar Vəliyev qeyd edib ki, Azərbaycanın çiçəklənməsinə Birinci xanım Mehriban Əliyevanın zəngin fəaliyyəti misilsiz töhfələr verir. Ədliyyə general-leytenantı Xanlar Vəliyev, həmçinin bildirib ki, Ümummilli Lider Heydər Əliyevin birinci dəfə hakimiyyətə gəlişinin 55 illiyi münasibətilə, Azərbaycan Prezidentinin 2023-cü il 25 dekabr tarixli Sərəncamı ilə Azərbaycanda 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə əlaqədar" Tədbirlər Planının müvafiq bəndinin icrası ilə bağlı, eləcə də hüquqi biliklər barədə maarifləndirmə ilə əlaqədar Hərbi Prokurorluq Orqanları tərəfindən üçü özünün iştirakı ilə olmaqla, Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının və Dövlət Təhlükəsizliyi Xidmətinin yüksəkrütbəli hərbi qulluqçuları, eləcə də müxtəlif dövlət qurumlarının, şəhər və rayonların rəhbər vəzifəli şəxsləri ilə birlikdə 21 tədbir keçirilib. Qeyd olunub ki, əvvəlki illərdə olduğu kimi, ötən ildə də qazilərə və şəhid ailələrinə xüsusi diqqət göstərilib, istər Hərbi Prokurorluqda, istərsə də yerlərdə onlarla görüşlər keçirilərək qayğıları ilə maraqlanılıb.

Hərbi prokuror Xanlar Vəliyev qeyd edib ki, 2024-cü ildə Hərbi Prokurorluq orqanlarının fəaliyyəti uğurlu olmaqla Silahlı Qüvvələrdə nizam-intizamın davamlılığına, cinayətkarlığın və digər hüquqazidd əməllərin qarşısının alınmasına, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsinə, insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasına yönəldilib. Vurğulanıb ki, qeydə alınan cinayətlərin, ümumilikdə, 98,8 faizi, o cümlədən bəzi qəbildən olan cinayətlərin 100 faizi açılıb.

Ədliyyə general-leytenantı Xanlar Vəliyev bildirib ki, insan hüquq və azadlıqlarının daha etibarlı müdafiəsi, nizam-intizamın və qanunçuluğun möhkəmləndirilməsi, eləcə də cinayətkarlığa qarşı mübarizə istiqamətində əldə olunan müsbət nəticələrdə Hərbi Prokurorluq orqanları ilə Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Daxili Qoşunlar və digər hərbi qurumlar, həmçinin qeyri-

hökumət təşkilatları arasında yaranan qarşılıqlı sağlam və işgüzar əlaqələrin də çox böyük əhəmiyyəti olub. Belə ki, hər il olduğu kimi, 2024-cü ildə də aidiyyəti dövlət orqanları ilə birgə hazırlanan müvafiq tədbirlər planları əsasında mütəmadi olaraq hərbi qulluqçularla görüşlər təşkil olunub, onların qayğı və problemləri ilə maraqlanılıb, həmçinin fərdi qəbullar keçirilib. Eyni zamanda, bayramlarda və digər əlamətdar günlərdə hərbi hissələrin dislokasiya olunduğu müvafiq rayonların icra hakimiyyəti orqanları ilə birgə hərbi qulluqçuların iştirakı ilə tədbirlər, o cümlədən bayram mərasimləri keçirilib və xidmətdə fərqlənənlərə hədiyyələr təqdim olunub. Silahlı










Qüvvələrdə ayrı-ayrı, xüsusən də ölümlə nəticələnən cinayətlərin qarşısının alınması məqsədilə, hər zaman olduğu kimi, hesabat dövründə məhkəmə və istintaq təcrübəsi ümumiləşdirilərək, müxtəlif vaxtlarda Respublika Hərbi Prokurorluğunun kollegiya iclaslarında silahlı birləşmələrin rəhbər vəzifəli şəxslərinin iştirakı ilə müzakirə edilib, kollegiyaların qərarlarına əsasən zəruri tədbirlərin görülməsi təmin olunub. Sözügedən istiqamətdə səmərəliliyi artırmaq məqsədilə aidiyyəti dövlət qurumları ilə birgə bir sıra digər işlər də görülüb.

Bütün bunların nəticəsində hesabat dövründə qeydə alınan cinayətlər əvvəlki illə müqayisədə ümumilikdə 19,3 faiz, qeyri-hərbi cinayətlər 21,5 faiz, hərbi xidmət əleyhinə olan cinayətlər isə 17,5 faiz azalıb.

Kollegiya iclasında, hesabat dövrü ərzində görülən müsbət işlərlə yanaşı, "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinə mənfi təsir göstərən hallar da ətraflı təhlil olunmaqla, onların aradan qaldırılması üçün zəruri tədbirlərin görülməsi, işin effektivliyinin daim artırılması tələb edilib.

Sonra məruzə ətrafında çıxışlar olub.

Kollegiya iclasına yekun vuran Baş prokuror Kamran Əliyev prokurorluq orqanları əməkdaşlarının Ulu Öndər Heydər Əliyevin milli maraqlara xidmət edən müdrik siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsində, onun rəhbərliyi ilə görülən böyük işlərdə və həyata keçirilən mütərəqqi islahatlarda yaxından iştirak edəcəklərini, dövlət müstəqilliyinin, ictimai-siyasi sabitliyin, əmin-amanlığın qorunması üçün əllərindən gələni əsirgəməyəcəklərini, doğma Azərbaycanın qüdrətlənməsinə xələl gətirə biləcək bütün hallara qarşı barışmaz mövqe tutacaqlarını, eləcə də qanunun aliliyinin təmin edilməsi naminə daha əzmlə çalışacaqlarını bildirib.

# Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Vyetnama səfər edib

Azərbaycan və Vyetnam arasında hüquqi əməkdaşlıq yeni mərhələyə yüksəlib.

2025-ci il 23-26 mart tarixlərində Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Vyetnamın Baş prokuroru Nquyen Tiyenin dəvəti ilə Hanoya işgüzar səfər edib.

Nümayəndə heyəti ölkəmizin Hanoydakı səfirliyinə gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstünü ziyarət edib, Ulu Öndərin əziz xatirəsi dərin ehtiramla yad olunub.





Səfər çərçivəsində, martın 24-də Vyetnam Sosialist Respublikasının Prezidenti Luonq Kuonq nümayəndə heyətini qəbul edib.

Baş prokuror yüksək qonaqpərvərliyə və səmimi qəbula görə təşəkkürünü ifadə edərək, Prezident İlham Əliyevin salamlarını Vyetnamın Kommunist Partiyasının Baş katibinə və ölkə prezidentinə çatdırıb.

Prezident Luonq Kuonq dövlətimizin başçısına salamlarına görə minnətdarlığını bildirib, onların da salamlarını Azərbaycan Prezidentinə çatdırmağı xahiş edib.

Görüşdə iki ölkə arasında dost münasibətlərin təməlinin hələ 1959-cu ildə Vyetnamın ilk prezidenti Ho Şi Minin ölkəmizə və 1983-cü ildə Ulu Öndər Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini qismində Vyetnama tarixi səfəri zamanı qoyulduğu qeyd edilərək, SSRİ dövründə Azərbaycanda 5 minədək vyetnamlının təhsil aldığı bildirilib.

Vurğulanıb ki, müstəqilliyin bərpasından sonra Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində Azərbaycan-Vyetnam əlaqələri dinamik inkişaf edib. Xüsusilə, 2014-cü ildə dövlət başçısının Vyetnama gerçəkləşdirdiyi dövlət səfərinin ikitərəfli münasibətlərin daha da möhkəmlənməsinə və etibarlı əməkdaşlıq səviyyəsinə yüksəlməsinə mühüm töhfə verdiyi vurğulanıb.

Səfər çərçivəsində, həmçinin, Vyetnamın Baş prokuroru Nquyen Tiyen ilə Ali Xalq Prokurorluğunda ikitərəfli görüş keçirilib.

Görüşdə Vyetnamın Baş prokuroru Azərbaycan ilə yüksələn xətlə inkişaf edən tərəfdaşlıq münasibətlərindən məmnunluğunu ifadə edib.





Prokurorluq orqanları arasında əməkdaşlığın genişlənməsini müsbət qiymətləndirən Nquyen Tiyen Vyetnam xalqının çətin dövrlərdə Azərbaycan xalqı tərəfindən göstərilən dəstəyi daim yüksək qiymətləndirdiyini və heç vaxt unutmayacağını vurğulayıb.

Xüsusilə vurğulanıb ki, 2023-cü ildə Vyetnamda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illiyi və Vyetnama tarixi səfərinin 40 illiyi, həmçinin Ho Şi Minin ölkəmizə səfərinin 65 illiyi təntənəli qeyd edilib.

Baş prokuror Kamran Əliyev səmimi qəbula və qonaqpərvərliyə görə minnətdarlığını bildirərək, hər iki ölkə liderlərinin siyasi iradəsi sayəsində əməkdaşlığın bütün sahələrdə uğurla inkişaf etdiyini qeyd edib.

O, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda, xüsusilə də prokurorluq sistemində həyata keçirilən genişmiqyaslı islahatlardan danışıb.

Baş prokuror bildirib ki, Azərbaycan ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdikdən sonra dövlətimizin başçısı və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı quruculuq və bərpa işləri həyata keçirilir.

Tərəflər hüquqi sahədə əməkdaşlığın genişləndirilməsi, ikitərəfli və çoxtərəfli formatda birgə fəaliyyətin səmərəliliyi, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq və hüquqi baza üzrə fikir mübadiləsi aparıblar.

Sonda Azərbaycan və Vyetnam Baş Prokurorluqları arasında hüquqi əməkdaşlığın daha da intensivləşdirilməsi məqsədilə Anlaşma Memorandumu imzalanıb. Bu sənəd iki ölkənin prokurorluq orqanları arasında hüquqi əməkdaşlığın inkişafına töhfə verməklə yanaşı, qarşılıqlı təcrübə mübadiləsinin genişləndirilməsinə xidmət edəcək.

Səfər çərçivəsində, martın 25-də isə Vyetnamın Ali Xalq Məhkəməsinin sədri Li Min Çi ilə ikitərəfli görüş keçirilib.

Li Min iki il əvvəl Vyetnamın Baş prokuroru olarkən Kamran Əliyevlə Sankt-Peterburqdakı görüşünü xatırladıb və iki ölkənin prokurorluqları arasında imzalanmış əməkdaşlıq haqqında memorandumun hüquq mühafizə orqanları arasında əməkdaşlıq üçün təkan rolunu oynayacağına əminliyini ifadə edib.

Baş prokuror Kamran Əliyev Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan ardıcıl hüquqi islahatlar barədə həmkarını məlumatlandırıb.

Baş prokuror Azərbaycan prokurorluğunun digər dövlətlərin hüquq mühafizə, həmçinin məhkəmə orqanları ilə sıx əməkdaşlıq etdiyini bildirərək, gələcəkdə Vyetnamın Ali Məhkəməsi ilə əməkdaşlığın genişlənməsi və qarşılıqlı təcrübə mübadiləsinin aparılmasının önəmini vurğulayıb.

Səfər çərçivəsində nümayəndə heyəti Kuannin əyalətinin prokurorluğunda da olub.

Əyalətin Baş prokuroru Luonq Pfuk Son prokurorluğun fəaliyyəti barədə məlumat verərək, ölkəmizin bölgə prokurorluqları ilə təcrübə mübadiləsində maraqlı olduqlarını bildirib.

Kamran Əliyev baş prokurorluqlar arasında imzalanmış sənədin ölkələrimizin region prokurorluqlarının qarşılıqlı səfərləri üçün faydalı olacağını qeyd edib.

Görüşlərdə Azərbaycan Respublikasının Vyetnam Sosialist Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Şövqi Mehdizadə də iştirak edib.

# Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Milli Aviasiya Akademiyası arasında əməkdaşlığın inkişafına dair Anlaşma Memorandumu imzalanıb

2025-ci ilin mart ayının 5-də Milli Aviasiya Akademiyasının (MAA) rektoru, akademik Arif Paşayev və Azərbaycan Respublikasının Baş prokuroru, hüquq üzrə fəlsəfə doktoru Kamran Əliyev arasında görüş keçirilib.

Görüşdə əməkdaşlıq haqqında 23 sentyabr 2020-ci il tarixində imzalanmış Saziş çərçivəsində MAA və Prokurorluq arasındakı səmərəli əlaqələri, kadr hazırlığı sahəsində qarşılıqlı fəaliyyətin əhəmiyyətini, habelə əldə olunan müsbət nəticələri nəzərə alaraq əməkdaşlığın daha da genişləndirilməsi məqsədilə müvafiq razılıq əldə olunub.

Memoranduma əsasən, prokurorluq orqanlarının əməkdaşlarının tədrisdə, MAA-nın professor-müəllim heyətinin isə Prokurorluğa qəbul olunan və fəaliyyətdə olan əməkdaşlarının ixtisasartırma prosesində iştirak etməsi, hüquqi və elmi maarifləndirmə istiqamətində birgə təlim kurslarının, seminar və mühazirələrin təşkili, "Hüquqşünaslıq" ixtisası üzrə bakalavr pilləsində təhsil alan tələbələrin Prokurorluqda ictimai köməkçi (könüllü) qismində, MAA-nın professor-müəllim heyətinin Prokurorluqda qanunvericilik aktlarının hazırlanması prosesinə cəlb edilməsi nəzərdə tutulur.











# Prokurorluq orqanlarında qulluğa yeni qəbul edilmiş gənc hüquqşünasların andiçmə mərasimi keçirilib



2024-cü il aprelin 15-də elan edilmiş 26-cı müsabiqə üzrə prokurorluq orqanlarında qulluğa yeni qəbul edilmiş gənc əməkdaşların cari il yanvarın 14-də Azərbaycan Respublikasının Baş Prokurorluğunda andiçmə mərasimi keçirilib.

Qulluğa yeni qəbul edilmiş gənc əməkdaşlar ilk öncə Fəxri xiyabana gəlib müstəqil Azərbaycanın qurucusu və memarı, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini yad edərək, məzarı önünə əklil qoyub.

Daha sonra gənc mütəxəssislər Şəhidlər xiyabanına gələrək ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarını fəda etmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib.

Tədbirdən öncə Baş Prokurorluğun rəhbərliyi xalqımızın Ulu Öndəri Heydər Əliyevin Baş Prokurorluğun inzibati binasındakı büstü önünə əklil və gül dəstələri qoyaraq unudulmaz xatirəsini ehtiramla yad edib.

Həmçinin, mərasimin əvvəlində ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, qazilərə şəfa dilənib.

Tədbirdə çıxış edən Baş prokuror Kamran Əliyev bildirib ki, xilaskarlıqdan qalibiyyətə yüksələn zəfər salnaməsinin memarı, Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu praqmatik siyasi kursun möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində uzun illərdən sonra ölkəmiz ərazi bütövlüyünü bərpa edərək inkişafının keyfiyyətcə yeni mərhələsinə qədəm qoyub.

Vurğulanıb ki, Prezident İlham Əliyevin rəhbərliyi və onun ən yaxın silahdaşı, Birinci Vitse-prezident Mehriban xanım Əliyevanın yaxından iştirakı ilə işğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işləri davam etdirilib, Ağdam, Cəbrayıl, Zəngilan və Şuşa rayonlarında ölkə rəhbəri tərəfindən kəndlərin və qəsəbələrin təməli qoyulmaqla, eyni zamanda çoxsaylı ictimai, iaşə, yaşayış, kommunikasiya obyektlərinin, o cümlədən Qarabağ Universitetinin açılışları olub.

Ümumilikdə işğaldan azad olunmuş rayon və şəhərlərimizə böyük qayıdış uğurla davam edib.

Qeyd edilib ki, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi respublikamızda gəncliyin inkişaf yoluna işıq salmaqla, gənclərin dövlət quruculuğunda və idarəçiliyində, bir sözlə, ictimai həyatın bütün sahələrində iştirak edən güclü sosial təbəqəyə çevrilməsini təmin edib.

Bu istiqamətdə Azərbaycan Respublikasının Birinci Vitse-prezidenti Mehriban xanım Əliyevanın dəstəyi ilə həyata keçirilən Dövlət Proqramları və digər çoxsaylı tədbirlər gənclərin təhsil, ailə, məişət, məşğulluq məsələlərinin həllində mühüm rol oynayıb, paytaxt və rayonlarda gənclərin asudə vaxtlarının səmərəli təşkili məqsədilə qabaqcıl infrastrukturun yaradılması gəncliyin uğurlu gələcəyinə hesablanıb.

Əminliklə vurğulanıb ki, müstəqil dövlətimizdə vətənpərvər, milli-mənəvi dəyərlərimizə sadiq, savadlı gənclik formalaşıb.

Bu gün şəffaf və ədalətli prosedurlar əsasında müsabiqə yolu ilə prokurorluq orqanlarında işləmək hüququ əldə etmiş gənclərin qazandığı uğurlar məhz Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulub və möhtərəm cənab Prezident İlham Əliyevin rəhbərliyi altında reallaşdırılan dövlət gənclər siyasəti nəticəsində mümkün olub.

Qeyd olunub ki, Baş Prokurorluq tərəfindən növbəti dəfə 15 aprel 2024-cü il tarixdə elan edilmiş 26-cı müsabiqənin nəticələri üzrə namizədlərin yüksək nə-

zəri biliklərə, geniş dünyagörüşünə, xarici dil biliklərinə, sağlam mənəviyyata, məntiqi düşünmə qabiliyyətinə və prokurorluqda işləmək üçün zəruri olan digər keyfiyyətlərə malik olmaları, o cümlədən prokurorluqda qulluq keçmək arzuları, prokurorluq orqanlarında mövcud olan vakant ştat vahidləri nəzərə alınmaqla, 56 gənc hüquqşünas qulluğa qəbul edilib.

Əlavə edilib ki, qulluğa qəbul olmuş həmin gənclərdən 2-si Vətən müharibəsinin iştirakçısı olmaqla, bundan sonra prokurorluq orqanlarında şərəfli xidmətlərini davam etdirəcəklər.

Qeyd edilib ki, 2020-ci ildə Vətən müharibəsinin başa çatmasından sonra keçirilmiş 5 müsabiqənin nəticələri üzrə müvəffəqiyyət qazanmış 23 nəfər Vətən müharibəsi iştirakçısı prokurorluq orqanlarında qulluğa qəbul edilib. Onlardan 2 nəfəri 2020-ci ildə, 10 nəfəri 2021-ci ildə, 6 nəfəri 2022-ci ildə, 3 nəfəri isə 2023-cü ildə, 2 nəfəri isə 2024-cü ildə elan edilmiş müsabiqə üzrə uğur qazanıb.

Daha sonra prokurorluqda qulluğa yeni qəbul olunmuş gənclərin vəzifələrə təyin edilməsi barədə Baş Prokurorluq üzrə müvafiq əmr elan edilib, işə qəbul olunanlar təntənəli surətdə and içib və onlara xidməti vəsiqələr Baş prokuror Kamran Əliyev tərəfindən təqdim olunub.







Prokurorluqda qulluğa yeni qəbul olunmuş gənclərdən Ülviyyə Nuriyeva və Qabil Əlizadə çıxış edərək, gənc mütəxəssislərə göstərilən dövlət qayğısına görə ölkə başısına öz minnətdarlıqlarını bildirərək, onlara göstərilən yüksək etimadı doğruldacaqlarına söz verib.

Tədbir iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət qəbul edilib.

Baş prokuror Kamran Əliyev mərasimə yekun vuraraq qulluğa qəbul olunan gənc prokurorluq əməkdaşlarını təbrik edib, prokurorluq işçisinin şərəfini həmişə uca tutacaqlarından əminliyini ifadə edib.

Sonda tədbir iştirakçıları ilə birlikdə xatirə fotoşəkli çəkdirilib.



# 20 Yanvar faciəsinin 35-ci ildönümü ilə əlaqədar prokurorluq əməkdaşları Şəhidlər xiyabanını ziyarət edib



Azərbaycan Respublikasının Baş Prokurorluğunun rəhbərliyi və kollektivi 20 Yanvar faciəsinin 35-ci ildönümü ilə əlaqədar Şəhidlər xiyabanını ziyarət edib.

Prokurorluq əməkdaşları şəhidlərimizin məzarları üzərinə gül dəstələri qoyub, ölkəmizin azadlığı uğrunda həlak olanların xatirəsini hörmət və ehtiramla yad edib.









# İstanbulun Baş prokuroru ölkəmizdə səfərdə olub

Baş prokuror Kamran Əliyevin dəvəti ilə İstanbul şəhərinin Baş prokuroru Akın Gürlekin rəhbərlik etdiyi nümayəndə heyəti 2025-ci il 30-31 yanvar tarixlərində Bakıda işgüzar səfərdə olub.

İlk öncə nümayəndə heyəti Fəxri Xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, eləcə də görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət edib. Şəhidlər xiyabanında olan qonaqlar Azərbaycanın müstəqilliyi uğrunda şəhid olan qəhrəman Vətən övladlarının xatirəsinə ehtiramlarını bildirərək, məzarları üzərinə gül dəstələri qoyublar. O cümlədən Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olmuş şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış “Türk Şəhidliyi” abidəsi ziyarət edilib.

Daha sonra Azərbaycan Respublikasının Baş Prokurorluğunda ikitərəfli görüş keçirilib. Görüş zamanı Kamran Əliyev dövlətlərimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafının dövlət başçıları cənab İlham Əliyev və cənab Rəcəb Tayyib Ərdoğanın birgə ciddi səyləri və sarsılmaz siyasi iradələri sayəsində strateji tərəfdaşlıq səviyyəsinə yük-











səldiyini qeyd edərək, ikitərəfli münasibətlərin bir çox istiqamətlərdə, xüsusilə də prokurorluqlar arasında uğurla inkişaf etdiyini bildirməklə, cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım və ekstradisiya sahəsində səmərəli əməkdaşlıqdan bəhs edib.

Baş prokuror Müzəffər Ali Baş Komandanın və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə Qarabağ və Şərqi Zəngəzurda sürətli bərpa və quruculuq işlərinin aparıldığını, türk şirkətlərin bu işdə yaxından iştirak etdiyini vurğulayıb.

Səmimi qəbula görə təşəkkürünü bildirən Akın Gürlek tarixən xalqlarımızın milli köklərə söykənən münasibətlərinin siyasi, iqtisadi, mədəni və digər sahələrdə də müvəffəqiyyətlə inkişaf etdirildiyini bildirərək bu əlaqələrin Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin “bir millət, iki dövlət”, Türkiyə dövlətinin qurucusu Mustafa Kamal Atatürkün “Azərbaycanın sevinci bizim sevincimiz, Azərbaycanın kədəri bizim kədərimizdir” kəlamları ilə dəqiq ifadə edildiyini vurğulayıb.

Görüşdə ikitərəfli və çoxtərəfli formatda birgə fəaliyyətin perspektivləri, o cümlədən Türk Dövlətləri Təşkilatı çərçivəsində hüquqi əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılıb, qarşılıqlı səmərəli fəaliyyətin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə olunub.

Baş Prokurorluğun Tarix muzeyində Azərbaycan Prokurorluğunun zəngin tarixi, Ulu Öndər Heydər Əliyevin həyat və yaradıcılığına həsr olunan guşə və eksponatlar, həmçinin qardaş ölkələrimiz arasındakı münasibətləri əks etdirən ekspozisiyalar qonaqlarda zəngin təəssürat oyadıb.

Nümayəndə heyəti Baş Prokurorluğun yeni inzibati binası və Zəfər muzeyi ilə tanış olaraq, prokurorluğun struktur qurumlarının rəhbərləri ilə görüş keçirib. Həmçinin qonaqlar Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin və Bakı şəhər prokurorluğunun fəaliyyəti ilə tanış olublar.

Səfər çərçivəsində türkiyəli prokurorlar Heydər Əliyev Mərkəzində görkəmli dövlət xadiminin həyat və fəaliyyətini əks etdirən stendlərlə, eləcə də İçərişəhərdə yerləşən UNESCO-nun Ümumdünya irs siyahısına daxil edilmiş tarixi-memarlıq abidələri ilə tanış olublar.



# Kürdəmir rayon prokurorluğunun yeni inzibati binasının açılış mərasimi keçirilib





2025-ci il fevralın 7-də Kürdəmir rayon prokurorluğunun yeni inzibati binası istifadəyə verilib.

Açılış mərasimində Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev iştirak edib.

Baş prokurorluğun rəhbərliyinin də iştirak etdiyi tədbirə, həmçinin digər dövlət və hüquq mühafizə orqanlarının əməkdaşları qatılıb.

Əvvəlcə Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək aziz xatirəsini ehtiramla yad edib.

Daha sonra yeni inzibati binanın foyesində Uu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri qoyularaq, dahi insanın unudulmaz xatirəsi dərin hörmət və ehtiramla yad edilib.

Digər dövlət və hüquq mühafizə orqanlarının əməkdaşlarının qatıldığı tədbiri giriş sözü ilə açan Baş prokuror Kamran Əliyev qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında başlanan və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən hüquq islahatları və hərtərəfli dövlət dəstəyi nəticəsində milli prokurorluq orqanlarının bu gün dünya standartlarına uyğun fəaliyyəti təşkil olunub.

Qeyd edilib ki, cəmiyyətdə özünəməxsus yer tutmaqla konstitusion statusa malik prokurorluq orqanları dövlət idarəetməsində mühüm əhəmiyyət daşıyır.

Vurğulanıb ki, "Konstitusiya və Suverenlik İli"-ndə prokurorluq orqanlarının yeni inzibati binasının istifadəyə verilməsi əlamətdar hadisədir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin prokurorluq orqanlarına göstərdiyi daimi diqqət və qayğıdan bəhs edən Baş prokuror dövlətə və dövlətçiliyə sadiq olan prokurorluq orqanlarının fəaliyyətin-









də qanunçuluğu rəhbər tutduğunu qeyd edib.

Kamran Əliyev prokurorluq orqanlarında aparılan kompleks islahatlar və sağlam iş mühitinin formalaşdırılması məqsədilə görülən məqsədyönlü tədbirlərdən söz açıb.

Yeni binanın istifadəyə verilməsini prokurorluq əməkdaşlarının əməyinə verilən yüksək qiymət kimi dəyərləndirən Baş prokuror Azərbaycan dövlətinin inkişafı naminə bundan sonra da böyük səylə çalışacaqlarını bildirərək kollektivə uğurlar arzu edib.

Tədbir zamanı, həmçinin, Kürdəmir rayon icra hakimiyyətinin başçısı Elxan İbrahimov çıxış edərək, yeni inzibati binanın təhvil verilməsi münasibətilə prokurorluq əməkdaşlarını təbrik edərək onlara uğurlar arzulayıb.

Kürdəmir rayon prokuroru Tural İbrahimov çıxış edərək, göstərilən diqqət və qayğıya görə minnətdarlığını ifadə edib, insan hüquq və azadlıqlarının müdafiəsi naminə rayon prokurorluğunun əməkdaşları ilə birgə yorulmaz fəaliyyət göstərəcəklərini qeyd edib.

Daha sonra iştirakçılar Kürdəmir rayon prokurorluğu üçün yeni tikilmiş binada yaradılan şəraitlə tanış olub.

Baş prokuror prokurorluq orqanlarının istifadəsinə verilmiş, müasir standartlara cavab verən və kriminalistik avadanlıqlarla təchiz olunmuş xidməti avtomobillərə baxış keçirib.

Sonda xatirə fotoşəkli çəkilib.



# Prokurorluq əməkdaşlarına və media qurumlarına mükafatlar təqdim olunub




2025-ci il fevralın 19-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 30 sentyabr 2024-cü il tarixli sərəncamı ilə təltif edilmiş, Baş Prokurorluqda xidməti vəzifələrini nümunəvi icra etdiklərinə görə Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən həvəsləndirilmiş, habelə “İlin ən yaxşı müstəntiqi”, “İlin ən yaxşı dövlət ittihamçısı” və “İlin ən yaxşı prokuroru” müsabiqələrinin qalibi olmuş prokurorluq işçilərinə, eləcə də “Prokurorluğun dostu” mükafatına layiq görülmüş media nümayəndələrinə mükafatların təqdim olunması ilə bağlı tədbir keçirilib.

Əvvəlcə I Qarabağ, 44 günlük Vətən müharibələri və Qarabağ iqtisadi rayonunda keçirilmiş antiterror tədbirləri zamanı Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyi uğrunda canından keçmiş şəhidlərimizin, həlak olmuş vətəndaşlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən Baş prokuror Kamran Əliyev tərəfindən geridə qalan 2024-cü ildə ölkəmiz üçün uğurlu olmaqla yanaşı, çoxsaylı əlamətdar hadisələrlə yadda qalması qeyd edilib, 2024-cü ilin əvvəllərində ölkə başçısı cənab İlham Əliyevin növbədənkənar prezident seçkilərində mütləq səs çoxluğu ilə qalib





gəlməsi, o cümlədən xilaskarlıqdan qalibiyyətə yüksələn zəfər salnaməsinin memarı, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu praqmatik siyasi kursun möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində ölkəmizin sürətli hərtərəfli inkişafının davam etməsi, ölkəmizin regional və beynəlxalq nüfuzunun daha da artması xüsusi vurğulanıb.



Qeyd olunub ki, Prezident İlham Əliyevin rəhbərliyi və onun ən yaxın silahdaşı, Birinci Vitse-prezident Mehriban xanım Əliyevanın yaxından iştirakı ilə işğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işləri uğurla davam etdirilməklə, ölkə rəhbəri tərəfindən kəndlərin və qəsəbələrin təməli qoyulmaqla, eyni zamanda çoxsaylı ictimai, iaşə, yaşayış, kommunikasiya obyektlərinin açılışları olub.

Qeyd edilib ki, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi respublikamızda gəncliyin inkişaf yoluna işıq salmaqla, gənclərin dövlət quruculuğunda və idarəçiliyində, bir sözlə, ictimai həyatın bütün sahələrində iştirak edən güclü sosial təbəqəyə çevrilməsini təmin edib.

Mərasim zamanı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 30 sentyabr 2024-cü il tarixli sərəncamı ilə təltif edilmiş prokurorluq əməkdaşlarına, habelə Baş prokurorun müvafiq əmri ilə xidməti vəzifələrini nümunəvi icra etməsinə görə həvəsləndirilmiş prokurorluq əməkdaşlarına mükafatlar təqdim olunub.

Daha sonra "İlin ən yaxşı müstəntiqi", "İlin ən yaxşı prokuroru" və "İlin ən yaxşı dövlət ittihamçısı" müsabiqələrinin təşkili və keçirilmə qaydaları barədə müvafiq olaraq Baş prokurorun birinci müavini Elçin Məmmədov, Baş prokurorun müavinləri Elmar Camalov və Heydər Məmmədov çıxışlar edərək ətraflı məlumatlar veriblər.

Müsabiqələrin nəticələrinə əsasən "İlin ən yaxşı müstəntiqi" seçilmiş Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin İstintaq idarəsinin mühüm işlər üzrə müstəntiqi Kənan Nəzərova, "İlin ən yaxşı dövlət ittihamçısı" seçilmiş Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin Apellyasiya instansiyası məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin Bakı Apellyasiya Məhkəməsi üzrə prokuroru Anar Ələkbərova və "İlin ən yaxşı prokuroru" seçilmiş Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin böyük prokuroru Yelena Qasımovaya Baş prokuror tərəfindən diplom və mükafatlar təqdim olunub.

Bundan başqa, tədbir çərçivəsində "Prokurorluğun dostu" təltifinə layiq görülmüş media qurumlarına mükafatların təqdim edilməsi mərasimi keçirilib.








Diqqətə çatdırılıb ki, prokurorluq orqanları tərəfindən cəmiyyətdə formalaşan yeni çağırışlara adekvat uyğunlaşma, o cümlədən vətəndaş məmnunluğunun və fəaliyyətdə aşkarlığın, hesabatlılığın və şəffaflığın təmin olunması məqsədilə media ilə işgüzar əlaqələrin möhkəmləndirilməsi prioritet vəzifələrdən biri hesab edilir.

Qeyd edilib ki, həmin tədbirlər çərçivəsində 2024-cü ilin yekunlarına əsasən prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı aşkarlıq və hesabatlılığın ictimaiyyətə operativ şəkildə çatdırılması, prokurorluq orqanları ilə media arasında operativ və səmərəli kommunikasiyanın qurulmasında fərqlənən "CBC" teleradio şirkətinin baş direktoru Vüqar Xəlilov, "Caliber.az" informasiya-analitik portalının baş redaktoru Timur Hüseynov və "Azərbaycan" qəzetinin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Bəxtiyar Əzizli "Prokurorluğun dostu" mükafatı ilə təltif olunub.

# Baş Prokurorluqda 8 Mart - Beynəlxalq Qadınlar Günü ilə bağlı tədbir keçirilib





2025-ci il martın 7-də Baş Prokurorluqda qadın prokurorluq işçilərinin, dövlət qulluqçularının, veteranların, habelə tədbirə qonaq qismində dəvət olunmuş Azərbaycan Respublikası Milli Məclisinin qadın deputatlarının və media nümayəndələrinin iştirakı ilə 8 Mart – Beynəlxalq Qadınlar Gününə həsr olunmuş tədbir keçirilib.

Tədbirdə çıxış edən Baş prokuror Kamran Əliyev tədbir iştirakçılarını təbrik edərək onların hər birinə fəaliyyətlərində uğur, yeni nailiyyətlər, sağlamlıq və ailə səadəti arzu edib.

Baş prokuror Kamran Əliyev bildirib ki, Azərbaycan qadını hər zaman cəmiyyətdə özünə məxsus, layiqli yer tutub. Biz bunun həm tariximizin müəyyən dönəmlərində, həm də ədəbi-bədii yaradıcılıq sahəsindəki irsimizdə şahidi oluruq. Tarixin bəzi astanalarında hər bir cəmiyyətdə olduğu kimi Azərbaycan qadını da müəyyən məhdudiyyətlər, qadağalarla üz-üzə qalsa da, lakin bununla bağlı ziyalılarımızın haqlı mübarizəsi sonda qadınlarımızın mövhumat təsirindən qurtulması, ən əsası təhsil və digər konstitusion hüquqlar əldə etməsi ilə nəticələnmişdir.

Xüsusi ilə qeyd edilib ki, Azərbaycanda qadınların hüquqlarının qorunması, onların ictimai fəallığının təşkili məsələsinə Ümummilli lider Heydər Əliyev tərəfindən daim həssaslıq və qayğı ilə yanaşılmışdır. İstər Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəldiyi dövrdən dövlət orqanlarında aparıcı vəzifələrdə, ictimai işlərdə qadınların irəli çəkilməsi, istərsə də, 1993-cü ildən sonrakı dövrdə 14 yanvar 1998-ci il tarixdə “Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Dövlət Komitəsinin yaradılması haqqında”

və 06 mart 2000-ci il tarixdə "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" və digər Fərmanların imzalanması buna əyani misaldır.

Azərbaycan qadınına münasibətdə qeyd olunan diqqət və qayğının nümayişi hazırda Prezident cənab İlham Əliyev tərəfindən də uğurla davam etdirilməkdədir. Ölkədə gender bərabərliyinin təmini, cəmiyyətin bütün sferalarında qadınların hüquqlarının təmin olunması və onların inkişafı, cəmiyyətdəki mövqelərinin möhkəmləndirilməsi üçün görülən işlər bütün bu deyilənlərə bariz nümunədir.

Kamran Əliyev çıxışı zamanı həmçinin gördüyü işlərlə Azərbaycan Qadını adını yüksəklərə qaldıran, öz sadəliyi, təvazökarlığı, səmimiliyi, vətəninə və xalqına bağlılığı, eləcə də insanlığın təntənəsinə xidmət edən təşəbbüsləri və saysız-hesabsız xeyirxah əməlləri ilə seçilən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın uğurlu fəaliyyəti və gördüyü işlərdən də bəhs edib.





Daha sonra qadınların cinayətkarlığa qarşı mübarizə, o cümlədən ədalət mühakiməsinin həyata keçirilməsindəki rolundan danışan Baş prokuror Kamran Əliyev Azərbaycan Qadınının peşə spesifikliyinə və xidməti fəaliyyət zamanı üzləşdikləri bütün çətinliklərə baxmayaraq, bu sahədə də uğurlu nəticələr









əldə etdiklərini, peşəkarlıq nümayiş etdirməklə öz vəzifələrinin öhdəsindən layiqincə gəldiklərini qeyd edib.

Hazırda prokurorluq işçisi olan qadınlardan 127 nəfərin müsabiqə yolu ilə işə qəbul edilməsi vurğulanmaqla onlardan 12 nəfərin rəhbər vəzifədə, o cümlədən 1-nin Baş Prokurorluqda idarə rəisi, 5-nin idarə rəisinin müavini, 1-nin şöbə rəisi, 4-nün rayon prokuroru və 1-nin isə rayon prokurorunun müavini vəzifəsində çalışdıqları bildirilib.

Tədbirdə Milli Məclisin deputatı, Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, Mədəniyyət telekanalının direktoru Dilarə Səlim, Prokurorluğun veteranı Səmayə Seyfullayeva, Qaradağ rayon prokurorunun köməkçisi Mədinə Paşayeva, Baş Prokurorluğun İstintaq idarəsinin böyük məsləhətçisi vəzifəsini icra edən Nurlanə Babayeva çıxış edərək göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə edib, dövlətimizin başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə ictimai həyatın bütün sahələrində gender bərabərliyinin inkişaf etdirilməsi üçün mühüm işlər görüldüyü, Azərbaycan Qadınının cəmiyyətin bütün sferalarında hüquq və azadlıqlarının müdafiə edildiyi, inkişafı üçün şərait yaradıldığı, həyata keçirilən bu siyasətin, o cümlədən prokurorluq orqanlarında da uğurla davam etdirildiyi vurğulanıb.

Baş prokuror tərəfindən bir qisim tədbir iştirakçısına mükafatlar təqdim olunduqdan sonra, "Prokurorluqda qadın gücü" adlı sənədli-bədii qısametrajlı film nümayiş etdirilib.





# Baş prokuror İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiyanın (İCMP) Baş direktoru ilə görüşüb



Martın 11-də Baş prokuror Kamran Əliyev İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiyanın (İCMP) Baş direktoru Katrin Bomberger ilə görüşüb.

Qonaqları salamlayan Baş prokuror rəhbərlik etdiyi qurumla İCMP arasında 2023-cü ildən etibarən müsbət əməkdaşlıq əlaqələrinin formalaşdığını qeyd edərək Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələri ilə prokurorluq orqanlarında aparılan genişmiqyaslı islahatlar barədə məlumat verib.

Ermənistanın ölkəmizə hərbi təcavüzü nəticəsində itkin düşmüş 3983 azərbaycanlının işgəncələrə məruz qalaraq öldürülüb kütləvi məzarlıqlarda basdırıldığını, bu günə kimi onların taleyinə aydınlıq gətirilmədiyi vurğulanaraq Ermənistan tərəfindən müfəssəl məlumatların təqdim edilmədiyi qeyd olunub.

Qəbula görə təşəkkürünü ifadə edən Katrin Bomberger Azərbaycanda itkin düşmüş şəxslər üzrə məlumat bazasının yaradılması, hüquqi bazanın genişləndirilməsi, yerli mütəxəssislərin peşəkarlığının artırılması və müasir laboratoriyaların tikilməsi işlərinə Komissiyanın töhfə verə biləcəyini bildirərək, son illər ölkəmiz tərəfindən bu istiqamətdə görülən işləri yüksək qiymətləndirib.

Səmərəli diskussiya formatında keçirilmiş görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Baş Prokurorluqda aktual hüquqi problemlərin həlli üçün yeni təkliflər müzakirə edilib






2025-ci il martın 13-də hüquq üzrə tanınmış simalarla təmsil olunan Baş prokuror yanında Elmi-Məsləhət Şurasının növbəti iclası keçirilib.

İclası açıq elan edən Baş prokuror Kamran Əliyev vurğulayıb ki, dövlətimizin başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrin təkmilləşdirilməsinə istiqamətləndirilmiş geniş miqyaslı islahatedici tədbirlər ölkə qanunvericiliyinin müasir tələblərə cavab verməsini mütləq edir.

Çıxışda qeyd edilib ki, ilk növbədə hüquq-mühafizə sahəsində fəaliyyət göstərən dövlət məmurları təcrübədə rastlaşdıqları hüquqi problemləri dərindən təhlil etməli, onların optimal həlli yollarını müəyyən etməli və hüquq ictimaiyyətinin müzakirəsinə çıxarmalıdırlar.

İclasda peşə səhlənkarlığına görə cinayət məsuliyyətinin müəyyən edilməsi, vergi və “qara mühasibatlıq” sənədlərinin ekspertizası zamanı yaranan fikir ayrılıqları və ziddiyyətlər, habelə milli və xarici valyutadan istifadə etməklə törədilən müxtəlif kateqoriya cinayətlər üzrə pul vəsaitlərinin cinayətin alət və vasitəsi kimi qiymətləndirilməsində olan problemlər müzakirəyə çıxarılıb.

İclas çərçivəsində Baş Prokurorluğun Elm-Tədris Mərkəzi tərəfindən hazırlanmış “Milli və beynəlxalq qanunvericiliyin kontekstində: etik davranış qaydaları və şəxsi həyat anlayışı” adlı məcmuənin, eləcə də Ədliyyə, gömrük və vergi orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi ilə birgə hazırlanmış “Məhkəmənin hökmünü, qərarını, yaxud digər aktını icra etməmə əməlinin cinayət-hüquqi xarakteristikası və istintaq təcrübəsi” adlı metodiki vəsaitin təqdimatları keçirilib.

Baş prokuror yanında Elmi-Məsləhət Şurasının iclasında qaldırılan məsələlərə dair ətraflı müzakirələr aparılıb, Şura üzvlərinin rəy və təklifləri dinlənilib, təqdimatları keçirilmiş vəsaitlər maraqla qarşılanıb.













## 2025-ci il martın 17-də Baş prokuror Kamran Əliyev və Baş Prokurorluğun rəhbərliyi, o cümlədən prokurorluq əməkdaşları və prokurorluğun veteranları Azərbaycan Dövlət Akademik Musiqili Teatrının təqdimatında Novruz Bayramına həsr olunmuş konserti izləyib










# OECD-nin Şərqi Avropa və Mərkəzi Asiya üçün Anti-Korrupsiya Şəbəkəsinin ekspertləri tərəfindən ölkəmizdə bir sıra dövlət orqanları və digər qurumların iştirakı ilə bu sahənin qiymətləndirilməsi həyata keçirilib







Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tövsiyə və tapşırıqlarına uyğun olaraq ölkəmiz bir sıra nüfuzlu beynəlxalq təşkilatlarla, o cümlədən İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üçün Anti-Korrupsiya Şəbəkəsi ilə səmərəli əməkdaşlıq əlaqələrini davam etdirir.

Bu əməkdaşlıq çərçivəsində Azərbaycan Respublikası 2006-2010-cu illərdə OECD-nin I, 2010-2013-cü illərdə II, 2013-2016-cı illərdə III, 2016-2019-cu illərdə isə IV Monitorinq mərhələlərindən uğurla keçərək uyğunluq hesabatları əldə edib. Bu qiymətləndirmə prosesləri çərçivəsində milli qanunvericiliyin beynəlxalq standartlara inteqrasiyası, dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması və vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi istiqamətində mühüm dəyişikliklər həyata keçirilib.

Uğurlu tərəfdaşlığın davamı olaraq, Şərqi Avropa və Mərkəzi Asiya üçün Anti-Korrupsiya Şəbəkənin İstanbul Fəaliyyət Planının icrası çərçivəsində və 2022-2026-cı illəri əhatə edən V raund dəyərləndirmə prosesi əsasında, ölkəmizdə anti-korrupsiya sahəsində həyata keçirilmiş tədbirlərə müvafiq nəzarət prosedurunun icrası məqsədilə Şəbəkənin ekspertlərindən ibarət nümayəndə heyəti cari ilin 17-19 mart tarixində Bakı şəhərinə səfər ediblər.

Nümayəndə heyətini qəbul edən OECD-nin monitorinq mexanizmi üzrə Milli Koordinator – Baş prokuror Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə demokratik və hüquqi dövlət quruculuğu yolunu tutan ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən ardıcıl və sistemli tədbirlər barədə ətraflı məlumat verib, korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın əhəmiyyətini vurğulayaraq, OECD ilə uğurlu əməkdaşlığın nəticəsi kimi həmin təşkilatın tövsiyələri əsasında milli qanunvericilikdə mütərəqqi dəyişikliklər edilməsini ekspert heyətinin diqqətinə çatdırıb və hazırkı qiymətləndirmə prosesinin hüquqi bazanın təkmilləşdirilməsində mühüm rol oynadığını qeyd edib.









Bundan sonra Təşkilatın Şərqi Avropa və Mərkəzi Asiya üçün Anti-Korrupsiya Şəbəkəsinin meneceri və Ekspertlər Qrupunun rəhbəri xanım Olqa Savran və digər ekpertlər dəyərləndirmə missiyasının yüksək səviyyədə təşkil edildiyini qeyd edərək Azərbaycanla təşkilat arasında uzunmüddətli əməkdaşlıq əlaqələrinin mövcudluğunu və bütövlükdə Azərbaycanın qurumun fəaliyyətinə mühüm töhfələr verməsini vurğulayıb, yaradılmış işgüzar şəraitə görə Azərbaycan tərəfinə təşəkkürünü bildirib, səmərəli müzakirələr nəticəsində əldə edilmiş məlumatlar əsasında ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində müşahidə edilən müsbət tendensiyalardan bəhs edib, OECD tövsiyələrinin icra vəziyyətindən danışıblar.

Səfər zamanı ekspertlər korrupsiyaya qarşı mübarizə siyasəti, vəzifəli şəxslərin fəaliyyətində maraqlar toqquşmasının qarşısının alınması, dövlət satınalmaları və biznes sektorunda şəffaflığın və dürüstlük standartlarının tətbiqi, məhkəmə və prokurorluğun müstəqilliyi, korrupsiya cinayətlərinin ibtidai araşdırması, eləcə də cinayət yolu ilə əldə edilmiş əmlakların bərpası kimi bir çox sahələrdə görülmüş işlərlə yaxından tanış olublar.

Müzakirələrdə Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası, Baş Prokurorluğun müxtəlif struktur bölmələri və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi, Milli Məclis, Nazirlər Kabineti, Məhkəmə-Hüquq Şurası, Ədliyyə, İqtisadiyyat və Maliyyə nazirlikləri, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti daxil olmaqla, 20-dən çox dövlət qurumunun nümayəndələri, məhkəmə hakimləri, vətəndaş cəmiyyətinin təmsilçiləri, eləcə də dövlətin nəzarət səhm zərfinə sahib olduğu təsərrüfat subyektlərinin nümayəndələri iştirak edərək ekspertlərin suallarını cavablandırıblar.

Səfər çərçivəsində toplanmış məlumatlar əsasında yekun ölkə hesabatının hazırlanaraq cari ilin iyul ayında keçiriləcək müzakirələrdə qəbul edilməsi nəzərdə tutulur.

## Baş prokurorun yerlərdə qəbulları

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.**

### SALYAN








2025-ci il yanvarın 10-da Baş prokuror Kamran Əliyev Salyan rayon prokurorluğunun inzibati binasında Salyan, Biləsuvar, Neftçala, Hacıqabul rayon, Şirvan şəhər və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 41 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

### QARADAĞ






2025-ci il yanvarın 23-də Baş prokuror Kamran Əliyev Qaradağ rayon prokurorluğunun inzibati binasında Bakı şəhərinin Qaradağ rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbulda iştirak edən 25 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

## ZƏRDAB







2025-ci il fevralın 7-də Baş prokuror Kamran Əliyev Zərdab rayon prokurorluğunun inzibati binasında Zərdab, Ucar, Kürdəmir, Ağdaş, Ağcabədi, Bərdə rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 46 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

## XƏZƏR




2025-ci il fevralın 14-də Baş prokuror Kamran Əliyev Xəzər rayon prokurorluğunun inzibati binasında Bakı şəhərinin Xəzər, Pirallahı rayonları və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbulda iştirak edən 22 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

## BEYLƏQAN








2025-ci il martın 4-də Baş prokuror Kamran Əliyev Beyləqan rayon prokurorluğunun inzibati binasında Beyləqan, Füzuli, İmişli, Sabirabad, Saatlı, Xocavənd, Cəbrayıl rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 25 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

## SURAXANI






2025-ci il martın 11-də Baş prokuror Kamran Əliyev Bakı şəhəri Suraxanı rayon prokurorluğunun inzibati binasında Suraxanı rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbulda iştirak edən 17 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

**Qəbuldan sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb, eləcə də prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olaraq işin daha da təkmilləşdirilməsi və səmərəliliyin artırılmasına dair təklifləri dinləyib.**

# “Konstitusiya və Suverenlik İli: gənclərin hüquqi dövlət quruculuğunda yeri və rolu” adlı konfrans keçirilib







Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin təşkilatçılığı ilə 2025-ci ilin fevral ayının 12-də keçirilmiş “Konstitusiya və Suverenlik ili: gənclərin hüquqi dövlət quruculuğunda yeri və rolu” adlı konfransda Bakı Dövlət Universiteti, Dövlət İdarəçilik Akademiyası, Milli Aviasiya Akademiyası, ADA Universiteti, Naxçıvan Dövlət Universiteti, Qarabağ Universiteti, Daxili İşlər Nazirliyinin Polis Akademiyası, Daxili Qoşunların Hərbi İnstitutu, Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyası, Milli Müdafiə Universitetinin Heydər Əliyev adına Hərbi



İnstitutu, Fövqəladə Hallar Nazirliyinin Akademiyası, Dövlət Gömrük Komitəsinin Akademiyasının tələbə və kursantları, habelə onların müəllim heyətləri iştirak ediblər.

Konfrans Ulu Öndər Heydər Əliyevin və şəhidlərin əziz xatirəsinin yad edilməsi, dövlət himninin səsləndirilməsi və xalqımızın Ümummilli Liderinin 1997-ci ildə gənclərə etdiyi müraciəti ilə (video formatda) başlanıb.

Tədbir çərçivəsində prokurorluq işçilərinin, təhsil ocaqlarının nümayəndələrinin, habelə tələbə və kursantların “Heydər Əliyev – müstəqil Azərbaycan Konstitusiyasının müəllifi”, “Dövlətçiliyi qoruyan dəyərlər: demokratik ənənələr və milli birlik”, “Dövlət təhlükəsizliyinin təmin edilməsinin prioritetləri”, “Dövlət suverenliyinin təmin olunması və vətənpərvər Azərbaycan gəncliyi”, “Müharibə dövründə insan hüquqlarının müdafiəsi”, “Suverenliyin qorunmasında diplomatiyanın rolu” və digər mövzularda çıxışları dinlənilib.

Həmçinin konfransda Baş Prokurorluğun Elm-Tədris Mərkəzi tərəfindən hazırlanmış “Prokurorluq orqanlarında peşə hazırlığı işinin təşkili” adlı metodiki

vəsaitin təqdimatı keçirilib, tədbir iştirakçıları üçün müvafiq məlumat verilərək 2024-cü il ərzində Beynəlxalq Prokurorlar Assosiasiyası, COP29, Türk Ədliyyə Təlim Şəbəkəsi çərçivəsində Bakı şəhərində təşkil edilmiş tədbirlərin, eləcə də Baş Prokurorluğun Elm-Tədris Mərkəzində keçirilmiş İnteraktiv yarışın videoçarxları nümayiş etdirilib.

Tədbirin bədii hissəsində Milli Aviasiya Akademiyasının və Dövlət Gömrük Komitəsi Akademiyasının istedadlı tələbələrinin milli vətənpərvərlik ruhunda şerləri, musiqiləri və mahnıları seyr edilib.










## Qanunsuz miqrasiyanın təşkili cinayətinin istintaq metodikası prokurorluq işçilərinə tədris edilib




2025-ci il fevralın 10-dan 18-dək prokurorluq işçiləri üçün "Qanunsuz miqrasiyanın təşkili ilə bağlı məlumatlar üzrə istintaq-araşdırma təcrübəsi" mövzusunda distant formada sərbəst rejimdə növbəti kurs təşkil edilib.

Tədris tədbirində Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin müvafiq sahədə təhlil aparmış işçiləri təlimçi qismində iştirak edib.

Tabe rayon (şəhər) prokurorluqlarının 70-dən çox əməkdaşının dinləyici olduğu təlim zamanı məşğələlər elektron mühazirə formatında keçirilib.

Qanunsuz miqrasiyanın qarşısının alınması sahəsində görülən tədbirlər, ölkəmizin miqrasiya sahəsində beynəlxalq əməkdaşlığı, qanunsuz miqrasiyanın təşkili ilə bağlı məsuliyyəti müəyyən edən normativ hüquqi aktlar, bu növ cinayətin tərkib elementləri, istintaq təcrübəsi və digər aktual məsələlər tədris obyekti olub.

## Prokurorluq, ədliyyə və vergi orqanlarının əməkdaşları üçün kurs təşkil edilib

Cari il fevralın 26 və 27-si tarixlərində "Məhkəmənin hökmünü, qərarını, yaxud digər aktını icra etməmə əməlinin istintaq təcrübəsi" mövzusunda kurs təşkil edilib.



Tədbirə təlimçi qismində Baş Prokurorluğun Ədliyyə, gömrük və vergi orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin, habelə Elm-Tədris Mərkəzinin təcrübəli əməkdaşları, dinləyici qismində isə prokurorluq, ədliyyə və vergi orqanlarının ümumilikdə 44 əməkdaşı cəlb edilib.

Mühazirə, təqdimat və dəyirmi masa formatında keçirilmiş kursda məhkəmə qərarlarının icra olunmamasının cinayət-hüquqi xarakteristikası, bu sahədə xarici ölkələrin təcrübəsi, sözügedən cinayətin istintaq metodikası, eləcə də digər əlaqəli məsələlər tədris obyekti olub.



Kurs zamanı dinləyicilər tədris edilmiş mövzulara maraq göstərib, onları maraqlandırılan suallar təlimçilər tərəfindən ətraflı cavablandırılıb.

# 2025-ci il fevralın 27-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə “Qadın iştirakçılığının təbliği” mövzusuna həsr olunan konfrans keçirilib




Konfransı giriş nitqi ilə açan Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova qeyd edib ki “Azərbaycan hüquq və qanuna, bərabərlik hüququna əməl edərək vətəndaşlarının təhlükəsizliyi və hüquqlarının təminatını beynəlxalq standartlara əməl edərək həyata keçirib. Biz bütün fəaliyyətimizdə xalqımızın istəklərinə, dövlətimizin iradəsinə söykənərək qərar veririk. Bugünkü müstəqil Azərbaycan dövləti Azərbaycan xalqının ən böyük sərvətidir.”

Tədbirdə hökumət və dövlət nümayəndələri, millət vəkilləri, vətəndaş cəmiyyəti üzvləri, ictimai-siyasi xadimlər iştirak edərək və müxtəlif mövzularda çıxışlar və panel müzakirələrində fikir mübadilələri aparıblar.

Tədbirdə Baş prokurorluğun nümayəndəsi qismində iştirak edən Baş Prokurorluğun Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəisi Aynur Osmanova “Ailə institutu: cəmiyyət və dövləti birləşdirən harmonik münasibətlər sistemi” mövzusunda çıxış edib.



# Təhsil işçiləri üçün regionlarda korrupsiyaya qarşı mübarizəyə həsr edilmiş təlimlər keçirilib

Baş Prokurorluq tərəfindən müxtəlif dövlət qurumlarında korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi ilə bağlı maarifləndirici tədbirlər keçirilir.



Cari ilin martın 11-də Sumqayıt şəhərində Abşeron-Xızı Regional Təhsil İdarəsinin, martın 14-də isə Quba Heydər Əliyev Mərkəzində Quba-Xaçmaz Regional Təhsil İdarəsinin əməkdaşları üçün “Antikorrupsiya davranış modelinin formalaşdırılması” mövzusu üzrə təlimlər keçirilib.












Baş Prokurorluğun peşəkar əməkdaşlarının təlimçi qismində iştirak etdiyi tədbirlər çərçivəsində dinləyicilərə təhsil sahəsində korrupsiya hüquqpozmalarına qarşı qabaqlayıcı tədbirlərin əhəmiyyəti, korrupsiyanın mahiyyəti və onun cəmiyyətə təsiri, korrupsiyaya qarşı mübarizə sahəsində preventiv tədbirlərin nəticəsi və digər aktual məsələlər tədris edilib.

Təlimlər zamanı dinləyicilərin sualları ətraflı cavablandırılıb.

# Prokurorluq işçiləri ekoloji hüquqpozmalarla mübarizə sahəsində tədrisə cəlb edilib

Ölkəmizin COP29-a sədrliyi ilə əlaqədar prokurorluq orqanları tərəfindən müxtəlif tədbirlər keçirilir.

Bu çərçivədə, cari il martın 10-dan 18-dək Baş Prokurorluğun Elm-Tədris Mərkəzində prokurorluq işçiləri üçün "Ətraf mühitin mühafizəsi və ekoloji hüquqpozmalarla mübarizə" mövzusunda distant təlim keçirilib.

Elektron mühazirə formatında keçirilmiş təlimdə ətraf mühitin mühafizəsinin qanunverici əsasları, təbiətdən istifadə və ekoloji təhlükəsizlik qaydaları əleyhinə olan xətalara görə inzibati məsuliyyət, ekoloji cinayətlərə görə cinayət məsuliyyəti və digər aktual məsələlər tədris obyekti olub.






# Azərbaycan Respublikası Hərbi Prokurorluğunun təşkilatçılığı ilə hərbi hissələrdə Gənclər Günü ilə bağlı tədbirlər keçirilib



Hərbi hissələrdə 2 Fevral – Gənclər Günü ilə bağlı birgə tədbirlər keçirilib. Tədbirlərdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin və şəhidlərin əziz və unudulmaz xatirələri yad edilib.

Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin və Hərbi prokuroru Xanlar Vəliyevin təbrikləri, eləcə də tövsiyələri şəxsi heyətə çatdırılıb.







Sonra çıxışçılar Ümummilli Liderin təməlini qoyduğu və hazırda uğurla davam etdirilən dövlət gənclər siyasətindən, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin gənclərimizə verdiyi dəyərdən, Birinci vitse-prezident Mehriban xanımın göstərdiyi dəstəkdən danışıblar.

Daha sonra hərbçilər qarşısında hüquqi maarifləndirici mühazirələr oxunub, onların qayğı və problemləri ilə maraqlanılıb.

# Hərbi Prokurorluqda Xocalı soyqırımının 33-cü ildönümü ilə əlaqədar elmi-praktik konfrans keçirilib





2025-ci il fevralın 25-də Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda Xocalı soyqırımının 33-cü ildönümü ilə əlaqədar elmi-praktik konfrans keçirilib.

Hərbi Prokurorluğun inzibati binasında yerləşən və onun nəzdində fəaliyyət göstərən Soyqırımı Memorial Muzeyində baş tutan tədbirdə Hərbi Prokurorluğun əməkdaşları, deputatlar, habelə ictimaiyyət və media nümayəndələri iştirak ediblər.

Əvvəlcə Hərbi Prokurorluğun inzibati binasında yerləşən "Heydər Əliyev guşəsi"ndə Ümummilli Liderin büstü önünə gül dəstələri düzülərək, parlaq xatirəsinə dərin ehtiram ifadə olunub.

Konfransdan öncə Ulu Öndər Heydər Əliyevin, bütün şəhidlərin, o cümlədən Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfrans iştirakçıları Soyqırımı Memorial Muzeyini ziyarət edib, onlara muzey və orada saxlanılan tarixi həqiqətləri, o cümlədən Xocalı soyqırımı haqqında reallığı əks etdirən eksponatlar barədə ətraflı məlumat verilib, həmçinin Xocalı soyqırımı qurbanları haqqında məlumatların əks olunduğu slayd nümayiş etdirilib.

Bundan sonra konfransı açıq elan edən Azərbaycan Respublikası Baş prokurorunun müavini – Azərbaycan Respublikasının hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin əldə etdiyi uğurlardan, o cümlədən tarixi torpaqlarımızın işğaldan azad olunmasından, həmin ərazilərdə həyata keçirilən abadlıq-quruculuq işlərindən bəhs edib. Hərbi prokuror Xanlar Vəliyev bildirib ki, əldə edilən uğurlara Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın zəngin fəaliyyəti töhfələr verməkdədir.

Ədliyyə general-leytenantı Xanlar Vəliyev konfrans iştirakçılarının diqqətini Xocalı soyqırımına yönəltməklə, həmin dəhşətli gecədə baş verənlərdən, hadisələrin necə cərəyan etməsindən ətraflı danışaraq, bütün bunların Azərbaycan Respublikasının Baş Prokurorluğunda və Hərbi Prokurorluğunda istintaq olunmuş cinayət işinin materiallarında toplanmış mötəbər dəlillərlə sübuta yetirildiyini bildirib.






Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Xocalı soyqırımına ilk dəfə siyasi və hüquqi qiymət verildiyini vurğulayan hərbi prokuror Xanlar Vəliyev tarixi torpaqlarımızın işğal olunması, Azərbaycan xalqına qarşı törədilən deportasiyalar, soyqırımlar, terrorlar və insanlığa sığmayan vəhşiliklərlə törədilmiş digər cinayətlər barədə ətraflı məlumat verib. Qeyd edib ki, bu barədə tarixi reallıqların dünya ictimaiyyətinə çatdırılması, onlara beynəlxalq səviyyədə obyektiv və ədalətli, yəni, həqiqətə və milli maraqlarımıza uyğun münasibət bildirilməsinə müvəffəq olunması Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin həyata keçirdiyi mükəmməl siyasətin, o cümlədən uğurlu xarici siyasətin, eləcə də dövlətimizin başçısının müstəsna xidmətlərinin, müdrik liderin səlis cümlələrlə və tarixi faktlara əsaslanan məntiqli fikirlərlə zəngin çıxışlarının və müsahibələrinin nəticəsidir.

Ötən əsrin ən dəhşətli faciələrindən biri olan Xocalı soyqırımı barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasının son dərəcə mühümlüyünü qeyd edən ədliyyə general-leytenantı Xanlar Vəliyev Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə bu istiqamətdə görülən işlər, o cümlədən Heydər Əliyev Fondunun səmərəli fəaliyyəti barədə tədbir iştirakçılarına geniş məlumat verib.

Hərbi prokuror Xanlar Vəliyev Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən “Xocalıya ədalət!” kampaniyasından, o cümlədən Xocalı soyqırımı haqqında doğru və dolğun məlumatların bütün dünyaya yayılması ilə bağlı yorulmaz fəaliyyətindən söz açıb.

Ədliyyə general-leytenantı Xanlar Vəliyev qeyd edib ki, Azərbaycan Respublikasının işğal altında olmuş ərazilərində törədilmiş müharibə, terrorçuluq cinayətlərinin, o cümlədən Xocalı soyqırımının və digər cinayətlərin istintaqı və onlara hüquqi qiymət verilməsi, həmin cinayətlərin təşkili və törədilməsində iştirak etmiş şəxslərin müəyyən edilib, mövcud qanunvericiliyə əsasən cinayət məsuliyyətinə cəlb edilməsi, habelə beynəlxalq hüquq normalarının kobud şəkildə pozulması faktları ilə bağlı beynəlxalq təşkilatlar qarşısında müvafiq vəsatətlər qaldırılması məqsədi ilə istintaq-əməliyyat qrupu yaradılıb, 2005-ci il 5 may təşəbbüsü əsasında həmin cinayət işinin istintaqı ibtidai araşdırmaya prosessual rəhbərlik Respublika hərbi prokuroruna həvalə edilməklə, Azərbaycan Respublikasının Hərbi Prokurorluğuna tapşırılıb və iş uzun müddət Hərbi Prokurorluqda istintaq olunub.

Cinayət işi Hərbi Prokurorluqda istintaq olunduğu müddətdə 81 mindən artıq istintaq

hərəkəti icra edilib, o cümlədən 29 mindən artıq şəxs zərərçəkmiş şəxs və zərərçəkmiş şəxsin hüquqi varisi qismində tanınaraq dindirilib, 30 mindən artıq şəxs şahid qismində dindirilib, 18 mindən artıq şəxs mülki iddiaçı qismində tanınıb, 4000-ə yaxın müxtəlif növ ekspertizalar keçirilib, 34 minə yaxın prosessual qərarlar qəbul edilib və digər çoxsaylı istintaq hərəkətləri həyata keçirilib.



Cinayət işinin Hərbi Prokurorluqda istintaqı zamanı konkret olaraq Xocalı epizodu üzrə sülh və insanlıq əleyhinə cinayətlər törətmələri sübuta yetirilmiş 40 şəxsin barəsində onların Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 103-cü (Soyqırımı), 107-ci (Əhalini deportasiya etmə və ya məcburi köçürmə), 113-cü (İşgəncə) və digər maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilmələrinə dair qərarlar qəbul edilib, barələrində məhkəmə qərarlarına əsasən həbs qətimkan tədbiri seçilib və axtarışlarının təmin edilməsi üçün sənədlər İnterpolun Azərbaycan Respublikasındakı Milli Mərkəzi Bürosuna və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Cinayət Axtarış İdarəsinə göndərilib. Təqsirləndirilən şəxs qismində cəlb edilmiş şəxslərin sırasında sabiq müdafiə naziri Ohanyan Seyran Muşeqoviç də olub. Sözügedən işlər üzrə yekunlaşmış və hazırda davam edən istintaq və məhkəmə proseslərini xüsusi vurğulayan hərbi prokuror Xanlar Vəliyev xalqımıza qarşı sülh və insanlıq əleyhinə və digər cinayətlər törətmiş bütün şəxslərin öz layiqli cəzalarını alacaqlarına əminliyini ifadə edib.



Tədbirdə deputatlar – Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev, Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, Müşfiq Cəfərov, Nigar Arpadarai və digər şəxslər də bəşəriyyətin ən böyük faciələrindən biri olan Xocalı soyqırımı barədə çıxış ediblər.

Milli Məclisin deputatları, həmçinin Hərbi Prokurorluq tərəfindən görülən mühüm əhəmiyyətli işlərə, o cümlədən sülh və insanlıq əleyhinə olan və digər cinayətlərin istintaqını peşəkarlıqla apardıqlarına, eləcə də Soyqırımı Memorial Muzeyinin yaradılmasına görə ədliyyə general-leytenantı Xanlar Vəliyev başda olmaqla bütün kollektivə minnətdarlıqlarını bildiriblər.

Daha sonra Azərbaycan Respublikası Hərbi Prokurorluğunun təşəbbüsü ilə soyqırım haqqında hazırlanmış “Əsrin faciəsi” rəqəmsal videodiski nümayiş etdirilib.

# Respublika Hərbi Prokurorluğunda Beynəlxalq Qadınlar Günü qeyd olunub




2025-ci il martın 7-də Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda 8 Mart – Beynəlxalq Qadınlar Gününə həsr olunmuş tədbir keçirilib.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Baş prokurorunun müavini – Hərbi prokuror, ədliyyə general-leytenantı Xanlar Vəliyev Hərbi Prokurorluqda çalışan xanımları təbrik edərək, ən xoş arzularını bildirib. Qeyd edib ki, Ümummilli Lider Heydər Əliyev hakimiyyətdə olduğu dövrlərdə qadınlara diqqət və qayğı artırılıb, bu siyasət dövlət səviyyəsində daha da möhkəmləndirilib. Prezident İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə də qadınlara dövlət səviyyəsində xüsusi dəyər verilir, gender bərabərliyi hər bir məqamda qorunur. Sadəliyi, səmimiyyəti, vətənpərvərliyi, xalqına sədaqəti, milli-mənəvi dəyərlərə sadiqliyi və digər məziyyətləri ilə bütün dünya qadınlarına örnək olan Birinci vitse-prezident Mehriban Əliyevanın timsalında Azərbaycan qadınının dövlətimizin əldə etdiyi uğurlara töhfələrini xüsusi vurğulayan ədliyyə general-leytenantı Xanlar Vəliyev cəmiyyətimizdə və dövlətimizdə qadınların rolunun özünəməxsus və əvəzolunmaz olduğunu diqqətə çatdırıb.

Digər çıxış edənlər də Azərbaycan xanımlarının müxtəlif sahələrdə uğurlu fəaliyyətindən bəhs ediblər.

Sonra mükafatlandırma mərasimi keçirilib, xanım əməkdaşlara hədiyyələr təqdim olunub.



# "Azərbaycan ərazisi (1918-2025)" adlı kitabın təqdimat mərasimi keçirilib





2025-ci il martın 13-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Rəyasət Heyətində Milli Məclisin deputatı tarix elmləri doktoru, dosent Vasif Qafarov və Azərbaycan Respublikası Baş prokurorunun müavini – Hərbi prokuror, ədliyyə general-leytenantı, hüquq üzrə fəlsəfə doktoru Xanlar Vəliyevin birgə müəllifi olduqları "Azərbaycan ərazisi (1918-2025)" adlı kitabın təqdimat mərasimi keçirilib.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli Ulu Öndər Heydər Əliyevin müdrik siyasətini yeni müstəvidə davam etdirən Prezident İlham Əliyevin




rəhbərliyi ilə ölkəmizin əldə etdiyi uğurlar, həmçinin "Azərbaycan ərazisi (1918-2025)" adlı kitab haqqında məlumat verib. Daha sonra kitabın müəllifləri Vasif Qafarov və Xanlar Vəliyev geniş məruzə ilə çıxış edərək ərsəyə gətirdikləri elmi əsəri ictimaiyyətə təqdim ediblər.

Müəlliflər müasir və müstəqil Azərbaycanın mövcudluğunun səbəbkarının Ümummilli Lider Heydər Əliyev olduğunu vurğulamaqla, onun ən layiqli davamçısı Prezident İlham Əliyevin dühası və qətiyyəti, Birinci vitse-prezident Mehriban Əliyevanın dəstəyi və qayğısı, xalqımızın müdrikliyi və əzmkarlığı, hərbçilərimizin şücaəti və qəhrəmanlığı sayəsində Azərbaycanın tarixi torpaqlarının işğaldan azad edilməsindən söz açıblar. Bildirilib ki, bütün bunlar təqdimatı keçirilən kitabda da öz əksini tapıb. Bu kitabda Azərbaycanın tarixi ərazisinin ümumi mənzərəsinə nəzər salınıb, Azərbaycan Cümhuriyyətinin (1918-1920) ərazisi, onun ümumi sahəsi və sərhədlərinin əhatəsi öyrənilib. Kitabda 1920-ci ilin aprel işğalından sonrakı sovet dövründə Azərbaycan SSR ərazilərinin Ermənistana verilməsi prosesi konkret faktlar və dövrün ilkin arxiv sənədləri əsasında araşdırılıb. Monoqrafiyada Azərbaycan Cümhuriyyətinin ərazisinin Azərbaycan SSR dövründə endirilərək xalqın iradəsinə zidd olaraq onun əlindən alınması prosesinin obyektiv mənzərəsi yaradılıb.

Hərbi prokuror Xanlar Vəliyev sözügedən araşdırmanın aysberqin görünən tərəfi olduğunu vurğulayaraq, tarixən Azərbaycan ərazilərinin işğala, xalqının soyqırımına məruz qalması faktlarının, ermənilərin Azərbaycanın müxtəlif ərazilərinə yerləşdirilməsi prosesinin mütəxəssislər tərəfindən birgə kompleks araşdırılmasına zərurət olduğunu bildirib.

Daha sonra çıxış edən Milli Məclisin Elm və təhsil komitəsinin sədri, tarix elmləri doktoru, professor Anar İsgəndərov, Elm və Təhsil Nazirliyi Riyaziyyat və Mexanika İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Misir Mərdanov, AMEA Tarix və Etnologiya İnstitutunun direktoru, tarix elmləri doktoru, professor Kərim Şükürov və digər ziyalılar kitabda tədqiq olunan problemin aktuallığını vurğulayaraq, əsərdə böyük elmi yeniliklərə imza atıldığını, yeni elmi müddəalar irəli sürüldüyünü və onların konkret dəlillərlə əsaslandırıldığını yüksək qiymətləndiriblər. Eyni zamanda, kitabın Azərbaycan, Qafqaz və beynəlxalq münasibətlər tarixi ilə məşğul olan mütəxəssislər, bu ixtisas üzrə təhsil alan tələbə və magistrantlar, eləcə də yaxın keçmişimizin tarixi ilə maraqlanan geniş oxucu dairəsi üçün çox faydalı olacağını qeyd ediblər.



# Şərur və Sədərək rayon İcra Hakimiyyətlərində "Yetkinlik yaşına çatmayanlar və ailə münasibətləri əleyhinə olan hüquqpozmalar və onların profilaktikası" mövzusunda tədbir keçirilib








2025-ci il yanvarın 23-də Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Naxçıvan Dövlət Universitetinin aidiyyəti əməkdaşları ilə birgə Şərur və Sədərək rayon İcra Hakimiyyətlərində "Yetkinlik yaşına çatmayanlar və ailə münasibətləri əleyhinə olan hüquqpozmalar və onların profilaktikası" mövzusunda maarifləndirici tədbir keçirilib.

Tədbirdə Şərur rayon İcra Hakimiyyəti başçısının müavini Aysel Zeynalabdinova və Sədərək rayon İcra Hakimiyyəti başçısının müavini Pərviz Ağayev giriş sözü ilə çıxış edərək mövzunun əhəmiyyətdən danışıblar.

Tədbirdə Muxtar Respublika Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin rəisi, baş ədliyyə müşaviri Faiq Səfərov, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşı Samiq Məmmədov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin əməkdaşı Firuzə Hüseynova və Naxçıvan Dövlət Universitetinin əməkdaşı Nuranə Səlimova mövzu ilə bağlı çıxış ediblər.

Yetkinlik yaşına çatmayanların hüquq pozuntularının qarşısını almaq, bunların yaranmasına imkan verən səbəb və halları aradan qaldırmaq, yetkinlik yaşına çatmayanların hüquqlarını və qanuni mənafelərini qorumaq və yetkinlik yaşına çatmayanların cinayətkar fəaliyyətə cəlb edilməsi hallarını aşkar etmək və aradan qaldırmaq həmçinin, yetkinlik yaşına çatmayan şəxsləri nikaha daxil olmağa məcbur etmə hallarının qarşısının alınması üçün hər bir şəxs hüquqlarını bilməlidir, bu istiqamətdə maarifləndirmənin mühüm rolu vardır.

Tədbir zamanı iştirakçıları maraqlandıran suallar ətraflı cavablandırılıb.

# Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı ilə "Kibercinayətkarlıq və ona qarşı mübarizə üsulları"' mövzusunda tədbir keçirilib







2025-ci il yanvarın 24-də Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi və Naxçıvan Dövlət Universitetinin aidiyyəti əməkdaşları ilə birgə Səhiyyə Nazirliyində "Kibercinayətkarlıq və ona qarşı mübarizə üsulları" mövzusunda maarifləndirici tədbir keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin şöbə müdiri Tahir Məmmədli giriş sözü ilə çıxış edərək mövzunun əhəmiyyətdən danışıb.

Tədbirdə Muxtar Respublika Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin rəisi Faiq Səfərov çıxış edərək beynəlxalq sülh və sabitliyə qarşı əhəmiyyətli təhlükəyə çevrilmiş kibercinayətkarlığa qarşı ölkəmizdə həyata keçirilən preventiv və maarifləndirici tədbirlər barədə danışıb.

Tədbirdə həmçinin, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşı Əli Qasımlı, Naxçıvan Dövlət Universitetinin əməkdaşı Hüseyn Əsgərli və Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin əməkdaşı Mərhəmət Bayramov mövzu ilə bağlı çıxış ediblər.

Tədbir zamanı iştirakçıları maraqlandıran suallar ətraflı cavablandırılıb.

# Ordubad rayonunda “Müstəqilliyimiz əbədi, inkişaf isə məqsədimizdir!” mövzusunda tədbir keçirilib



2025-ci il fevralın 3-də Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) təsisatının və Naxçıvan Dövlət Universitetinin aidiyyəti əməkdaşları ilə birgə Ordubad rayonunda “Konstitusiya və Suverenlik İli” çərçivəsində “Müstəqilliyimiz əbədi, inkişaf isə məqsədimizdir!” mövzusunda maarifləndirici tədbir keçirilib.

Tədbir iştirakçıları əvvəlcə Ümummilli Lideri Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyaraq, unudulmaz xatirəsini ehtiramla yad ediblər. Tədbir başlamazdan öncə Ümummilli Lider Heydər Əliyev və Azərbaycanın Respublikasının ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərimizin ruhu 1 dəqiqəlik sükutla yad edilib.

Tədbiri Ordubad rayon İcra Hakimiyyəti başçısının müavini Elvin Məmmədov giriş sözü ilə açaraq mövzunun əhəmiyyətdən danışıb.

Tədbirdə Muxtar Respublika Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin rəisi baş ədliyyə müşaviri Faiq Səfərov çıxış edərək bildirmişdir ki, tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, öz





ideallarına həmişə sadiq qalmış və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etmiş, 1995-ci il noyabrın 12-də müstəqil Azərbaycan Respublikasının əsas qanunu – ilk Konstitusiya qəbul olunmuşdur. Həmçinin, Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) təsisatının əməkdaşı Həsən Həsənov, Naxçıvan Dövlət Universitetinin əməkdaşı İsmayıl Qəribli və YAP-ın Ordubad rayon təşkilatının sədiri Etibar Məmmədov mövzu ilə bağlı çıxış ediblər.

Sonda Konstitusiya və Suverenlik İlinə həsr olunmuş "Dövlətin əsasları" filmi nümayiş olunub.



# Naxçıvanın Dövlət Sosial Müdafiə Fondunda “Kibercinayətkarlıq və ona qarşı mübarizə üsulları”' mövzusunda tədbir keçirilib









2025-ci il fevralın 10-da Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi, Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin və Naxçıvan Dövlət Universitetinin aidiyyəti əməkdaşları ilə birgə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunda “Kibercinayətkarlıq və ona qarşı mübarizə üsulları” mövzusunda maarifləndirici tədbir keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun departament müdiri Mansur Mahmudov giriş sözü ilə çıxış edərək mövzunun əhəmiyyətdən danışıb.

Tədbirdə Muxtar Respublika Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin rəisi, baş ədliyyə müşaviri Faiq Səfərov çıxış edərək bildirmişdir ki, kibercinayətkarlıq – qlobal sosial bəla hesab olunur və insan hüquqlarına, demokratiyaya və qanunun aliliyinə, eləcə də beynəlxalq sülh və sabitliyə qarşı əhəmiyyətli təhlükəyə çevrilməklə, böyük ictimai-siyasi təsirlərə malikdir. Buna görə də kibercinayətkarlığa qarşı ölkəmizdə qabaqlayıcı tədbirlər görülür və bu istiqamətdə maarifləndirmənin mühüm rolu vardır.

Tədbirdə həmçinin, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Cinayət-axtarış idarəsinin Kibercinayətkarlıqla Mübarizə bölməsinin əməkdaşı Əli Qasımlı, Naxçıvan Dövlət Universitetinin İnformasiya texnologiyaları şöbəsinin müdiri Hüseyn Əsgərli və Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin Maliyyə bazarı iştirakçılarının hüquqlarının müdafiəsi bölməsinin əməkdaşı Mərhəmət Bayramov mövzu ilə bağlı çıxış ediblər.

Tədbir zamanı iştirakçıları maraqlandıran suallar ətraflı cavablandırılıb.

# Babək rayon İcra Hakimiyyətində "Yetkinlik yaşına çatmayanlar və ailə münasibətləri əleyhinə olan hüquqpozmalar və onların profilaktikası" mövzusunda tədbir keçirilib

2025-ci il fevralın 19-da Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı ilə Muxtar Respublikanın daxili işlər, səhiyyə nazirlikləri və Naxçıvan Dövlət Universitetinin aidiyyəti əməkdaşları ilə birgə Babək rayon İcra Hakimiyyətində "Yetkinlik yaşına çatmayanlar və ailə münasibətləri əleyhinə olan hüquqpozmalar və onların profilaktikası" mövzusunda maarifləndirici tədbir keçirilib.



Tədbirdə Babək rayon İcra Hakimiyyəti başçısının müavini Səbinə Abbasova giriş sözü ilə çıxış edərək mövzunun əhəmiyyətindən danışıb.

Tədbirdə Muxtar Respublika Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin rəisi, baş ədliyyə müşaviri Faiq Səfərov çıxış edərək yetkinlik yaşına çatmayanların hüquq pozuntularının qarşısının alınması, bu pozuntuların baş verməsinə imkan verən səbəb və halların aradan qaldırılması, yetkinlik yaşına çatmayanların hüquqları və qanuni mənafelərinin qorunması, yetkinlik yaşına çatmayanların cinayətkar fəaliyyətə cəlb edilməsi hallarının aşkar edilməsi və aradan qaldırılmasına dair tədbirlər, həmçinin, yetkinlik yaşına çatmayan şəxsləri nikaha daxil olmağa məcbur etmə hallarının qarşısının alınmasından bəhs edib.

Tədbirdə, həmçinin Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşı Samiq Məmmədov, Səhiyyə Nazirliyinin əməkdaşı Nigar Səfərova və Naxçıvan Dövlət Universitetinin əməkdaşı Nuranə Səlimova mövzu ilə bağlı çıxış ediblər.

Tədbir zamanı iştirakçıları maraqlandıran suallar ətraflı cavablandırılıb.









# Culfa rayonunda "Konstitusiya və Suverenlik İli" çərçivəsində "Müstəqilliyimiz əbədi, inkişaf isə məqsədimizdir!" mövzusunda tədbir keçirilib



2025-ci il martın 3-də Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) təsisatının və Naxçıvan Dövlət Universitetinin aidiyyatı əməkdaşları ilə birgə Culfa rayonunda "Konstitusiya və Suverenlik İli" çərçivəsində "Müstəqilliyimiz əbədi, inkişaf isə məqsədimizdir!" mövzusunda maarifləndirici tədbir keçirilib.



Tədbir iştirakçıları əvvəlcə Ümummilli Lideri Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyaraq, unudulmaz xatirəsini ehtiramla yad ediblər. Tədbir başlamazdan öncə Ümummilli Lider Heydər Əliyev və Azərbaycanın Respublikasının ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri Culfa rayon İcra Hakimiyyətinin başçısının müavini, İcra Başçısı səlahiyyətlərini müvəqqəti icra edən Sara Hüseynova giriş sözü ilə açaraq mövzunun əhəmiyyətdən danışıb.

Tədbirdə Muxtar Respublika Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin rəisi baş ədliyyə müşaviri Faiq Səfərov çıxış edərək bildirmişdir ki, tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, öz ideallarına həmişə sadiq qalmış və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etmiş, 1995-ci il noyabrın 12-də müstəqil Azərbaycan Respublikasının əsas qanunu – ilk Konstitusiya qəbul olunmuşdur. Həmçinin, Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) təsisatının əməkdaşı Həsən Həsənov, Naxçıvan Dövlət Universitetinin əməkdaşı Əziz Qasımov və YAP-ın Culfa rayon təşkilatının sədri Qadir İbrahimov mövzu ilə bağlı çıxış ediblər.

Sonda Konstitusiya və Suverenlik İlinə həsr olunmuş "Dövlətin əsasları"filmi nümayiş olunub.





# Kəngərli rayonunda “Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir” mövzusunda tədbir keçirilib







2025-ci il martın 13-də Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) təsisatının və Naxçıvan Dövlət Universitetinin aidiyyəti əməkdaşları ilə birgə Kəngərli rayonunda “Konstitusiya və Suverenlik İli” çərçivəsində “Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir” mövzusunda maarifləndirici tədbir keçirilib.

Tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyaraq, unudulmaz xatirəsini ehtiramla yad ediblər.

Tədbir başlamazdan öncə Ümummilli Lider Heydər Əliyev və Azərbaycanın Respublikasının ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri Kəngərli rayon İcra Hakimiyyətinin başçısının müavini Hacırəddin Mehbalıyev giriş sözü ilə açaraq mövzunun əhəmiyyətdən danışıb.

Tədbirdə Muxtar Respublika Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin rəisi baş ədliyyə müşaviri Faiq Səfərov çıxış edərək bildirmişdir ki, tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, öz ideallarına həmişə sadiq qalmış və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etmiş, 1995-ci il noyabrın 12-də müstəqil Azərbaycan Respublikasının əsas qanunu – ilk Konstitusiya qəbul olunmuşdur.

Həmçinin, Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) təsisatının əməkdaşı Həsən Həsənov, Naxçıvan Dövlət Universitetinin əməkdaşı Əziz Qasımov və YAP-ın Kəngərli rayon təşkilatının sədiri Sevda Quliyeva mövzu ilə bağlı çıxış ediblər.

Sonda Konstitusiya və Suverenlik İlinə həsr olunmuş "Dövlətin əsasları" filmi nümayiş olunub.





# Brüssel şəhərində kibercinayətkarlıq üzrə beynəlxalq seminar keçirilmişdir




2025-ci il 20-21 fevral tarixlərində Belçika Krallığının Brüssel şəhərində Avropa İttifaqı və Avropa Şurasının birgə maliyyələşdirdiyi "CyberEast+" layihəsi çərçivəsində "Kibercinayətkarlıq haqqında Budapeşt Konvensiyasının İkinci Protokolunun Avropa İttifaqının tələbləri kontekstində tətbiqi" mövzusunda seminar keçirilmişdir.

Seminarda Budapeşt Konvensiyasının "Genişləndirilmiş əməkdaşlıq və elektron sübutların açıqlanmasına dair" İkinci Protokolunun əsas müddəaları, onun tətbiqi mexanizmləri, Avropa İttifaqı üzv dövlətlərinin bu sahədəki tələbləri və protokolun tərəf dövlətlər tərəfindən imzalanması və ratifikasiyası imkanları müzakirə olunmuşdur.

Həmçinin, kibercinayətkarlıq və elektron sübutlar sahəsində qanunvericilik və siyasət çərçivələrinin təkmilləşdirilməsi, beynəlxalq əməkdaşlığın genişləndirilməsi və bu sahədə vahid strategiyanın formalaşdırılması ilə bağlı fikir mübadiləsi aparılmışdır.

İclasda Avropa Komissiyasının, Avropa İttifaqı institutlarının, Şərq Tərəfdaşlığı ölkələrinin prokurorluq orqanlarının, daxili işlər, xarici işlər və ədliyyə nazirliklərinin, xüsusi istintaq qurumlarının nümayəndələri iştirak etmişdir.

Tədbirdə Azərbaycan Respublikasının Baş Prokurorluğunu Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin prokuroru Mələk Əliyeva təmsil etmişdir.

Seminar çərçivəsində əldə edilən tövsiyələr Şərq Tərəfdaşlığı ölkələrində Budapeşt Konvensiyasının İkinci Protokolunun tətbiqi və Avropa İttifaqının müvafiq tələblərinə uyğun qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində mühüm töhfə verəcəkdir.



# Baş Prokurorluğun əməkdaşı beynəlxalq tədbirdə iştirak edib



Ölkəmiz sülh və təhlükəsizliyə dair tematik məsələlərin təşviq edilməsi üçün Birləşmiş Millətlər Təşkilatının aidiyyəti qurumları, o cümlədən terrorçuluğa, mütəşəkkil cinayətkarlığa, narkotik vasitələrin yayılmasına qarşı mübarizə və digər müvafiq sahələrdə həmin təşkilatın Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə Ofisi (UNODC) ilə səmərəli əməkdaşlıq edir.

2025-ci il 3–6 mart tarixlərində Qazaxıstanın Almatı şəhərində UNODC-nin təşkilatçılığı ilə heroin və metamfetaminin Cənubi Qafqaz və Şimal marşrutu ilə qeyri-qanuni ticarəti üzrə ekspert işçi qrupunun iclası baş tutub. İclasın əsas məqsədi opiat və metamfetaminin qeyri-qanuni ticarətinə qarşı mübarizəni gücləndirmək, cinayətkar şəbəkələrin aşkarlanması istiqamətində əməkdaşlığı inkişaf etdirmək və aidiyyəti dövlət qurumları arasında informasiya mübadiləsini təşviq etmək olub. Tədbirdə Cənubi Qafqaz, Mərkəzi Aziya, Balkan regionu, Türkiyə və İrandan ekspertlər iştirak edib.

Azərbaycan Respublikasını Baş Prokurorluğun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin prokuroru Fuad Hüseynov və Daxili İşlər Nazirliyinin Mərkəzi Asiyada Regional İnformasiya və Əlaqələndirmə Mərkəzində səlahiyyətli nümayəndəsi Elbrus Rəcəbov təmsil edib. Fuad Hüseynov sessiyalarda çıxış edərək ölkəmizin ərazisindən narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarının daşınması cəhdlərinin qarşısının alınması istiqamətində dövlət orqanları tərəfindən görülən tədbirlər, son illər bu sahədə qeydə alınan tendensiya, bu cür cinayətlərin törədilməsində istifadə olunan üsullar və hüquq mühafizə orqanları tərəfindən bu sahədə həyata keçirilən beynəlxalq əməkdaşlıq barədə məlumat verib.

Həmçinin, görüşdə narkotik vasitələrin daşınmasında mütəşəkkil cinayətkarlığın rolu, yeni yaranan beynəlxalq marşrutlar, bu cür cinayətlərin törədilməsi nəticəsində əldə olunan pul vəsaitlərinin leqallaşdırılması və həmin cinayətlərin istintaqının aparılması məsələlərində təcrübə mübadiləsi aparılmışdır.



## Baş Prokurorluğun əməkdaşı BMT-nin Narkotik Vasitələr üzrə Komissiyasının iclasında iştirak edib






Cari il mart ayının 10-14 tarixlərində Vyana şəhərində BMT-nin Narkotik Vasitələr üzrə Komissiyasının 68-ci sessiyasının iclası keçirilib.

İclasda Azərbaycan Respublikasının Baş Prokurorluğunu Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin prokuroru Aynur Əfəndiyeva təmsil edib.

Komissiyanın iclasları zamanı narkotiklərə nəzarət üzrə beynəlxalq müqavilələrin və narkotik siyasəti üzrə öhdəliklərin həyata keçirilməsi, dünyada narkotik probleminin həlli və ona qarşı mübarizədə qurumlararası əməkdaşlıq və səylərin əlaqələndirilməsi, o cümlədən komissiyanın yardımçı orqanlarının tövsiyələri ilə bağlı məsələlər müzakirə edilib və 6 yeni qətnamə qəbul edilib.

## Baş Prokurorluğun əməkdaşı BMT tərəfindən təşkil olunan tədbirdə iştirak edib




Cari ilin 25-27 mart tarixlərində Vyana şəhərində Cinayətkarlığın qarşısının alınması və cinayət ədliyyəsi üzrə 15-ci BMT Konqresinə Avropa üçün hazırlıq iclası keçirilmişdir.

Tədbirdə Azərbaycan Respublikasının Baş Prokurorluğunu Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin prokuroru Orxan Şirinli təmsil etmişdir.

İclas zamanı 25-30 aprel 2026-ci il tarixdə Əbu-Dabi şəhərində keçiriləcək Konqresin gündəliyində nəzərdə tutulmuş məsələlərə dair müzakirələr aparılmışdır.

Tədbirdə Konqresin gündəliyində nəzərdə tutulan informasiya texnologiyalarından istifadə ilə törədilən cinayətlərlə əlaqədar mövzular üzrə çıxış edilərək ölkəmizin kibercinayətlərlə mübarizə ilə bağlı mövqeyi səsləndirilmiş, bu sahədə əməkdaşlığın vacibliyi vurğulanmışdır.



Tədbirin yekununda Cinayətkarlığın qarşısının alınması və cinayət ədliyyəsi üzrə 15-ci BMT Konqresində müzakirə edilməsi üçün regional hazırlıq iclasının tövsiyələri qəbul edilmişdir.

# Mətbuat Xidmətinin məlumatları

## Baş Prokurorluq və Daxili İşlər Nazirliyinin birgə məlumatı: itkin düşmüş şəxsin qəsdən öldürülməsi müəyyən olunub 07.01.2025




Salyan rayon prokurorluğu və rayon polis şöbəsi əməkdaşlarının birgə fəaliyyəti nəticəsində ötən ilin dekabrın 18-də itkin düşmüş Salyan rayon sakini, 1984-cü il təvəllüdlü Röyal Hüseynovun qəsdən öldürülməsi müəyyən edilib.

Həyata keçirilmiş çoxsaylı istintaq və əməliyyat-axtarış tədbirləri nəticəsində 17 dekabr 2024-cü il tarixdə 1986-cı il təvəllüdlü Mətanət Hüseynovanın Salyan rayonunun Yeni Uluxanlı kəndində işlədikləri fermada aralarında yaranmış mübahisə zamanı əri Röyal Hüseynova ov tüfəngi ilə atəş açaraq qəsdən öldürməsi, növbəti gün cinayət hadisəsini gizlətmək üçün meyiti hissələrə bölərək kənd ərazisindəki kollektora atmasına əsaslı şübhələr müəyyən edilib.

Röyal Hüseynovun meyitinin olduğu yer müəyyən olunaraq prokuror-kriminalistin və ekspertin iştirakı ilə çıxarılıb, iş üzrə zəruri ekspertizalar təyin olunmaqla intensiv istintaq-əməliyyat tədbirləri həyata keçirilib.

Faktla bağlı Salyan rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb, Mətanət Hüseynova polis əməkdaşları tərəfindən saxlanılaraq istintaqa təhvil verilib və prokurorluq tərəfindən şübhəli şəxs qismində tutulub.

Bağlı qalmış cinayət işləri, o cümlədən itkin düşmüş şəxslərin axtarışları daim diqqət mərkəzində saxlanılmaqla onların tapılması, cinayət əməlini törədən şəxslərin ifşa olunaraq məsuliyyətə cəlb olunması istiqamətində aidiyyəti dövlət qurumları tərəfindən mütəmadi olaraq birgə tədbirlər davam etdirilir.

## Baş Prokurorluqdan vətəndaş Solmaz Zeynalovanın müraciəti ilə bağlı açıqlama 09.01.2025




Bəzi sosial media səhifələrində Azərbaycan Respublikasının Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Babayev İlkin Əbülfəz oğlunun əsassız olaraq cinayət məsuliyyətinə cəlb edilməsi və digər şəxslərin məsuliyyətdən kənarda qalması barədə məlumatlar yayılmışdır.

Bununla bağlı bildirilir ki, çoxsaylı şəxslərin müraciəti əsasında Baş İdarədə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanaraq ibtidai istintaqı aparılmış, Babayev İlkin Əbülfəz oğlunun qabaqcadan əlbir olan bir qrup şəxs halında Muradov Eldar Murad oğlu, Həsənzadə Mobil İsmiəli oğlu, Məmmədov Allahqulu Qudrət oğlu və Ağazadə Asəf Elşad oğlu ilə birgə işə düzəltmə, torpaq sənədlərinin hazırlanması, təhsil sənədlərinin tanıdılması və digər adlarla 32 şəxsdən müxtəlif məbləğlərdə olmaqla, ümumilikdə 700 min manatdan artıq məbləğdə, o cümlədən Şəmşirov Nahid Rəşid oğlu ilə cinayət əlaqəsinə girməklə 7 şəxsdən 240 min manatdan artıq pul vəsaitini dələduzluq yolu ilə ələ keçirmələrinə əsaslı şübhələr müəyyən edilmişdir.

Qeyd edilən əməlləri ilə bağlı İlkin Babayev və digər şəxslərə Cinayət Məcəlləsinin 178.3.2 (külli miqdarda ziyan vurmaqla dələduzluq), 310 (vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə) və digər maddələri ilə ittiham elan edilmiş və 27 may 2023-cü il tarixdə cinayət işi baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilmişdir.

Eyni zamanda Nahid Şəmşirov Cinayət Məcəlləsinin 178.3.2, 310-cu və digər maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunmuş, istintaqdan qaçıb gizləndiyinə görə beynəlxalq axtarışa verilmiş və Binəqədi Rayon Məhkəməsinin müvafiq qərarı ilə barəsində qiyabi həbs qətimkan tədbiri seçilmişdir.

Əlavə olaraq qeyd edilir ki, Baş İdarədə Babayev İlkin Əbülfəz oğlu barəsində əvvəllər Cinayət Məcəlləsinin 178.2.1, 178.2.2, 178.2.3, 178.2.4 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən, təkrar, öz qulluq mövqeyindən istifadə etməklə və xeyli miqdarda ziyan vurmaqla dələduzluq) və digər maddələri ilə 3 cinayət işinin ibtidai istintaqı aparılmış və hər 3 iş aidiyyəti üzrə məhkəmələrə göndərilməklə, onlardan 2-si üzrə ittiham hökmü çıxarılmış, 1-i üzrə isə bəraətverici əsaslar olmadan icraata xitam verilmişdir.

Habelə, İlkin Babayev Bakı istintaq təcridxanasında saxlanıldığı müddət ərzində Cinayət Məcəlləsinin 317-2.1-ci (istintaq təcridxanasında saxlanılan şəxs tərəfindən qadağan edilmiş əşyaların gəzdirilməsi, saxlanılması və istifadəsi) maddəsi ilə cinayət məsuliyyətinə cəlb edilmiş və həmin iş baxılması üçün aidiyyəti üzrə Sabunçu rayon məhkəməsinə göndərilmişdir.

**Kənd təsərrüfatı məhsullarının ixracından əldə olunan pul vəsaitlərini ölkəyə qaytarmayan təqsirləndirilən şəxslər barədə cinayət işləri məhkəməyə göndərilib**
**13.01.2025**




Xarici ölkələrə müxtəlif növ məhsulları ixrac edən bəzi sahibkarlıq subyektlərinin müvafiq valyutada olan pul vəsaitlərini Azərbaycan Respublikasına qaytarmamaları ilə bağlı Dövlət Gömrük Komitəsindən daxil olmuş məlumatlar əsasında prokurorluq orqanlarında cinayət işləri başlanaraq ibtidai istintaq aparılmışdır.

Belə ki, Quba rayon prokurorluğunda istintaq edilən cinayət işi üzrə "EA-Fruits" MMC tərəfindən kənd təsərrüfatı mallarının konsiqnasiya yolu ilə xarici ölkəyə ixracından əldə edilən ümumilikdə 30.4 milyon ABŞ dollarından artıq pul vəsaitinin (müvafiq dövrün məzənnəsi ilə 51.8 milyon manatdan artıq) Azərbaycan Respublikasında müvəkkil edilmiş bankın hesabına qaytarılmamasına əsaslı şübhələr müəyyən edildiyindən Məmmədov Adil Nüsrət oğlu iş üzrə Cinayət Məcəlləsinin 208.2.1 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən xarici valyuta vəsaitini xaricdən qaytarmama) və 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunub, barəsində müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında Quba rayon Məhkəməsinin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Şəmkir rayon prokurorluğunda istintaq edilən cinayət işi üzrə "Exspressagro" MMC tərəfindən kənd təsərrüfatı mallarının konsiqnasiya yolu ilə xarici ölkəyə ixracından əldə edilən ümumilikdə 2,1 milyon ABŞ dollarından artıq məbləğdə (müvafiq dövrün məzənnəsi ilə 3,5 milyon manatdan artıq) pul vəsaitini Azərbaycan Respublikasında müvəkkil edilmiş bankın hesabına qaytarılmamasına əsaslı şübhələr müəyyən edildiyindən Əliyev Toğrul Elşən oğlu iş üzrə Cinayət Məcəlləsinin 208.2.1 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən xarici valyuta vəsaitini xaricdən qaytarmama) və 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunub və barəsində istintaq orqanının qərarı ilə polisin nəzarəti altına vermə qətimkan tədbiri seçilib.

Hər iki cinayət işi üzrə ibtidai istintaq tamamlanaraq baxılması üçün müvafiq olaraq aidiyyəti üzrə Quba və Şəmkir rayon məhkəməsinə göndəriliblər.

**Baş Prokurorluğun Mətbuat xidmətinin məlumatı:**
**İmişlidəki qəza ilə bağlı bir nəfər həbs edilib**
**21.01.2025**




Yanvarın 18-də, İmişli şəhəri ərazisində "Mercedes-Benz" markalı fərdi nəqliyyat vasitəsi və "BMW" markalı Dövlət Yol Polisi avtomobilinin iştirakı ilə ölümlə nəticələnən yol-nəqliyyat hadisəsinin baş verməsi faktı ilə bağlı İmişli rayon prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanmışdır.

İlkin istintaq tədbirləri ilə İmişli rayon sakini, 2008-ci il təvəllüdlü Bəylər Bayramlının qohumuna məxsus olan "Mercedes-Benz" markalı, 30-BH-904 dövlət qeydiyyat nişanlı avtomobili talama məqsədi olmadan qanunsuz ələ keçirməklə qaçıraraq, nəqliyyat vasitələrini idarə etmək hüququ olmadan idarə edib yol hərəkəti qaydalarını pozaraq ehtiyatsızlıqdan iki şəxsin ölümünə, bir şəxsin isə sağlamlığına ağır zərər vurulmasına səbəb olmasına və idarə etdiyi avtomobili qəzanın baş verdiyi yerdə saxlayaraq yol nəqliyyat hadisəsi yerindən qaçmasına əsaslı şübhələr müəyyən edilib.

Bəylər Bayramlı Cinayət Məcəlləsinin 185.1 (talama məqsədi olmadan qanunsuz olaraq avtomobil ələ keçirmə), 263-1.4 (yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarını nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs tərəfindən pozma ehtiyatsızlıqdan iki şəxsin ölümünə səbəb olduqda) və 264-

cü (yol nəqliyyat hadisəsi yerindən qaçma) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunub, müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında İmişli rayon məhkəməsinin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilib.

**Özbəkistan Respublikasının Baş Prokurorluğu ilə cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlıq uğurla davam etdirilir**
**31.01.2025**




01.01.1995-ci il təvəllüdlü Türkiyə Respublikasının vətəndaşı Akdı Namik Kemalın cinayət məsuliyyətinə cəlb edilməsi üçün verilməsinə dair Özbəkistan Respublikası Baş Prokurorluğunun vəsatəti Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən təmin edilib.

Özbəkistanda dələduzluq əməllərinin törədilməsində təqsirləndirilərək beynəlxalq axtarışa elan edilmiş A.N.Kemal 2024-cü ilin oktyabr ayında Naxçıvan Muxtar Respublikasının ərazisində müəyyən edilərək saxlanılıb, barəsində həbs qətimkan tədbiri seçilib.

“Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında” 07.10.2002-ci il tarixli Konvensiyaya əsasən təqsirləndirilən şəxsin ekstradisiyası haqqında qərar qəbul edilərək, sonuncu Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin xüsusi konvoyunun müşayiəti ilə Özbəkistan Respublikasının səlahiyyətli orqanına təhvil verilib.




**Ekoloji hüquqpozmalara qarşı mübarizə davam etdirilir**
**03.02.2025**

Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsində Respublikanın 4 rayonunda qanunsuz ağackəsmə faktları ilə bağlı araşdırma aparılıb.

Araşdırmalar zamanı Bakı şəhəri, Xəzər rayonu, Ramana qəsəbəsində, Abşeron rayonunun Xırdalan şəhəri, Samux rayonunun Alıuşağı kəndi və İmişli rayonunun Sarıxanlı kəndində meşə fonduna daxil olmayan 360 ədəd ağac və kolun qanunsuz kəsilməsi nəticəsində təbiətə 62 min manatdan çox ziyan vurulması müəyyən edilib.

Qeyd olunan faktlarla bağlı Cinayət Məcəlləsinin 188.2 (qanunla müəyyən edilmiş mülkiyyət, istifadə və ya icarə hüququ olmadan torpaq sahəsi üzərində özbaşına tikinti və ya quraşdırma işlərini aparma), 259.1 və 259.2.4-cü (ağacların, kolların və ya digər yaşıllıqların qanunsuz kəsilməsi (götürülməsi) xeyli və külli miqdarda ziyan vurduqda) maddələri ilə cinayət işləri başlanaraq ibtidai istintaqın aparılması üçün aidiyyəti üzrə daxili işlər orqanlarına göndərilib.

**Azərbaycan Respublikası Baş Prokurorluğu və Səhiyyə Nazirliyinin birgə Müraciəti**
**06.02.2025**




Son günlər müxtəlif media vasitələrində ölkədə ayrı-ayrı plastik cərrahların praktik tibb fəaliyyəti ilə məşğul olmasına icazə verən sertifikasiya şəhadətnamələrinin ləğv olunması ilə bağlı məlumatlar yayılmışdır.

Vətəndaşlardan daxil olan çoxsaylı şikayətləri nəzərə alaraq, ölkə ərazisində praktik tibb fəaliyyəti ilə məşğul olan plastik cərrahların peşə fəaliyyətinin qanuni əsaslarının yoxlanılmasına başlanılıb.

Bu məqsədlə, Səhiyyə Nazirliyində Baş Prokurorluq, Daxili İşlər Nazirliyi, Elm və Təhsil Nazirliyinin səlahiyyətli nümayəndələrindən ibarət Xüsusi Təftiş Komissiyası yaradılıb.

Komissiya işini yekunlaşdırdıqdan sonra qəbul edilən qərar barədə ətraflı məlumat veriləcək. İctimaiyyət üçün həssas olan məsələyə məsuliyyətli yanaşmağı, Komissiyanın işinin nəticələrini gözləməyi tövsiyə edir və bu mövzuya diqqətli yanaşmağa çağırırıq.

**#hüquqimaarifləndirmə #cinayəthüququ - Bir qrup şəxs və qabaqcadan əlbir olan bir qrup şəxs nədir?**
**06.02.2025**




Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən qabaqcadan razılaşmadan iki və ya daha çox icraçının birgə iştirakı ilə törədilən cinayət bir qrup şəxs tərəfindən törədilmiş cinayət hesab olunur.

Qabaqcadan razılaşmaqla iki və ya daha çox şəxsin birgə iştirakı ilə törədilən cinayət isə qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilmiş cinayət hesab olunur.

Bir qrup şəxs və qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilən cinayətlər qanunla nəzərdə tutulan əsaslara və hədlərə uyğun olaraq daha ciddi cəzalara səbəb olur.

**İnternet informasiya resurslarından istifadə etməklə qumar oyunlarının təşkil edilməsi və əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılmasında təqsirləndirilən Yusif Baqiyev və digərləri məsuliyyətə cəlb edilib**
**17.02.2025**




İnternet informasiya resurslarından istifadə etməklə qumar oyunlarının təşkil edilməsi və digər qanunsuz hərəkətlərlə bağlı daxil olmuş məlumat əsasında həyata keçirilmiş təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində cinayət işi başlanıb.

Aparılmış istintaq-əməliyyat tədbirləri ilə Baqiyev Yusif Seyfullah oğlunun Ramil Saadov və digər şəxslərlə mütəşəkkil dəstə halında birləşərək özünə məxsus olan onlayn qumar saytlarının ölkə ərazisində qanunsuz olaraq fəaliyyət göstərməsinə nail olmaqla xüsusilə külli miqdarda qanunsuz gəlir əldə etməsinə, habelə, 2022-ci ildən başlayaraq "Paysis" MMC və "Pulpal" MMC-nin rəhbəri Nasibov Samir Hüseyn oğlu ilə sövdələşərək sonuncuya məxsus pul köçürmə sistemlərində ayrı-ayrı şəxslərin adına elektron pul kisələrinin açılaraq onlayn qumar oyunları nəticəsində əldə edilməklə həmin kisələrə köçürülmüş ümumilikdə 161 milyon manatdan artıq pul vəsaitin müxtəlif şəxslərin adlarına açılmış çoxsaylı kart hesablarına köçürməsi yolu ilə leqallaşdırmasına əsaslı şübhələr müəyyən edilib.

İstintaq zamanı keçirilmiş baxış və axtarışlar nəticəsində iş üçün əhəmiyyət kəsb edən maddi sübutlar götürülmüşdür.

Toplanmış ilkin sübutlar əsasında Yusif Baqiyev və Ramil Saadova Cinayət Məcəlləsinin 193-1.3.1, 193-1.3.2 (mütəşəkkil dəstə tərəfindən cinayət yolu ilə əldə edilmiş xeyli miqdarda əmlakı leqallaşdırma) və 244-1.4-cü (qumar oyunlarının təşkili və ya keçirilməsi xüsusilə külli miqdarda gəlir əldə etməklə törədildikdə), Samir Nasibova isə həmin Məcəllənin 193-1.3.1 və 193-1.3.2-ci maddələri ilə ittiham elan edilib.

Yusif Bagiyev barəsində istintaq orqanının vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında Binəqədi Rayon Məhkəməsinin qərarı ilə həbs, Ramil Saadov və Samir Nasibovun barəsində isə istintaq orqanı tərəfindən  polisin nəzarəti altına vermə növündə qətimkan tədbiri seçilib.

**Xocalı rayonunda mina hadisəsi bas¸verib**
**22.02.2025**

Azərbaycan Respublikasının Baş Prokurorluğu, Daxili İşlər Nazirliyi və Minatəmizləmə Agentliyinin (ANAMA) Mətbuat Xidmətləri məlumat verir ki, işğaldan azad edilmiş Xocalı rayonunun Ulubaba kəndi ərazisində 2025-ci il 21 fevral tarixində mina hadisəsi bas¸verib.




Ağdam rayon sakini 1963-cü il təvəllüdlü İmanov Nağı Novruz oğlu minalardan təmizlənməmiş ərazidə piyada əleyhinə minaya düşüb.

Hadisə nəticəsində Nağı İmanov ayağından xəsarət alıb.

Faktla bağlı Xocalı rayon prokurorluğunda araşdırma aparılır.

Baş Prokurorluq, Daxili İşlər Nazirliyi və ANAMA bir daha vətəndaşları təhlükəsizlik qaydalarına riayət etməyə, mina təhlükəsi işarələrinin göstəricilərinə diqqətlə yanaşmağa və bələd olmadıqları ərazilərə daxil olmamağa çağırır!

**#sorğuyacavab – 15 nəfərin zəhərlənərək ölməsi faktı ilə bağlı cinayət işi başlanıb**
**24.02.2025**




Baş Prokurorluğun Mətbuat xidmətinə daxil olmuş sorğulara cavab olaraq bildirilir ki, 22-23 fevral tarixlərində Sabunçu rayonu ərazisində ümumilikdə 15 nəfərin ölməsi faktı ilə bağlı Sabunçu rayon prokurorluğunda Cinayət Məcəlləsinin 314.3-cü (iki və daha çox şəxsin ölümünə səbəb olan səhlənkarlıq) maddəsi ilə cinayət işi başlanmışdır.

Həyata keçirilmiş ilkin tədbirlərlə həmin şəxslərin qəbul etdikləri etil (texniki) spirtindən zəhərlənməsi nəticəsində ölmələri müəyyən edilib.

Prokurorluq əməkdaşları tərəfindən məhkəmə tibb eksperti və kriminalistin iştirakı ilə hadisə yerlərinə və meyitlərə baxış keçirilib, iş üçün əhəmiyyət kəsb edən maddi sübutlar, o cümlədən daxilə qəbul edilməsi qadağan olunan tərkibində 75 və 95 % spirtə malik gigiyenik vasitənin boş şüşələri, qida qalıqları və s. götürülüb, müvafiq ekspertizalar təyin olunmaqla, digər zəruri istintaq hərəkətləri icra edilib.

**#hüquqimaarifləndirmə – İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının əsas prinsipi. Bərabərlik hüququ**
**28.02.2025**




Azərbaycan Respublikasının Konstitusiyası dövlət quruculuğu tarixində ilk dəfə olaraq insan hüquqlarının təbii xarakter daşımasını özündə əks etdirmişdir. Əsas Qanunumuza müvafiq olaraq, insan ləyaqəti qorunur və ona hörmət edilir. Hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır. Hüquqlar və azadlıqlar hər kəsin cəmiyyət və başqa şəxslər qarşısında məsuliyyətini və vəzifələrini də əhatə edir. Hüquqlardan sui-istifadəyə yol verilmir.

Azərbaycan Respublikası Konstitusiyasının II bölməsi bütövlükdə insan və vətəndaş hüquq və azadlıqları və vəzifələrinə həsr edilmişdir. Konstitusiyanın "Əsas insan və vətəndaş hüquqları və azadlıqları" fəslinin bir çox maddələrində insan hüquq və azadlıqları sadalanır. Burada mülki, siyasi, iqtisadi, sosial və mədəni hüquqlar təsbit edilmişdir. Eyni zamanda, insan hüquqlarına hörmət edilməsi prinsipinin müxtəlif aspektləri Azərbaycan Respublikası Konstitusiyasının digər maddələrində də bu və ya digər dərəcədə müəyyən edilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının "Bərabərlik hüququ" adlanan 25-ci maddəsinə əsasən, hamı qanun və məhkəmə qarşısında bərabərdir. Kişi ilə qadının eyni hüquqları və azadlıqları vardır. Dövlət, irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, etnik, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır və heç kəsə bu göstərilən əsaslara görə zərər vurula bilməz, güzəştlər və ya imtiyazlar verilə bilməz, yaxud güzəştlərin və ya imtiyazların verilməsindən imtina oluna bilməz. Hüquq və vəzifələrlə bağlı qərarlar qəbul edən dövlət orqanları və dövlət hakimiyyəti səlahiyyətlərinin daşıyıcıları ilə münasibətlərdə hər kəsin bərabər hüquqları təmin edilir. Sağlamlıq imkanları məhdud olanlar, onların məhdud imkanlarına görə həyata keçirilməsi çətinləşən hüquq və vəzifələrdən başqa, bu Konstitusiyada təsbit olunmuş bütün hüquqlardan istifadə edir və vəzifələri daşıyırlar.

### #kriminalistika – Dırnaq izlərinin kriminalistik əhəmiyyəti nədir?
### 11.03.2025




Dırnaq izləri cinayətlərin açılmasında, xüsusilə şübhəli və digər şəxslərin eyniləşdirilməsində mühüm rol oynayır.

Dırnaq izləri canlı şəxslərin bədənində, meyitin üzərində və ya bərk olmayan predmetlərdə (gildə, plastilində, şokoladda, yağda və s.) aşkar oluna bilər. Bu izlər adətən qarşılıqlı mübarizə və ya özünümüdafiə zamanı meydana çıxır. Dırnaq izlərinin mövcudluğu, sayı və yerləşməsi hadisənin müəyyən detallarını aydınlaşdırmağa, istintaq və əməliyyat-axtarış tədbirlərinə istiqamət verməyə kömək edir.

Hadisə yerində dırnaq izləri ilə yanaşı, dırnaq fraqmentləri (qırıntıları) və ya tam dırnaq nümunələri də aşkar edilə bilər.

Dırnaq izləri görünən izlərdir və yaranma mexanizminə görə statik və dinamik izlər kimi təsnifləşdirilir.

Statik izlər obyektin səthinə təzyiq nəticəsində, dinamik izlər isə cırmaq və ya qazıma hərəkətləri zamanı yaranır.

### #HÜQUQİBİLİKLƏRİNİARTIR – İnzibati xəta. İnzibati xətanın qəsdən və ya ehtiyatsızlıqdan törədilməsi
### 18.03.2025




Qanunvericilik ilə qorunan ictimai münasibətlərə qəsd edən, hüquqazidd olan, təqsirli sayılan (qəsdən və ya ehtiyatsızlıqdan törədilən) və inzibati məsuliyyətə səbəb olan əməl (hərəkət və ya hərəkətsizlik) inzibati xəta hesab olunur.

Əməldə inzibati məsuliyyət o halda yaranır ki, bu əməllər cinayət məsuliyyətinə səbəb olmasın.

İnzibati xəta törətmiş şəxs öz əməlinin (hərəkətinin və ya hərəkətsizliyinin) hüquqazidd xarakterini dərk etmiş, onun zərərli nəticələrini qabaqcadan görmüş və bunları arzu etmişdirsə, yaxud belə nəticələrin baş verməsinə şüurlu surətdə yol vermişdirsə, bu xəta qəsdən törədilmiş xəta hesab olunur.

İnzibati xəta törətmiş şəxs öz əməlinin (hərəkətinin və ya hərəkətsizliyinin) zərərli nəticələr verə biləcəyi imkanını qabaqcadan görmüş, lakin kifayət qədər əsas olmadan onların qarşısını alacağını güman etmişdirsə, yaxud bu nəticələrin baş verəcəyini lazımi diqqət və ehtiyatlılıq göstərərək qabaqcadan görməli olduğu və görə biləcəyi halda, onları görməmişdirsə, bu xəta ehtiyatsızlıqdan törədilmiş xəta hesab olunur.

### Respublika Endokrinoloji Mərkəzinin vəzifəli şəxslərinin qanunsuz əməlləri ilə bağlı cinayət işi başlanıb
### 18.03.2025




Azərbaycan Respublikasının Baş Prokurorluğu və Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyi (TƏBİB) tərəfindən əhalinin sağlamlığının qorunması sahəsində insan və vətəndaş hüquqlarının təmin olunması və etibarlı müdafiəsi, tibbi xidmətlərin icrası zamanı yol verilən qanunsuzluqların aşkar olunaraq qarşısının alınması, həmçinin hüquqpozmalara yol verən şəxslərin məsuliyyətə cəlb olunması istiqamətində mütəmadi olaraq kompleks tədbirlər həyata keçirilir.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Respublika Endokrinoloji Mərkəzinin vəzifəli şəxslərinin qanunsuz hərəkətləri ilə bağlı daxil olmuş məlumat əsasında əməliyyat-axtarış tədbirləri keçirilib.

Qeyd edilən Mərkəzin vəzifəli şəxsləri tərəfindən öz həqiqi təsir imkanlarından istifadə edilərək digər vəzifəli şəxslərin qərarına qanunsuz təsir etməklə şəkərli diabet xəstəliyindən əziyyət çəkən şəxslərin qeydiyyata alınması, onların müxtəlif dərman vasitələri ilə təmin edilməsi və bu kimi başqa məqsədlərlə ayrı-ayrı şəxslərdən müxtəlif məbləğlərdə pul vəsaiti almalarına və vəzifə səlahiyyətlərindən sui-istifadə etmələrinə əsaslı şübhələr müəyyən edilib.

Toplanmış ilkin sübutlar əsasında Cinayət Məcəlləsinin 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 312-1.1-ci (vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmə (nüfuz alveri)) maddələri ilə cinayət işi başlanıb.

# Azərbaycan Respublikasının 1995-ci il Konstitusiyasının preambulasının xüsusiyyətləri

Azərbaycan Respublikasının 1995-ci il Konstitusiyası müstəqil Azərbaycanın ilk Konstitusiyasıdır və onun bu il 30 ili tamam olur. 1918-ci ildən 1920-ci ilə qədər mövcud olan Azərbaycan Xalq Cümhuriyyətinin dövlətin Əsas Qanununun qəbul edilməsi üçün vaxtı çatmadı, Müəssislər Məclisini çağırmağa nail ola bilmədi (Məclisə seçkilərin qaydası 21 iyul 1919-cu il tarixli qanunla təsdiq edilmiş Əsasnamə ilə müəyyən edilirdi). Belə ki, Azərbaycan Respublikasının konstitusiya inkişafı tarixi əsasən onun SSRİ-nin tərkibində qalması ilə bağlıdır. Azərbaycanın ilk Konstitusiyası 1921-ci il mayın 19-da Ümumazərbaycan Sovetlər Qurultayında qəbul edilib və ADR-in süqutuna səbəb olan dövlət çevrilişini və Rusiya qoşunlarının ölkəyə yeridilməsini qanuniləşdirmək məqsədi daşıyırdı. Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyasının 1924-cü il SSRİ Konstitusiyasına uyğunlaşdırılması ilə bağlı 1925-ci il martın 14-də yeni Konstitusiya təsdiq edildi. 1927-ci il martın 26-da qəbul edilmiş Azərbaycan SSR Konstitusiyası 10 il qüvvədə qaldı. 1937-ci il martın 14-də isə Azərbaycan SSR-nin 1936-cı ilin SSRİ Konstitusiyasına tam uyğun olan yeni Konstitusiyası qəbul edildi. Həmçinin 1978-ci il aprelin 21-də qəbul edilmiş Azərbaycan SSR-nin sonuncu Konstitusiyası da respublikanın Əsas Qanununun mətninin 1977-ci ildə təsdiq edilmiş SSRİ Konstitusiyasına uyğunlaşdırılması məqsədi güdürdü. Qeyd etmək lazımdır ki, respublika rəhbərliyinin – Heydər Əliyevin prinsipial mövqeyi həmin dövrdə Azərbaycan xalqının milli kimliyinin qorunub saxlanmasında və inkişafında mühüm rol oynamışdır. Söhbət Azərbaycan dilinin dövlət dili statusunu təsbit edən Azərbaycan SSR 1978-ci il Konstitusiyasının 73-cü maddəsinin normasından gedir. SSRİ-nin tərkibində olan 15 müttəfiq respublikadan 12-sinin konstitusiyasında oxşar müddəa yox idi.

1978-ci il Konstitusiyası Azərbaycan Respublikası 1991-ci il avqustun 30-da müstəqillik əldə etdikdən sonra da öz hüquqi qüvvəsini saxlamışdır. 1991 – 1993-cü illərdə onun mətnində əsasən müxtəlif dövlət orqanları arasında səlahiyyətlərin bölüşdürülməsi məsələləri ilə bağlı olan çoxsaylı dəyişikliklərə baxmayaraq, Konstitusiyanın Azərbaycan SSR-nin statusunu müəyyən edən 7-ci fəsli çıxarılmamışdı. Formal olaraq, gücünü itirmiş hesab edilirdi, çünki "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" 1991-ci il Konstitusiya Aktının 4-cü maddəsinə əsasən "Azərbaycan Respublikasının 1978-ci il Konstitusiyası bu Konstitusiya Aktının müddəalarına zidd gəlməyən yerlərində qüvvədə qalır. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası elan ediləndə qədər qüvvədə olmuş, Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə zidd olmayan, milli dövlət quruluşunun dəyişdirilməsinə yönəldilməmiş aktların hamısı Azərbaycan Respublikasında hüquqi qüvvəsini saxlayır". 1978-ci il Konstitusiyası Konstitusiya Aktının müddəalarına zidd olmadığı hissədə hüquqi qüvvəsini saxlamışdır. Eyni zamanda, Konstitusiyanın mətnində 7-ci fəslin saxlanılması həmin dövrdə müstəqil dövlətin konstitusiya quruculuğu ehtiyaclarına məhəl qoyulmamasını simvolizə edirdi.

"Azərbaycan Respublikasının yeni Konstitusiyasının layihəsinin hazırlanması haqqında" Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 9 fevral tarixli Qərarı ilə yaradılmış 74 nəfərdən ibarət komissiyanın bir dəfə də olsun iclası keçirilməmiş və Azərbaycan dövlət müstəqilliyini əldə etməmişdən əvvəl və ya sonra yeni Konstitusiya layihəsi hazırlamamışdı. Milli Məclisin 6 dekabr 1993-cü il tarixli qərarı ilə yaradılmış 14 nəfərdən ibarət yeni Konstitusiya layihəsinin hazırlanması üzrə digər Komissiya da yarım il ərzində yeni Əsas Qanun layihəsini təqdim edə bilməməmişdi. Komissiyanın işini canlandırmaq üçün 1994-cü ilin mayında parlament tərəfindən onun tərkibi genişləndirilmiş, lakin layihə üzərində işə heç vaxt başlanılmamışdır. O zaman referenduma çıxarılmalı olan üçüncü respublika üçün yeni Konstitusiya layihəsinin hazırlanması məsələsi 1994-cü ilin ortalarında Azərbaycan Prezidenti Heydər Əliyev tərəfindən qaldırılmışdır. 1994-cü ilin avqustunda Prezident Administrasiyasının qanunvericiliklə məşğul olan müvafiq strukturuna hazırlanmış Konstitusiya layihəsini sonradan xüsusi komissiyanın müzakirəsinə çıxarmaq barədə müvafiq tapşırıq verildi. Konstitusiya layihəsinin hazırlanması üzrə Komissiyanın yeni tərkibi 1995-ci ilin martında baş vermiş hökumət əleyhinə silahlı çevrilişdən dərhal sonra Prezident Heydər Əliyev tərəfindən parlamentə təqdim edilmiş və 1995-ci il mayın 2-də Milli Məclisin müvafiq qərarı qəbul edilmişdir. Tərkib çox pluralistik idi: onun 33 üzvü həm məhkəmə, icra və qanunvericilik qollarını, həm də ölkənin hüquq elmini təmsil edirdi; tarixçilər və dilçilər

də unudulmamışdı. Hələ yuxarıda adı çəkilən Komissiyanın yaradılmasına qədər Prezident layihənin işlənib hazırlanmasına birbaşa özü nəzarət edirdi. Ona görə də yeni Konstitusiya layihəsinin hazırlanması üzrə Komissiya onun yaradılmasından bir ay sonra konkret sənəd üzərində işə başlaya bildi və "...son nəticədə Prezident Administrasiyasının hüquqşünasları tərəfindən hazırlanmış konstitusiya layihəsini razılaşdırdılar" (Morgenthaler, G., Heuser, C., 2009, Die Verfassung der Republik Aserbaidschan — Entwicklungslinien und Perspektiven, Heidelberg Journal of International Law, B. 69, S. 375). Nə üçün Heydər Əliyev yeni Konstitusiya layihəsinin hazırlanması ilə bağlı yaranmış vəziyyətə daha əvvəl müdaxilə etmədi, Konstitusiyanın hazırlanması və qəbulunu iki il müddətinə təxirə salmaq qərarına gəldi? Konstitusiya referendumu seçki keçirməkdən köklü şəkildə fərqlənir və məntiq belədir: ac və anarxiya xaosunda qorxu içində yaşayan adamlardan, onları yedizdirməyə, təhlükəsizliyini təmin etməyə qadir olmayan dövlət onlardan nə soruşa bilər? Yenə Heydər Əliyevin sözlərini xatırlayaq: "Qanun-qayda yaratmaq üçün mənə iki il yarım lazım oldu..." (Сенин, С., 2015, Он изменил облик страны, Новые известия, 12 мая)

Layihəni daha da təkmilləşdirmək üçün daxil olan təkliflər nəzərə alınaraq iyunun 5-də Komissiyanın qərarı ilə işçi qrupu yaradılıb. Komissiyanın iclaslarının qrafiki bu qurumun çox gərgin işini göstərir – yeni Konstitusiya layihəsini hazırlayan komissiya öz iclaslarını 1995-ci il 5, 26 iyun, 16 avqust, 3, 12, 14 oktyabr, 2, 5 və 10 noyabrda keçirib.

Yeni Konstitusiya layihəsinin hazırlanması üzrə komissiyanın qərarı ilə layihə 1995-ci il oktyabrın 15-də ictimai müzakirə üçün dərc edilmişdir. 4 noyabr 1995-ci ilə qədər Komissiyaya layihənin mətni ilə bağlı 2.450 təklif daxil olub. Təkliflərin bəziləri 1995-ci il noyabrın 8-də keçirilmiş referendumdan əvvəl dərc edilmiş Konstitusiya layihəsinin yekun variantında nəzərə alınmışdır. Qeyd etmək kifayətdir ki, ictimai müzakirəyə çıxarılan Konstitusiya layihəsində 199 maddə, referenduma çıxarılan Konstitusiya layihəsində isə 158 maddə var idi. Referendum üzrə Mərkəzi Komissiyanın 20 noyabr 1995-ci il tarixli Qərarına əsasən 4 milyona yaxın seçicinin 86 faizi referendumda iştirak edib, yeni Konstitusiyanın qəbulunun lehinə səs verənlərin 91,9 faizi səs verib.

Konstitusiya preambula ilə – onun qəbul edilməsinin məqsədlərini, şərtlərini və motivlərini qısaca xarakterizə edən giriş hissəsi ilə başlayır. Bir tərəfdən, preambula yalnız Konstitusiyaya girişdir və qanunvericilik texnikası qaydalarına uyğun tərtib edilmiş normativ müddəaları ehtiva etmir. Ona görə də Konstitusiyaya istinad edərkən preambula çox vaxt qeyd olunmur. Amma digər tərəfdən, o, Konstitusiyanın qəbul edilməsinin səbəblərini müəyyən edən vahid rəsmi mətnin tərkib hissəsidir. Odur ki, həm bütövlükdə Konstitusiyanı, həm də onun ayrı-ayrı maddələrini həyata keçirərkən preambulanın mətnindən çıxış etmək lazımdır – Konstitusiyanın mətnində heç bir normanın preambulada göstərilən niyyətlərə zidd olduğu anlaşıla bilməz və bu normalar preambulaya zidd şərh edilə bilməz. Əksinə, preambulanın hər bir müddəası dərin məna ilə doludur və Konstitusiyanın praktiki olaraq bütün sonrakı mətni, yaradılmış bütün institutlar preambulada bəyan edilmiş niyyətlərin həyata keçirilməsi üçün bir növ alət, mexanizmdir. Preambulanın ümumi müddəaları müəyyən edilmiş dövlət institutlarının mənasını anlamağa imkan verən, Konstitusiyanın maddələrinin adekvat şərhinə və düzgün tətbiqinə kömək edən, bununla da onun effektivliyini artıran zəruri göstərişlər kimi çıxış edir.

Konstitusiyanın preambulası "Azərbaycan xalqı..." sözləri ilə başlayır "Biz... xalq..." ifadəsinə bir sıra ölkələrin konstitusiyalarında rast gəlinir. Konstitusiyanın preambulasında ilk növbədə dövlətin məqsədlərini kimin müəyyən etdiyi və bu Konstitusiyanı kimin qəbul etdiyi göstərilir. Azərbaycan xalqının minilliklərə gedib çıxan dövlətçilik tarixi var ki, bu da preambulada öz əksini tapıb. Azərbaycan xalqının dövlətçilik tarixinin əlamətdar səhifələrindən biri 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasıdır. "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında" Konstitusiya Aktının 2-ci maddəsinə əsasən, "Azərbaycan Respublikası 1918-ci il mayın 28-dən 1920-ci il aprelin 28-dək mövcud olmuş Azərbaycan Respublikasının varisidir.". Bu dövlət qısa müddət ərzində mövcud olmasına baxmayaraq, əsl demokratik təsisatlar qura bilmişdir. Milli Şuranın 28 may 1918-ci ildə qəbul etdiyi İstiqlal Bəyannaməsində aşağıdakı əsas prinsiplər müəyyən edildi:

– ADR-in siyasi quruluş formasının demokratik respublika elan edilməsi;

– ADR-in hamı ilə, xüsusən də qonşu dövlətlərlə mehriban qonşuluq və dostluq münasibətləri qurmaq niyyətinin bəyan edilməsi;

– Milliyyətindən, dini etiqadından, sosial vəziyyətindən və cinsindən asılı olmayaraq bütün vətəndaşların mülki və siyasi hüquqlarının təmin edilməsi;

– ADR-də yaşayan bütün millətlərin sərbəst inkişafı üçün geniş imkanların yaradılmasının təmin edilməsi.

Təkcə onu qeyd etmək kifayətdir ki, ADR-də bir çox Avropa ölkələrindən xeyli əvvəl qadınlara səsvermə hüququ verilib. Odur ki, preambulada "Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək" dedikdə, 1918 – 1920-ci illərdə ADR-də əsası qoyulmuş demokratik ənənələr də nəzərdə tutulur.

Preambulada həmçinin qeyd olunur ki, Azərbaycan xalqı Konstitusiyanı qəbul edərkən parlament tərəfindən 1991-ci il oktyabrın 18-də qəbul edilmiş və 17 dekabr 1991-ci ildə referendumla təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında" Konstitusiya Aktında təsbit edilmiş prinsipləri rəhbər tutur. Yanvarın 19-dan 20-nə keçən gecə SSRİ qoşunları Azərbaycanın paytaxtı Bakıya daxil olaraq dinc əhaliyə qarşı qanlı qırğın törətdilər. Bu işdə göstərilən qəddarlığı izah etmək çətin idi. Ali Sovetin İstintaq Komissiyasının materiallarına görə, bu aksiya nəticəsində 131 mülki şəxs həlak olmuş, 744 nəfər yaralanmışdır ("Bakı şəhərində 20 yanvar 1990-cı ildə baş vermiş faciəli hadisələr haqqında" Azərbaycan Respublikası Ali Sovetinin 29 mart 1990-cı il tarixli qərarı). Azərbaycan SSR Ali Sovetinin "Bakı şəhərində fövqəladə vəziyyətin ləğv edilməsi haqqında" 22 yanvar 1990-cı il tarixli qərarında parlament sovet qoşunlarının respublikadan çıxarılmasını tələb etdi və SSRİ hakimiyyət orqanlarından müsbət cavab alınmadıqda, SSRİ ilə Azərbaycan arasında bütün münasibətləri müzakirə etməyə başlamaq niyyətində olduğunu bəyan etdi. Bundan əvvəl, 1990-cı il yanvarın 19-da Heydər Əliyevin rəhbərlik etdiyi Naxçıvan MSSR parlamenti "Naxçıvan MSSR-də ictimai-siyasi vəziyyət haqqında" qərarında muxtar respublikanın SSRİ-nin tərkibindən çıxdığını və müstəqil respublika elan olunduğunu bəyan etdi. Ona görə də Azərbaycanın müstəqillik əldə etməsini təkcə SSRİ-nin kortəbii dağılması ilə bağlı tarixi qəza kimi qiymətləndirmək olmaz. Azərbaycan xalqı XIX əsrin birinci rübündə Rusiya imperiyası tərəfindən işğal olunduqdan sonra dövlət müstəqilliyini itirəndən bəri bütün tarixi boyu müstəqil dövlət yaratmağa çalışıb. Formal olaraq Azərbaycanın dövlət müstəqilliyi 1991-ci il avqustun 30-da parlamentin "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında" Bəyannaməni qəbul etməsi ilə elan edilib. Halbuki "müstəqil Azərbaycan Respublikasının dövlət quruluşunun, siyasi və iqtisadi quruluşunun əsasları" məhz "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə müəyyən edilmişdir. Bu sənədin - Konstitusiya Aktının adının özü onun tərkib xarakterini göstərir və 4 ilə yaxın dövlət quruculuğunun bir çox məsələlərinin tənzimlənməsində praktiki olaraq 1978-ci il Azərbaycan Konstitusiyasını əvəz etmişdir. Konstitusiya Aktının 32-ci maddəsində bilavasitə qeyd edilmişdir ki, o, Azərbaycan Respublikasının yeni Konstitusiyasının hazırlanması üçün əsasdır.

1995-ci il Konstitusiyasında işlənmiş "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında" Konstitusiya Aktının prinsipləri bunlardır:

– xalqın suverenliyinin təsdiqi (8, 9, 10-cu maddələr);

– hakimiyyətin bölünməsinə əsaslanan (11, 12, 13, 15, 28-ci maddələr), açıq şəkildə sosial yönümlü müstəqil, dünyəvi, demokratik, unitar dövlətin yaradılması (17, 25-ci maddələr);

– insan hüquqlarının üstünlüyünün təsdiqi (19, 25, 26, 27-ci maddələr);

– beynəlxalq hüququn hamılıqla tanınmış normalarında təsbit olunmuş prinsiplərin başqa dövlətlərlə münasibətlərin əsası kimi təsdiqi (maddə 16);

– mülkiyyət hüquqlarına dövlət tərəfindən təminat verən bazar iqtisadi münasibətlərinin əsaslarının təsdiqi (22, 23-cü maddələr).

Preambulanın "bütün cəmiyyətin və hər kəsin firavanlığının təmin edilməsini arzulayaraq, ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar edilməsini istəyərək" müddəası müasir demokratik dövlətin fəaliyyətinin əsas prinsiplərindən birini elan edir ki, hər kəsin rifahını, azadlığını və təhlükəsizliyini təmin edən şəraitin yaradılması insanın özünün sırf şəxsi işi deyil, dövlətin ümumi siyasəti və konstitusiyasının əsas məqsədidir. Dövlətin bu istiqamətdəki fəaliyyəti dövlətin özünün əsas konstitusiya məqsədlərindən birini nə dərəcədə yerinə yetirdiyini mühakimə etmək üçün istifadə edilə bilər: insan və vətəndaş hüquqlarına riayət etmək və qorumaq, fərdi, kollektiv və ictimai maraqların həyata keçirilməsi üçün müvafiq maddi, siyasi və digər şərait yaratmaq.

"Azadlıq" termini bir-biri ilə sıx bağlı olan iki mənada işlədilir. Ümumi mənada, bir xalqın və fərdin öz mülahizəsinə uyğun hərəkət etmək qabiliyyəti ilə xarakterizə olunan vəziyyətini ifadə

edir. Konstitusiyada bu termin konstitusiya-hüquqi normaların bütün kompleksi vasitəsilə reallaşan fundamental fəlsəfi prinsip rolunu oynayır. Başqa bir mənada bu müəyyən hərəkətləri (məsələn, vicdan azadlığı, söz azadlığı və s.) həyata keçirmək və ya etməmək üçün subyektiv imkan kimi azadlıqdır. Bu mənada "azadlıq" termini mahiyyətcə "subyektiv hüquq" termini ilə eynidir və belə fərq hüquqi lüğətin tarixən bu qaydada formalaşması ilə izah olunur. Amma nəzərə almamaq olmaz ki, subyektiv mənada azadlıq (subyektiv hüquqlar kimi) bu sözün ümumi, fəlsəfi mənasında xalqın və şəxsiyyətin azadlığının həyata keçirilməsinin hüquqi formasıdır.

Bu müddəada istifadə edilən "ədalət" termini insan hüquqlarının təmin edilməsinin semantik yükünü daşıyır, lakin, eyni zamanda, Konstitusiyanın 149-cu maddəsi bu terminin hüquqi mənasını – "bərabər mənafelərə bərabər münasibət"i açır.

"...[K]eçmiş, indiki və gələcək nəsillər qarşısında öz məsuliyyətini anlayaraq..." düsturu Azərbaycan xalqının ölkədəki işlərin vəziyyəti, Vətənin taleyi üçün məsuliyyət daşımaq iradəsini əks etdirir. Bu məsuliyyətin vətəndaşların əməli hərəkətlərində və əməllərində təcəssümü bu gününün və öz gələcəyinin məhz Azərbaycan xalqının görmək istədiyi kimi olacağına ciddi təminatdır. Təbii ki, söhbət hüquqi mənada deyil, mənəvi mənada məsuliyyətdən gedir. İndiki və gələcək nəsillər naminə bəyan etdiyi "yüksək niyyətini" yerinə yetirməyən xalq bu cür məsuliyyət üzrə buraxdığı səhvlərə görə peşmançılıq yaşaya, əgər nəticələr çox ciddidirsə, gələcək nəsillər tərəfindən əvvəlki nəsillərin pislənməsi və sair şəklində məsuliyyət daşıya bilər. Preambula Konstitusiyanın həyata keçirilməsi üçün niyyətləri müəyyən edir. Onlar xalqın nail olmaq üçün səy göstərdiyi aydın şəkildə formalaşmış məqsədlər şəklində görünür. Konstitusiyanın sonrakı maddələrində onun qəbul edilməsinin məqsədləri birbaşa qeyd olunmur. Yalnız bir istisna olaraq, Konstitusiyanın mətnində məqsədlərin birbaşa qeydinə rast gəlmək olar (12 və 58-ci maddələr).

Preambulada Azərbaycan Respublikasının müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq niyyəti bəyan edilir. Bu müddəa Konstitusiyanın bir sıra maddələrində (3, 6, 9 və 11-ci maddələr) daha geniş şəkildə izah edilmişdir.

"Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək" ifadəsi də son dərəcə vacib görünür. Bu o deməkdir ki, xalq ölkəmizdə artıq mövcud olan demokratik konstitusiya quruluşunun əsaslarını istənilən hər hansı təcavüzdən qorumağı öhdəsinə götürür. Bu prinsip Konstitusiyanın 1-ci fəslin müddəalarında açıqlanır. Bu müddəaların toxunulmazlığının hüquqi təminatları və dəyişdirilməsinin qarşısının alınması Konstitusiyanın 6 və 71-ci maddələrində nəzərdə tutulub.

"Vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq" sözləri də məna ilə doludur. Onlar dövlət orqanları ilə fərd, dövlət və vətəndaş münasibətləri sferasında islahatlar aparmaq niyyəti ifadə edirlər. Eyni zamanda, beynəlxalq hüquqla tanınan insan və vətəndaş hüquqları hər hansı qəsddən etibarlı konstitusiya müdafiəsi alır. Maraqlıdır ki, "dövlət və insan" münasibətlərində vurğu əsaslı şəkildə dəyişib. Əgər sovet quruluşu dövründə fərd öz mənafeyini ilk növbədə dövlətin maraqları ilə uzlaşdırmağa borclu idisə, indiki Konstitusiyada başqa prinsip müəyyən edilir. Dövlət fərdlərin mənafeyinin əlaqələndirilməsi və bu cür əlaqələndirilmə nəticəsində yaranan bütün vətəndaşların ümumi maraqlarının həyata keçirilməsi alətidir.

Öz dövründə Sen-Simon iddia edirdi ki, cəmiyyətin eyni dərəcədə nifrət etdiyi iki düşməni var: anarxiya və despotizm. Hegelin fəlsəfəsində aparıcı rol oynayan vətəndaş cəmiyyəti, ilk növbədə, bu ifratların hər ikisini prinsipcə istisna edən sosial əlaqələrin müəyyən yetkinliyi kimi görünür. Hegel vətəndaş cəmiyyəti ilə bağlı təhlilini iki fundamental prinsip üzərində əsaslandırırdı: fərdlər yalnız öz şəxsi maraqlarını rəhbər tutur və onlar arasında hər kəsin hamıdan asılı olduğu sosial əlaqə formalaşır.

Vətəndaş cəmiyyəti o zaman mümkün olur ki, şəxsiyyətin yaradıcılıq potensialının ictimai münasibətlərin bütün sahələrində fəal təzahürünü nəzərdə tutan münasibətlər formalaşsın, onun azadlığı obyektivləşsin.

Preambulada daha sonra istifadə olunan "hüquqi dövlət" termini vətəndaş cəmiyyətinin siyasi prinsipidir. "Hüquqi dövlət" ifadəsi mahiyyət etibarı ilə vətəndaş cəmiyyətinin siyasi hipostazıdır. "Hüquqi dövlət" və "qanunun aliliyi"nin qarşılıqlı əlaqəsi, prinsipcə, forma və məzmun arasındakı əlaqə qanunlarına əsaslanır. Ayrılmaz və bir-birinə nüfuz edən bu prinsiplər cəmiyyətin bütövlüyünü birbaşa və əks əlaqənin normal, mütərəqqi təzahür tapdığı bir sistem kimi təcəssüm etdirir. Hüquqi baxımdan bu o deməkdir ki, belə bir dövlətdə insan və cəmiyyətin azadlıqları nəinki tanınır, həm də onlara hörmət edilir, onlar dövlətin qeyri-məhdud müdaxiləsindən qorunur, qanunun dövlətdən üstünlüyü təmin edilir, vətəndaşın dövlətlə münasibətlərində müdafiəçi kimi məhkəmənin müstəqilliyi tanınır və hörmət edilir.

"Hüquqi dövlət" ifadəsi almanca "Rechtssfaaf" sözünün hərfi tərcüməsidir və digər Qərbi Avropa dillərində analoqu yoxdur. Bu termin alman hüquqşünası Carl Welcker tərəfindən təklif edilmiş və 19-cu əsrin ikinci yarısında geniş istifadə edilmişdir. Bu nəzəri konstruksiyanın qədim dövrlərdə sələfləri var. Qədim demokratiyalarda hakimiyyət daşıyıcılarının qanunla münasibətində rasionallıq və məqsədəuyğunluq məqamını çatdıran düsturlardan biri də "insanların deyil, qanunların aliliyinin"nin qurulması idi.

Preambulada xalqın iradəsinin ifadəsi kimi Azərbaycanda qanunların aliliyini təmin edən dünyəvi dövlət qurmaq niyyəti bəyan edilir. "Dünyəvi dövlət" anlayışı Konstitusiyanın 18-ci maddəsində açıqlanır.

"Qanunun aliliyi"nə gəlincə, o, hüquqi dövlətin fundamental xüsusiyyətlərindən biridir. Bu prinsipin praktiki həyata keçirilməsi məsələləri Konstitusiyanın 130, 149-151-ci maddələrində açıqlanır. "Qanunun aliliyi" prinsipinin nəzəri əsasını qanunun hüquqi mənada cəmiyyətdə mövcud olan tələbatları ən dəqiq və əsaslı şəkildə əks etdirməsi, cəmiyyətdə mövcud olan fərdi və qrup (kollektiv) mənafelərin həyata keçirilməsi məsələsində kompromisin nəticəsi olması tezisi təşkil edir. Buna görə də "qanunun aliliyi" hüquq və vəzifələrin həm ümumi, həm də fərdi və qrup mənafelərinin maksimum dərəcədə həyata keçirildiyi halda tənzimlənməsinin bir-birinə uyğunlaşdırılmış dərəcəsi deməkdir. Bu gün də qüvvədə olan Fransanın İnsan və Vətəndaş Hüquqları Bəyannaməsində təsbit olunmuş "qanunun aliliyi"nin təmin edilməsi ilə dövlət əsas məqsədlərindən birinə nail olur: "2. Hər hansı siyasi ittifaqın məqsədi insanın təbii və ayrılmaz hüquqlarının təmin edilməsindən ibarətdir... 4. Azadlıq başqasına ziyan vurmayan hər şeyi etmək imkanından ibarətdir: beləliklə, hər bir insanın təbii hüquqlarının həyata keçirilməsi yalnız cəmiyyətin digər üzvlərinin uyğun hüquqlardan istifadəsini təmin edən hədlərlə məhdudlaşdırılır. Bu hədlər yalnız qanunla müəyyənləşdirilə bilər".

Qanun ictimai münasibətləri tənzimləmək üçün ən məqbul alətdir və bunda ona xas olan bir sıra xüsusiyyətləri kömək edir:

– istifadə olunan normaların açıq, şəffaf olması;

– ictimai həyatın tənzimlənməsinin ən münasib üsullarını seçməyə imkan verən qanun çərçivəsində tətbiq edilən müxtəlif sanksiyalar;

– məsuliyyətin dərəcələri, hüquq münasibətləri iştirakçılarının hüquq və vəzifələrinin aydın şəkildə müəyyən edilməsi;

– hüquq normalarının nisbi sabitliyi;

– hamı üçün universal bərabər ölçü kimi çıxış edən qanunun birölçülü olması.

Qanun dövlətin bütün vətəndaşlarının ümumi maraqlarının həyata keçirilməsi formasıdır ki, bu da demokratik təsisatlar sayəsində milli maraqlar dərəcəsinə yüksəlir və ona görə də üstünlük alır. Qanun hüquqi mənada cəmiyyətdə mövcud olan ümumi tələbatları mümkün qədər dəqiq və əsaslı şəkildə əks etdirməli, eyni zamanda fərdi və qrup mənafelərinin həyata keçirilməsinə şərait yaratmalı, onların tam təmin olunmasına töhfə verməlidir. Bu baxımdan qanunun məzmununda məlumatların tamlığının təmin edilməsi son dərəcə mühüm əhəmiyyət kəsb edir; qanun cəmiyyətdə yetişmiş ehtiyacları özündə cəmləşdirən həmin ehtiyacların ölçüsünün emalı və qeydinə əsaslanan obyektiv prosesləri əsaslı şəkildə əks etdirməlidir. Etibarsız və ya natamam məlumat əsasında hazırlanan qanunlar sonda qismən təsirli olur və bəzən qeyri-mümkün olur. Belə təcrübənin nəticəsi istər-istəməz qanunlara özəl düzəlişlər və ya alt qanunvericilik aktları vasitəsilə düzəlişlər olur. Xüsusi vurğulanmalıdır ki, qanunun maraqlara münasibətdə ümumi funksiyası bu maraqların öz sistemində formalaşdığı və onların həyata keçirildiyi ictimai münasibətlərin inkişafının təşkilini və məqsədyönlülüyünü təmin etməkdən ibarətdir. Bununla bağlı qanunvericiliyin əsas məqsədi hüquq və vəzifələrin tənzimlənməsini, onların həyata keçirilməsinin optimal rejimini təmin etmək və bununla da bütün cəmiyyətin ümumi maraqlarının - dövlət maraqlarının həyata keçirilməsi üçün zəruri şərait yaratmaqdır. Eyni zamanda, bu proses subyektlər arasında əlaqələrin ən effektiv variantları təmin edilir. Hüququn müsbət inkişafın təsirli amilinə çevrilməsində qanunvericilik prosesinin özünün təşkili böyük rol oynayır – qanun yalnız qanun yaradıcılığı prosesində dövlət maraqlarının əsas istiqamətləri nəzərə alındığı təqdirdə bu vəzifəni fəal şəkildə həyata keçirməyə qadirdir. Qanun yaradıcılığı mexanizmi elə qurulmalıdır ki, hazırda mövcud olan obyektiv ehtiyacları əks etdirməyən qanunların yaradılması imkanları istisna edilsin və ya minimuma endirilsin. Əgər konkret qanun "işləmirsə" və tətbiq edilmirsə, bu, yalnız bir məna verir – onda dövlət maraqları təhrif olunub. Qanun yaradıcılığı prosesi elə təşkil edilməlidir ki, bu proses obyektiv hüquqyaratma amillərinə əsaslansın, dövlət maraqları subyektlərinin iradəsinin "maddiləşdirilməsini" və onun hüquq səviyyəsinə yüksəldilməsini təmin etsin.

Preambulada sosial rifah dövlətini xarakterizə

edən prinsiplər var: ədalətli iqtisadi və sosial nizama uyğun olaraq hamı üçün layiqli həyat səviyyəsinin təmin edilməsi. Azərbaycan xalqı əsassız sosial fərqləri aradan qaldırmaq və ya minimuma endirmək niyyətində olduğunu bəyan edir. Konstitusiya Azərbaycan Respublikasını "sosial dövlət" adlandırmadan onu faktiki olaraq belə təsbit edir. "Sosial dövlət" anlayışı qanunvericilik üçün nisbətən yenidir: o, dövlətin müəyyən sosial siyasət yeritmək, insanların layiqli həyatı və hər bir insanın azad inkişafı üçün məsuliyyət daşımaq öhdəliyini vurğulayır.

"Sosial dövlət" termini yalnız 20-ci əsrin ortalarında ortaya çıxdı, dövlətin yeni, artan rolunu əks etdirən konstitusiya sənədlərinə daxil edilməyə başladı: insanlara qayğı, əhalinin daha az sosial müdafiə olunan təbəqələrinə dəstək. Sosial dövlət indi Almaniya, Fransa, İspaniya, Türkiyə və bir sıra Afrika və Latın Amerikası ölkələrinin konstitusiya sənədlərində qeyd olunur. Digər ölkələrin konstitusiyalarında bu terminin olmaması onların bir çoxuna dövlət siyasətinin sosial yönümünün tanınmasını nümayiş etdirən müddəaların daxil edilməsinə mane olmur.

Preambuladan aydın olur ki, o, sosial dövlət insanın ləyaqətli həyatını təmin edən şəraitin yaradılmasının qayğısına qalmağa çağırır. "Layiqli həyat" termini dəqiqləşdirilməlidir. Bir qayda olaraq, layiqli həyat dedikdə, ilk növbədə, müasir inkişaf etmiş cəmiyyətin standartları səviyyəsində maddi təminat, mədəni dəyərlərə çıxış, şəxsi təhlükəsizlik üçün təminatlı hüquqlar başa düşülür.

Sosial dövlətin mahiyyətini başa düşmək üçün aşağıdakıları nəzərə almaq lazımdır: Sosial dövlətin mövcudluğu əhaliyə sosial xidmət göstərmək öhdəliyinin iqtisadi azadlığın və fəaliyyətin, cəmiyyət üzvlərinin sahibkarlıq təşəbbüsünün dövlət qəyyumluğu ilə əvəz edilməsi demək deyil. Bu, vətəndaşlar üzərində qəyyumluq demək deyil, vətəndaşların öz səyləri ilə özləri və ailələri üçün maddi rifah əldə edə bilmələri üçün əlverişli hüquqi və təşkilati imkanların yaradılmasıdır.

Sosial dövlət prinsipi Konstitusiyanın digər əsasları ilə, xüsusən də onun demokratik hüquqi dövlət olması, habelə vətəndaşların hüquq bərabərliyi ilə sıx bağlıdır (Konstitusiyanın 25-ci maddəsi). Sosial dövlətdə hakimiyyətin demokratik formaları onun sosial məqsədi nəzərə alınmaqla qurulmalıdır. Yüksək inkişaf etmiş hüquq sistemi hüquqi dövlətin ən mühüm xüsusiyyəti kimi mütləq sosial hüquqların təminatlarını özündə ehtiva etməlidir. Bütün dövlət orqanlarının, ictimai birliklərin və şəxslərin hüquq normaları ilə əlaqəsi onlarda sosial təminatların təsbit edilməsini nəzərdə tutur. Konstitusiyanın 25-ci maddəsinin III hissəsi vətəndaşların sosial vəziyyətinə görə hüquqlarının hər hansı formada məhdudlaşdırılmasını qadağan edir. Konstitusiyanın 13 və 29-cu maddələrində təsbit olunmuş, istər-istəməz cəmiyyətin mülkiyyət təbəqələşməsinə səbəb olan xüsusi mülkiyyət hüququ sosial dövlət üçün vətəndaşların maddi vəziyyətində həddindən artıq qeyri-mütənasibliyin qarşısının alınmasında çətin bir problem yaradır. Ona görə də gəlir vergiləri proporsional qaydada müəyyən edilməlidir.

Preambuladakı "ümumbəşəri dəyərlərə sadiq qalaraq, digər xalqlarla dostluq, sülh və təhlükəsizlik şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı faydalı əməkdaşlıq etmək" düsturu təkcə xalqın müasir dünyada öz mövqeyini qiymətləndirməsi deyil, həm də Azərbaycanın həqiqətən də dünya birliyinin ayrılmaz hissəsi, onun tamhüquqlu üzvü olduğunu dərk etməsi deməkdir. Buna görə də dövlət beynəlxalq hüququn hamı tərəfindən qəbul edilmiş prinsip və normalarına riayət edir, beynəlxalq müqavilələr bağlayır və həyata keçirir, beynəlxalq təşkilatlarda, kollektiv təhlükəsizlik sistemlərində iştirak edir, digər dövlətlərlə birlikdə ümumbəşəri və ədalətli sülhün, qarşılıqlı faydalı beynəlxalq əməkdaşlığın təmin edilməsinə, bəşəriyyətin üzləşdiyi qlobal problemlərin birgə həllinə səy göstərir.

Preambulanın "Konstitusiyanı qəbul edirik" təntənəli sözləri birbaşa hüquqi məna daşıyır. Demokratik hüquqi dövlətə çevrilmiş xalq bu fundamental aktla özünü suverenliyinin daşıyıcısı, hakimiyyətin yeganə mənbəyi və Konstitusiyasının yaradıcısı kimi təsdiq edir. Bu Konstitusiyanın qəbulu yeni dövləti legitimləşdirir və ona müvafiq siyasi-hüquqi forma verir. Dünya praktikası konstitusiyanın qəbulunun müxtəlif yollarını tanıyır: parlamentin qərarı ilə, təsis yığıncağının qərarı ilə, referendumla və sair. Bu Konstitusiya 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul edilmişdir. Onun qəbulu üçün bu prosedur "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında" Konstitusiya Aktının 15-ci maddəsi ilə əvvəlcədən müəyyən edilmişdir.

**Şahin Əliyev,**
**Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının rektoru, III dərəcəli dövlət ədliyyə müşaviri, hüquq üzrə fəlsəfə doktoru.**

# Ətraf mühitin mühafizəsinin hüquqi, iqtisadi və sosial əsaslarını müəyyən edən qanunvericilik

***Respublikamızda ekoloji problemlərin həll edilməsi dövlətin daim diqqət mərkəzində olmuş, ətraf mühitin mühafizəsi üzrə milli fəaliyyət proqramı qəbul edilmiş, beynəlxalq ekoloji proqramların həyata keçirilməsi, təbii sərvətlərin bərpasının təmin edilməsi və mühafizəsi, milli parkların təşkili və ekoloji şəbəkənin yaradılması istiqamətində bir sıra mühüm işlər görülmüşdür.***

**Heydər ƏLİYEV**
**Azərbaycan xalqının Ümummilli Lideri**



Son yüzillikdə iqtisadiyyatın bütün sahələrinin, xüsusən sənayenin sürətli inkişafı insan fəaliyyətinin ətraf mühitə mənfi təsirinin artması və təbii sərvətlərin həddindən artıq istismarı ilə nəticələnmişdir. Ekoloji tarazlığın qorunub saxlanılması, təbii ehtiyatlardan səmərəli istifadə, su, torpaq və atmosfer havasının çirklənmədən mühafizə edilməsi qlobal problemə çevrilmişdir.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev respublikamızda ekoloji problemlərin davamlı inkişaf prinsipləri əsasında həll edilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirib. Azərbaycan xalqının və dövlətçiliyinin inkişafında misilsiz xidmətləri olan Ulu Öndərin fəaliyyəti dövründə ölkədəki ekoloji vəziyyət həmişə xüsusi diqqət mərkəzində olub, ətraf mühitin mühafizəsi ilə bağlı müəyyən olunmuş prioritetlər üzrə tədbirlər görülüb. Heydər Əliyevin uzaqgörən siyasəti, o cümlədən, ekologiya sahəsində verdiyi tövsiyələr bu gün də görülən işlərdə rəhbər tutulmaqdadır. Qeyd edək ki, onun rəhbərliyi dövründə, hətta 1969 – 1982-ci illərdə ətraf mühit sahəsində 8 qanun qəbul olunub, hökumət səviyyəsində 30-dan artıq qərar təsdiq edilib.

1993-cü ildə yenidən hakimiyyətə gəlmiş Ulu Öndərimiz ekoloji məsələləri bir daha ön cərgəyə çəkdi və meşə, torpaq, su və sair haqqında bir sıra yeni qanunlar qəbul edildi. Heydər Əliyevin qurduğu müstəqil Azərbaycanda ekoloji mühitin sağlamlaşdırılması dövlət siyasətində prioritet məsələlərdən biridir.

Qeyd edilən istiqamətdə görülən tədbirlər hazırda xalqımızın Ümummilli Liderinin layiqli davamçısı olan dövlətimizin başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir.

Məhz qeyd olunan prioritet məsələlərin həlli “Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 25.12.2023-cü il tarixli Sərəncamının verilməsinə səbəb olmuşdur. Həmin prioritetlərə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır.

Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri “Təmiz ətraf mühit və yaşıl artım ölkəsi” kimi müəyyən edilib. Azərbaycan baza ili (1990) ilə müqayisədə

2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi götürüb.

Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Azərbaycan elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir.




Azərbaycan Respublikasının Prezidenti təyin olunduğu andan cənab İlham Əliyev tərəfindən bu sahədə aparılan müdrik və uzaqgörən milli və xarici siyasət BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) kimi mötəbər beynəlxalq tədbirin ölkəmizdə keçirilməsi ilə əlaqədar 195-dən çox dövlətin yekdilliklə səsvermısinə və bu toplantının uğurla 2024-cü ilin noyabr ayının 11-dən 24-dək Bakı şəhərində keçirilməsinə zəmin yaratmışdır.

1980-ci illərin sonlarından başlayaraq, insan faktorunun, iqlim sisteminə mənfi təsirini və təzyiqini azaltmaq məqsədilə Birləşmiş Millətlər Təşkilatının və beynəlxalq təşkilatların rəhbərliyi ilə bir sıra işlər həyata keçirilir. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası (UNFCCC) 1992-ci ildə, Kioto Protokolu (KP) 1997-ci ildə, Paris Protokolu (PP) isə 2015-ci ildə imzalandı.

İqlim dəyişikliyi ilə mübarizə kontekstində yaradılmış UNFCCC-nin qüvvəyə minməsindən sonra, tərəflərin fəal iştirak etdiyi, COP kimi tanıdığımız toplantılar keçirilməyə başlandı. Tərəflərin ilk konfransı olan COP1, 1995-ci ildə Almaniyanın Berlin şəhərində təşkil olundu. Yuxarıda qeyd olunan Protokolların qəbul olunması ilə əlaqədar Yaponiyanın Kioto şəhərində keçirilmiş COP3 və Fransada baş tutmuş COP21 tarixə düşüb. Sazişin tətbiqi ilə bağlı danışıqlar hər il noyabr ayında müxtəlif ölkələrin ev sahibliyi ilə keçirilir. COP – müvafiq konvensiyanın ən üst qərarverici orqanıdır. Konvensiyaya tərəfdaş olan, onu ratifikasiya edən ölkələr COP-da təmsil olunurlar. Hazırda bu ölkələrin sayı 198-dir.

Bakıda keçirilmiş COP29-da 2 həftə ərzində 70,000 iştirakçı, 80 dünya lideri – yaşıl dünya naminə həmrəyliklə addımlayaraq Bakı İqlim Həmrəyliyi (BaCU) Paktı üzrə razılıq əldə etmişlər. COP29 inkişaf etməkdə olan ölkələrin iqlim dəyişikliyi ilə mübarizə aparması və dayanıqlı iqtisadiyyatlar və cəmiyyətlər qurması üçün müxtəlif mexanizmlər vasitəsilə trilyonlarla dollar maliyyə vəsaitin ayrılması vədi verdi, bütün maraqlı tərəflərin fəal iştirakı ilə iqlim fəaliyyətlərinin irəlilədilməsi sahəsində əhəmiyyətli bir mərhələ oldu və qlobal iqlim maliyyələşdirilməsində yeni bir dövrün başlanğıcını qoydu. Ümumiyyətlə Bakıda təşkil edilmiş toplantıda böyük nailiyyətlər əldə olundu.

Belə ki, iqlim maliyyəsi üzrə tarixdə ilk dəfə konkret rəqəm üzərində razılıq əldə olundu – inkişaf etməkdə olan ölkələr üçün 2035-ci ilə qədər iqlim maliyyəsinin illik ən azı 1.3 trilyon dollara çatdırılması hədəfi ortaya qoyuldu.

COP29-da 10 il davam edən müzakirələrdən sonra, Paris Sazişinin 6-cı maddəsi altında karbon bazarlarının qurulması üçün razılaşma əldə edildi.

Bu razılaşmanın 2050-ci ilə qədər hər il 1 trilyon dollar əlavə iqtisadi resurs yaratması gözlənilir. Həmin resurslar inkişaf etməkdə olan ölkələrə yönəldiləcəkdir.

COP29-da özəl sektor da daxil olmaqla, çoxtərəfli inkişaf bankları 2030-cu ilə qədər kollektiv iqlim maliyyələşdirilməsi üçün illik 170 milyard ABŞ dollarına çatmağı planlaşdırdıqlarını elan etdilər, ümumi sərvəti 10 trilyon ABŞ dolları olan aktiv sahibləri iqlim fəaliyyətinə vəsait ayırmaq üçün birləşdilər.

COP29 çərçivəsində əməkdaşlıq, əlaqələrin qurulması və tərəfdaşlıq üçün Bakı Qlobal İqlim Şəffaflığı Platforması (BTP) şəbəkəsi yaradıldı, potensialın artırılması, ən yaxşı təcrübələrin və qazanılmış biliklərin mübadiləsi üzrə işlər aparıldı.



Həmçinin COP29-da 2030-cu ilə qədər qlobal enerji saxlama gücünün 2022-ci il səviyyələrindən altı dəfə artırılması barədə yeni vəd verildi, 130-dan çox ölkə Birgə Atəşkəs Çağırışını imzaladı, 90-dan çox hökumət və 1000-dən çox təşkilat COP29 Yaşıl Rəqəmsal Fəaliyyət Bəyannaməsini imzaladı, habelə üzvi tullantılardan yaranan metan emissiyalarının 50%-dən çoxunu təmsil edən ölkələr, bu emissiyaların azaldılması üçün konkret hədəflər müəyyən etməyə dair üzərlərinə öhdəliklər götürdülər.

Ətraf mühitin indiki və gələcək nəsillər naminə mühafizəsi – beynəlxalq ekologiya hüququnun mərkəzi prinsipidir. Bu prinsipin mahiyyəti ondan ibarətdir ki, dövlətlər indiki və gələcək nəsillər naminə ətraf mühitin keyfiyyətinin qorunub saxlanması və yaxşılaşdırılması və təbii ehtiyatların rasional idarə olunması istiqamətində bütün zəruri tədbirləri görməlidirlər. Bu sahədə Azərbaycan digər dövlətlərlə və beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edir, əksər konvensiya və bəyannamələrə qoşularaq üzərinə düşən öhdəciliklər layiqincə icra edilir. Ölkənin uzunmüddətli inkişaf strategiyasının mühüm tərkib hissəsi olan bu sahədə qəbul edilmiş normativ hüquqi aktları misal kimi göstərmək olar.

Ətraf mühitin mühafizəsi sahəsində artıq bir çox tədbirlərin məhz ölkəmizdə keçirilməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinin yüksək qiymətləndirilməsinin bariz nümunəsidir.

Ətraf mühitin mühafizəsinin hər bir vətəndaş üçün mühüm əhəmiyyət daşıdığını nəzərə alaraq, bütün dövlət qurumları, qeyri-dövlət təşkilatları, eləcə də ictimaiyyət göstərilən məsələlərin həllinə öz imkanlarını səfərbər etməlidirlər.

2025-ci ilin fevral ayının 18-də Azərbaycan Respublikasının Baş prokuroru cənab Kamran Əliyev tərəfindən “Azərbaycanın COP29-a sədrliyi ilə əlaqədar prokurorluq orqanlarının qarşısında duran vəzifələr və görüləcək işlərə dair” Baş Prokurorluğun Tədbirlər planı təsdiq edilmişdir. Həmin tədbirlər müxtəlifliyi, aktuallığı və əhatəliyə ilə seçilir. Tədbirlər planından irəli gələn vəzifələrin keyfiyyətli yerinə yetirilməsi üçün hər bir prokurorluq işçisi bu sahədə mövcud olan geniş qanunvericilik bazasını dərindən bilməli, müəyyən edilmiş hallarda və qaydada bu sahəni tənzimləyən qanunların icra və tətbiq olunmasına nəzarət etməlidir.

## Azərbaycan Respublikasının Su Məcəlləsi

Azərbaycan Respublikasının daxili suları, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi Azərbaycan xalqının milli sərvətidir, əhalinin həyat və fəaliyyətinin əsası kimi istifadə edilir və qorunur, flora və faunanın mövcudluğunu təmin edir. Məcəllə Azərbaycan Respublikasında su obyektlərinin istifadəsi və mühafizəsi ilə bağlı hüquq münasibətlərini tənzimləyir.

Su Məcəlləsi su obyektləri üzərində mülkiyyət formalarına, su obyektlərinin istifadəsi və mühafizəsi sahəsində idarəetməyə, su obyektlərinin istifadəsi və mühafizəsinə, su obyektlərinin istifadəsi və mühafizəsi tədbirlərinin iqtisadi tənzimlənməsi, mübahisələrin həll edilməsi və su qanunvericiliyinin pozulmasına görə məsuliyyətə dair münasibətləri tənzimləyir.

Su qanunvericiliyini pozan vəzifəli şəxslər, fiziki və hüquqi şəxslər aşağıdakı hallarda Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada mülki, maddi, inzibati və cinayət məsuliyyəti daşıyırlar:

- ✓ su obyektlərini özbaşına tutduqda və ya sudan özbaşına istifadə etdikdə;
- ✓ su obyektlərini çirkləndirdikdə, zibilləndirdikdə və tükəndirdikdə;
- ✓ su ehtiyatlarından israfçılıqla istifadə etdikdə;
- ✓ su təsərrüfatı qurğularını və avadanlığını zədələdikdə;
- ✓ müvafiq sistemləri dağıtmaqla torpaqların meliorasiya vəziyyətini pisləşdirdikdə;
- ✓ su mühafizəsi zonalarına və sahil mühafizə zolaqlarına riayət etmədikdə;
- ✓ xüsusi qorunan su obyektlərinin rejimini pozduqda;
- ✓ su kəmərlərinin sanitariya mühafizəsi zonalarının tələblərini pozduqda;
- ✓ Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər hallarda.

## Azərbaycan Respublikasının Torpaq Məcəlləsi

Azərbaycan Respublikasının Torpaq Məcəlləsi ölkəmizdə torpaq üzərində mülkiyyətin müxtəlif növlərinin tətbiqi əsasında yaranan torpaq münasibətlərinin tənzimlənməsinə, torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçilərinin torpaqla bağlı vəzifələrinin yerinə yetirilməsinə və torpaq üzərində hüquqlarının müdafiəsinə, torpaqlardan səmərəli istifadə və onların mühafizəsi üçün şərait yaradılmasına, torpağın münbitliyinin bərpasına və artırılmasına, texnogen çirklənmə və dağılmadan korlanmış torpaqların rekultivasiyasına, təbii mühitin qorunub saxlanmasına və yaxşılaşdırılmasına yönəlmişdir.

Azərbaycan Respublikasında torpaq sahəsi üzərində dövlət, bələdiyyə və xüsusi mülkiyyət növləri mövcuddur. Bütün mülkiyyət növləri bərabərhüquqludur və dövlət tərəfindən qorunur. Məcəllə ilə Azərbaycan Respublikasının hüdudları daxilində yerləşən bütün torpaqlar onun vahid torpaq fondunu təşkil edir.

Məqsədli təyinatına və hüquqi rejiminə uyğun olaraq, Azərbaycan Respublikasının torpaqları aşağıdakı kateqoriyalara bölünür:

- ✓ kənd təsərrüfatı təyinatlı torpaqlar;
- ✓ yaşayış məntəqələrinin (şəhərlərin, qəsəbələrin və kənd yaşayış məntəqələrinin) torpaqları;
- ✓ sənaye, nəqliyyat, rabitə, müdafiə və digər təyinatlı torpaqlar;
- ✓ xüsusi qorunan ərazilərin torpaqları;
- ✓ meşə fondu torpaqları;
- ✓ su fondu torpaqları;
- ✓ ehtiyat fondu torpaqları.

Torpaq Məcəlləsinin tələblərini pozmuş şəxslər Azərbaycan Respublikasının Mülki, İnzibati Xətalar və Cinayət məcəllələrinə uyğun olaraq məsuliyyət daşıyırlar. Azərbaycan Respublikasında torpaqların özbaşına tutulması (zəbt edilməsi) qanunla qadağan olunur.

**Azərbaycan Respublikasının Meşə Məcəlləsi**

Bu Məcəllə Azərbaycan Respublikasının ərazisində meşə münasibətlərinin tənzimlənməsinin, meşələrdən istifadənin, onların mühafizəsinin, qorunmasının, bərpasının, ekoloji və ehtiyat potensialının yüksəldilməsinin hüquqi əsaslarını müəyyən edir. Meşə münasibətlərinin tənzimlənməsi meşə bitkilərinin, torpağın, heyvanat aləminin və ətraf mühitin mühüm ekoloji, iqtisadi və sosial əhəmiyyət kəsb edən digər komponentlərinin vəhdəti olan meşə anlayışı nəzərə alınmaqla həyata keçirilir.

Meşə Məcəlləsi meşə fondu və ağac-kol bitkiləri üzərində mülkiyyət, onlardan istifadə hüququna, meşə fondundan istifadə, onun mühafizəsi, qorunması və meşələrin bərpası sahəsində dövlət idarəetməsi, meşə təsərrüfatının təşkilinə, meşələrin və meşə bitkiləri ilə örtülü olmayan meşə fondu torpaqlarının istifadəsi, mühafizəsi, qorunması və bərpasına dair münasibətləri tənzimləyir. Məcəllə həmçinin meşələrin bərpası və meşəsalmaya, meşə fondunun mühafizəsi və qorunmasına, meşə fondundan istifadənin, onun mühafizəsi, qorunması və bərpasının iqtisadi tənzimlənməsinə dair, meşə fondundan istifadənin xüsusiyyətləri və meşələrin istifadəsi, mühafizəsi, qorunması və bərpası sahəsində mübahisələrin həlli, meşə qanunvericiliyinin pozulmasına görə məsuliyyətə dair normaları da özündə ehtiva edir.

Azərbaycan Respublikasında meşə fondu dövlətə mənsubdur və onun mülkiyyətidir. Meşələr və meşə fondunun torpaqları özəlləşdirilmir.

**"Heyvanlar aləmi haqqında" Azərbaycan Respublikasının 04.06.1999-cu il tarixli Qanunu**

Bu Qanun Azərbaycan Respublikasında heyvanlar aləminin mühafizəsinin və istifadəsinin hüquqi əsaslarını müəyyən edir. Heyvanlar aləmi təbii mühitin və müxtəlifliyin əsas komponentlərindən biri, ölkənin milli sərvəti, əhalinin mənəvi və estetik tələbat mənbəyi olaraq elmi-tədqiqat obyekti, xammal və yeyinti məhsulları kimi istifadə edilir və qorunur.

Heyvanlar aləmi haqqında qanunvericiliyin məqsədi Azərbaycan Respublikasının ərazisində təbii sərbəstlik, yarımsərbəst və qeyri-sərbəst şəraitdə daimi, müvəqqəti və köçəri yaşayan bütün vəhşi heyvan növlərinin, onların yaşayış yerlərinin, nəsil verməsinin, populyasiyalarının, cinsiyyət hüceyrələrinin, rüşeymlərinin və heyvanlar aləminin digər obyektlərinin qorunub saxlanmasını və səmərəli istifadəsini təmin etməkdir.

Heyvanlar aləmi haqqında qanunvericiliyin vəzifələri heyvanlar aləminin mühafizəsinin və istifadəsinin təşkilinə, idarə edilməsinə və dövlət tənzimlənməsinə hüquqi baza yaratmaqdır.

Azərbaycan Respublikasının ərazisində heyvanlar aləmi hər hansı fiziki və ya hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən dövlətə mənsubdur və onun mülkiyyətidir.

Azərbaycan Respublikasının xüsusi mühafizə olunan təbiət ərazilərində və obyektlərində, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində, digər su obyektlərində, ov yerlərində və meşə fondu sahələrində təbii sərbəstlik şəraitində olan heyvanlar aləminin obyektləri dövlət əhəmiyyətli təbii sərvətlərə aid edilir.

**"Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının 08.06.1999-cu il tarixli Qanunu**

Bu Qanun ətraf mühitin mühafizəsinin hüquqi, iqtisadi və sosial əsaslarını müəyyən edir. Qanunun məqsədi ətraf mühitin ekoloji tarazlığının mühafizəsi sahəsində ekoloji təhlükəsizliyin təmin edilməsindən, təbii ekoloji sistemlərə təsərrüfat və başqa fəaliyyətin zərərli təsirinin qarşısının alınmasından, bioloji müxtəlifliyin qorunub saxlanılmasından və təbabətdən istifadənin səmərəli təşkilindən ibarətdir. Bu Qanun ətraf mühitin keyfiyyətinin yaxşılaşdırılması, təbii ehtiyatların səmərəli istifadəsi və bərpası, ətraf mühitin mühafizəsi sahəsində qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi məqsədilə cəmiyyətlə təbiətin qarşılıqlı əlaqəsini tənzimləyir.

Həmin Qanuna müvafiq olaraq ətraf mühitin mühafizəsi sahəsində dövlətin vəzifələrini aşağıdakılar təşkil edir:

- ✓ ətraf mühitin ekoloji tarazlıq və təbiətdən istifadənin müxtəlif sahələri üzrə proqramları hazırlamaq;
- ✓ dövlət ekoloji ekspertizasını təşkil etmək;
- ✓ ətraf mühitin, heyvanlar və bitki aləminin mühafizəsinə, bərpasına və istifadəsinə dövlət nəzarətini həyata keçirmək;
- ✓ "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, genetik modifikasiya olunmuş bitkilərin, eləcə də müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materiallarının idxalına və dövriyyəsinə dövlət nəzarətini həyata keçirmək;
- ✓ heyvanlar və bitki aləminin nadir və yer üzündən yox olması təhlükəsinə məruz qalmış növlərinin dövlət kadastrını aparmaq, "Qırmızı kitab"ı nəşr etmək;
- ✓ beynəlxalq əməkdaşlığı həyata keçirmək;
- ✓ Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun digər vəzifələri həyata keçirmək.

"Ətraf mühitin mühafizəsi haqqında" Qanuna müvafiq olaraq torpaqdan, yerin təkindən, havadan, su hövzələrindən, meşələrdən və başqa bitkilərdən, heyvanlar aləmindən, müstəsna ekoloji, elmi və mədəni dəyərə malik olan ətraf mühit obyektlərindən, xüsusi mühafizə olunan təbiət ərazilərindən və ekoloji fəlakət şəraitli olan ərazilərdən istifadədə ekoloji tələblər normativ hüquqi aktlarla tənzimlənir.

Qanunla həmçinin müəyyən edilmişdir ki, əlverişli olmayan ekoloji vəziyyət nəticəsində əhalinin sağlamlığına əhəmiyyətli dərəcədə zərər vurularsa və təbii ekoloji sistemlərin dağıdılması, floranın və faunanın məhvi ilə bağlı olan sabit və bərpası mümkün olmayan dəyişikliklərin baş verdiyi ərazi hissələri, su hövzəsi və hava fəzası hissələri ekoloji fəlakət zonaları elan edilir.

**"Ekoloji təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının 08.06.1999-cu il tarixli Qanunu**

Bu Qanun hüquqi və fiziki şəxslərin, dövlət və yerli özünüidarəetmə orqanlarının, onların vəzifəli şəxslərinin fəaliyyətinin həyata keçirilməsi zamanı ekoloji təhlükəsizlik sahəsində münasibətləri tənzimləyir. Qanunun məqsədi insanın həyatını və sağlamlığını, cəmiyyəti, onun maddi və mənəvi dəyərlərini, ətraf mühiti, o cümlədən atmosfer havası, kosmik fəza, su obyektləri, yerin təki, torpaq, təbii landşaft, bitki və heyvanlar aləmini təbii və antropogen amillərin təsiri nəticəsində yaranan təhlükələrdən qorumaq üçün hüquqi əsasları müəyyən etməkdir.

İnsanın, cəmiyyətin və dövlətin təhlükəsizliyinin tərkib hissəsi olaraq ekoloji təhlükəsizlik sahəsində dövlət siyasətinin əsas istiqamətləri aşağıdakılardır:

- ✓ ölkənin inkişaf strategiyasının formalaşdırılmasında və həyata keçirilməsində ekoloji təhlükəsizliyin üstün qaydada təmin edilməsi;
- ✓ ekoloji təhlükəsizliyin ümumdünya, regional və yerli səviyyədə təmin etmək məqsədilə beynəlxalq əməkdaşlığının inkişafı;
- ✓ biosferin və onun bütün komponentlərinin qorunub saxlanılmasının insanların həyatı və fəaliyyəti üçün ekoloji cəhətdən təhlükəsiz şəraitin təminat sisteminin yaradılması;
- ✓ ölkənin ərazisində, o cümlədən Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində dövlət və yerli özünüidarəetmə orqanlarının uzlaşdırılan fəaliyyətinin təmin edilməsi;
- ✓ təhlükəli və fövqəladə ekoloji vəziyyətin qarşısının alınması, onun, gələcək nəsillərə təsir göstərə biləcək nəticələr də daxil olmaqla, aradan qaldırılması üzrə tədbirlərin hazırlanması və ardıcıl həyata keçirilməsi;
- ✓ ətraf mühitə təsir edən təsərrüfat və digər fəaliyyətin ekoloji təhlükəsizliyinin təmin edilməsi mövqeyindən nizama salınması.

- ətraf mühitə və insan sağlamlığına mənfi təsir göstərən vibrasiya və səs-küy çirklənməsi səviyyələrinin nizama salınması.

Ekoloji təhlükəsizlik sahəsində hüquq normalarının pozulması nəticəsində insanların həyat və sağlamlığına zərər vurulması və ya təhlükə törədilməsi insan hüquqlarının pozulması sayılır. Ekoloji təhlükəsizliyin tələblərinə riayət edilməsi təbii ehtiyatlara mülkiyyət, sahiblik və onlardan istifadə hüquqlarının həyata keçirilməsinin məcburi şərtidir.

### "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının 24.03.2000-ci il tarixli Qanunu

Bu Qanuna əsasən xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri Azərbaycan Respublikasının milli sərvətidir və xüsusi ekoloji, elmi, mədəni və estetik dəyərə malikdir. Qanun Azərbaycan Respublikasının ərazisində xüsusi mühafizə olunan təbiət ərazilərinin təşkilinin və mühafizəsinin, xüsusi mühafizə olunan təbiət obyektlərinin qorunmasının hüquqi əsaslarını müəyyən edir.

Xüsusi mühafizə olunan təbiət əraziləri – xüsusi ekoloji, elmi, mədəni, estetik və sağlamlaşdırma əhəmiyyəti daşıyan təbiət komplekslərindən və obyektlərindən, nadir və nəsli kəsilmək təhlükəsi qarşısında olan bitki və heyvan növlərinin yayıldığı yerlərdən ibarət olan, təsərrüfat dövriyyəsindən tamamilə və ya qismən, daimi və ya müvəqqəti çıxarılan torpaq, su (akvatoriya) sahələri və onların üzərindəki atmosfer məkanıdır. Azərbaycan Respublikasının ərazisində məqsədindən, mühafizə rejimindən və istifadə xüsusiyyətlərindən asılı olaraq xüsusi mühafizə olunan təbiət əraziləri aşağıdakı növlərə ayrılır:

- dövlət təbiət qoruqları, o cümlədən biosfer qoruqları;
- milli parklar;
- təbiət parkları;
- ekoloji parklar;
- dövlət təbiət yasaqlıqları;
- təbiət abidələri;
- zooloji parklar;
- nəbatat bağları və dendroloji parklar;
- müalicə-sağlamlaşdırma yerləri və kurortlar;
- geoloji parklar.

Azərbaycan Respublikasında xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri beynəlxalq, respublika, bölgə və yerli əhəmiyyətli kateqoriyalara bölünür.

Dövlət təbiət qoruqlarının, geoloji parkların və milli parkların əraziləri respublika əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinə aid edilir.

Dövlət təbiət yasaqlıqları, təbiət parkları, təbiət abidələri, zooloji parklar, nəbatat bağları və dendroloji parklar, respublika əhəmiyyətli və ya bölgə əhəmiyyətli, müalicə-sağlamlaşdırma yerləri və kurortlar isə beynəlxalq və ölkə əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinə aid edilə bilər. Təbiət parkları, zooloji parklar, müalicə-sağlamlaşdırma yerləri və kurortlar yerli əhəmiyyətli xüsusi mühafizə olunan təbiət əraziləri kimi elan edilə bilər

Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında qanunvericiliyin pozulmasında təqsirkar olan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada mülki, maddi, inzibati və cinayət məsuliyyəti daşıyırlar.

### "Atmosfer havasının mühafizəsi haqqında" Azərbaycan Respublikasının 27.03.2001-ci il tarixli Qanunu

Bu Qanun atmosfer havasının mühafizəsinin hüquqi əsaslarını müəyyən etməklə əhalinin əlverişli ətraf mühitdə yaşamasına və ətraf mühit barədə dəqiq məlumat almasına dair hüquqlarını həyata keçirməyə yönəldilmişdir. Atmosfer havası insanların sağlamlığına, əmək qabiliyyətinə, flora və faunaya təsir edən ətraf mühitin ayrılmaz tərkib hissəsidir.

Müəssisə, idarə və təşkilatların yerləşdiyi yerlərdə atmosfer havasının vəziyyətinə nəzarət qaydalarına əməl etmədikdə qanunvericiliklə nəzərdə tutulmuş qaydada təqsirkar hesab edilən hüquqi və fiziki şəxslər, habelə vəzifəli şəxslər

Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.

**"Ətraf mühitə dair informasiya almaq haqqında" Azərbaycan Respublikasının 12.03.2002-ci il tarixli Qanunu**

Bu Qanun ətraf mühitin vəziyyətinə və təbii ehtiyatlardan istifadəyə dair dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarından, həmçinin məsul şəxslərdən tam, dəqiq, vaxtında informasiya almaqla bağlı yaranan münasibətləri tənzimləyir.

Ətraf mühitə dair informasiya verilməsi üzrə dövlət orqanları ətraf mühitə dair informasiya registrini aparır, istifadəsində olan registr və arxivlərin müraciət edənlər üçün açıq olmasını və bunlarla bağlı məlumatların verilməsini təmin edir. Qanun mediada ətraf mühitə dair vaxtaşırı verilən məlumatların vahid formasını və müddətlərini müəyyən edir.

Üç ildə bir dəfədən az olmayaraq ətraf mühitin vəziyyətinə dair milli məruzələri, habelə ətraf mühitin vəziyyəti (keyfiyyəti və çirklənməsi) barədə məlumatlar dərc edilir. İldə bir dəfədən az olmayaraq ətraf mühitin vəziyyətinə dair hesabatlar tərtib edilir, onlar ictimaiyyət üçün açıq olan elektron məlumatlar bankına daxil edilir, çirklənmələrlə bağlı kadastr və registr sistemlərinin təkmilləşdirilməsi üçün tədbirlər görür. Ətraf mühitə dair informasiyanın verilməsini qanuna zidd məhdudlaşdırmaqda təqsirli bilinən dövlət və ya yerli özünüidarəetmə orqanlarının rəhbərləri və digər vəzifəli şəxslər qanunvericiliyə uyğun olaraq məsuliyyət daşıyırlar.

**"Ovçuluq haqqında" Azərbaycan Respublikasının 20.04.2004-cü il tarixli Qanunu**

Bu Qanun Azərbaycan Respublikasının ərazisində ovçuluğun və ovçuluq təsərrüfatlarının təşkilinin, onların fəaliyyətinin həyata keçirilməsinin, habelə ov obyektlərinin mühafizəsinin, artırılmasının və istifadəsinin hüquqi əsaslanın müəyyən edir. Ovçuluq haqqında qanunvericiliyin məqsədi Azərbaycan Respublikasının ərazisində dövlət ov fondunu qoruyub saxlamaqla ovçuluq fəaliyyətini səmərəli təşkil etmək, təbii sərbəstlik və yarımsərbəst şəraitində daimi, müvəqqəti və köçəri yaşayan vəhşi heyvan növlərinin sayının tənzimlənməsini, mühafizəsini və artırılmasını, habelə onların yetişdirilib ov yerlərinə buraxılmasını və yaşayış yerlərinin qorunub saxlanmasını təmin etməkdir.

**"Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında" Azərbaycan Respublikasının 13.12.2011-ci il tarixli Qanunu**

Bu Qanunun məqsədi mədəni bitkilərin milli genefondunu təşkil edən bitkilərin, onların yabanı əcdadları da daxil olmaqla genetik ehtiyatlarının indiki və gələcək nəsillər üçün zəmanətli qorunub saxlanılmasını, onların qida məhsulları istehsalında, kənd təsərrüfatı işlərinin aparılmasında, elmi-tədqiqat, seleksiya və digər fəaliyyətdə istifadəsini, bitki materiallarına olan ehtiyacın davamlı ödənilməsini, habelə dövlətin ərzaq, ekoloji və bioloji ehtiyatlar təhlükəsizliyinin yaxşılaşdırılmasını təmin etməkdən ibarətdir.

**"Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikasının 02.05.2014-cü il tarixli Qanunu**

Bu Qanun Azərbaycan Respublikasında yaşıllıqların mühafizəsi ilə əlaqədar münasibətləri tənzimləyir, bu sahədə dövlətin, bələdiyyələrin, fiziki və hüquqi şəxslərin hüquq və vəzifələrini müəyyən edir. Qanun meşə fondu torpaqlarında və xüsusi mühafizə olunan təbiət əraziləri və obyektlərində olan yaşıllıqlar, xüsusi mülkiyyətdə olan həyətyanı və bağ sahələrindəki yaşıllıqlar, habelə kənd təsərrüfatı məhsulları istehsalı üçün istifadə edilən bitkilərdən ibarət yaşıllıqlar (əkinlər) istisna olmaqla, ölkə ərazisindəki yaşıllıqlara şamil edilir.

Qanuna müvafiq olaraq təyinatından və istifadə qaydasından (rejimindən) asılı olaraq, şəhərlərdə və digər yaşayış məntəqələrində, infrastruktur

obyektlərinin hüdudlarında yaşıllıqların aşağıdakı növləri vardır:

- ✓ ümumi istifadədə olan yaşıllıqlar (park, meşə-park, bağ, bağça, bulvar ərazisində olan və digər yaşıllıqlar);
- ✓ məhdud istifadəli yaşıllıqlar (məhəllədaxili, təhsil, tibb, mədəni-məişət, sənaye müəssisələrinin və digər obyektlərin ərazisində olan yaşıllıqlar);
- ✓ xüsusi təyinatlı yaşıllıqlar (sənaye müəssisələri və kompleksləri ilə yaşayış zonaları arasında, infrastruktur obyektlərinin (magistral dəmir və avtomobil yollarının, enerji kəmərlərinin və obyektlərinin, su kanallarının, digər bu kimi obyektlərin) hüdudlarında salınmış yaşıllıq zolaqları, tingliklər (şitilliklər), küçə yaşıllıqları, mühafizə, sanitariya-mühafizə və digər qoruyucu zonalarda, xatirə kompleksləri (xiyabanlar) və qəbiristanlıqlar ərazisində olan və digər yaşıllıqlar).

### "Yerin təki haqqında" Azərbaycan Respublikasının 02.05.2014-cü il tarixli Qanunu

Bu Qanun Azərbaycan Respublikası ərazisində, o cümlədən Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub bölməsində yer təkinin öyrənilməsi (axtarış, kəşfiyyat), onun səmərəli istifadəsi, mühafizəsi və görülən işlərin təhlükəsizliyi ilə əlaqədar münasibətləri tənzimləyir, yerin təkindən istifadədə dövlətin, yer təki istifadəçilərinin və vətəndaşların mənafelərinin qorunmasını təmin edir.

Yerin təkindən istifadənin növləri aşağıdakılardır:

- ✓ geoloji və geoekoloji öyrənmə;
- ✓ faydalı qazıntıların çıxarılması;
- ✓ dağ-mədən işləri ilə əlaqədar istehsal tullantılarından istifadə;
- ✓ faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan yeraltı qurğuların tikilməsi və istismarı;
- ✓ elmi, mədəni, estetik, müalicə-sağlamlıq əhəmiyyətlərinə malik xüsusi mühafizə edilən geoloji obyektlərin (elmi və tədris sınaq meydanları, geoloji qoruqlar, yasaqlıqlar, təbiət abidələri, mağaralar və digər yeraltı boşluqlar) yaradılması;
- ✓ mineraloji, paleontoloji və digər geoloji kolleksiya materiallarının toplanması, arxeoloji qazıntıların aparılması.

### Azərbaycan Respublikasının "Qırmızı kitab"ı

Fauna və flora növlərinin mühafizə olunmasının effektiv üsullarından biri "Qırmızı kitab"ın təsis edilməsidir. Mövcud qanunvericiliyə əsasən, ölkə ərazisində təbii şəraitdə yaşayan, nadir və nəsli kəsilmək təhlükəsi qarşısında olan heyvan və bitki növləri xüsusi mühafizə edilir və həmin Kitaba daxil edilir. "Qırmızı kitab" rəsmi sənəd olmaq etibarilə, Azərbaycan Respublikasının bütün ərazisində, o cümlədən Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində heyvan və bitki növlərinin (yarımnöv, populyasiyalar) vəziyyəti, yayılması və mühafizəsi tədbirləri haqqında məlumatları özündə əks etdirir.

"Qırmızı kitab" "Heyvanlar aləmi haqqında" və "Ətraf mühitin mühafizəsi haqqında" qanunlara əsasən tərtib edilir. "Qırmızı kitab"ın nəşrləri Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən Azərbaycan Milli Elmlər Akademiyası ilə əlaqəli surətdə təşkil edilir və maliyyələşdirilməsi dövlət büdcəsi hesabına həyata keçirilməklə hər 10 ildən bir yenidən nəşr edilməsi nəzərdə tutulur.

"Qırmızı kitab"ın son nəşrində (2023-cü il) nadir, nəsli kəsilmək təhlükəsi altında olan 241 fauna (152 onurğalı, 89 onurğasız) və 460 flora (383 ali, 15 ali sporlu, 6 mamır, 14 şibyə, 5 yosun, 37 göbələk növləri) öz əksini tapmışdır. Həmçinin ilk dəfə tərtib olunan çəhrayı siyahıya 51 bitki növü daxil edilmişdir.

**Talıb Cəfərov**
**Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəisi, baş ədliyyə müşaviri**

# Ekologiya sahəsində aparılan islahatların mahiyyəti və nəticələri

***Ekologiya məsələlərinin həllinə daim diqqət göstərilməlidir. Çünki bu həyatdır, bizim həyatımızdır, uşaqlarımızın həyatıdır, xalqımızın gələcəyidir. Biz təbiəti qorumalıyıq və çalışmalıyıq ki, vaxtilə çirklənmiş ərazilərin hamısını təmizləyək.***

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Ölkə iqtisadiyyatının sürətli inkişafı, xalqın rifahının yüksəldilməsi, ekoloji vəziyyətin yaxşılaşdırılması, ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadə məsələləri hər zaman Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət mərkəzindədir. Azərbaycan Respublikasında davamlı inkişaf prinsipləri dövlət siyasəti və proqramlarına daxil edilmişdir.

Azərbaycan Respublikasının hökuməti tərəfindən qəbul edilmiş Milli və Dövlət Proqram sənədlərində bu hədəflərin reallaşması üçün yerinə yetirilməsi zəruri olan vəzifələr müəyyənləşdirilmişdir.

Bu proqramların əsas məqsədi ölkə iqtisadiyyatının, xüsusilə qeyri-neft sektorunun dinamik inkişafına, əhalinin iqtisadi və sosial tələbatlarının daha dolğun təmin olunmasına, regionların inkişafına, ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsinə, ətraf mühitin mühafizəsinə yönəldilmiş dövlət əhəmiyyətli investisiya layihələrinin sistemli və səmərəli şəkildə həyata keçirilməsini təmin etməkdən ibarətdir.



Son illər ölkəmizdə ətraf mühitlə bağlı qəbul olunmuş dövlət proqramlarının icrasına diqqətin artırılması, mövcud ekoloji problemlərin daha səmərəli həll edilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən müvafiq sərəncamların imzalanması bu sahənin ölkədə prioritet olduğunu göstərir.

### Ekoloji siyasətin əsas istiqamətləri

Son yüzillikdə iqtisadiyyatın bütün sahələrinin, xüsusən sənayenin sürətli inkişafı insan fəaliyyətinin ətraf mühitə mənfi təsirinin artması və təbii sərvətlərin həddindən artıq istismarı ilə nəticələnmişdir. Ekoloji tarazlığın qorunub saxlanılması, təbii ehtiyatlardan səmərəli istifadə, su, torpaq və atmosfer havasının çirklənmədən mühafizə edilməsi qlobal problemə çevrilmişdir.

Azərbaycanda ətraf mühit problemlərinin həlli istiqamətində genişmiqyaslı işlərin görülməsi, ekoloji vəziyyətin yaxşılaşdırılmasına yönəlmiş dövlət siyasəti ölkənin uzunmüddətli inkişaf strategiyasının mühüm tərkib hissəsidir.



Azərbaycan Respublikasının ekoloji siyasətinin əsas mahiyyəti insanların ekoloji təmiz mühitdə yaşamasını təmin etmək məqsədilə ekosistemlərin qorunması, təbii sərvətlərdən səmərəli istifadə olunması ilə dayanıqlı inkişafın təmin edilməsi, ətraf mühitə minimal zərərli təsir, onun ilkin vəziyyətinin bərpası və qorunmasından ibarətdir.

Ölkədə təmiz ekoloji mühit dəstəklənmiş, mövcud təbii resurslardan dayanıqlı və səmərəli istifadə ilə yanaşı, bərpa olunan enerji mənbələrinin dövriyyəyə cəlbi imkanları genişlənmişdir. Müasir su ehtiyatları infrastrukturu yaradılmış, tullantıların səmərəli idarə edilməsi imkanları genişləndirilmiş, bərpa olunan enerji mənbələri üzrə yeni qoyuluş gücləri yaradılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadə istiqamətində "Azərbaycan Respublikasının 2022 – 2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası", "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik", "Azərbaycan Respublikası regionlarının 2019 – 2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020 – 2022-ci illər üçün Tədbirlər Planı", "Yerin təkinin geoloji öyrənilməsinə və mineral-xammal bazasından səmərəli istifadəyə dair 2020 – 2024-cü illər üçün Dövlət Proqramı" və digər proqramlar çərçivəsində tədbirlər həyata keçirilir və bu sahədə xarici ölkələrlə faydalı əməkdaşlıq edilir.

Məhz bu tədbirlərin məntiqli nəticəsidir ki, 195-dən çox dövlətin yekdil razılığı ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) kimi mötəbər beynəlxalq tədbir 2024-cü ilin noyabr ayının 11-dən 24-dək Bakı şəhərində müsbət nəticələr əldə edilməklə keçirilmişdir.

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdış" Dövlət Proqramı çərçivəsində ekoloji təmiz və iqtisadi cəhətdən səmərəli bərpa olunan enerji mənbələrindən istifadə genişləndirilməklə "yaşıl enerji zonası" konsepsiyası tətbiq ediləcək. Nəticədə, ümumi məhsul buraxılışında, ixracda və məşğulluqda işğaldan azad edilmiş ərazilərin payı davamlı artacaq.

Bununla yanaşı, "Azərbaycan Respublikasında meşələrin mühafizəsi və davamlı inkişafına dair 2022 – 2030-cu illər üçün Dövlət Proqramı"nın və "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya"sı hazırlanıb.

Eyni zamanda, qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində, hüquqi bazanın möhkəmləndirilməsi məqsədilə addımlar atılır.

Ölkə üzrə bərk məişət tullantılarının idarə edilməsi sisteminin müasir standartlara uyğun təşkili, müvafiq infrastrukturun yaradılması məqsədilə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 27 noyabr tarixli 675s nömrəli Sərəncamı ilə "İşğaldan azad edilmiş ərazilər daxil olmaqla, ölkə üzrə bərk məişət tullantılarının idarə edilməsi ilə əlaqədar Komissiya" yaradılmışdır.

Təmiz ekoloji mühitin yaradılması istiqamətində su ehtiyatlarından səmərəli istifadə, Xəzər dənizinin ekoloji mühitinin mühafizəsi, tullantıların idarə olunması, iqlim dəyişmələrinin mənfi təsirlərinin azaldılması, müşahidə və monitorinq sistemlərinin modernləşdirilməsi, atmosfer havasının mühafizəsi, biomüxtəlifliyin qorunması, ekoturizmin və akvakulturanın inkişafı, meşə örtüyünün, yaşıllıqların mühafizəsi və artırılması, çirklənmiş ərazilərin bərpası, torpaq ehtiyatlarının

münbitliyinin artırılması, mineral-xammal bazasının genişləndirilməsi və təbii sərvətlərdən səmərəli istifadə, ekoloji təfəkkürün artırılması əsas prioritet istiqamətlərdəndir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən müəyyən edilmiş əsas missiya – insanların ekoloji təmiz mühitdə yaşamasını təmin etmək məqsədilə ekosistemlərin qorunması, təbii sərvətlərdən səmərəli istifadə olunması ilə dayanıqlı inkişafın təmin edilməsi, ətraf mühitə minimal zərərli təsir, onun ilkin vəziyyətinin bərpası və qorunmasından ibarətdir.

Ölkədə əhalinin, onun əmlakının və iqtisadiyyatın ayrı-ayrı sahələrinin hidrometeoroloji təhlükəsizliyinin təmin edilməsi, təhlükəli hava hadisələri və iqlim dəyişikliklərinin mənfi təsirlərinin azaldılması, ətraf mühitin vəziyyətinin monitorinqinin müasir üsullarla aparılması və ekoloji vəziyyətlə bağlı dəqiq məlumatların əldə olunması istiqamətində tədbirlərin əhəmiyyətinin artırılması qarşıya məqsəd kimi qoyulmuşdur.

Ətraf mühitin çirklənmə səviyyəsinin kəmiyyət və keyfiyyət göstəricilərinin müəyyən edilməsi və bununla bağlı operativ tədbirlərin görülməsi ətraf mühitin mühafizəsində əsas amildir. Bununla bağlı bütün ölkə boyu ətraf mühit komponentlərinin çirklənmə vəziyyəti üzərində daimi monitorinq nəzarəti sisteminin qurulması məqsədilə regionlarda ekoloji laboratoriyalar yaradılır.

Yeni meşələrin salınması, ağackəsmə hallarının aradan qaldırılması, meşə resurslarından səmərəli istifadə etməklə yerli əhalinin meşə və ərzaq məhsullarına olan tələbatının ödənilməsi, yeni iş yerlərinin açılması, sahibkarlara əlverişli şəraitin yaradılması və investisiyaların cəlb olunması məqsədilə meşə fondu torpaqlarında aqromeşə massivlərinin yaradılması, torpaqların kənd təsərrüfatı məqsədli və turizm fəaliyyəti ilə bağlı icarəyə verilməsi nəzərdə tutulur.

Qeyd olunan sahədə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyət Fondunun prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə də böyük işlər görülüb və görülməkdə davam etdirilir.

Mehriban Əliyevanın başçılığı ilə 2004-cü ildən fəaliyyət göstərən Heydər Əliyev Fondu təhsil, səhiyyə, mədəniyyət, idman, elm və digər sahələrlə yanaşı, ekologiya sahəsində müxtəlif layihələr həyata keçirərək, yeni cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial-iqtisadi inkişafına öz töhfəsini verir.

Məsələn, 2007-ci ildə Heydər Əliyev Fondu ətraf mühitin mühafizəsi və ekoloji durumun yaxşılaşdırılması məqsədi ilə "Hərəmiz bir ağac əkək!" aksiyasını həyata keçirməyə başladı. Fond Bakı ətrafındakı qəsəbələrin istifadəsiz qalmış sahələrində 20 min həmişəyaşıl ağac əkməklə respublikada rezonans doğuran layihənin əsasını qoydu. Qısa zamanda Azərbaycanın bütün şəhər, qəsəbə və kəndlərində vətəndaşlar bu təşəbbüsə qoşularaq yaşıllaşdırma kampaniyasını davam etdirdilər. Ətraf mühitin qorunmasına yönəlmiş layihə çərçivəsində artıq ölkə ərazisində iki milyondan çox yeni ağac əkilib.



Qeyd edilən tədbirə prokurorluq orqanları da qoşularaq, prokurorluq işçiləri hər il ənənə halında Ümummilli Liderə həsr edilmiş ağacəkmə aksiyası keçirirlər. Məsələn, Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar 2023-cü ilin aprelin 29-da prokurorluq əməkdaşları tərəfindən Ekologiya və Təbii Sərvətlər Nazirliyinin dəstəyi ilə Abşeron rayonu və Naxçıvan şəhəri ərazisində ümumilikdə 1.600-dən çox zeytun və şam ağacları əkilmişdir. Abşeron yarımadasının iqliminə uyğun olaraq əkilən ağacların küləkdən qorunması üçün dirəklər basdırılmış, onların inkişafı üçün münbit torpaq və mineral gübrələrdən istifadə olunmuşdur.

Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə əlaqədar 2024-cü ilin aprelin 27-də prokurorluq əməkdaşları, həmçinin prokurorluğun veteranları tərəfindən ümumilikdə 2 hektar ərazidə 1500-dən çox ağac əkilmişdir. Əkilən ağacların mühafizəsi və mütəmadi olaraq onlara qulluq göstərilməsi məqsədilə bütün zəruri tədbirlər görülüb.

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü, həmçinin ölkə başçısının ekoloji mühitin, xüsusilə yaşıllıqların mühafizəsi ilə bağlı tapşırıq və tövsiyələri ilə əlaqədar 2025-ci ilin aprelin 26-da Baş Prokurorluq, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi, Hərbi Prokurorluq, Bakı şəhər və paytaxtın tabe rayon prokurorluqlarının əməkdaşları, eləcə də prokurorluq veteranları Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaxından dəstəyi ilə növbəti



ağacəkmə kampaniyası keçirib. Tədbir çərçivəsində ümumilikdə 2 hektar ərazidə 1250-dən çox ağac əkilib.

2010 – 2011-ci illəri əhatə edən "Azərbaycan Respublikası ərazisində ceyranların mühafizəsi, reintroduksiyası və tarixi areallarının yenidən bərpası" layihəsi Heydər Əliyev Fondu və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən Abşeron rayonunun inzibati ərazisinə aid olan və Qobustan-Cəngiçay Dövlət Təbiət Yasaqlığındakı bu arealda ceyranların sayının artırılması məqsədilə həyata keçirilib. Layihə çərçivəsində Şirvan Milli Parkından Acınohur-Sarıca düzləri, Bozdağ silsiləsi, Mil düzü və Qobustan-Cəngiçay ərazilərinə ceyranlar gətirilib.

Layihəyə uyğun olaraq, mövcud problemlərin öyrənilməsi və aradan qaldırılması, quraq ərazilərdə su təminatı və yem tələbatının ödənilməsi, ceyran populyasiyasının mühafizəsinin gücləndirilməsi məqsədilə çevik antibrokonyer qrupların yaradılması və zəruri avadanlıqla təchiz edilməsi, layihə ərazisində müntəzəm monitorinqlərin keçirilməsi, vacib biotexniki tədbirlərin aparılması, ərazidə və ətrafda məskunlaşmış əhalinin ekoloji maarifləndirilməsi istiqamətində intensiv işlər görülüb. Yol kənarlarında, areallarin yaxınlığında xüsusi informasiya lövhələri qoyulub və bu lövhələrdə ceyran ovunun qadağan edilməsi barədə məlumatlar verilir. Layihə nadir növ olan ceyranların mühafizəsinin gücləndirilməsi, areallarının genişləndirilməsi və yüz illər boyu mövcud olmuş təbii arealın yenidən bərpasına təkan verəcəkdir.

2022-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Cəbrayıl rayonu ərazisində "Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi", "Ağıllı



Tingçilik” və “Dostluq Meşəsi” Kompleksinin yaradılması ilə bağlı həmin əraziyə 18 baş ceyranın buraxılması mərasimində də iştirak ediblər.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə ölkəmizin müxtəlif regionlarında parklar abadlaşdırılır, ekoloji cəhətdən təmiz istirahət zonaları salınır. Məsələn, 2018-ci ildə Bakının Xətai rayonunda Heydər Əliyev Fondunun təşəbbüsü ilə idman-əyləncə park kompleksi salınıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 24.08.2018-ci ildə idman-əyləncə park kompleksində yaradılan şəraitlə tanış olmuşlar. Park kompleksinin ümumi sahəsi 36.833 kvadratmetr təşkil edir. Parkın salındığı ərazi geoloji araşdırmalar nəticəsində aşkar edilən neft və mərmər tozu tullantılarından təmizlənib, torpaq münbitləşdirilib, yaşıllıq zolağı salınıb, onlarla ağac və dekorativ kollar əkilib, müasir işıqlandırma sistemi və müşahidə kameraları quraşdırılıb. İdman-əyləncə park kompleksində təbii daşlardan və metaldan düzəldilən heykəllər landşaftla vəhdət təşkil edir.

Buradakı heykəllər xüsusi dizayn və üslubu ilə fərqlənir. Parkda müxtəlif daş heykəllər, o cümlədən ürək formasında heykəllər və “Love” kompozisiyası quraşdırılıb. Park kompleksinin ərazisində iki futbol meydançası, voleybol, həndbol və basketbol oyunları üçün universal idman meydançası və trenajor meydançası qurulub.



Bakının Xətai rayonunda Zığ yolu istiqamətində yerləşən “Gənclik” parkı da Heydər Əliyev Fondunun təşəbbüsü ilə yaradılıb. Parkda şəhər sakinlərinin və qonaqların istirahəti üçün müxtəlif infrastruktur yaradılıb. Buradan Bakının, o cümlədən Xəzər dənizinin əsrarəngiz mənzərəsini də seyr etmək olar.

Gənclik parkı 43 hektar ərazini əhatə edir. Ərazidə 300 minə yaxın ağac və kol (Eldar şamı, zeytun, kiparis, çinar, tuya, liqustra, müxtəlif meyvə ağacları, alyandr gülü, ardıc kolu) var. Yeni istirahət məkanında həm uşaqlar, həm də böyüklər üçün idman və əyləncə sahələri yaradılıb, attraksion quraşdırılıb. Həmçinin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən fiziki məhdudiyyətli şəxslər üçün idman və əyləncə sahəsi yaradılıb. Burada bağlı və açıq futbol meydançaları inşa olunub. Parkda ziyarətçilər üçün piknik məntəqələri, qaçış üçün cığırlar, eləcə də velosiped yolları var. Park ərazisinin genişliyi nəzərə alınaraq istirahət edən şəxslərin rahatlığı üçün müvafiq məlumatlandırıcı və istiqamətləndirici



lövhələr quraşdırılıb. Parkda göl yaradılıb. Restoran kompleksi inşa olunub, kafe və qəhvə məntəqələri yaradılıb.

Heydər Əliyev Fondunun dəvəti ilə Rusiyadan və ABŞ-dən Bakıya gələn tanınmış mütəxəssislər paytaxt parklarında ağacların müayinəsini aparırlar. Paytaxtda və Abşeron yarımadasında Eldar şamlarının quruması və onlarda müxtəlif xəstəliklər müşahidə olunur. Bununla əlaqədar Heydər Əliyev Fondu və Bakı Şəhər İcra Hakimiyyətinin birgə təşəbbüsü ilə mütəxəssislər ağaclar və torpaqları yerində müayinə edir, laborator analizlər aparılır. Ağacların qurumasının səbəblərinin aradan qaldırılması üzrə pilot layihəyə başlanılıb və bəzi ağaclara xüsusi kapsullar vasitəsi ilə dərmanlar verilir.



2012-ci ildən Heydər Əliyev Fondunun, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin və "Təmiz Şəhər" ASC-nin birgə təşkilatçılığı ilə Qala Dövlət Tarix-Etnoqrafiya Qoruğunda "Tullantıdan sənətə" adlı beynəlxalq sərgi təşkil edilir. Sərgidə məişət tullantılarından müxtəlif sənət nümunələri hazırlanaraq tədbir iştirakçılarına nümayiş etdirilir. Sərginin əsas məqsədi insanları israfçılıqdan yayındırmaq və onların malik olduğu əşyaları düşünmədən zibil qutularına atmaq vərdişlərindən çəkindirməkdir.

Tullantıdan sənət əsərlərinin yaradılması müasir dövrdə "alternativ incəsənət", şablon və qaydalara etiraz kimi dəyərləndirilir. Bu sahənin sənətkarları metal, kağız, plastik kütlə, rezin məmulat və müxtəlif məişət tullantılardan istifadə etməklə maraqlı və ibrətamiz əsərlər yaradırlar. Sərgidə Azərbaycan, Almaniya, ABŞ, Avstraliya, Böyük Britaniya, Belarus, Niderland, İspaniya, Türkiyə, Çexiya, Estoniya, Rumıniya, Litva, Gürcüstan, Kuba, Kolumbiya, Yaponiya və digər ölkələrdən olan sənətkarların kağız, ev təsərrüfatında istifadəyə yararsız texnika və əşyalar, şin, maşın şüşələri, şüşə qablar, metal və digər tullantı materiallarından hazırlanmış əl işləri nümayiş etdirilir.

Bu beynəlxalq sərgilərin nəticəsində Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğunun ərazisində "Tullantıdan sənətə" muzeyi yaradılıb. 14.06.2015-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva həmin muzeyin açılışında iştirak etmişdir.

Ümumiyyətlə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva da ətraf mühitinin qorunmasını prioritet fəaliyyət istiqaməti kimi qəbul edərək, ekologiyanın təmiz olmasına öz tövhəsini verir. Belə ki, onun təşəbbüsü ilə ekologiya sahəsində bir sıra mühüm layihələr həyata keçirilmiş və keçirilməsi davam etməkdədir.



Leyla Əliyevanın təşəbbüsü ilə 12.07.2011-ci ildə IDEA (Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq) İctimai Birliyi təsis edilib. Təşkilatın fəaliyyəti ictimaiyyəti ətraf mühitin problemləri barədə məlumatlandırmağa, gənclərlə əməkdaşlığa, ekoloji problemlər və onların düzgün həllinin axtarışı sahəsində təhsilə istiqamətlənib.

Qısa müddət ərzində təşkilat gənc ekoloqlar və adi tələbələr üçün ağacəkmə fəaliyyətləri, o cümlədən 5 qitə və 90 ölkədən 1200 iştirakçının qatıldığı "Yer Kürəsi uşaqların gözü ilə" uşaqlar üçün beynəlxalq fotomüsabiqə və digər müxtəlif layihələr həyata keçirmişdir. IDEA, həmçinin UNEP-in əməkdaşlığı ilə "Yaşıl həftə" konfranslar silsiləsi kimi beynəlxalq mütəxəssislərin iştirak etdiyi çoxsaylı görüşləri reallaşdıraraq dünyanın müxtəlif ölkələrindən olan gənc ekoloqların şəbəkələşməsini təmin etmişdir.

IDEA ekoloji maariflənmə işini ailə, cəmiyyət və milli həyatın ən mühüm hissəsinə çevirmək üçün bütün fəaliyyətini gənclər üzərində qurur. IDEA missiyası gənclərin regional və beynəlxalq səviyyədə real və virtual cəmiyyətlərinin yaradılması, ətraf mühitin qorunması ilə bağlı məlumatlar verən və praktik çağırışlar edən açıq dialoqlar vasitəsilə həmin cəmiyyətin inkişaf etdirilməsi, yerlərdə ekoloji maarifləndirmə işlərini həyata keçirmək üçün bu cəmiyyətin hər bir üzvünün lider kimi yetişməsini təmin etməkdir.

Qafqazda bəbir və zubrların populyasiyasının bərpası, eləcə də regionun təbiətinin qorunması Rusiyanın Ümumdünya Vəhşi Təbiət Fondu (WWF) və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tərəfindən əsası qoyulmuş IDEA təşkilatı arasında imzalanmış əməkdaşlıq sazişinin əsas məqsədlərini təşkil edir.

Müqavilə Rusiya ilə Azərbaycan arasında müasir ekoloji texnologiya, təcrübə və standartların tətbiqi, cəmiyyətdə ətraf mühitin qorunması ilə bağlı rəyin formalaşdırılması, qoruqların yaradılması və qorunması, həmçinin Avropa zubru ilə Asiya bəbirlərinin bərpası üzrə proqramın inkişafı sahələrdə əməkdaşlığın genişləndirilməsini nəzərdə tutur.

Vəhşi təbiətdə növün davamlı populyasiyasının formalaşması ilə bəbirin yeni buraxılma zonalarının müəyyən edilməsi məqsədilə Qafqaz Qoruqlar və Milli Parklar Assosiasiyasının çöl




tədqiqatları aparılıb. Bu da ekoloqlara potensial buraxılma ərazilərinin aşkar edilməsi və yem bazasının vəziyyəti üzrə əldə edilmiş məlumatlar nəzərə alınmaqla bəbirin reintroduksiyası proqramının reallaşdırılmasına imkan verəcək.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə Qafqaz bəbirinin izinə düşən məşhur təbiət fotoqrafı və rejissoru Adrian Steyrn tərəfindən çəkilən "Dünyanın ən çox axtarılan bəbiri" sənədli filminin Londonda təqdimatı və ilk nümayişi keçirilmişdir.

Eyni zamanda, hər il may ayının 11 və 12-də qeyd olunan Dünya Köçəri Quşlar Günü münasibətilə IDEA tərəfindən quşların mühafizəsində ictimaiyyətin rolunu artırmaq və insanların təbiətə xüsusi qayğıkeş münasibətini formalaşdırmaq məqsədi ilə Bakı şəhərinin müxtəlif ərazilərində quş sığınacaqları quraşdırılır.

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə Bakı şəhərinin Qaradağ rayonunda sahibsiz heyvanlar üçün Xilasetmə və Sığınacaq Mərkəzi açılmışdır. Müasir texniki avadanlıqla təchiz edilmiş və beynəlxalq standartlara cavab verən sığınacaq kompleksində sahibsiz heyvanlara peyvənd, sterilizə və zəruri hallarda əməliyyat xidmətləri göstərilir, həmçinin onların daimi və müvəqqəti məskunlaşması üçün hər cür şərait yaradılıb.

IDEA İctimai Birliyi ölkənin müxtəlif ərazilərində könüllülərin iştirakı ilə təmizlik aksiyası təşkil edir. "Təmizlik həftəsində təbiət üçün birgəyik" şüarı altında keçirilən bu aksiyanın məqsədi sahilyanı ərazilərin çirkləndirilməsi və zibillənməsinin qarşısının alınması, o cümlədən dəniz sahillərində təmizliyə riayət olunması ilə bağlı ictimaiyyətin maarifləndirilməsi olur.

Məhz qeyd olunan prioritet məsələlərin həlli "Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 25.12.2023-cü il tarixli Sərəncamının verilməsinə səbəb olmuş, həmin prioritetlərə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər davam etdirilir.

**Səbuhi Şahverdiyev,**
**Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəis müavini,**
**II dərəcəli dövlət ədliyyə müşaviri**

# Məhkəmənin hökmünü, qərarını, yaxud digər aktını icra etməmə cinayətinin istintaqının metodiki tərəfi



Hüququn üstünlüyü prinsipi cəmiyyətin hər bir üzvünün hüquqlarını təmin edir və hüquqi münasibətlər sisteminin əsasını təşkil edir. Bu prinsipi gerçəkləşdirən mühüm vasitələrdən biri məhkəmə qərarlarının məcburi icrasıdır. Məhkəmə qərarlarının vaxtında və düzgün icra olunması hüquq sisteminin səmərəliliyinə və vətəndaşların hüquqi müdafiələrinin təmin olunmasına birbaşa təsir edir. Bununla yanaşı, məhkəmə qərarlarının icrasının pozulması kimi nöqsanlar hüquq sisteminə inamın azalmasına, hüquqların bərpa olunmamasına və cəmiyyətdə qanunçuluğun pozulmasına səbəb olur.

Məhkəmə qərarlarının icrası hüquq sisteminin əsas təməllərindən biridir və dövlətin hüquqi müdafiə funksiyasının effektivliyini birbaşa əks etdirir. Azərbaycan Respublikası Konstitusiyasının 129-cu maddəsi məhkəmələrin qəbul etdiyi qərarların məcburi icrasını təmin edir. Buna baxmayaraq, məhkəmə qərarlarının icrasının çətinliklərlə qarşılaşması və ya ümumiyyətlə icra olunmaması halları hüquq sistemində problemlərin mövcud olduğunu göstərir. Bu problem təkcə Azərbaycan Respublikası üçün deyil, beynəlxalq miqyasda da mövcuddur və insan hüquqlarının müdafiəsinin təmin edilməsi baxımından aktualdır. Avropa İnsan Hüquqları Məhkəməsinin mövqeyinə əsasən də məhkəmə qərarının icra edilməməsi ədalətli məhkəmə hüququnun pozulması hesab olunur.

Bu baxımdan, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 306-cı maddəsində əks olunmuş məhkəmənin hökmünü, qərarını, yaxud digər aktını icra etməmə cinayətinin istintaqı zamanı aşağıdakı metodiki tövsiyələrdən faydalanılması insan hüquq və azadlıqlarının müdafiəsinə xidmət etmiş olar.

Aliment, borc, əmlak və digər tələblər üzrə məhkəmə aktlarının qərəzli icra edilməməsi səbəbindən şəxsin CM-in 306-cı maddəsi ilə cinayət məsuliyyətinə cəlb edilməsi qənaətinə gəlinərkən İcra orqanları tərəfindən borclunun məhkəmə qərarının icrası üçün faktiki imkanlarının olub-olmaması müəyyən edilməsi məqsədilə icra işi üzrə müəyyən olunmuş icra tədbirləri zamanı «İcra haqqında» Qanunun 3, 29.1-ci maddəsində nəzərdə tutulmuş hüquqlardan istifadə etməklə əlavə olaraq aşağıdakı hərəkətlərin yerinə yetirilməsi məqsədəmüvafiqdir.

1.1. Tələbin (qətnamənin) mahiyyəti üzrə tələbkarın və borclunun ətraflı izahatı alınaraq, borclunun rəsmi və qeyri-rəsmi (faktiki) iş yerləri, ödənişli fəaliyyəti, mülkiyyətində və ya istifadəsində olan daşınar və daşınmaz əmlakı *(etibarnamə ilə istifadəsində olan avtonəqliyyatı, icarə hüququ ilə işlətdiyi obyektlər və sair)* barədə məlumatlar toplanılmalıdır.

1.2. Yerli icra nümayəndəliyi və bələdiyyə orqanlarına sorğu verməklə, eləcə də borclunun yaşadığı yer üzrə soraqlaşmalar aparılmaqla borclunun rəsmi və qeyri-rəsmi (faktiki) iş yerləri, ödənişli fəaliyyəti, mülkiyyətində və ya istifadəsində olan daşınar və daşınmaz əmlakı *(etibarnamə ilə istifadəsində olan avtonəqliyyatı, icarə hüququ ilə işlətdiyi obyektlər və sair)* barədə cavablar və izahatlar alınmalıdır.

1.3. DİN-nin yerli Polis orqanlarına sorğu verməklə borclunun rəsmi və qeyri-rəsmi (faktiki) iş yerləri, ödənişli fəaliyyəti, mülkiyyətində və ya istifadəsində olan daşınar və daşınmaz əmlakı (*etibarnamə ilə istifadəsində olan avtonəqliyyatı, icarə hüququ ilə işlətdiyi obyektlər və sair)* barədə cavablar alınmalıdır.

1.4. Borclunun kommunal ödənişləri, adına müvafiq banklarda hər hansı hesabı olub-olmaması və hesablarının cari vəziyyəti ilə bağlı məlumatlar əldə olunmalıdır.

1.5. Bu növ məlumatlar əldə olunduğu təqdirdə, həmin əmlak və ya obyektlərə *(istifadə etdiyi torpaq sahəsinə, satış nöqtəsi, məişət obyekti, icarə sahəsi)* baxış keçirməklə aktlaşdırılmalıdır.

1.6. Borclunun qeyri-rəsmi fəaliyyəti aşkar olunduğu təqdirdə onu muzdla işlədən sahibkardan əməkhaqqı və fəaliyyəti barədə arayış və ya izahatı alınmalıdır.

1.7. Bir çox halda borclular öz hərəkətsizliklərinə haqq qazandırmaq üçün ifadələrində bildirirlər ki, icra dövründə imkanları daxilində ödəniş etmək istəsələr də icra orqanının depozit hesabının nömrəsini və bunun prosedur qaydalarını bilmədikləri üçün məhkəmə qərarını icra etmədiklərini qeyd edirlər. Odur ki, borcluya ilkin bildirişlə birlikdə icra qurumunun depozit hesabının nömrəsi və ödəmə qaydaları izahlı rəsmi məktubla göndərilməlidir.

1.8. İcra işi açılarkən borclunun rəsmi iş yerinin olmadığı müəyyən edildikdən sonra yerli Məşğulluq şöbələrinə sorğu verməklə kifayətlənməyərək, borclunun müvafiq ərizəsi əsasında İcra haqqında Qanunun 3.1-ci maddəsi qaydasında həmin orqana borclunun «İşlə təmin edilməsi barədə tələbnamə» göndərilməlidir.

1.9. Borclunun anket məlumatlarının və maddi vəziyyətinin dəyişməsi ehtimalı nəzərə alınaraq onun barəsində yenilənmiş (təqdimat verilən dövrə uyğun) portal məlumatlarının materiala əlavə edilməlidir.

Bir sıra hallarda CM-in 306-cı maddəsi ilə təqsirləndirilən şəxs kimi cəlb edilərkən əsaslandığı sübutlar qismində – icra sənədlərini, ibtidai istintaq zamanı toplanmış və məhkəmə iclasında tədqiq olunmuş sübutları ümumi qaydada sadalamaqla kifayətlənib təqsirləndirilən şəxslərin onlara elan olunmuş ittihamda nəzərdə tutulan cinayət əməlinin törədilməsində təqsirinin sübuta yetirildiyi qənaətinə gəlirlər və tövsifedici əlamət olan qərəzliliyin konkret olaraq nədə, təqsirləndirilən şəxsin hansı hərəkət və ya hərəkətsizliyində ifadə olunduğunu göstərmirlər.

Digər tərəfdən təqsirləndirilən şəxslər öz ifadələrində məhkəmə aktının icra edilməməsini maddi imkanlarının olmaması və ya aşağı olması ilə əlaqələndirsələr də, bu dəlillər üzrə araşdırılma aparılmır və qiymət verilmir.

Ona görə də hesab edirik ki, istintaq orqanı tərəfindən bu cür xarakterli işlər araşdırılarkən, məhkəmə aktı üzrə borcun təqsirləndirilən şəxsin məhz maddi çətinliklərlə üzləşməsi səbəbindən ödənilmədiyi ehtimalının, eləcə də işin faktiki halları əsasında əməlin məhz qərəzli olaraq törədilib-törədilməməsinin hərtərəfli araşdırılmalı olmasının, bununla bağlı Avropa Məhkəməsinin və Konstitusiya Məhkəməsinin qəbul etdiyi Qərarlarda formalaşdırdığı hüquqi mövqelərin təkrarən nəzərdən keçirilməsi məqsədəmüvafiq olardı.

Cinayət işinin ibtidai istintaqını aparan orqanlar cinayət törədilərkən, şəxsin "vəzifəli şəxs" olması amilini əsas götürüb onları CM-in 306.2-ci maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edib həmin maddədə nəzərdə tutulan ittiham elan etmişlər, məhkəmələr isə məhkəmə aktını qərəzli şəkildə icra etməyən "vəzifəli şəxs" olan təqsirləndirilən şəxslərin əməllərinin ibtidai istintaq orqanı tərəfindən CM-in 306.2-ci maddəsi ilə tövsif edilməsinin əsaslı olması qənaətinə gəlmişlər.

Nəzərə almalıdır ki, yalnız təqsirkarın tutduğu vəzifə ilə törədilən əməl arasında cinayət-hüquqi əhəmiyyətli bağlılıq olduqda, yəni məhkəmə aktlarının qərəzli icra edilməməsi və ya icrasına maneçiliyin törədilməsi ilə bağlı əməllər məhz həmin vəzifənin təqsirkara verdiyi səlahiyyətlər və yaxud funksional imkanlar sayəsində törədilə bildikdə şəxsin bu və ya digər vəzifəni tutması əməlin hüquqi tövsifini müəyyənləşdirən (tərkibyaradıcı) əlamət kimi nəzərdən keçirilə və təqsirkarın əməli CM-in 306.2-ci maddəsinin dispozisiyasında göstərilmiş "eyni əməllər vəzifəli şəxs tərəfindən törədildikdə" əlaməti üzrə tövsif edilə bilər. Şəxs məhkəmə aktlarının qərəzli icra edilməməsini və ya icrasına maneçiliyin törədilməsini qulluq mövqeyindən, yaxud həmin vəzifənin ona verdiyi səlahiyyətlərdən istifadə edilməsi nəticəsində törətmədikdə onun sadəcə "vəzifəli şəxs" olması törətdiyi əməlin CM-in 306.2-ci maddəsi ilə tövsif edilməsi üçün əsas ola bilməz.

Göstərilənlərə əsasən, "eyni əməllər vəzifəli şəxs tərəfindən törədildikdə" tövsifedici əlamətini nəzərdə tutan CM-in 306.2-ci maddəsinin tətbiqi ilə bağlı müvafiq izahın verilməsini, "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 46.2, 46.3-cü maddələrinin və Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 346.1.14-cü maddəsinin şərh edilməsinə dair" Konstitusiya Məhkəməsi Plenumunun 14.11.2011-ci il tarixli Qərarında əks olunmuş hüquqi mövqelərin təkrarən nəzərdən keçirilməsini məqsədəmüvafiq hesab edirik.

Bəzi hallarda baxılan cinayət işləri üzrə qərəzli şəkildə icra edilməyən məhkəmə aktlarının tam icra edilməsinə görə təqsirləndirilən şəxsi cinayət məsuliyyətindən azad edib cinayət işi üzrə icraata xitam verərkən, qeyd olunan cinayətlə bağlı məsuliyyətdən azad etməni tənzimləyən maddi hüquq normasının tətbiqinin prosessual əsasını düzgün seçilməsinə diqqət vermək məqsədəmüvafiqdir.

Belə ki, CM-in 306-cı maddəsinin "Qeyd" hissəsinə əsasən, həmin Məcəllənin 306.1 və ya 306.2-ci maddələrində nəzərdə tutulmuş əməlləri törətmiş şəxs qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsini, hökmünü, qərardadını, qərarını və ya əmrini həmin əməllərlə bağlı hökm qanuni qüvvəyə minənədək tam icra etdikdə cinayət məsuliyyətindən azad edilir.

CPM-in 40.3-cü maddəsinə əsasən, şəxsin cinayət məsuliyyətindən azad edilməsi üçün Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 72.2-ci, 73.2-ci, 73.3-cü, 73-1.1-ci və 73-1.2-ci maddələrində, habelə Xüsusi hissəsinin müvafiq maddələrində nəzərdə tutulmuş hallar müəyyən edildikdə təhqiqatçının və ya müstəntiqin prokurorla razılaşdırılmış qərarına əsasən cinayət təqibi başlanılmır və ya ona xitam verilir.

CPM-in 43.1.2-ci maddəsinə əsasən, həmin Məcəllənin 39.1.4, 39.1.6–39.1.11, 40.3 və 40.4-cü maddələrində nəzərdə tutulmuş hallar olduqda məhkəmə baxışı gedişində təqsirləndirilən şəxsə qarşı cinayət təqibinə xitam verilməsi barədə məhkəmə qərarı çıxarılır.

Göründüyü kimi, qanunverici şəxsin CM-in 306-cı maddəsinin "Qeyd" hissəsinin məhkəmə baxışı zamanı tətbiqinin prosessual əsası qismində CPM-in 43.1.2-ci maddəsini nəzərdə tutmuşdur.

Bu səbəbdən də istintaq orqanı tərəfindən qərəzli şəkildə icra edilməyən məhkəmə aktlarının tam icra edilməsinə görə təqsirləndirilən şəxslərin cinayət məsuliyyətindən azad edilmələri zamanı cinayət-prosessual qanunvericiliyin normalarına düzgün istinad olunmasının diqqətinə çatdırılmasını məqsədəmüvafiq hesab edirik.

**Selcan Familzadə,**
**Baş Prokurorluğun Ədliyyə, gömrük və vergi orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəisi müavini, kiçik ədliyyə müşaviri.**

# Azərbaycan hüquq elminə töhfə verən təsisatlar

*(İkinci hissə)*

**"Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının 2024-cü il üzrə 3-cü buraxılışında qeyd olunduğu kimi hər millətin tərəqqisi və fəaliyyətinin başlıca amillərindən biri elmdir. Elmin dili eynidir, elm hadisələrin və gerçəkliyin mahiyyəti haqqında obyektiv biliklərin və informasiyaların əldə edilməsindən, toplanmasından, sistemləşdirilməsindən, işlənməsindən, yayılmasından və tətbiqindən ibarət olmaqla əsasında təhsilin, mütaliənin və zəhmətin dayandığı kosmik bir fəzadır. Elmə doğru gedən yol əsasən təhsildən keçir. Təhsilin səviyyəsi, keyfiyyəti və səmərəsi isə məhz təhsil müəssisələrin professor-müəllim heyətindən və həmin təhsil ocaqlarında işin müasir pedaqoji tələblərə uyğun olmasından asılıdır.**

**Azərbaycanda hüquq elminə və təhsilinə töhfə verən ali təhsil müəssisələri və hüquq-mühafizə orqanlarının təlim-tədris müəssisələrinin fəaliyyəti ictimaiyyət üçün maraq doğurduğundan onların strukturları və fəaliyyəti barədə qısa xülasələr diqqətinizə çatdırılır.**

**ADA Universiteti**

Azərbaycan Respublikası Prezidentinin 13.01.2014-cü il tarixli 216 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyasının və İnformasiya Texnologiyaları Universitetinin əsasında, ali təhsilin bütün səviyyələri və orta ixtisas təhsili üzrə kadr hazırlığını, ali, orta ixtisas və əlavə təhsil proqramlarını həyata keçirən, fundamental və tətbiqi elmi tədqiqatlar aparan, Xarici İşlər Nazirliyinin nəzdində fəaliyyət göstərən "ADA" Universiteti yaradılmışdır.

Bakı şəhərində yerləşən Universitet dövlət ali təhsil müəssisəsi olmaqla, hüquqi şəxsdir, bayrağı, üzərində Azərbaycan Respublikası Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürü, ştampları, fərdi emblemi və blankları vardır.

Universitet öz strukturunu müstəqil surətdə təşkil edir və tərkibində müxtəlif struktur bölmələrini yaradır. Universitetin tərkibinə institutlar, kolleclər, filiallar, fakültələr, kafedralar, tədris şöbələri, kitabxanalar, tədqiqat, innovasiya və idman mərkəzləri, laboratoriyalar, tələbə yataqxanaları, qonaq evləri, yeməkxanalar və digər struktur bölmələri daxildir.

Universitetin ali idarəetmə orqanı Universitet Senatıdır. Senat Universitetin ümumi və elmi-tədris fəaliyyətinə nəzarət edir. Universitetin strukturunu Senatın təqdimatı ilə rektor təsdiq edir. Universitet tədris proqramlarının hazırlanmasında, tədqiqat işlərinin aparılmasında və onlara qiymət verilməsində Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn dövlət təhsil standartları çərçivəsində müstəqildir.

Universitetin ali məşvərətçi orqanı Universitetin Qəyyumlar Şurasıdır, strateji fəaliyyət və istiqamətləri barədə məsləhətlər verir. Universitetin fəaliyyətinə rəhbərliyi Rektor həyata keçirir. Rektor Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

Universitetə tələbə qəbulu biliyin qiymətləndirilməsi üzrə keçirilən imtahanlarda abituriyentlərin əldə etdikləri nəticələrə əsasən, Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən həyata keçirilir. Universitet bakalavriat, magistratura və doktorantura, habelə orta ixtisas təhsili üzrə müxtəlif ixtisaslar üzrə proqramları təsis və tədris edir. Universitet bütün təhsil pillələri və proqramları üzrə müvafiq qərarları verməkdə və onları icra etməkdə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn dövlət təhsil standartları çərçivəsində sərbəstdir. Universitetin fəaliyyəti fərdin intellektual, mədəni və mənəvi dəyərlərə olan ehtiyacının elm və təhsil vasitəsilə ödənilməsi, dövlətin və cəmiyyətin ali və orta ixtisas təhsilli, yüksək ixtisaslı və müasir tələblərə cavab verən kadrlara olan ehtiyacının ödənilməsi, mənəvi, mədəni və elmi dəyərlərin qorunması, təbliği və artırılması, təhsilalanların müxtəlif ixtisaslar üzrə nəzəri və praktik biliyinin artırılması, tədqiqat və analitik qabiliyyətin gücləndirilməsi, onlara xarici dilə yiyələnmək imkanın yaradılması, onlarda karyera hazırlığı, ünsiyyət və digər bacarıqların aşılanması məqsədlərinə xidmət edir.

**Naxçıvan Dövlət Universiteti**

1967-ci ildə yaradılmış Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialı, 1972-ci ildə Naxçıvan Dövlət Pedaqoji İnstitutu olmuş, Azərbaycan SSR Nazirlər Sovetinin 29.12.1990-cı il tarixli qərarı ilə isə Naxçıvan Dövlət Universitetinə çevrilmişdir. Azərbaycan Respublikasının Prezidentinin 12.06.2002-ci il tarixli 950 nömrəli Sərəncamına əsasən təhsilin ən yüksək standartlar səviyyəsinə qaldırılması, dünyanın qabaqcıl təhsil və elm ocaqları ilə inteqrasiyanın dərinləşdirilməsi, mütəxəssis hazırlığı işinin Naxçıvan Muxtar Respublikasının ehtiyaclarına müvafiq olaraq daha çevik aparılması və idarəetmənin operativ həyata keçirilməsi

məqsədi ilə bu Universitetə özünüidarə statusu verilmişdir.

Universitetin strukturuna rəhbərlik, 10 fakültə, kafedralar, musiqi kolleci, nəşriyyat, kitabxana, texnopark, xəstəxana, mərkəz, şöbə və bölmələr daxildir.

Universitetin fəaliyyət istiqamətlərinə bakalavriat təhsil səviyyəsində tam orta təhsil və orta ixtisas təhsili bazasında ayrı-ayrı ixtisasların təhsil proqramları üzrə geniş profilli ali təhsilli mütəxəssislərin hazırlanması, magistratura (rezidentura) təhsil səviyyəsində ixtisaslaşmalar üzrə hər hansı ixtisas sahələrinin elmi-tədqiqat və ya peşəkar məqsədlər üçün daha dərindən öyrənilməsi, doktorantura təhsil səviyyəsində yüksək ixtisaslı elmi və elmi-pedaqoji kadrların hazırlanması, ixtisas və elmi dərəcələrin yüksəldilməsi, orta ixtisas və əlavə təhsil proqramlarının həyata keçirilməsi, elmin müxtəlif sahələri və istiqamətləri üzrə tədqiqatlar aparılması daxildir.

Universitetdə kredit sistemi əsasında təşkil olunmuş tədris prosesi bir sıra xüsusiyyətlərlə səciyyələnir. Belə ki, hər bir tələbənin fərdi tədris planının olması və onların bu planın tərtibində iştirakı, təhsil prosesinə akademik məsləhətçilərin  cəlb olunması, tələbəyə sərbəst iş üçün şəraitin yaradılması, biliyin qiymətləndirilməsində çoxballı sistemin tətbiqi, tələbə və müəllimlərin  mobilliyinin təmin olunması, təhsilalma müddətinin tələbənin nailiyyətindən asılılığı, fakültələrin, kafedraların, ixtisasların, fənlərin, müəllimlərin, tələbələrin kodlaşdırılması bu xüsusiyyətləri ehtiva edir. Tədris ili 2 semestrdən ibarətdir. Tədris planında fənlər vacibliyinə və məzmununun mənimsənilməsi ardıcıllığına görə 3 qrupa bölünür: məcburi və ardıcıl öyrənilən fənlər üzrə; məcburi, lakin ardıcıllığı vacib olmayan fənlər üzrə; tələbələrin öz seçimi əsasında öyrənilən fənlər üzrə. Tələbəyə müəllim seçmək imkanı yaradılır. Bir müəllimi seçənlərin sayı bakalavriat səviyyəsində 30-dan çox olarsa, ali təhsil müəssisəsi bu fənn üzrə ikinci qrup təşkil edir və buraya fənnin tədrisi üçün eyni səviyyədə olan müəllim cəlb edir. Bu halda tələbələrin qruplar üzrə siyahısı ərizələrinin qeyd olunma ardıcıllığına görə müəyyənləşdirilir.

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası**

Azərbaycan Respublikası Prezidentinin 03.01.1999-cu il tarixli 60 nömrəli Fərmanı ilə Bakı Sosial İdarəetmə və Siyasi Elmlər İnstitutu əsasında yaradılmış Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası ali və əlavə təhsil proqramlarını həyata keçirən, fundamental, nəzəri-metodoloji, pedaqoji-metodiki və tətbiqi elmi tədqiqatlar aparan ali təhsil müəssisəsidir.

Bakı şəhərində yerləşən Akademiya hüquqi şəxsdir, əmlaka, müstəqil balansa malikdir, Akademiyanın Azərbaycan Respublikası Dövlət gerbinin təsviri və öz adı olan möhürü və  blankları vardır.

Akademiyanın fəaliyyətinin əsas istiqamətlərinə dövlət kadr siyasətinə dair təkliflərin işlənib hazırlanması, dövlət idarəçiliyinin inkişafı və onun hüquqi təminatına dair tövsiyələrin hazırlanması, dövlət idarəçiliyinin analitik informasiya təminatı, dövlət vəzifələrində olan dövlət qulluqçularının, habelə dövlət qulluğunun ehtiyat kadrlarının hazırlanması və əlavə təhsilinin təmin edilməsi daxildir.

Akademiyanın əsas vəzifələrinə dövlət idarəçiliyi və dövlət kadr siyasəti sahəsində elmi tədqiqatlar aparılması, dövlət idarəçiliyi məsələləri üzrə dövlət hakimiyyəti orqanlarının analitik-informasiya təminatının həyata keçirilməsi, dövlət vəzifələrində çalışan dövlət qulluqçularının, habelə dövlət qulluğunun ehtiyat kadrlarının hazırlanmasının və əlavə təhsilinin həyata keçirilməsi,  doktorantura və dissertantlıq yolu ilə dövlət qulluğunun inkişafı və tədris prosesinin təminatı vəzifələrini nəzərə almaqla, yüksək ixtisaslı elmi və elmi-pedaqoji kadrların hazırlanmasının həyata keçirilməsi, dövlət qulluğunda olanların peşəkarlıq səviyyəsinin qiymətləndirilməsinin təşkili və həyata keçirilməsi daxildir.

Akademiyanın strukturuna rəhbərlik, rektorluq yanında şuralar, 3 fakültə, 12 kafedra, 7 şöbə, 3 elmi-tədqiqat institutu, 3 ictimai təşkilat və elmi kitabxana daxildir. Akademiyanın fəaliyyəti üzrə əsas məsələlərə baxılması üçün rektorun başçılığı altında Akademiyanın ali idarəetmə orqanı olan Elmi Şurası yaradılır. Akademiyaya ümumi rəhbərliyi Azərbaycan Respublikası Prezidenti tərəfindən təyin olunan rektor həyata keçirir. Zəruri hallarda Akademiyanın fəaliyyətinin mühüm sosial məsələlərinin həlli üçün Akademiya işçiləri kollektivinin konfransı çağırılır.

Akademiyada təhsil almaq üçün qəbul, təhsilin məzmunu və təşkili qaydaları Azərbaycan Respublikasının təhsil qanunvericiliyi ilə müəyyən olunur. Akademiyanın tədris fəaliyyəti ali təhsilin bakalavriat, magistratura, doktorantura və əlavə təhsil səviyyələrində həyata keçirilir. Akademiya qanunvericiliyə uyğun olaraq əyani, qiyabi, distant (məsafədən) və sərbəst (eksternat) təhsilalma formaları üzrə yüksək ixtisaslı mütəxəssislərin, elmi və elmi-pedaqoji kadrların hazırlığını və əlavə təhsilini həyata keçirir. Təhsil başa çatdıqda Akademiya öz məzunlarına və yekun attestasiyası keçmiş digər şəxslərə təhsilin və ya ixtisasın səviyyəsi barədə təhsil haqqında dövlət sənədi verir. Akademiyada fəlsəfə doktoru və elmlər doktoru elmi dərəcələrinin müdafiəsi üzrə dissertasiya şuraları  fəaliyyət göstərir.

**Milli Aviasiya Akademiyası**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15.06.1992-ci il tarixli 337 saylı qərarı ilə mülki aviasiya sahəsində milli kadrlara olan ehtiyacın ödənilməsi məqsədilə yaradılmış Milli Aviasiya Mərkəzi 24.02.1994-

cü il tarixdən Milli Aviasiya Akademiyası adlandırılmışdır.

Milli Aviasiya Akademiyası Azərbaycanın strateji əhəmiyyətə malik aerokosmik sahəsini, o cümlədən mülki aviasiyanı və bir sıra digər sahələri beynəlxalq tələblərə cavab verən yüksək ixtisaslı mütəxəssislərlə təmin edən ali təhsil müəssisəsidir. Akademiya ali, əlavə və xüsusi peşə-ixtisas təhsili proqramlarını, həmçinin aviasiya mütəxəssislərinin ilkin, yenidən hazırlığını və ixtisasartırmasını həyata keçirir. Akademiya tərəfindən bakalavriat mərhələsində 21, magistratura mərhələsində 17, doktorantura mərhələsində isə 10 ixtisas üzrə mütəxəssis hazırlanır.

Akademiyanın əsas hazırlıq istiqamətləri müasir təyyarə və helikopterlərin uçuş istismarı üzrə pilotların, havada hərəkəti idarə edən dispetçerlərin və aeronaviqasiya təminatı mühəndislərinin, həmçinin aviasiya ilə bağlı digər mütəxəssislərin hazırlığından ibarətdir.

Akademiyanın tədris strukturu 6 fakültə, 23 kafedra, 1 institut, 4 mərkəz və 4 şöbədən ibarətdir. İnfrastrukturuna isə müxtəlif komplekslər, birliklər və digər qurumlar daxildir. Akademiyada tədris prosesinin planlaşdırılması, təşkili, koordinasiyası və nəzarəti ilə Tədris-metodiki şöbə məşğul olur. Bu şöbənin əsas vəzifələrinə fakültələrdə, kafedralarda, institut və mərkəzlərdə tədris prosesinin və tədris-metodiki işlərin planlaşdırılması, yerinə yetirilməsinin təşkili və icrasına nəzarət, tədris planlarının Ali Təhsilin Dövlət Standartlarına uyğunluğunun təmin edilməsi, tədrisin təhsil proqramlarına və normativ sənədlərə uyğun təşkili, idarə olunması və yerinə yetirilməsinə nəzarət, fakültə və kafedralar tərəfindən tədris sənədlərinin, metodik materialların, dərs vəsaiti və dərsliklərin hazırlanmasının təşkili və yerinə yetirilməsinə, eləcə də elektron tədris resurslarının, təlim materiallarının, virtual laboratoriyaların və dərslərin, məsafədən tədrisin, onlayn tədris kurslarının yaradılmasının təşkili və yerinə yetirilməsinə nəzarət, tədris ili üçün dərs yükünün planlaşdırılması, bölgüsü və yerinə yetirilməsinə nəzarət, dərs cədvəllərinin tərtibi və yerinə yetirilməsinə nəzarət, ixtisaslaşmış auditoriya, tədris-laboratoriya və təlim-trenajor fondunun uçotu və bölgüsü, struktur bölmələri ilə tədris prosesinə aid işlərin qarşılıqlı əlaqədə təşkili və yerinə yetirilməsi və digər funksiyalar daxildir.

**Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası**

Hüquq təhsili almış şəxslərin ixtisasları üzrə müəyyən vəzifələrə təyin edilmələri üçün peşə səviyyəsinin yüksəldilməsi, ədliyyə işçilərinin, hakimlərin və digər hüquqşünasların peşə hazırlığının artırılması, habelə cəmiyyətin ixtisaslı hüquqşünas kadrlarına ehtiyacının təmin edilməsi üçün Azərbaycan Respublikası Prezidentinin 17.08.2006-cı il tarixli 446 nömrəli Fərmanı ilə yaradılmış tədris-elm müəssisəsidir.

Bakı şəhərində yerləşən Akademiya hüquqi şəxsdir, müstəqil balansa, qanunvericiliyə uyğun sərəncamında olan dövlət əmlakına, üzərində Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürə, rəsmi emblemə, müvafiq ştamplara və blanklara malikdir.

Akademiyanın fəaliyyətinə ümumi rəhbərliyi Ədliyyə Nazirliyi, cari rəhbərliyi isə Ədliyyə nazirinin təqdimatına əsasən Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin olunan rektor həyata keçirir. Ədliyyə naziri tərəfindən təsdiq olunan Akademiyanın strukturuna rektorat, 6 fakültə, 6 kafedra, 5 şöbə və 3 bölmə daxildir. Akademiyanın fəaliyyətinə dair mühüm məsələlərin həlli üçün onun ali idarəetmə orqanı olan Elmi Şura yaradılır.

Akademiyanın əsas vəzifələrinə ilk dəfə ədliyyə orqanlarına qulluğa qəbul edilən namizədlərin, habelə vəkilliyə namizədlərin peşə fəaliyyətinə buraxılması məqsədilə icbari təlimin keçirilməsi, ali hüquq təhsili əsasında müxtəlif kateqoriyadan olan işçilərin peşə hazırlığının həyata keçirilməsi və əlavə təhsilinin təmin edilməsi, hakim vəzifəsinə namizədlərin ilkin uzunmüddətli tədrisinin, habelə hakimlərin davamlı tədrisinin keçirilməsi, hüquq elmləri sahəsində dissertantların və doktorantların hazırlanması, hüquq elminin müxtəlif sahələri üzrə fundamental və tətbiqi elmi araşdırmaların aparılması, dövlətin və cəmiyyətin yüksəkixtisaslı hüquq mütəxəssislərinə olan ehtiyacının ödənilməsi və qanunvericiliklə nəzərdə tutulmuş digər səlahiyyətlər daxildir.

Akademiyada ilkin tədris, icbari təlim və ixtisaslarının artırılması əyani, aspirantların və doktorantların hazırlanması əyani və qiyabi formalarda həyata keçirilir. Akademiyada təhsilin məzmunu və müddəti kafedralar tərəfindən dövlət təhsil standartları əsasında tərtib edilən təhsil və ixtisas proqramlarına əsasən müəyyən edilir. İxtisas proqramları Elmi Şura tərəfindən qəbul edilir və rektor tərəfindən təsdiq edilir.

Akademiyada tədris prosesi Azərbaycan dilində aparılır. Təhsil başa çatdıqda yekun attestasiya keçmiş şəxslərə təhsilin və ya ixtisasın səviyyəsi barədə müəyyən olunmuş formada sənəd və ya şəhadətnamə verilir.

**Daxili İşlər Nazirliyinin Polis Akademiyası**

Azərbaycan Respublikası Prezidentinin 23.05.1992-ci il tarixli 782 nömrəli Fərmanı və Nazirlər Kabinetinin 09.06.1992-ci il tarixli 321 №-li qərarına əsasən Bakı Xüsusi Orta Milis Məktəbi bazasında yaradılmış Daxili İşlər Nazirliyinin Polis Akademiyası ali və əlavə təhsil proqramlarını həyata keçirən, fundamental və tətbiqi elmi tədqiqatlar aparan xüsusi təyinatlı dövlət ali təhsil müəssisəsidir.

Bakı şəhərində yerləşən Akademiya hüquqi şəxsdir, müstəqil balansa, istifadəsində olan dövlət əmlakına, Akademiyanın Bayrağına, üzərində Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri, Daxili İşlər Nazirliyinin adı və öz adı həkk olunmuş möhürə, ştamplara və blanklara malikdir.

Akademiyanın fəaliyyətinin əsas məqsədi Daxili İşlər Nazirliyi üçün ali hüquq təhsilli kadrlar hazırlamaq və daxili işlər orqanları əməkdaşlarının əlavə təhsil almalarını təşkil etməkdən ibarətdir. Akademiyanın fəaliyyətinin əsas istiqamətləri tədris, təlim-tərbiyə, metodik, elmi tədqiqat və redaksiya-nəşriyyat işlərindən ibarətdir.

Akademiyanın strukturunu, ştat cədvəlini və xərclər smetasını Daxili işlər naziri təsdiq edir. Struktura rəhbərlik, elmi-tədris və digər şöbə və xidməti bölmələr daxildir. Akademiyanın rəisini Daxili işlər nazirinin təqdimatına əsasən Azərbaycan Respublikasının Prezidenti vəzifəyə təyin və vəzifədən azad edir. Akademiyanın fəaliyyətinə ümumi rəhbərliyi Daxili İşlər Nazirliyi, bilavasitə rəhbərliyi isə Akademiyanın rəisi həyata keçirir. Akademiyanın fəaliyyətinin mühüm məsələlərini müzakirə etmək üçün Akademiyanın Elmi Şurası yaradılır.

Akademiya ali təhsilin bakalavriat, magistratura, doktorantura və əlavə təhsil səviyyələri üzrə təhsil proqramlarını həyata keçirir. Akademiyada təhsil əyani və qiyabi formalarda təşkil olunur və Azərbaycan dilində aparılır. Akademiyaya qəbul olunmaq üçün namizədlərin seçilməsi Daxili İşlər Nazirliyi tərəfindən həyata keçirilir. Akademiyada ali təhsilin bakalavriat və magistratura səviyyələrinə qəbul, biliyin qiymətləndirilməsi üzrə keçirilən imtahanlarda abituriyentlərin əldə etdikləri nəticələr əsasında "Təhsil haqqında" Qanuna uyğun olaraq həyata keçirilir. Təhsilin müddəti ali təhsilin dövlət standartlarına müvafiq olaraq, tədris proqramlarına və tədris planlarına uyğun müəyyən edilir.

Akademiyanın tədris məşğələlərinə mühazirə, seminar, praktik və laboratoriya məşğələləri, məsləhət və müstəqil hazırlıq saatları daxildir. Akademiyada əlavə təhsil ixtisasartırma, kadrların yenidən hazırlanması, stajkeçmə və kadrların təkmilləşdirilməsi-təkrar ali təhsil istiqamətlərini əhatə edir.

Akademiyada tədris prosesi Avropa Kredit Transfer Sisteminə uyğun olan kredit sistemi əsasında təşkil edilir.

**Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyası**

Azərbaycan Respublikası Prezidentinin 01.12.1998-ci il tarixli 37 nömrəli Sərəncamı ilə yaradılmış Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyası təhlükəsizlik orqanları üçün təhsilin əyani və qiyabi forması üzrə ali hərbi və xüsusi ixtisaslı peşəkar zabit kadrları hazırlayan, müxtəlif kateqoriyalardan olan hərbi qulluqçulara əlavə təhsil verən, elmi tədqiqatlar aparan xüsusi təyinatlı ali təhsil müəssisəsidir.

Bakı şəhərində yerləşən Akademiya hüquqi şəxsdir. Akademiya Döyüş Bayrağına və şərti ada, Azərbaycan Respublikası Dövlət gerbinin təsviri, həqiqi və şərti adları göstərilən gerbli möhürə, ştamplara və blanklara malikdir.

Akademiyada 3 fakültə ("Əməliyyat işçilərinin hazırlanması", "İnformasiya təhlükəsizliyi" və "Əlavə təhsil" fakültələri), 11 kafedra və 2 mərkəz fəaliyyət göstərir. Adı çəkilən fakültələrdə müxtəlif istiqamətlərdə profilyönümlü kadr hazırlığı aparılır. Ali bakalavr təhsili alan kursantlar Dövlət Təhlükəsizliyi Xidmətinin orqanlarında əməliyyat təcrübəsi və ixtisaslaşması keçirlər. Akademiyada təhsil alan kursantlar aylıq pul təminatına malikdirlər, bundan əlavə, təhsildə yüksək müvəffəqiyyət qazanan, elmi-yaradıcılıq fəaliyyəti ilə məşğul olan və Akademiyanın ictimai həyatında fəal iştirak edən əlaçı kursantlara Heydər Əliyev adına təqaüd verilir.

Ali təhsilin bakalavriat səviyyəsini bitirən məzunlara müvafiq ixtisaslar üzrə təhsil haqqında dövlət sənədi – diplom və döş nişanı təqdim olunur və "leytenant" – ilk zabit hərbi rütbəsi verilərək DTX-nin aparatında və ərazi orqanlarında işlə təmin olunurlar.

Dövlət Təhlükəsizliyi Xidmətinin əməliyyat strukturlarına işə qəbul olunan gənc əməkdaşların hazırlığını təmin etmək məqsədilə Akademiyada Ali kurslar, eyni zamanda əməkdaşların ixtisaslarının artırılması üçün digər təlimyönlü tədbirlər (xarici dil, kompüter hazırlığı kursları, müxtəlif sahələr üzrə treninqlər və s.) təşkil olunur. Bununla yanaşı, Azərbaycan xüsusi xidmət orqanları əməkdaşlarının "Hüquqşünaslıq" ixtisası üzrə ikinci ali təhsil almasını təmin etmək məqsədilə Akademiyada qiyabi təhsil də həyata keçirilir. Qeyd etmək lazımdır ki, son illər ərzində Akademiyaya qəbul olmaq istəyən abituriyentlərin bilik səviyyəsi ilə yanaşı, onların şəxsi keyfiyyətlərinə də xüsusi önəm verilir. Bunun nəticəsi olaraq Akademiyanın "Hüquqşünaslıq" və "İnformasiya təhlükəsizliyi" ixtisaslarına qəbul olan kursantlardan 600 və daha yuxarı bal toplayanların sayı ilbəil artır.

Akademiyada bir çox ixtisaslar və elmi istiqamətlər üzrə elmi tədqiqatlar aparılır. Fundamental və tətbiqi araşdırmalar nəticəsində professor-müəllim heyətinin monoqrafiyaları nəşr edilmiş və nüfuzlu elmi jurnallarda məqalələri dərc olunmuşdur.

**Dövlət Gömrük Komitəsinin Akademiyası**

Azərbaycan Respublikası Prezidentinin 24.01.2012-ci il tarixli 1972 nömrəli Sərəncamına əsasən Komitənin Tədris mərkəzi bazasında xüsusi təyinatlı ali təhsil müəssisəsi – Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası təsis edilmişdir.

Bakı şəhərində yerləşən Akademiya hüquqi şəxsdir, istifadəsində olan dövlət əmlakı, üzərində Azərbaycan Respublikası Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürü, ştampları və blankları vardır.

Akademiyanın fəaliyyətinin əsas istiqamətlərini gömrük işi üzrə yüksəkixtisaslı kadrların hazırlanması,

Dövlət Gömrük Komitəsinin fəaliyyət istiqamətləri üzrə kadrların əlavə təhsilinin həyata keçirilməsi, gömrük işi sahəsində elmi tədqiqatların aparılması təşkil edir. Qeyd edilən fəaliyyət istiqamətləri üzrə metodiki işin təşkili, təhsil proqramlarının və tədris planlarının hazırlanması, dəyişən heyətin attestasiyasının keçirilməsi və intellektual, mədəni, mənəvi inkişafının təmin edilməsi, ehtiyat kadrların formalaşdırılması və qanunvericiliklə nəzərdə tutulmuş digər funksiyalar həyata keçirilir.

Akademiyanın fəaliyyətinə ümumi rəhbərliyi Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin sədri, cari rəhbərliyi isə Akademiyanın rəisi həyata keçirir. Akademiyanın rəisi Dövlət Gömrük Komitəsi sədrinin təqdimatına əsasən Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir. Akademiyanın strukturunu və ştat cədvəlini Dövlət Gömrük Komitəsinin sədri təsdiq edir. Struktura rəhbərlik, 2 kafedra, 8 şöbə və digər struktur bölmələr daxildir. Akademiyanın fəaliyyətinin mühüm məsələlərini müzakirə etmək üçün ali idarəetmə orqanı – Akademiyanın Elmi Şurası yaradılır.

Akademiyada mütəxəssis, elmi və elmi-pedaqoji kadr hazırlığı ali təhsilin bakalavriat, magistratura və doktorantura səviyyələrindən ibarətdir. Akademiyaya tələbə qəbulu Dövlət İmtahan Mərkəzi tərəfindən həyata keçirilir. Akademiyada bakalavriat təhsili əyani, magistratura təhsili isə əyani və qiyabi formalarda təşkil olunur. Bakalavriat səviyyəsində əyani forma üzrə təhsilin normativ müddəti dörd ildir. Magistratura səviyyəsində əyani forma üzrə təhsilin normativ müddəti iki il, qiyabi forma üzrə isə iki il altı aydır.

Əlavə təhsil Akademiyada ixtisasartırma, kadrların yenidən hazırlanması, stajkeçmə və kadrların təkmilləşdirilməsi, təkrar ali təhsil və dərəcələrin yüksəldilməsi istiqamətlərini əhatə edir. Akademiyada tədris prosesi Avropa Kredit Transfer Sisteminə uyğun olan kredit sistemi əsasında təşkil edilir. Ali təhsilin bakalavr və ya magistr təhsil proqramlarını başa vurmuş və yekun dövlət attestasiyasından keçmiş təhsilalanlara, eləcə də doktoranturada təhsilini başa vurmuş və müvafiq elmi dərəcə almış şəxslərə diplom verilir.

**Fövqəladə Hallar Nazirliyinin Akademiyası**

Azərbaycan Respublikası Prezidentinin 02.06.2008-ci il tarixli 2850 nömrəli Sərəncamına əsasən yaradılmış Fövqəladə Hallar Nazirliyinin Akademiyası nazirlik üçün xüsusi ixtisaslı ali təhsilli kadrların hazırlanmasını, əməkdaşların əlavə təhsilini, fövqəladə hallar sahəsində fundamental və tətbiqi elmi tədqiqatları aparan ali təhsil müəssisəsidir.

Bakı şəhərində yerləşən Akademiya hüquqi şəxsdir, bayrağa, üzərində Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri, nazirliyin və öz adı həkk olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir.

Akademiyanın strukturu və ştat cədvəli Fövqəladə hallar naziri tərəfindən təsdiq edilir. Struktura rəhbərlik, fakültələr, kafedralar, şöbələr, katiblik, kitabxana və digər bölmələr daxildir. Akademiyanın rəisi Fövqəladə Hallar nazirinin təqdimatına əsasən Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir. Akademiyanın fəaliyyətinə ümumi rəhbərlik nazirlik, cari rəhbərlik isə rəis tərəfindən həyata keçirilir.

Akademiyanın fəaliyyət istiqamətlərinə həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi və yanğın təhlükəsizliyi mühəndisliyi ixtisasları üzrə kadrların hazırlanması, nazirliyin fəaliyyət istiqamətləri üzrə sahələrdə kadrların əlavə təhsilinin həyata keçirilməsi, fövqəladə hallar sahəsində elmi-tədqiqatların aparılması, metodiki işin təşkili və təkmilləşdirilməsi, qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlər daxildir.

Akademiyanın fəaliyyətinin mühüm məsələlərinin müzakirəsi üçün Elmi Şura yaradılır. Elmi Şuranın tərkibinə rəis, rəis müavinləri, fakültə rəisləri, aparıcı kafedraların rəisləri və digər mütəxəssislər daxil edilirlər. Elmi Şuranın tərkibinə, həmçinin nazirliyin rəhbərliyi ilə razılaşdırılmaqla nazirliyin struktur bölmələrinin rəhbərləri daxil edilə bilər. Elmi Şuranın tərkibi rəisin təqdimatı ilə nazir tərəfindən təsdiq edilir. Elmi Şuranın üzvlərinin səlahiyyət müddəti 5 ildir. Elmi Şuranın üzvlərinin səlahiyyətlərinə Elmi Şuranın qərarı ilə vaxtından əvvəl xitam verilə bilər.

Akademiyada tədris işi Elmi Şura tərəfindən müəyyən olunmuş qaydada təsdiq edilmiş peşə təhsili proqramlarına və tədris planlarına müvafiq təşkil olunur. Akademiyada tədris əyani və qiyabi formalarda təşkil olunur. Akademiyada tədris, təlim və qiymətləndirmə həyata keçirilərkən qanunvericiliklə müəyyən olunmuş formalardan istifadə edilir.

Akademiya xarici əlaqələri və beynəlxalq əməkdaşlığı, Akademiyada xarici ölkə vətəndaşlarının təhsilini və ixtisasartırmalarını dövlətlərarası müqavilələr, nazirlik ilə xarici ölkələrin aidiyyəti dövlət orqanları arasında bağlanmış sazişlər əsasında həyata keçirir.

**Dövlət Sərhəd Xidmətinin Akademiyası**

Azərbaycan Respublikası Prezidentinin 12.06.2007-ci tarixli 2217 nömrəli Sərəncamı ilə sərhəd orqanları üçün xüsusi ixtisaslı ali hərbi təhsilli kadrların hazırlanmasını, onların ixtisasının artırılmasını, dövlət sərhədinin mühafizəsi və hərbi iş sahəsində elmi tədqiqatların aparılmasını təmin etmək məqsədilə Dövlət Sərhəd Xidmətinin Akademiyası yaradılmışdır.

Bakı şəhərində yerləşən Akademiya hüquqi şəxsdir, onun müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, o cümlədən hərbi əmlak, Döyüş Bayrağı və şərti adı, üzərində Azərbaycan Respublikasının Dövlət gerbinin

təsviri, Dövlət Sərhəd Xidmətinin adı və öz adı həkk olunmuş möhürü, ştampları və blankları vardır.

Akademiyanın strukturunu, ştat cədvəlini və xərclər smetasını Dövlət Sərhəd Xidmətinin rəisi təsdiq edir. Struktura rəhbərlik, elmi-tədris bölmələri və digər şöbə və xidməti bölmələr daxildir. Akademiyanın fəaliyyətinə ümumi rəhbərliyi Dövlət Sərhəd Xidmətinin rəisi, bilavasitə rəhbərliyi isə Akademiyanın rəisi həyata keçirir. Akademiyanın rəisini Dövlət Sərhəd Xidməti rəisinin təqdimatına əsasən Azərbaycan Respublikasının Prezidenti vəzifəyə təyin və vəzifədən azad edir. Akademiyanın fəaliyyətinin mühüm məsələlərinin müzakirəsi məqsədilə Akademiyanın Elmi Şurası yaradılır.

Akademiyanın fəaliyyətinin əsas istiqamətləri tədris, elmi tədqiqat və redaksiya-nəşriyyat işlərindən ibarətdir. Akademiyanın vəzifələrinə komanda, qərargah və digər vəzifələrdə xidmət etmək üçün ali təhsil pilləsinin bütün səviyyələrində ali hərbi təhsilli zabit kadrların hazırlanması, əlavə təhsilin həyata keçirilməsi, təhsil proqramlarının və tədris planlarının hazırlanması və təsdiq edilməsi, təhsilalanların attestasiyasının keçirilməsi, tədris, metodik, elmi ədəbiyyat və köməkçi materiallar hazırlanması və nəşr edilməsi və qanunvericiliklə nəzərdə tutulmuş digər funksiyalar daxildir.

Akademiyaya daxil olmaq üçün namizədlərin seçilməsi Dövlət Sərhəd Xidməti tərəfindən həyata keçirilir. Akademiyaya ali təhsilin bakalavriat səviyyəsinə tam orta təhsili və ya orta ixtisas təhsili olan şəxslər, zabit rütbəsi olmayan hərbi qulluqçular və hərbi vəzifəlilər qəbul olunurlar. Akademiyaya ali təhsilin magistratura səviyyəsinə Dövlət Sərhəd Xidmətində və qanunvericiliyə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə xidmət edən ali təhsilin bakalavriat səviyyəsini bitirmiş ali hərbi ixtisas təhsilli və ya ali ixtisas təhsilli zabitlər qəbul olunurlar. Akademiyaya ali təhsilin adyunktura səviyyəsinə Dövlət Sərhəd Xidmətində və qanunvericiliyə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə xidmət edən ali təhsilin magistratura səviyyəsini bitirən zabitlər qəbul olunurlar. Akademiyaya əlavə təhsilə hərbi qulluqçular Dövlət Sərhəd Xidməti rəisinin əmri ilə qəbul olunurlar.

**Dövlət Vergi Xidmətinin Tədris Mərkəzi**

Azərbaycan Respublikası Prezidentinin 19.07.2001-ci il tarixli 539 nömrəli Fərmanına və Nazirlər Kabinetinin 05.06.2002-ci il tarixli 90 saylı qərarına əsasən yaradılmış İqtisadiyyat Nazirliyinin yanında Dövlət Vergi Xidmətinin Tədris Mərkəzi vergi orqanlarına yenicə işə qəbul olan əməkdaşların tədrisini, dövlət vergi orqanlarının vəzifəli şəxslərinin və digər əməkdaşların, habelə bağlanılmış müqavilə əsasında müxtəlif sahələrdə çalışan şəxslərin, ixtisaslarının artırılmasını, habelə vergi siyasətinə dair elmi tədqiqatların aparılmasını təmin edir.

Tədris Mərkəzi Şamaxı rayonunda yerləşən kompleksdə və Bakı şəhərində olan ofisdə fəaliyyət göstərir. Mərkəzin strukturunda 6 şöbə, 2 bölmə və digər struktur qurumlar mövcuddur. Mərkəzdə əhəmiyyətli işlərin görülməsi və müzakirəsi məqsədilə Elmi Şura fəaliyyət göstərir.

Mərkəzin vəzifələrinə vergi orqanlarının fəaliyyət sahələri üzrə təlimə olan tələbatın öyrənilməsini və təşkil edilən əlavə təhsilin həmin tələbatlara uyğunluğunu təmin etmək, əlavə təhsilin məzmununun, formasının, keyfiyyətinin və təşkilinin müvafiq hüquqi aktlarla müəyyən edilən tələblərə uyğunluğunu təmin etmək, müxtəlif təhsilalma formalarından istifadə etməklə təhsil prosesini yüksək səviyyədə təşkil etmək, təhsil prosesində müasir təlim metodlarından, alətlərindən və informasiya texnologiyalarından istifadəni təmin etmək, əlavə təhsilə cəlb olunmuş şəxslərin bilik və bacarıqlarının qiymətləndirilməsini təşkil etmək, vergi işinin təşkili sahəsində əlavə təhsilin sonunda bilik və bacarıqlarının qiymətləndirilməsi əsasında onlara sertifikat vermək daxildir.

Dövlət vergi orqanlarına yenicə işə qəbul olan əməkdaşlar ilkin hazırlıq kurslarına cəlb olunurlar. Bu kurslar distant, ənənəvi və ya kombinə olunmuş şəkildə aparılır. Təlimin sonunda əməkdaşlar imtahan prosesinə cəlb olunur və onların imtahan nəticəsi staj müddətinin sonunda nəzərə alınır. Mərkəzdə həmçinin ixtisasartırma, yenidən hazırlanma və qısamüddətli təlim kursları təşkil olunur. İxtisasartırma kursları dövlət vergi orqanlarının vəzifəli şəxslərinin fəaliyyət sahələri üzrə bilik və peşə hazırlığı səviyyəsinin təkmilləşdirilməsini təmin etmək məqsədilə həyata keçirilir. Qısamüddətli təlimlər əməkdaşların vergi qanunvericiliyində və inzibatçılığında, o cümlədən iş proseslərində baş verən cari dəyişikliklərə və yeniləşən tələblərə uyğun zəruri peşə bacarıqlarına dair biliklərinin artırılması məqsədilə təşkil olunur.

Fəaliyyətində İSO 9001:2015 keyfiyyət idarəetmə sisteminin tətbiqinə başlanıldığı üçün Mərkəz beynəlxalq sertifikata layiq görülmüşdür. Mərkəzin əməkdaşlarının elmi məqalələrinin müəyyən hissəsini impakt faktorlu və ya beynəlxalq xülasələndirmə və indeksləşmə sisteminə daxil olan nəşrlər təşkil edir.

***Belə bir deyim var: "Düzgün əxlaq, keyfiyyətli təhsil və ədalətli idarəetmə hüququn yükünü azaldır, hüquqtətbiqetmənin çətinliyini aradan qaldırır." Ölkəmizdə güclü hüquq sisteminin və hüquq mexanizminin inkişaf etdirilməsi hüquq elminin inkişafı ilə paralellik təşkil edir və hüquqi dövlət quruculuğu konsepsiyası ilə uzlaşır və bütün bu göstəricilər hüquq elminin inkişafını zəruri edir.***

**İradə Xəlilova,**
**Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin**
**böyük prokuroru, ədliyyə müşaviri.**

# Daşnak vəhşiliyi: Saqqarsu və Yaycı qətliamları

## *Soyqırımı ümumbəşəri cinayətdir*

10 fevral 1828-ci ildə çar Rusiyası ilə Qacarlar dövləti arasında imzalanan bədnam Türkmənçay müqaviləsi ilə Naxçıvan və İrəvan xanlıqları da rus imperiyası tərəfindən işğal olundu. 1850-ci ildə isə Naxçıvan və İrəvan xanlıqları ləğv edilərək Naxçıvan, Gümrü, Yeni Bəyazit, Şərur-Dərələyəz qəzaları və Ordubad nahiyəsinin də daxil olduğu İrəvan quberniyası yaradıldı. Tarixi torpaqlarımızın bölünməsinin və zəbt olunmasının əsası qoyuldu. Osmanlı və Qacarlar dövləti ərazisində yaşayan ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsinə başlanıldı. Beləliklə də, soyqırımı cinayətləri tariximizin qanlı səhifəsinə çevrildi. Yer üzündə ermənilərin hiylələrinə məruz qalanlar, onlar tərəfindən törədilən qətliamlara, soyqırımlara məruz qalanlar isə daha çox türk xalqları, xüsusilə biz azərbaycanlılar və Anadolu türkləridir.

Naxçıvanda ermənilər tərəfimdən törədilən soyqırımı ilə bağlı bir çox tədqiqatlar aparılmış, mənbə kimi bir çox müəlliflərin əsərlərinə müraciət olunmuşdur. Bu mənbələr içərisində yazıçı M.S.Ordubadinin "Qanlı illər" və 1918 – 1920-ci illərdə Naxçıvanda fəaliyyət göstərən Müsəlman Milli Komitəsinin katibi Mirzə Bağır Əliyevin "Qanlı günlərimiz" adlı kədərli xatirələri xüsusi yer tutur. Naxçıvanda ermənilər tərəfindən törədilən qətliamlar içərisində Saqqarsu və Yaycı soyqırımları xüsusi amansızlığı ilə fərqlənir.

Tarixçi alim Elman Cəfərəli də bir sıra tədqiqat əsərlərini bu sahəyə həsr edib. Alim qeyd edir ki, Naxçıvanda faciəli hadisələr yalnız 1905-ci ildə baş verənlərlə yekunlaşmadı. Naxçıvan qəzasının Ordubad, Cəhri, Şıxmahmud, Kültəpə, Əliabad, Çeşməbasar, Tivi, Tumbul və onlarla başqa kəndlərini də əhatə edən erməni cinayətləri 1906-cı ildə davam etdi. Erməni vəhşiliyi ilə baş-başa buraxılmış həmin kəndlərin bir çoxunun əhalisi məhv edildi, sağ qalanlar isə digər kəndlərə, habelə Qacarlar dövlətinə, sərhəd ərazilərə qaçaraq canlarını qurtarmağa çalışdılar.

Əylisdəki erməni hərbi birləşmələri 1906-cı il avqustun 7-də, mis mədəni ətrafındakı erməni qüvvələri isə avqustun 8-də Panuslu kəndinə gələrək burada qüvvələrini birləşdirib Qxçu-Şəbadək dağlarının ətəyində yerləşən Azərbaycan kəndlərinə hücuma başladılar. Avqustun 9-da başlayan və dörd gün davam edən Oxçu kəndi uğrunda döyüş, ermənilərin hərbi cəhətdən və sayca dəfələrlə çox olmalarına baxmayaraq oxçuluların qələbəsi ilə başa çatdı. Erməniləri təqib edən Oxçu sakinləri onların sığındığı Gicəlan kəndini də azad etdilər. Lakin daşnaklar yenidən ətrafdakı ermənilər yaşayan kəndlərdən daha böyük hərbi qüvvə toplayaraq Zəngəzurun Panuslu, Girdəkan və Gicəlan kəndləri ətrafında əlverişli mövqe tutaraq Oxçu-Şəbadək dağlarındakı strateji yüksəklikləri ələ keçirdilər. Azərbaycanlıların qüvvələri və sursatları tükəndiyindən həmin gecə Oxçu-Şəbadək kəndlərinin imamı Molla Həsən Əfəndinin məsləhəti ilə Ordubadın Saqqarsu adlanan yerinə sığındılar. Kəndlərdə qalan əhalinin hamısı ermənilər tərəfindən qətlə yetirildi. Erməni silahlı birləşmələrinin genişmiqyaslı hücumu Azərbaycan kəndlərinin dağıdılması ilə nəticələndi. Daşnak silahlıları Saqqarsuda gizlənən azərbaycanlıları istisnasız olaraq qırdılar. Bir neçə qadınla əlində ermənilərin qarşısına çıxaraq aman diləyən Molla Həsən Əfəndinin özü və ətrafındakılar da erməni qətliamından qurtula bilmədilər. İslam dininin müqəddəs kitabı vəhşicəsinə təhqir olundu. Saqqarsu faciəsi baş verən gün daha dörd müsəlman kəndi düşmən tərəfindən dağıdıldı.

Tarixçi-alim qeyd edir ki, türk-müsəlman kəndlərinin sağ qalmış azsaylı əhalisi Ordubada və onun ətraf kəndlərinə pənah apardılar. Zəngəzurdan gələn qaçqınları böyük qayğı ilə qarşılayan ordubadlılar Qapan dərəsində, Saqqarsuda və digər döyüş yerlərində, qalanı isə azərbaycanlı yaralıları və qətlə yetirilənlərin meyitlərini gətirmək üçün dəstələr təşkil etdilər. 1906-cı il avqustun 16-da Saqqarsuda Ordubad könüllüləri Molla Həsən Əfəndinin özü ilə bərabər kənddən çıxardığı 62 qadın və uşağın meyitlərini aşkar etdilər. İki gün sonra ordubadlılar Saqqarsuda yenicə ailə qurmuş bir gənc qadınla cavan oğlanın, Molla Həsən Əfəndinin yandırılmış cəsədlərini, 15 körpənin palaza bükülmüş və bir-birinə qarışmış kəsilmiş başlarını və bədən hissələrini tapdılar. Qapan dərəsindəki Pürdavud kəndi də dağıdılmış, əhalisi isə son nəfərinədək qətlə yetirilmişdi.

Ermənilərin insanlıq adına sığmayan vəhşiliyindən sonra bölgədə son dərəcə acınacaqlı vəziyyət yaranmış, Zəngəzurun Naxçıvanla qonşu kəndlərinin əhalisi əsasən məhv edilmiş, azsaylı sağ qalanlar isə onsuz da vəziyyəti çox gərgin olan Naxçıvana və Ordubada pənah gətirmişlər.

Ordubadlılar hökumət dairələrinin də erməniləri

müdafiə etdiklərini görərək Zəngəzur kəndlərini azad etmək üçün könüllü dəstələr təşkil etmək qərarına gəldilər. 1000 nəfəri qaçqınlardan, 800 nəfəri isə yerli əhalidən olmaqla, 1800 nəfərlik ciddi intizama tabe edilmiş könüllü dəstələr Saqqarsuda toplaşaraq 1906-cı il sentyabrın 16-da ermənilərə qarşı həlledici döyüşdə qəti qələbə çalır və bütün Zəngəzur kəndlərini azad edirlər. Vəziyyətin azərbaycanlıların xeyrinə dəyişdiyini görən çar məmurlarının göndərdiyi 500 nəfərlik kazak ordusu yenidən bölgəyə gəlir və guya qaçqınların onlar tərəfindən öz kəndlərinə qaytarıldığı görüntüsünü yaradırlar. Girdəkan-Panuslu döyüşü ermənilərin məğlubiyyəti ilə nəticələnir. Lakin ermənilər hücum zamanı, demək olar ki, bütün Zəngəzur kəndlərini tamamilə dağıtmışlar.

Tarix yenə təkrar olundu, 9 sentyabr 1991-ci il tarixdə saat 19:00 radələrində Ordubad rayonundakı keçmiş N.Tusi adına kolxozun xırdabuynuzlu heyvan sürüsünə Ermənistan Respublikası ilə həmsərhəd ərazidə yerləşən Saqqarsuda "Qız-gəlin" adlanan yaylaqda erməni silahlı dəstələri tərəfindən silahlı basqın edilmiş, çobanlar – Xəlilov Xəlil Xuduş oğlu və Abbasov Əşrəf Tağı oğlu itkin düşmüş, kolxoza məxsus 724 baş və ayrı-ayrı vətəndaşlara məxsus 307 baş heyvan Ermənistan ərazisinə aparılmışdır. Ordubad rayonunun Ermənistan Respublikası ilə həmsərhəd ərazidə yerləşən "Qapıcıq" adlanan yaylaqda heyvan otaran başqa şəxslər tərəfindən erməni silahlı dəstələrinin çobanları və heyvan sürüsünü Ermənistan ərazisinə tərəf aparılması uzaqdan müşahidə olunduğundan yaylaq sahəsində itkin düşmüş şəxslərin axtarışı aparılmış, Xəlil Xəlilov və Əşrəf Abbasovun üzərində zorakılıq əlamətləri olan meyitləri 1991-ci il sentyabrın 9-da Qafan rayonu ilə həmsərhəd olan dağlıq ərazidə aşkar edilmişdir.

Bəzi tarixçilər qeyd edirlər ki, 1918–1921-ci illərdə Naxçıvanda ermənilər tərəfindən, ümumilikdə, 100 mindən nəfərdən çox türk-müsəlman sakin vəhşiliklə qətlə yetirilmişdir. 1918-ci il aprelin 13-də ermənilər Əlincəçay vadisində yerləşən Bənəniyar, Qızılca, Saltaq, Noraşen, Xoşkeşin və s. kəndlərə hücum edərək bu yaşayış məntəqələrini dağıtdılar. Həmin kəndlərin əhalisi qırıldı, sağ qalanları isə müxtəlif ərazilərə səpələndi.

Naxçıvanda ermənilər tərəfindən törədilən qətliamın digəri isə Culfa rayonunun Yaycı kəndindəki soyqırımıdır. 1918-ci ildə ölkəmizin bir çox bölgələrində olduğu kimi, muxtar respublikanın Culfa rayonunun Yaycı kəndində də cəllad Andronikin erməni quldur dəstələri tərəfindən dəhşətli qətllər törədilmişdir. Ermənilər kəndi dağıdıb, yüzlərlə Yaycı sakinini qətlə yetirmişlər. 1918-ci ildə törədilmiş Yaycı soyqırımı ilə bağlı tarixi həqiqətləri dünyaya çatdıran şəxslər içərisində bu kəndin ziyalısı yazıçı-jurnalist Fərəc Fərəcovu qeyd edə bilərik.

1918–1920-ci illərdə Naxçıvanda fəaliyyət göstərən Müsəlman Milli Komitəsinin katibi Mirzə Bağır Əliyev "Qanlı günlərimiz" adlı gündəliyində qeyd edir ki, 1918-ci iyun ayının 14-də Yaycı hadisəsinə dair sübh vaxtı Naxçıvana xəbər çatdı ki, Andronikin qüvvəsi Araz çayını keçib, Yaycı kəndinə hərəkət edərək həmin kəndin əhalisini qətl-qarət etmiş, Cəmaləddin və Ərəzin kövşəni də erməni qüvvəsi ilə dolubdur. Bu barədə Nehrəm kənd sakini Tağı Nağdəliyev məlumat göndərmişdir.

İkinci məktub yenə ondan alınmışdı. Məktubda qeyd edilir ki, Naxçıvana gəlmiş Osmanlı qoşununun qabağını almaq münasibətilə İrandan ermənilər Araz körpüsünü keçib Yaycı kəndinə hücum edib yarım saat ərzində həmin kəndi tar-mar etdilər. Bu məktubdan sonra, saat 8:00 radələrində Milli Komitədə Xəlil bəy cənablarının bu məzmunda teleqrafı alındı: "Naxçıvan Milli Komitəsinin sədrinə. Naxçıvanda bu saat Arazdan qayıdan ermənilərdən başqa 4 min erməni qüvvəsi olduğunu dəxi söylüyorsunuz. Bu 4000 mühacirdir, ya əsgərdir? Kim təxmin etmiş? Culfa geri qayıdıb? Nə qədər vardır. Pək o qədər təşviş etmisiniz. Sizi gözətliyən vardır. Yalan və doğru. məlumat alıb bildirməkə qeyrət ediniz. Xəlil bəy".

Mənbə bildirir ki, daşnak Andronikin qüvvəsi Culfa tərəfindən şərq tərəfi ilə Naxçıvana tərəf yürüş edirdi. Saat 3 radələrində yenə Xəlil bəydən bu məzmunda alındı: "Arazın körpüsünün atılmağı və Yaycı kəndinin tar-mar olmağı bizə məlum oldu. Nehrəm və Cəhri kəndlərinə yazın bəndləri gələn Andronikin qoşunlarının şəhərə girməyinə yol verməsinlər". İyulun 15-də isə Andronikin dəstəsinin Yaycı əhalisinə endirdiyi zərbələrə tab gətirməyib geri oturdulması xəbəri alındı. İyunun 18-də Andronikin dəstəsinin Yaycıdan Ordubada tərəf hərəkət etməsi xəbəri alınmışdı.

Yazıçı-jurnalist Fərəc Fərəcov qeyd edir ki, Osmanlıya xəyanət edərək oradan qaçmış Andronik Ozanyan 5 min nəfərlik qoşunla (onlardan 4000-i piyada, 1000-i isə süvari dəstə idi) Naxçıvan ərazilərinə daxil olur və ilk qəfil zərbəsini Naxçıvan qəzasının iri yaşayış məntəqələrindən olan Yaycıya vurur. Azğınlaşmış quldur dəstələri bir günün içində kəndi yerlə yeksan edir. Evlər qarət olunub yandırılır, qocalar, qadınlar, uşaq və körpələr qılıncdan keçirilir.

"Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan" kitabında oxuyuruq: "Andronikin tabeliyində olan erməni qüvvələri İrandan Naxçıvana doğru çəkildilər. Bununla da, Culfa, Naxçıvan və Ordubad bölgələrində qara günlər başlandı. Türk ordusundan ağır zərbə alan Andronik Naxçıvanın günahsız əhalisindən öz acığını çıxmaq istəyirdi. Bu məqsədlə Culfaya çəkilən erməni qüvvələri sərhəddə yerləşən Naxçıvan qəzasının böyük kəndlərindən biri olan Yaycı kəndinə hücum etdilər. Heç bir şeydən xəbəri olmayan Yaycı kənd əhalisi Andronikin dəstəsi tərəfindən mühasirəyə alındı. Andranikin qaniçən dəstəsi ilə qonşu erməni kəndinin əhalisi Araz sahilində 4000-ə yaxın qadın, uşaq və yaşlıya hücum edərək çoxunu qətlə yetirdilər. Ölənlər o qədər çox, qalanlar o qədər az idi ki, ölənləri dəfn etməyə adam yox idi".

Vaxtilə kəndin yaşlı sakinlərinin verdiyi məlumata görə, qəddar düşməndən canını qurtarıb qonşu İran ərazisinə keçmək istəyənlər Araz çayının sahillərinə axışmışlar. Onların arasında, əsasən, Yaycı əhalisi olsa da, Araza yaxın digər kəndlərin də sakinləri var idi. Ümumiyyətlə, hadisələrin canlı şahidləri və öz valideynlərindən ətraflı məlumatlar əldə etmiş yaycılılar söyləyirdilər ki, kəndin, təqribən, 2500 nəfər sakini qətlə yetirilmişdir. Onların da çoxu uşaq, qadın və qocalar idi. Deyilənə görə, hadisə gündüz vaxtı baş verdiyindən əmək qabiliyyətli kişilər çöl işlərində olmuş və ya başqa yerlərə alış-verişə getmişdilər. "Min evli" adlandırılan bu kənddə soyqırımı zamanı elə bir ailə olmamışdır ki, faciənin qurbanına çevrilməsin. Hər ailənin bir, iki və daha çox üzvü erməni qaniçənlərindən canlarını qurtara bilməmişlər. Onlarla ailə bütün üzvləri ilə birlikdə evlərində qətlə yetirilmişdir. Həmin vaxt Yaycıda bu cür ürəkağrıdıcı hadisələr az olmamışdır. 1918-ci ilin iyun ayında baş vermiş bu qanlı hadisə erməni faşistləri tərəfindən törədilən soyqırımı idi. Kəndin əhalisi yarıbayarı azalmışdı. Ən çox itkilər qadınlar arasında olmuşdu. İtkin düşənlər də vardı. Danışırlar ki, kənddə 7 il xeyir mərasimləri, şənliklər olmamışdır. Qısa bir vaxtda Naxçıvanı ələ keçirmək niyyətində olan Andranik və onun azğınlaşmış dəstələri Yaycı soyqırımından sonra Ərəzin, Camaldın, Sirab və digər kəndlərdə də qanlı qırğınlar törətmişlər. 2007-ci ildə yaycılıların arzu və istəyi gerçəkləşdirildi. Kənddə soyqırımı qurbanlarının xatirəsinə bir abidə inşa olundu, ətrafında park salındı, tikinti-abadlıq işləri görüldü. İndi bura kənd sakinlərinin, xüsusilə də gənclərin müqəddəs and yerinə çevrilib.

Həmin dövrdə erməni qulduru Andronik bolşeviklərlə işbirliyi yaradaraq Naxçıvanı, Zəngəzuru ələ keçirmək üçün əməliyyatlara başlamışdı. Bakıdakı bolşevik hökumətinin başçısı S.Şaumyandan dəstək alan Andronik Şərur - Dərələyəz və Naxçıvan qəzalarında qanlı qırğınlar törətmişdi. Bölgəni kütləvi qırğından yalnız Türkiyə xilas edə bildi. 1918-ci il iyunun əvvəllərində 9-cu və 11-ci Türk diviziyaları Uluxanlıdan Naxçıvana hərəkət etdi. 1918-ci ilin iyun ayının 4-də xilaskar türk qoşunu Naxçıvana daxil oldu. Şəhər əhalisi türk qoşununu toy-bayramla qarşıladı, şəhərdə Türkiyə bayrağı qaldırıldı. Naxçıvan üzərində Türkiyə himayəsi bərqərar oldu. Türk qoşunları və Naxçıvanın yerli müdafiə qüvvələri daşnak quldur dəstələrini darmadağın edib bölgədən qovdular. Naxçıvanın kəndlərini viran qoymuş Andronik buradakı məğlubiyyətdən sonra Zəngəzura doğru hərəkət etdi. Nehrəm ətrafında rüsvaycasına məğlub edilmiş Andronikin dəstələri geri qaçmağa məcbur olmuşdu. Ordubada doğru irəliləyən Andranik qarşısına çıxan kəndləri dağıda-dağıda bu məsafədə 2 min azərbaycanlını öldürmüşdür. Ordubadın ətrafı, Əlincəçay boyu, Şahbuz kəndlərinin əhalisi tərksilah olunmuş, xeyli hissəsi qətlə yetirilmişdir. Həmçinin Sirab, Nursu, Kolanı, Hənzər, Mahmudoba, Əbrəqunus, Qazançı, Paradaş, Xanağa, Bənəniyar, Camaldın, Ərəzin, Kırna və Xoşkeşin kəndlərində də dəhşətli qırğınlar törədilmişdir. Ermənilər tərəfindən 1906-cı ilin avqustunda Ordubad rayonunun Saqqarsu yaylağında və Culfa rayonunun Yaycı kəndində 1918-ci ildə törədilmiş qətliamlar Azərbaycan xalqına qarşı törədilmiş soyqırımı cinayətlərinin tərkib hissəsidir.

Bəli, oxumasaq bilmərik. Bilməsək unudarıq. Unutsaq yenidən yaşamalı olarıq. İnanırıq ki, xalqımıza qarşı bu qətliamları törədənlər tariximizin yaddaşından heç zaman silinməyəcək, ilahi ədalət tarixdə hər şeyi öz yerinə qoyacaq. Bu, mütləq baş verəcək!

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT**


1. "Qanlı illər" M.S.Ordubadi. Bakı-1991.
2. "Yaycı soyqırımı" Fərəc Fərəcov. Naxçıvan. "Əcəmi" 2002.
3. "Naxçıvanda erməni-Azərbaycan münaqişəsi". Elman Cəfərəli. Bakı."Nurlan" 2009.
4. "Ermənistanın soyqırım və deportasiya siyasətində Naxçıvan". Abdulla Mustafayev. Bakı-2013



**Faiq Səfərov,**
**Naxçıvan Muxtar Respublikası**
**Prokurorluğunun şöbə rəisi,**
**baş ədliyyə müşaviri,**
**Prokurorluğun fəxri işçisi.**

# Xüsusi müsadirənin təyin olunmasına fərqli yanaşmalar



Xüsusi müsadirənin təyin olunması prosesini bir neçə mərhələyə bölmək olar. Birinci mərhələ məhkəməyədək icraatla əlaqədardır və mümkün müsadirəyə məruz qala biləcək əmlakın müəyyən edilməsindən ibarətdir.

İbtidai araşdırmanın gedişində mülki iddia qismində hökmün icra olunmasına, cərimə tutulmasına, digər əmlak cəzalarına və ya əmlakın mümkün müsadirəsinə yönəldilən tədbirlər həyata keçirilə bilər. Belə tədbirlərdən biri əmlakın üzərinə həbs qoyulmasıdır və onun qaydasını, həyata keçirilməsini Azərbaycan Respublikasının CPM-ın 248 – 252-ci maddələri müəyyən edir. Əmlak üzərinə həbs mülki iddianı və cinayət qanunu ilə nəzərdə tutulmuş hallarda xüsusi müsadirəni təmin etmək məqsədi ilə, bir qayda olaraq, məhkəmənin qərarı əsasında qoyulur. Bu mərhələ heç şübhəsiz ki, vacibdir, lakin onun gedişində müxtəlif çətinliklər meydana gələ bilər. İbtidai araşdırma zamanı müsadirəyə məruz qalacaq əmlakın, habelə onun cinayət yolu ilə edilməsi hallarının müəyyənləşdirilməsi üçün tədbirlər görülməmişdirsə, əksər hallarda cinayət mühakimə icraatının məhkəmə mərhələsində istintaqın belə "boşluqları" doldurması son dərəcə çətin olur. Faktiki olaraq ancaq təqsirkar şəxsin konkret cinayət zamanı "əlində tutulan" əmlak müsadirə edilə bilir, cinayət yolu ilə əldə edilmiş əmlakın əsas kütləsi isə hüquq-mühafizə orqanları üçün əlçatmaz olur.

İkinci mərhələ artıq məhkəmə icraatının özü ilə əlaqəlidir. Bu mərhələdə əsas məqsəd məhkəmənin ittiham hökmündə müsadirənin təyin edilməsidir. Bu vəzifəni yerinə yetirə bilməsi üçün məhkəmə müsadirənin təyin olunmasının müvafiq şərtlərinə və əsaslarına malik olmalıdır. Burada "şərtlər" dedikdə, işin elə halları nəzərdə tutulur ki, onların mövcud olmaması həmin tədbirin tətbiqinin qeyri-mümkün olmasına dəlalət edir; "əsaslar" dedikdə isə, müsadirənin qarşısında qoyulan məqsədlərə nail olmağın real imkanını və onun tətbiqinin məqsədəuyğunluğunu əvvəlcədən müəyyən edən amillərin çoxluğu nəzərdə tutulur.

Müsadirənin təyin olunması şəxsin istənilən cinayəti törədə bilməsi imkanı ilə əlaqəlidir. Bundan başqa, ibtidai araşdırmanın və məhkəmə çəkişməsinin gedişində sübut edilməlidir ki, müsadirəyə məruz qalmalı olan əmlak cinayətin törədilməsi nəticəsində əldə edilmişdir və ya belə əmlakdan əldə edilmiş gəlirdir, yaxud cinayətin aləti kimi, terrorçuluğun maliyyələşdirilməsi, mütəşəkkil dəstənin, cinayətkar birliyin (cinayətkar təşkilatın) maliyyələşdirilməsi üçün istifadə edilmişdir ya da bu məqsədlə istifadə edilmək üçün nəzərdə tutulmuşdur. Bütün bunlar da məhz müsadirəni təyin etmək üçün əsas təşkil edir. Həmçinin məhkəmə hansı əmlakın müsadirə edilməli olduğunu müəyyən etməlidir. Bunun üçün məhkəmə xarakterik əlamətləri (məsələn qiymətli kağızlar, avtomobil), konkret məbləği (məsələn beş min manat) və ya müsadirə predmetinin fərdi xüsusiyyətlərini (məsələn müvafiq eyniləşdirmə nömrəsi ilə birlikdə «Toyota Camry» avtomobili) müəyyən etməlidir. Eyni zamanda məhkəmə müsadirə olunan əmlakla cinayət arasındakı birbaşa əlaqəni müəyyən etməlidir ki, bu da həmin faktın sübut edilməsi baxımından müəyyən çətinliklərlə xarakterizə olunur.

Əmlakın müsadirənin təyin edilməsi üçün məhkəmə təsbit etməlidir ki, alınacaq alətlər, vasitələr və avadanlıq təqsirləndirilən şəxsə məxsusdur. Lakin qanun onların təqsirləndirilən şəxsə məxsus olmasının əsaslarını göstərmir. Təqsirləndirilən şəxsə "məxsus olan" əmlak anlayışı

ancaq həmin əmlakın mülkiyyət hüququ əsasında təqsirləndirilənin əlində olduğu və ya ona cinayətin törədilməsi üçün verildiyi hallarla, habelə həmin əmlakın mülkiyyətçisinin naməlum olduğu hallarla məhdudlaşdırılmalıdır. Məhkəmə praktikası da məhz bu yolla gedir. Əmlakın müsadirəsinin təyin edilməsi üçün həmçinin cinayətin alətinin, törədilmə vasitəsinin və avadanlığının nə olduğunu da müəyyən etmək lazımdır. Bu bəndin hərfiyyən təfsiri belə nəticəyə gəlməyə imkan verir ki, həm alət, həm də avadanlıq cinayətin törədilməsinin vasitələridir. Lakin bəzi müəlliflər həmin anlayışları bir-birindən fərqləndirməyə can atır və belə nəticəyə gəlir ki, alətlərdən cinayətin obyektiv tərəfini təşkil edən əməllərin törədilməsində bilavasitə istifadə olunur və onların əsas istifadə təyinatı şəxsin cinayətin nəticəsini əldə etmək imkanlarını genişləndirməkdir. Vasitələr isə öz növbəsində hazırlıq mərhələsində, ictimai baxımdan təhlükəli əməlin törədilməsi üçün zəruri şəraitin yaradılması, habelə cinayət yerindən qaçıb gizlənməyi asanlaşdırmaq məqsədi ilə istifadə edildikdə əhəmiyyət qazanır və onların əsas istifadə təyinatı cinayət əməlinin törədilməsini asanlaşdırmaqdır.

Məhkəmə praktikasında maddi dünyanın bu və ya digər obyektlərinin cinayətin törədilməsi vasitələrinə aid edilməsində çox vaxt çətinliklər meydana gəlmişdir. Azərbaycan Respublikasının CM-in 263-1-ci maddəsinin (Yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarını sərxoş halda və ya nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs tərəfindən pozma) qüvvəyə minməsi ilə məhkəmə praktikasında belə bir məsələnin həlli zərurəti meydana gəlmişdir: avtomobil cinayət törətmək üçün vasitəsidirmi? Məsələn, vətəndaş Q.A.B. Azərbaycan Respublikasının CM-in 263-1.1-ci maddəsində nəzərdə tutulan cinayətin törədilməsində təqsirli bilinmişdir və o, 2 il müddətinə nəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum edilməklə 2 il azadlıqdan məhrumetmə ilə cəzalandırılmış, eyni zamanda onun «Toyota Allion» avtomobili müsadirə edilmişdir, çünki məhkəmənin qənaətinə görə avtomobil cinayətin törədilməsi üçün vasitədir. Apellyasiya instansiyasında bu işdə avtomobilin sonrakı taleyi ilə əlaqədar olaraq əks mövqe nümayiş etdirilmişdir. Belə ki, məhkəmə özünün 24.12.2020-ci il tarixli apellyasiya qərarı ilə birinci instansiya məhkəmənin qərarına dəyişiklik etmiş, həmin qərardan avtomobilin müsadirəsini çıxarmışdır. Məhkəmə bu qərarını belə əsaslandırmışdır: Q.A.B. sadəcə avtomobili sərxoş vəziyyətdə idarə etmişdir və buna görə də, mülkiyyət hüququ əsasında müttəhimə məxsus avtomobil əvəzsiz olaraq, məcburiyyət qaydasında müsadirə olunaraq dövlətin nəfinə verilə bilməz.

Azərbaycan Respublikasının CM-nin əhatə etdiyi digər cinayətlərdə də avtomobildən istifadə etmək imkanı nəzərdə tutulur. Buna görə də, məhkəmələr çox vaxt avtomobili cinayətin törədilməsi üçün vasitə qismində fərqli qaydada təfsir edir. Məsələn, M.S.İ. və İ.A.M. Azərbaycan Respublikasının CM-in 234.3-cü maddəsinə əsasən (Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında istifadə etmək məqsədi ilə prekursorları satma) təqsirli bilinmiş və məhkum edilmişdir. Məhkum M.S.İ.-ə məxsus avtomobil müsadirə edilmişdir. Məhkəmə belə qənaətə gəlmişdir ki, avtomobil M.S.İ. tərəfindən narkotik vasitələrin hazırlanması üçün zəruri olan avadanlığın və preparatların, habelə qeyri-qanuni yolla istehsal edilmiş narkotik vasitələrin özünün daşınması məqsədi ilə istifadə edildiyinə görə əsaslı olaraq cinayətin törədilməsinin vasitəsi kimi qəbul edilmiş və müsadirə edilmişdir.

İnsanların əksəriyyəti öz gündəlik fəaliyyətində avtomobildən fəal olaraq istifadə edir və bu zaman avtomobildən sonradan cinayətlərin törədilməsi məqsədi ilə istifadə olunması ehtimalı istisna edilmir. Ancaq belə olan halda avtomobili birmənalı şəkildə cinayətin törədilməsi üçün vasitə kimi qəbul etmək olarmı? Məhkəmə cinayət işinə baxarkən avtomobilin cinayətin törədilməsi üçün vasitə kimi istifadə olunması məsələsini həll edir. Belə olan halda məhkəmə müvafiq olaraq avtomobildən məhz cinayətin obyektiv tərəfinin törədilməsi prosesində, cinayəti törədən şəxsin öz cinayətkar niyyətini sonuna qədər reallaşdırmaq imkanlarının genişləndirilməsi üçün istifadə edilməsi faktını təsbit etməlidir. Bu əlaqəni müəyyən etdikdən sonra məhkəmə avtomobili cinayətin törədilməsi üçün vasitə kimi qəbul edir və müvafiq

olaraq onu müsadirə edərək dövlətin nəfinə verir. Bu zaman ziddiyyətli məhkəmə praktikasının formalaşması ehtimalı istisna olunmur.

Azərbaycan Respublikasının CM-in 99-1-ci maddəsinə görə cinayətin törədilməsi üçün vasitənin məhz cinayətin obyektiv tərəfinin yerinə yetirilməsi prosesində istifadə edilməsi əmlakın müsadirəsinin mütləq əlamətidirmi? Belə ki, bir cinayət işi üzrə ibtidai araşdırmanın gedişində vətəndaş M.İ.A.-nın mobil telefonu alınmışdır. İttiham tərəfi hesab edirdi ki, həmin mobil telefon vasitəsilə narkotik vasitələr satın alınmışdır. Lakin məhkəmə göstərmişdir ki, həmin texniki vasitədən cinayətin obyektiv tərəfi yerinə yetirilərkən istifadə olunmamışdır və buna görə də, o, cinayətin törədilməsi üçün vasitə qismində nəzərdən keçirilə bilməz. Analoji kateqoriyaya aid başqa bir cinayət işində məhkəmə əks qənaətə gəlmişdir. Məhkəmə müəyyən etmişdir ki, narkotik vasitələrin satışına hazırlaşan M.S.N. və A.N.S. öz hərəkətlərini telefon vasitəsilə, o cümlədən xüsusi proqramdan istifadə edərək koordinasiya etmişdir. Məhkəmə mobil telefonun müsadirəsinin əsaslı olduğu qənaətinə gəlmişdir. Beləliklə, birinci halda məhkəmə telefonun cinayətin obyektiv tərəfinin yerinə yetirilməsində istifadə edilmədiyi, buna görə də müsadirə oluna bilməyəcəyi qənaətinə gəlmişdir. İkinci haldan da belə məlum olur ki, telefondan cinayətin obyektiv tərəfinin yerinə yetirilməsində istifadə edilməmişdir, lakin bu, məhkəmənin onu cinayətin törədilməsi üçün vasitə qismində nəzərdən keçirməsinə və müsadirə edilərək dövlətin nəfinə verməsinə mane olmamışdır.

Müsadirənin tətbiqi prosesinin effektivliyini artırmaq, eləcə də müəyyən profilaktik məqsədlərlə qanunverici orqan üçüncü şəxslərə müsadirə təyin olunması imkanını nəzərdə tutmuşdur. Azərbaycan Respublikasının CM-in 99-1.3-ci maddəsinə görə təqsirləndirilən şəxsin digər şəxsə (hüquqi şəxsə) ötürdüyü əmlak müsadirə edilir, bir şərtlə ki, həmin əmlakı qəbul edən şəxs onun cinayət hərəkətləri nəticəsində əldə edildiyini bildiyi və ya bilməli olduğu halda onu qəbul etmiş olsun. Qanunverici orqan bununla cinayət yolu ilə qazanılmış əmlakın əldə edilməsinin sərfəli olmadığını təsbit etmək istəmişdir. Bu normanın mətnində qanunverici orqan "şəxs əmlakın cinayət yolu ilə əldə edildiyini bildiyi və ya bilməli olduğu halda" kimi hüquqi konstruksiyadan istifadə edir ki, bu da normanın tətbiqini çətinləşdirir, çünki praktikada həmin faktı sübut etmək çox vaxt mümkün olmur. Həmin faktın müəyyən edilməsi müvafiq obyektiv sübutlardan deyil, hüquq-mühafizə orqanlarının əməkdaşlarının mülahizələrindən asılı ola bilər. Bu problem əməli fəaliyyətdə həmin normanın tətbiqinin qeyri-mümkünlüyünü şərtləndirir.

Beləliklə, əmlakın müsadirəsi iki mərhələdə həyata keçirilir. Birinci mərhələ məhkəməyədək icraatla əlaqədardır və mümkün müsadirəyə məruz qala biləcək əmlakın müəyyənləşdirilməsindən ibarətdir. İkinci mərhələ artıq məhkəmə icraatının özü ilə əlaqəlidir. Bu mərhələdə əsas məqsəd məhkəmənin ittiham hökmündə müsadirənin təyin edilməsidir. Əmlak müsadirəsinin təyin olunması məhkəmənin vəzifələrindən biri kimi qəbul edilməlidir və bunu Azərbaycan Respublikasının CM-in 99-1-ci maddəsinin təfsiri də təsdiq edir.

**İstifadə edilmiş ədəbiyyat:**


- ✓ Azərbaycan Respublikası Cinayət Məcəlləsi (1999-cu il 30 dekabr tarixli 787-IQ nömrəli Qanunu ilə təsdiq edilmişdir).
- ✓ Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsi (2000-ci il 14 iyul tarixli 907-IQ nömrəli Qanunu ilə təsdiq edilmişdir).
- ✓ Безбородов Д.А. Иные меры уголовно-правового характера: понятие, признаки и виды. Учебное пособие.
- ✓ Борченко Д.Ю. Конфискация имущества как мера уголовно-правового характера: понятие, природа, социальное предназначение и порядок применения.
- ✓ Макаров А.В. Некоторые законодательные особенности конфискации имущества как иной меры уголовно-правового характера по устранению корыстной мотивации совершения преступлений.
- ✓ Понятовская Т.Г. Иные меры уголовно-правового характера.
- ✓ Уткин В.А. Новый облик конфискации (Институт конфискации имущества в законодательстве государств - членов Совета Европы и в российском законодательстве: материалы международного семинара).



**Fərizə Mirzəyeva,**
**Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin Prokurorluq işçilərinin fəaliyyətinin qiymətləndirilməsi və peşə hazırlığının təşkili şöbəsinin prokuroru, ədliyyə müşaviri .**

# Обращение с электронными унифицированными носителями в рамках взаимодействия на пространстве СНГ

На данный момент многие сферы общественной жизни управляются посредством информационных технологий, что ставит эффективность борьбы с преступностью в прямую зависимость от информационно-технологического обеспечения деятельности органов, ведущих уголовный процесс, и правового регулирования такого обеспечения. В современной юридической науке широко обсуждаются вопросы, связанные с необходимостью правового регулирования отношений, связанных с цифровой реальностью и электронной информацией, содержащейся на электронных носителях. Ученые той или иной отрасли права осмысливают отдельные аспекты цифровизации и предлагают различные варианты правовой регламентации цифровых (электронных) объектов и технологий. Ими утверждается, что электронное доказательство на сегодня это условное обозначение доказательства, содержание которого представлено в электронном виде. Такое положение дел сохраняется из-за отсутствия законодательного закрепления данной категории. Существует мнение, что электронные свидетельства – категория гораздо шире, и может включать в себя записи, хранящиеся, например, сетевыми или интернет-провайдерами. электронные доказательства могут быть признаны допустимыми в том случае, если они получены строго на основании положений уголовно-процессуального законодательства, регламентирующих порядок производства следственных и иных процессуальных действий.

Необходимо ли включать в уголовно-процессуальное законодательство понятие «электронное доказательство»? Большинство ученых и специалистов полагают возможным отнесение электронных доказательств либо к вещественным доказательствам, либо к иным документам. Существует мнение рассматривать данные доказательства как самостоятельный вид доказательств, относя к ним как электронные носители информации, так и саму электронную информацию в форме электронных документов. Задаваясь вопросом о том, а нужен ли вообще такой самостоятельный вид доказательства, как электронный, например, П.Г. Марфицин предлагает растворить признак «электронности» в иных видах доказательств, то есть рассматривать его как форму, в которую облечены необходимые для дела сведения. И тогда, заключает он, не понадобится формулировать понятие «электронные доказательства».

В свою очередь, европейские страны не предусматривают в своих правовых актах конкретные определения того, что является электронными доказательствами. Также отсутствуют какие-либо национальные правила, связанные с допустимостью электронных доказательств.

Для нас прежде всего представляет интерес цифровая реальность и электронная информация, содержащаяся на электронных носителях в рамках взаимодействия государств-участников Содружества Независимых Государств (СНГ). Так, 1 марта 1994 г. принята Концепция Автоматизированной системы информационного обмена между органами внутренних дел государств – участников СНГ (АСНО СНГ). Указанная Концепция устанавливает приоритетные, принципы, задачи, структуру и последовательность введения в действие подсистемы информационного обмена между Министерствами Внутренних Дел (МВД) стран – участников Содружества.

Сущность задач, поставленных перед Межгосударственной подсистемой информационного обмена между органами внутренних дел стран – участников СНГ (МПИО ОВД), заключается в максимальной эффективности обмена данными в объеме функционирования МИБ. МПИО представляет единое информационное пространство МВД государств Содружества с системой национальных информационных ресурсов, баз и банков данных.

Говоря о структуре МПИО, следует отметить и технологию функционирования информационных ресурсов, баз и банков данных, использование телекоммуникационных систем и сетей, действующих по определенным принципам и согласованных информационных протоколах обмена сведений. При этом МПИО состоит из следующих частей:

- единой, либо взаимосвязанной телекоммуникационной сети связи;
- единой, или взаимосвязанной системы информационного обмена;
- систем хранения и обработки информации;
- систем защиты имеющейся информации.

Единая телекоммуникационная сеть включает высоконадежную межгосударственную магистральную сеть, а также национальные сети государств Содружества, которые подключаются е ней. В свою очередь, к национальным магистральным сетям подключаются региональные сети, а к ним уже и сети абонентного доступа. Естественно, что подобные специально предназначенные для правоохранительных органов национальные телекоммуникационные сети могут являться частью общенациональной телекоммуникационной сети.

Магистральная сеть обслуживает крупные узлы связи, располагающиеся в столицах и больших городах. При работе круглые сутки, она должна иметь высокую пропускную способность и достаточную надежность. Единая система телеобработки данных обеспечивает дистанционный доступ к ресурсам обработки данных и ресурсам средств связи. Она предназначена также обеспечить, коллективное использование ресурсов систем обработки данных и для удаленных пользователей в режиме межмашинного обмена. Систему хранения и обработки информации баз и банков данных планируется создать в качестве интегрированных, свести справочные и оперативно-розыскные учеты, которые существуют в МВД стран СНГ. Финансирование создания МПИО осуществляется на долевом участии МВД государств Содружества.

24 апреля 1992 г. МВД стран, входящих в СНГ, подписали «Соглашение о взаимодействии министерств независимых государств в сфере борьбы с преступностью». На основе действующего законодательства своих государств, соглашением предусматривается сотрудничество по следующим основным направлениям:

- ✓ борьба с преступностью по всем видам преступлений, предусмотренных Уголовными Кодексами (УК) стран СНГ;
- ✓ розыск лиц, совершивших преступление, и лиц, скрывающихся от следствия и суда, отбытия наказания, без вести пропавших, а также уклоняющихся от уплаты алиментов и исполнения решений судов по искам;
- ✓ установление личности неопознанных трупов, неизвестных больных и детей;
- ✓ борьбы с преступностью на автомобильном, железнодорожном, водном, воздушном и трубопроводном транспорте.

Помимо этого, стороны, подписавшие соглашение, осуществляют сотрудничество для обеспечения безопасности дорожного движения, ликвидации пожаров и последствий стихийных бедствий, катастроф, эпидемий и эпизоотий.

А применительно к межгосударственным учетам, Соглашение от 24 апреля 1992 г. предусматривает следующие формы сотрудничества:

– исполнение запроса и просьб по уголовным делам и делам оперативного учета, а также материалам об административных правонарушениях;

– взаимный обмен оперативно-розыскной; оперативно-справочной и криминалистической информацией о подготавливаемых или совершенных преступлениях, о причастных к ним лицам, а также архивной информацией;

– оказание содействия в проведении оперативно-розыскных мероприятий и уголовно-процессуальных действий.

В соглашении особо отмечалось обязательство сторон его подписавших, о предоставлении необходимой информации на унифицированных носителях для пополнения межгосударственных оперативно-справочных, дактилоскопических, криминалистических и иных учетов, которые существуют в подразделениях МВД стран СНГ. Пополнение и хранение учетов осуществляется на безвозмездной основе.

Финансирование деятельности межгосударственного банка должна осуществляться на долевом участии, размеры которого устанавливаются по соглашению сторон.

Также 3 августа 1992 г. было заключено Соглашение МВД государств-членов СНГ «О взаимоотношениях министерств внутренних дел в сфере обмена информацией», (далее соглашение об обмене информацией от 3 августа 1992 г.) предусматривающее создание на базе ГИЦ МВД России Межгосударственного информационного банка (МИБ). МВД РФ является держателем централизованных оперативно-справочных и дактилоскопических карт, автоматизированного банка данных, криминалистических и иных учетов, а также архивной информации. Вместе с тем МВД каждой из республик, подписавших соглашение, обязуется безвозмездно представлять друг другу имеющиеся у него сведения из существующих учетов, автоматизированных систем, банков данных и архивов.

Каждая сторона, представляя информацию в МИБ, либо в МВД соответствующего государства, сделавшего запрос, гарантирует ее полноту и достоверность. Получение сведений производится на безвозмездной основе, и они используются только по прямому назначению.

Сторона, исполняющая запрос по учетам, оформляет его в соответствии с порядком и в сроки, действующие в соответствии с ее нормативными актами. МВД государств, подписавших соглашение, осуществляют сотрудничество в компьютеризации своих ведомств, совершенствовании информационного обеспечения, а также создании единой автоматизированной системы передачи сведений.

МИБ СНГ поручает ГИЦ МВД стран СНГ следующие функции:

– обеспечивать получение, обработку, хранение и передачу хранящейся в МИБ информации об объектах централизованного учета, причем представление информации осуществляется как по запросам, так и в порядке инициативы;

– определить объем, структуру, форму и способы представления первичной информации, поступающей в МИБ; данные функции устанавливаются по результатам соглашения со всеми участниками, исходя из имеющихся у них возможностей и полномочий;

– с помощью оперативно-справочных и розыскных учетов производить розыск лиц, объявленных в международный розыск;

– исключать предоставление информации МИБ СНГ кому-либо, не являющимися участником указанного Соглашения.

В перечень информации включены три категории объектов учета:

1) под учётные лица; 2) предметы преступного посягательства, утраченные, изъятые и бесхозные вещи; 3) нераскрытые преступления.

**Учету в Международном информационном банке подлежат**

***Лица (трупы) следующих категорий:***

1) осужденные, которые в соответствии с нормативными актами сторон подлежат учета в МИБ СНГ;

2) задержанные за бродяжничество;

3) скрывшиеся от следствия и суда, уклоняющиеся от отбытия наказания, уплаты алиментов или разыскиваемые по искам предприятий, организаций и граждан;

4) без вести пропавшие;

5) неизвестные больные и дети;

6) неопознанные трупы;

7) особо опасные рецидивисты;

8) уголовные авторитеты, организаторы преступных групп;

9) преступники-гастролеры;

10) привлекавшийся к ответственности за совершение половых преступлений особой жестокости;

11) привлекавшийся к уголовной ответственности за хищение культурных, исторических ценностей, антиквариата, а также за изготовление, транспортировку, сбыт и хищение наркотиков в крупных размерах;

12) судимые за тяжкие преступления и имеющие характерные отличительные признаки.

***Предметы преступного посягательства, утраченные, изъятые и бесхозные вещи:***

1) нарезное огнестрельное оружие;

2) автомобили и бронетехника;

3) антиквариат;

4) радио-, видео-, фото-, и компьютерная техника, имеющая индивидуальные номера;

5) номерные ценные бумаги и документы, имеющие государственное обращение.

***Нераскрытые преступления:***

1) убийства и тяжкие телесные повреждения со смертельным исходом;

2) половые преступления, совершенные с особой жестокостью;

3) разбои, совершенные с применением огнестрельного оружия;

4) мошенничество в крупных размерах, фальшивомонетничество, подделка денег и ценных бумаг;

5) хищения огнестрельного оружия, крупных партий взрывчатых веществ, боеприпасов, наркотиков, отравляющих веществ, радиоактивных материалов и редкоземельных металлов, автотранспорта и бронетехники, из металлических хранилищ, из квартир, совершенных характерным способом; антиквариата, культурных и исторических ценностей; связанные с финансовыми, биржевыми и валютными аферами; связанные с похищением людей;

6) вымогательства, связанные с насилием.

Соглашения о взаимоотношениях министерств внутренних дел в сфере обмена информацией предусматривает взаимодействие в следующих сферах:

– борьбы с преступностью, представляющей общественную опасность для обоих государств, в том числе и с преступлениями на железнодорожном, водном и воздушном транспорте;

– розыска преступников и лиц, скрывающихся от следствия и суда, отбытия наказания, без вести пропавших, а также лиц, уклоняющихся от уплаты алиментов и гражданских исков;

– установления личности неизвестных трупов и личности неизвестных больных, а также детей;

– в области охраны общественного порядка, исполнения уголовных наказаний, паспортно-визовой и разрешительных систем, развития научных и информационных связей.

Применительно к тематике учебно-методического пособия, отметим следующие формы сотрудничества:

– обмен оперативно-розыскной, оперативно-справочной и криминалистической информацией о готовящихся или совершенных преступлениях и лицах, к ним причастных, а также архивной информацией и документами;

– осуществление взаимодействия (на основе своего национального законодательства) путем согласованного проведения оперативно-розыскных мероприятий и процессуальных действий;

– выполнение запросов по уголовным делам и делам оперативного учета, а также материалов об административных нарушениях;

– выдача предметов, относящихся к уголовному делу.

Мероприятия по дальнейшему совершенствованию обмена информацией между участниками соглашения включают в себя:

1. Поддерживать и совершенствовать информационный обмен;

2. Образовать из полномочных представителей рабочую группу, основными задачами которой являются; а) повседневная координация информационного обмена; б) подготовка проектов служебной документации; в) разработка проблем и направлений дальнейшего развития информационного, математического, технического обеспечения функционирования МИБ СНГ; г) разработка единых обязательных требований к реквизитам и форматам информационных носителей; д) разработка проектов

перспективных целевых программ по совершенствованию информационной технологии и созданию межгосударственной компьютерной системы криминалистической информации;

3. Реализовать взаимное ознакомление с правовыми и нормативно-методическими документами, которые регламентируют ведомственный обмен информацией в правоохранительных органах государств, формирование, ведение криминалистических учетов и архивной работы;

4. Осуществлять согласованную техническую политику в области компьютеризации органов внутренних дел, полиции, а также взаимодействовать при внедрении технических и программных средств.

В настоящее время электронный документ интерпретируют как любые сведения, хранимые, обрабатываемые и передаваемые с помощью автоматизированных информационных и телекоммуникационных систем. Финансирование работы МИБ СНГ осуществляется в долевом участии, «исходя из количества учетных материалов». Сумма взносов государств, которые пользуются информацией МИБ СНГ, включает абонентную плату за содержание в рабочем состоянии информационных массивов банка, которые ранее были накоплены каждой из сторон-учредителей, а также текущей оплатой. Под последним понимаются расходы, которые необходимы для обработки и размещения новых данных, поступающих в МИБ. Сумма доли расходов для каждого государства СНГ определяется исходя из фактических суммарных затрат, понесенных ГИЦ МВД России в связи с содержанием МИБ СНГ.

Рассмотренная практика обращения с электронными документами (доказательствами) на территории стран СНГ показывает их востребованность и необходимость дальнейшего законодательного регулирования правил их использования в уголовном судопроизводстве. Изложенное приводит к выводу, что для пригодности электронного документа в качестве документа-доказательства по уголовным делам он должен быть не только доступным и понятным для восприятия человеком, но и быть изготовленным человеком. Иными словами, технические, программные и программно-аппаратные средства в данном случае выступают лишь средством изготовления такого рода документов. Если же информация исходит от техники, то она может рассматриваться как вещественное доказательство (например, в случае создания документов автоматическими регистрирующими устройствами и системами: бортовым самописцем транспортного средства, банкоматом, системами видеонаблюдения и учета соединений абонентов в сети Интернет или электросвязи). Электронные доказательства включают в себя информацию, представленную в цифровой форме, которая способна устанавливать обстоятельства, подлежащие доказыванию по уголовному делу, хранящуюся на электронном носителе информации и (или) представленную независимо от него.

**Список использованных источников**


- Марфицин П.Г. Некоторые подходы к формулированию понятия «электронное доказательство» в уголовном судопроизводстве // Вестник Нижегородской академии МВД России. 2017. № 3 (39). С. 107.
- Зазулин, А. И. Участие специалиста и производство судебных экспертиз при исследовании компьютерной информации / А. И. Зазулин // Правопорядок: история, теория и практика. – 2018. – № 1 (16). С. 110 –114.
- Соглашение о взаимодействии Министерств внутренних дел независимых государств в сфере борьбы с преступностью (Алма-Ата, 24 апреля 1992 г.). https://base.garant.ru/10106333/#friends
- Соглашение МВД государств-членов СНГ «О взаимоотношениях министерств внутренних дел в сфере обмена информацией». https://online.zakon.kz/Document/?doc_id=1011148


**Обращение с электронными унифицированными носителями в рамках взаимодействия на пространстве СНГ**

*Резюме*


В начале исследования говорится, что в современной юридической науке широко обсуждаются вопросы, связанные с необходимостью правового регулирования отношений, связанных с цифровой реальностью и электронной информацией, содержащейся на электронных носителях. Автор считает, что электронное доказательство на сегодня это условное обозначение доказательства, содержание которого представлено в электронном виде. Утверждается, что систему хранения и обработки информации баз и банков данных планируется создать в качестве интегрированных, свести справочные и оперативно-розыскные учеты, которые существуют в МВД стран СНГ.

Заключается, что практика обращения с электронными документами (доказательствами) на территории стран СНГ показывает их востребованность и необходимость дальнейшего законодательного регулирования правил их использования в уголовном судопроизводстве.



**Нигяр Каландарли,**
**Начальник отдела организации профессиональной подготовки и оценки деятельности сотрудников прокуратуры Научно-Учебного Центра Генеральной Прокуратуры, советник юстиции, доктор философии по праву.**

# Şimali Kiprin Lefkoşa Rayon Məhkəməsi hakiminin müsahibəsi



**Dilşah Karayel xanım, "Azərbaycan Prokurorluğu" elmi-praktik jurnalı Azərbaycan Prokurorluğunun rəsmi nəşridir. Səfərinizlə bağlı təəssüratlarınızı oxucularımızla bölüşməyinizi xahiş edirik.**

İlk növbədə, belə keyfiyyətli beynəlxalq təşkilata Şimali Kipr Türk Respublikasını təmsil edərək qatılmaq imkanının mənə verilməsindən duyduğum qüruru həm öz adımdan, həm də tabe olduğum Şimali Kipr Türk Respublikası Ali Məhkəməsi adından ifadə etmək istərdim. Bu münasibətlə Türk Dövlətləri Təşkilatına və Azərbaycan Baş Prokurorluğuna xoş dəvətə görə, siz dəyərli jurnal səlahiyyətlilərinə bu müsahibə vasitəsilə səsimizi eşitdirmək imkanı verdiyiniz üçün təşəkkürümü bildirirəm.

Bakıya səfərim peşəkar bilik mübadiləsindən əlavə ortaq mədəni köklərimizi hiss etdiyim, səmimi əlaqələr qurduğum xüsusi bir təcrübə oldu. Azərbaycanın zəngin tarixi və müasir şəhərsalma anlayışını bir arada əks etdirən abu-hava və qonaqpərvərlik bu səfəri unudulmaz edib. Konfransın yüksək standartlara uyğun hazırlanması tədbirin səmərəliliyini artırmışdır. Bundan əlavə, türk dünyasının müxtəlif yerlərindən gələn hüquqşünaslarla bir araya gəlib ortaq dəyərlərimizi və problemlərə qarşı ortaq həll yollarını inkişaf etdirmək böyük bir qazanc oldu. Bu cür təşkilatçılığın peşəkar mənada güclü əlaqələr yaradacağına inanıram.

**Bakıda keçirilən Türk Ədliyyə Təlim Şəbəkəsinin fəaliyyəti çərçivəsində "Hüquqi münasibətlərində transmilli aspektlər: müasir çağırışlar və məqsədlər" adlı beynəlxalq konfransın ikitərəfli əlaqələrin inkişafı üçün təklif etdiyi yeni imkanlar nələrdir?**

Bu konfrans ölkələrimiz arasında hüquqi əməkdaşlığın möhkəmləndirilməsində mühüm bir irəliləyişdir. Türk Ədliyyə Təlim Şəbəkəsinin təklif etdiyi bu platforma ortaq hüquqi problemləri birgə nəzərdən keçirmək, təcrübə mübadiləsi və ortaq həll strategiyalarının inkişafı baxımından çox dəyərli idi. Xüsusilə transsərhəd cinayətkarlığa qarşı mübarizədə aktivlərin və qurbanların hüquqlarının müdafiəsi, ekoloji cinayətlər və kommersiya hüququ kimi aktual məsələlərdə birgə siyasətin hazırlanması üçün zəmin yaradılması baxımından böyük imkanlar təklif edir. Hesab edirəm ki, bu cür fəaliyyətlər ümumi






hüquq kurikulumlarının yaradılması, qarşılıqlı təlim proqramlarının təşkili, hüquq sistemlərinin daha da uyğun hala gətirilməsinə nəticə verə bilər.

**Hüquqşünasların nəzəri biliklərinin və peşəkar bacarıqlarının artırılması sahəsində təcrübənizi bizimlə bölüşə bilərsinizmi?**

Hüquqşünasların sadəcə olaraq mövcud hüquqi müddəaları bilməsi kifayət deyil; bu biliyini dəyişən sosial və texnoloji şəraitə uyğunlaşdıra bilməlidir. Odur ki, nəzəri bilikləri müasirləşdirmək və beynəlxalq inkişafları izləmək böyük əhəmiyyət kəsb edir. Belə beynəlxalq seminar və konfranslar təkcə biliklərin ötürülməsi baxımından deyil, həm də müxtəlif hüquq sistemlərinin təcrübələrini müşahidə etmək və müqayisəli düşünmə qabiliyyətini inkişaf etdirmək baxımından çox faydalıdır. Bundan əlavə, həmkarlar arasında dialoq, şəxsi inkişafın və peşəkar həmrəyliyin ən vacib elementlərindən biridir. Belə tədbirlərin təkcə bilik deyil, həm də dünyagörüşü qazandırdığının qənaətindəyəm.

**Ətraf mühitin mühafizəsi ölkəmizin prioritet fəaliyyət sahələrindən biridir. Ölkənizdə ekosistemin qorunması üçün hansı işlər görülür?**

Şimali Kipr Türk Cümhuriyyətində ətraf mühitin mühafizəsi təkcə ekoloji məsələ deyil, həm də hüquq sisteminin mühüm tərkib hissəsidir. 18/2012 saylı Ətraf Mühit Qanunu bu sahədəki ən əsas qanunvericiliyimizdir. Qanuna əsasən, ətraf mühitin çirklənməsi, tullantıların idarə olunması, dənizin və havanın çirklənməsi kimi məsələlərə ciddi sanksiyalar tətbiq edilir. Ətraf Mühitin Mühafizəsi Agentliyi də öz nəzarət səlahiyyəti ilə fəal rol oynayır. Həmçinin, Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi hesabatı tətbiqləri ilə böyük layihələrin təbiətə təsiri əvvəlcədən təhlil edilir və lazımi tədbirlər görülür. Bundan əlavə, cəmiyyətdə ekoloji maarifləndirmənin artırılmasına yönəlmiş təlimlər, kampaniyalar və vətəndaş cəmiyyəti layihələri də dəstəklənməktədir. Hüququn təkcə cəza vasitəsi kimi deyil, həm də qabaqlayıcı və maarifləndirmə vasitəsi kimi funksiya daşımalı olduğuna inanırıq.




**Ölkələrimiz arasında hüquq-mühafizə orqanlarının ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əmək-**

**daşlığının perspektivləri barədə fikirlərinizi eşitmək istərdik.**

Türk Dövlətləri Təşkilatı və bənzəri qurumlar, təkcə diplomatik və iqtisadi deyil, həm də hüquqi həmrəyliyin əsası olmalıdır. Hüquqşünaslar arasında bilik və təcrübə mübadiləsinin institusional bir qu-







ruluşa çevrilməsi, uzunmüddətli perspektivdə ortaq hüquq terminologiyasının inkişafına, qərar qəbul etmə proseslərində oxşar prinsiplərin mənimsənilməsinə və daha uyğun tətbiqinə imkan yaradır. KKTC olaraq biz bu prosesdə iştirak etmək, töhfə vermək və bu əməkdaşlığın fəal hissəsi olmaq istəyirik. Birgə təlim proqramları, qarşılıqlı hüquq seminarları və birgə akademik nəşrlər bu əməkdaşlığın konkret addımları ola bilər. Bu yolla biz həm regional, həm də qlobal miqyasda daha güclü hüquq birliyi qura bilərik.

**Hörmətli Dilşah Karayel, bu maraqlı müsahibə üçün jurnalımızın kollektivi adından sizə təşəkkür edirik. Azərbaycana xoş gəlmisiniz!**



# Qulluq keçmələrinə xitam verilmiş prokurorluq işçiləri və prokurorluğun veteranı təltif olunub





Prokuror köməkçisi Mirdamət Əliyev, dövlət ittihamçıları Vaqif Əsədov və Azad Orucovun qulluq keçmələrinə xitam verilməsi ilə əlaqədar 2025-ci il yanvarın 28-də Baş Prokurorluğun inzibati binasında görüş keçirilib.

Onlara Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən verilmiş Fəxri fərmanlar təqdim edilib.

Tədbirdə həmçinin, 70 illik yubileyinin tamam olması ilə əlaqədar prokurorluğun veteranı Fərman Rzayevə "Azərbaycan Prokurorluğunun 100 illiyi (1918–2018)" Azərbaycan Respublikasının yubiley medalı təqdim edilib.



Görüş zamanı təqaüdə çıxmış prokurorluq işçilərinin prokurorluq orqanlarında keçdikləri uzunmüddətli xidmət illərinə nəzər salınıb, prokurorluq orqanlarında səmərəli fəaliyyətləri qeyd edilib.

Veteranlar göstərilən diqqətə görə minnətdarlığını bildirərək tədbir iştirakçıları ilə xatirələrini bölüşüb.

Sonda xatirə fotosu çəkilib.

# Veteran prokurorluq işçiləri təbrik edilib





2025-ci il fevralın 19-da Azərbaycan Prokurorluğunun veteranı Mustafa Süleymanovun 75 və Kamo Fətəliyevin 85 illik yubileylərinin tamam olması ilə əlaqədar onlara Baş prokuror Kamran Əliyevin adından təbrik məktubu təqdim edilib.

Veteran prokurorlar onları yaddan çıxarmadıqlarına minnətdarlıq edərək göstərilən diqqətin sevindirici olduğunu bildiriblər.

Görüş zamanı veteran prokurorlar xatirələrini bölüşmüş, həmkarlarını yada




salmış, iş prosesində başlarına gələn maraqlı əhvalatlar barədə söhbət açmışlar. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən göstərilən qayğı nəticəsində prokurorluq işçiləri və veteranlarının maddi və sosial rifahının yüksəlməsini qeyd ediblər. Səmimi söhbət zamanı veteranlar bildirmişlər ki, son dövrlər prokurorluğun hüquq sistemindəki yerinin və rolunun daha da gücləndirilməsi onları çox sevindirir.

Söhbət zamanı dövlətçilik maraqlarının keşiyində hər zaman mətinliklə duran, şərəfli inkişaf yolu keçmiş, prokurorluğun adını daim uca tutan veteranlarımızın ömür yolunun gənc nəsil prokurorluq işçiləri üçün örnək olması vurğulanıb.

***

Azərbaycan Prokurorluğunun veteranları Kərimağa Tağıyev və Sədirxan Sədirxanovun 70 illik yubileylərinin tamam olması ilə əlaqədar 2025-ci il martın 19-u və 25-də Baş prokuror Kamran Əliyevin adından təbrik məktubları və hədiyyələr təqdim edilib.






Görüş zamanı veteranlar prokurorluq orqanlarındakı xatirələrini bölüşərək Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən göstərilən qayğı nəticəsində prokurorluq orqanlarının maddi-texniki bazasının möhkəmlənməsini, prokurorluq işçilərinin, onun veteranlarının maddi və sosial rifahının yüksəlməsini qeyd ediblər. Bildiriblər ki, prokurorluq orqanlarının təkmilləşdirilməsi, prokurorluq işçilərinin əməyinin fərqləndirilməsi, yeni informasiya texnologiyalarının tətbiqinə başlanılması, əməkdaşların sosial-maddi vəziyyətinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılması onları çox sevindirir.

Prokurorluqda şəffaflığın təmin edilməsi, elmi-texniki nailiyyətlərin tətbiqi, maddi-texniki bazanın və əməkdaşların sosial müdafiəsinin gücləndirilməsi, işin səmərəliliyinin artırılması və çatışmazlıqların təxirə salınmadan aradan qaldırılması istiqamətində mütəmadi islahat tədbirləri həyata keçirilməsinin şahidi oluruq. İndi prokurorluqda dövlətçiliyə sadiq, qanunun aliliyinə hörmət edən, sağlam mənəviyyata, geniş dünyagörüşünə, yüksək nəzəri biliklərə malik yeni nəsil prokurorluq əməkdaşları çalışır. Kadr tərkibi gənc mütəxəssislər hesabına komplektləşdirilir.

Söhbət zamanı dövlətçilik maraqlarının keşiyində hər zaman mətinliklə duran, şərəfli inkişaf yolu keçmiş, prokurorluğun adını daim uca tutan veteranlarımızın ömür yolunun gənc nəsil prokurorluq işçiləri üçün örnək olması vurğulanıb.

# Prokurorluğun veteranı Fazil Hüseynovun müsahibəsi



***Hüseynov Fazil Ağabala oğlu 1973-cü ildə Bakı Dövlət Universitetinin Hüquq fakültəsini bitirmişdir. Prokurorluq orqanlarında iş fəaliyyətinə 1976-cı ildən başlayaraq, Bakı şəhəri 26 Bakı komissarı (indiki Səbail) rayon prokurorluğunun stajoru, 1977–1985-ci illərdə Kirovobad (indiki Gəncə) şəhər prokurorluğunun baş müstəntiqi, 1985–1986-cı illərdə şəhər prokurorunun müavini olmuşdur. Fazil Hüseynov 1986–1993-cü illər ərzində Balakən rayon prokuroru, 1993–1996-cı illərdə Cəlilabad rayon prokuroru, 1996– 2000-ci illərdə Gəncə nəqliyyat prokuroru vəzifələrində çalışmışdır. 2001–2007-ci illər ərzində fəaliyyətini Gəncə şəhər prokurorunun böyük köməkçisi vəzifəsində davam etdirərək, 12.03.2007-ci il tarixli əmrlə prokurorluqda qulluqda olmanın yaş həddinə çatdığına görə qulluq keçməsinə xitam verilmişdir.***

***Fazil Hüseynov işlədiyi müddət ərzində xidməti vəzifələrini nümunəvi icra etdiyi üçün, habelə qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsində peşəkarlıq göstərdiyinə görə pul mükafatı, vaxtından əvvəl növbəti xüsusi rütbə və Fəxri fərmanla həvəsləndirilmiş, baş ədliyyə müşaviri rütbəsində olmaqla təqaüdçüdür.***

**Fazil müəllim, prokurorluqda işə başladığınız ilk günü necə xatırlayırsınız və peşəkar işçi kimi formalaşmağınızda hansı həmkarınızın rolunu qeyd etmək istərdiniz?**

İlk öncə məndən müsahibə aldığınıza görə öz təşəkkürümü və dərin minnətdarlığımı redaksiya heyətinə və Azərbaycan Respublikasının Baş prokuroru cənab Kamran Əliyevə bildirirəm. Məndən alınmış bu müsahibə mənim timsalımda bütün təqaüddə olan prokurorluq orqanlarının əməkdaşlarına göstərilən diqqətin və qayğının bariz nümunəsidir. Eyni zamanda biz prokurorluq orqanlarının veteranları unudulmadığımız üçün buna çox sevinirik və fərəh hissi duyuruq.

Hər bir insanın həyat hekayəsi olur. Bu həyat hekayəsinin əsasını insanın arzu və istəkləri təşkil edir. Mən hələ gənc ikən hüquqşünas olmaq arzusunda olmuşam və qanunların keşiyində durmaq, haqqı-ədaləti bərpa etmək arzuları ilə yaşamışam. Hər bir prokurorluq əməkdaşı kimi məndə gənc mütəxəssis olaraq fəaliyyətə başladığım zaman praktiki olaraq çox saylı çətinliklərlə üzləşmişəm. Belə hallarda böyük praktik və həyat təcrübəsi olan prokurorluq əməkdaşları həmişə mənə dəstək olmaqla bərabər yaxından köməklik göstərmişlər. Mənim də



praktiki fəaliyyətə başladığım illərdən bu günə kimi həmişə yadımda qalan özümə ustad olaraq qəbul etdiyim prokurorluq orqanının fəxri əməkdaşı və veteranı İkram Kərimov və Eyyub Fətəliyev olmuşdur.




**Balakən rayon prokuroru işlədiyiniz barədə, eləcə də həmin dövr ölkəmizdə baş vermiş siyasi dəyişikliklər haqqında xatirələrinizi bizimlə bölüşə bilərsinizmi?**

1986–1993-cü illərdə rəhbərlik mənə böyük etimad göstərərək Balakən rayonuna prokuror vəzifəsinə təyin etdi. 1988-ci ilin sonu 1990-cı illərin əvvəllərində bütövlükdə SSRİ məkanında, o cümlədən Azərbaycan Respublikasında ictimai-siyasi vəziyyət son dərəcə ağır idi. Artıq Qarabağ problemi başlamışdı. Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiası bütövlükdə SSRİ məkanında, o cümlədən Azərbaycanda idarəetmə sistemində boşluq yaratmışdı. Respublikamızda hərcmərclik, özbaşınalıq, silahlı qarşıdurmalar baş alıb gedirdi. Belə vəziyyət Balakən rayonundan da yan keçməmişdir. Bu rayonda ictimai-siyasi vəziyyət ağır idi. Mən də rayonun prokuroru kimi şəxsi heyət və digər hüquq-mühafizə orqanlarının əməkdaşları ilə birgə rayonda ictimai-siyasi sabitliyin təmin olunması üçün bütün qanuni imkanlardan istifadə edərək buna səy göstərdim. Lakin ölkədə gedən siyasi proseslər dərinləşdiyi və qaçılmaz olduğu üçün bunun qarşısını almaq qeyri-mümkün idi. Yeni demokratik qüvvələr hakimiyyətin devrilməsi üçün bütün qeyri-qanuni vasitələrə əl atırdılar. Ölkədə, o cümlədən Balakən rayonunda idarə olunmayan bir vəziyyət yaranmışdı.

**Cəlilabad rayon prokuroru olduğunuz zaman ən yadda qalan cinayət işi haqqında nə deyə bilərsiniz?**

Cəlilabad rayonunda prokuror olduğum dövrdə ali məqsədim qanunçuluğun təmin olunması, vətəndaş və insan hüquqlarının və azadlıqlarının qorunması və cinayətkarlığa qarşı mübarizəni təşkil etməkdən ibarət olmuşdur. Eyni zamanda baş vermiş cinayət hadisələrini vaxtında isti izlə açılması, cinayətkarların layiqli cəza alması mənim qarşımda bir prokuror kimi ümdə vəzifə olmuşdur. 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə gələn Ulu Öndərimiz Heydər Əlirza oğlu Əliyev artıq ölkədə bu istiqamətə xüsusi diqqət yetirərək ictimai-siyasi sabitliyin təmin olunması üçün verdiyi direktiv göstərişləri mən də bir prokuror kimi dönmədən yerinə yetirirdim. Uzun illər keçdiyi üçün konkret olaraq hərhansı bir cinayət işinin açılmasından söhbət açmaq çətindir.



**Gəncə nəqliyyat prokurorluğunda işlədiyiniz dövrü necə xatırlayırsınız və həmin zaman ölkənin nəqliyyat sahəsində baş vermiş rezonanslı hadisələr hansılar olmuşdur?**

Gəncə nəqliyyat prokuroru işlədiyim dövr ölkəmizin müstəqillik dövrünə təsadüf edir. Nəqliyyat prokuroru kimi qarşımda duran nəqliyyatda mövcud olan problemlərin operativ həll olunmasına nail olmaq, dəmiryol nəqliyyatında sərnişinlərin, yüklərin təhlükəsiz daşınmasına nəzarəti gücləndirmək və eyni zamanda dəmiryol nəqliyyatında hər hansı bir diversiya aktlarının qarşısının alınması üçün bütün qanuni vasitələrdən istifadə etmişəm.



**Təqaüdə çıxdığınız dövrdə əmək və ya digər fəaliyyətlə məşğul olmusunuzmu?**

Təqaüdə çıxdığım dövr ərzində hər hansı fəaliyyətlə məşğul olmamışam, dövlət işində işləməmişəm. Buna baxmayaraq, ölkənin ictimai-siyasi həyatında iştirak etmişəm. Cənab Prezidentimiz İlham Əliyevin apardığı daxili və xarici siyasətin təbliğ olunmasında bir ziyalı və prokurorluğun veteranı kimi öndə olmuşam. Bundan sonra da öz vətəndaşlıq mövqeyimdən çıxış edib ölkənin ictimai-siyasi həyatında aktiv iştirak edəcəyəm.

**Son illər ərzində prokurorluğun veteranlarının təşkilatlanmasına, onların müxtəlif ictimai tədbirlərə cəlb edilməsinə necə yanaşırsınız?**

Son illərdə prokurorluq orqanlarının veteranlarının təşkilatlanmasına rəhbərlik tərəfindən böyük diqqət yetirilir və qayğı göstərilir. Düşünürəm ki, bu təşkilatın bundan sonra da formalaşmasına və təkmilləşməsinə böyük ehtiyac vardır. Hesab edirəm ki, bu istiqamətdə dünya ölkələrinin qabaqcıl təcrübəsi öyrənilib tətbiq olunmalıdır ki, veteranlar da üzərlərinə düşən vəzifələrin daha səmərəli, məsuliyyətlə yerinə yetirməsinə nail olsunlar.

**Təcrübəli prokuror işçisi kimi gənc həmkarlarınıza hansı tövsiyələri vermək istərdiniz?**

Gənc prokurorluq əməkdaşlarına tövsiyəm budur ki, onlar öz peşələrinə, dövlətə, dövlətçiliyə, xalqa, ölkə rəhbərinə sədaqətlə xidmət etsin, vicdanlarının hökmü ilə fəaliyyət göstərsinlər. Hüquqi dövlət quruculuğu prosesində vətəndaş cəmiyyətinin yaranmasında və formalaşmasında aktiv iştirak etsinlər. Qanunların aliliyinin təmin olunması, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması ədalət prinsipi əsasında həyata keçirsinlər və çalışsınlar ki, özlərinin timsalında prokurorluq orqanlarına olan inam, etibar xalq tərəfindən həmişə yüksəklərdə olsun.



**Fazil müəllim, bir daha bu maraqlı və geniş müsahibəyə görə jurnalın redaksiya heyəti adından Sizə təşəkkürümüzü bildiririk.**

**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

# Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "İnsan alverinə qarşı mübarizə haqqında" və "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 6-cı, 14-cü və 17-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Ailə Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 126 (Cild I); 2024, № 5 (l kitab), maddə 484, № 6 (I kitab), maddə 637, № 7, maddələr 763, 765, 769, 772) aşağıdakı məzmunda 136.4-cü maddə əlavə edilsin:

**"136.4.** Uşaqlar (himayədar ailəyə verilmiş uşaqlar, habelə bu Məcəlləyə uyğun olaraq yerləşdiriləndək – valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar istisna olmaqla) üzərində qəyyumluq və himayəçilik orqanının funksiyalarını uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar həyata keçirir.".

**Maddə 2.** Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251 (Cild I); 2024, № 1, maddələr 8, 18, № 3, maddə 250, № 7, maddə 772, № 11, maddə 1189) 89.3-cü maddəsində "yetkinlik yaşına çatmayanların işləri və" sözləri "uşaq" sözü ilə əvəz edilsin.

**Maddə 3.** Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (II kitab), maddə 585 (Cild I); 2024, № 1, maddə 4, № 4, maddələr 362, 365, 368, № 6 (I kitab), maddə 631) aşağıdakı dəyişikliklər edilsin:

**3.1.** 435-1-ci maddə üzrə:

**3.1.1.** 435-1.1-ci, 435-1.3.2-ci, 435-1.7.2-ci, 435-1.7.3-cü, 435-1.9.2-ci və 435-1.12.2-ci maddələrdə "yetkinlik yaşına çatmayanların işləri və" sözləri "uşaq" sözü ilə əvəz edilsin;

**3.1.2.** 435-1.2-ci maddədə "Yetkinlik yaşına çatmayanların işləri və" sözləri "Uşaq" sözü ilə əvəz edilsin;

**3.2.** 435-2.1-ci maddənin birinci abzasında, 435-2.2-ci, 513.1-ci, 517.2-ci və 517.3-cü maddələrdə "yetkinlik yaşına çatmayanların işləri və" sözləri "uşaq" sözü ilə əvəz edilsin.

**Maddə 4.** "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 681 (Cild I); 2024, № 1, maddə 3) aşağıdakı dəyişikliklər edilsin:

**4.1.** 4.1-ci, 6.0.3-cü, 16.2-ci, 20.1-ci maddələrdə, 20.2-ci maddənin birinci cümləsində, 21.0-cı maddənin birinci abzasının birinci cümləsində, 23.2.2-ci və 24.0.2-ci maddələrdə "yetkinlik yaşına çatmayanların işləri və" sözləri "uşaq" sözü ilə əvəz edilsin;

**4.2.** 9-cu maddə üzrə:

**4.2.1.** adında və 9.0-cı maddənin birinci abzasında "Yetkinlik yaşına çatmayanların işləri və" sözləri "Uşaq" sözü ilə əvəz edilsin;

**4.2.2.** 9.0.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"9.0.2.** təhsil müəssisələrində, habelə mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, yetkinlik yaşına çatmayanların işlədikləri müəssisələrdə, təşkilatlarda və idarələrdə onlar arasında tərbiyə işinin təşkilinin monitorinqini;";

**4.3.** 12.2.2-ci və 14.0.1-ci maddələrdə "əsas" sözü "orta" sözü ilə əvəz edilsin;

**4.4.** 13-cü maddə üzrə:

**4.4.1.** 13.1-ci maddənin birinci abzasında "Yetkinlik yaşına çatmayanların işləri və" sözləri "Uşaq" sözü ilə əvəz edilsin;

**4.4.2.** 13.7.3-cü maddədə və 13.8-ci maddənin birinci abzasında "yetkinlik yaşına çatmayanların işləri və" sözləri "uşaq" sözü ilə əvəz edilsin.

**Maddə 5.** "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 694 (Cild I) 14.2-ci maddəsinin ikinci cümləsində, 16.2-ci maddəsinin birinci və ikinci cümlələrində və 16.3-cü maddəsinin üçüncü cümləsində "Yetkinlik yaşına çatmayanların işləri və" sözləri "uşaq" sözü ilə əvəz edilsin.

**Maddə 6.** "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 10, maddə 836 (Cild I); 2024, № 4, maddə 361, № 5 (l kitab), maddə 484) 6.2-ci maddəsində "yetkinlik yaşına çatmayanların işləri və" sözləri "uşaq" sözü ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 27 dekabr 2024-cü il
№ 114-VIIQD

**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251 (Cild I); 2024, № 1, maddələr 8, 18, № 3, maddə 250, № 7, maddə 772, № 11, maddə 1189) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 99-4.5-ci maddədə "200-1, 200-2" rəqəmləri "200 – 200-3" rəqəmləri ilə əvəz edilsin;

**1.2.** 189-1.3-cü və 189-1.4-cü maddələrin dispozisiyasında "Təbii" sözü "Ötürücü və ya paylayıcı sistem operatorunun, təbii" sözləri ilə əvəz edilsin;

**1.3.** 190-cı maddənin "Qeyd" hissəsinə "200-2.1," rəqəmlərindən sonra "200-3.1," rəqəmləri, "200-2.3," rəqəmlərindən sonra "200-3.2.3," rəqəmləri əlavə edilsin;

**1.4.** 200-cü maddənin "Qeyd" hissəsində "üç yüz manatdan yuxarı, lakin üç min manatdan artıq olmayan məbləğ, "külli miqdar" dedikdə üç" sözləri "beş min manatdan yuxarı, lakin otuz min manatdan artıq olmayan məbləğ, "külli miqdar" dedikdə otuz" sözləri ilə əvəz edilsin;

**1.5.** 200-2-ci maddə üzrə:

**1.5.1.** adında, 200-2.1-ci və 200-2.2-ci maddələrin dispozisiyasında "yeyinti" sözü "qida" sözü ilə əvəz edilsin;

**1.5.2.** aşağıdakı məzmunda "Qeyd" hissəsi əlavə edilsin:

**"Qeyd:** "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq qeydiyyata alınan genetik modifikasiya olunmuş orqanizmlərə bu maddənin qüvvəsi şamil edilmir.";

**1.6.** aşağıdakı məzmunda 200-3-cü maddə əlavə edilsin:

**"Maddə 200-3. Təhlükəli qida məhsullarının istehsalı, satışı və ya satış məqsədilə saxlanması**

**200-3.1.** Bilə-bilə insan həyatı və sağlamlığı üçün təhlükəli qida məhsullarının istehsalı, satışı və ya satış məqsədilə saxlanması, bu əməllər xeyli miqdarda törədildikdə –

iki ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə on min manatdan on beş min manatadək miqdarda cərimə və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**200-3.2.** Eyni əməllər:

**200-3.2.1.** təkrar törədildikdə;

**200-3.2.2.** qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə;

**200-3.2.3.** külli miqdarda törədildikdə –

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə bir ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ildən üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**200-3.3.** Bu Məcəllənin 200-3.1-ci və ya 200-3.2-ci maddələrində nəzərdə tutulmuş əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulmasına səbəb olduqda –

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki ildən dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**200-3.4.** Bu Məcəllənin 200-3.1-ci və ya 200-3.2-ci maddələrində nəzərdə tutulmuş əməllər ehtiyatsızlıqdan insan ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda –

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə dörd ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**200-3.5.** Bu Məcəllənin 200-3.1-ci və ya 200-3.2-ci maddələrində nəzərdə tutulmuş əməllər ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda –

üç ilədək müddətə müəyyən vəzifə tutmaq və ya müəyyən fəaliyyətlə məşğul olmaq hüququndan məhrum edilməklə beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.".

**Maddə 2.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202 (Cild I); 2024, № 1, maddə 18, № 2, maddə 135, № 4, maddə 362, № 5 (I kitab), maddələr 487, 489, 492, 503, № 7, maddələr 750, 768, 771, 772; Azərbaycan Respublikasının 2024-cü il 22 oktyabr tarixli 56-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

**2.1.** 16.2-ci maddədə "yetkinlik yaşına çatmayanların işləri və" sözləri "uşaq" sözü ilə, "Yetkinlik yaşına çatmayanların işləri və" sözləri "Uşaq" sözü ilə əvəz edilsin və həmin maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Müvafiq dövlət orqanları həmin inzibati xətalar haqqında işləri inzibati xətanın aşkar edildiyi vaxtdan 2 iş günü müddətində uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalara göndərirlər.";

**2.2.** 38.4-cü maddədə "yetkinlik yaşına çatmayanların işləri və" sözləri "uşaq" sözü ilə, "Yetkinlik yaşına çatmayanların işləri və" sözləri "Uşaq" sözü ilə əvəz edilsin;

**2.3.** 40.0.2-ci və 114.2.4-cü maddələrdə "yetkinlik yaşına çatmayanların işləri və" sözləri "uşaq" sözü ilə əvəz edilsin;

**2.4.** 41-ci maddə üzrə:

**2.4.1.** adında "Yetkinlik yaşına çatmayanların işləri və" sözləri "Uşaq" sözü ilə əvəz edilsin;

**2.4.2.** mətnində "yetkinlik yaşına çatmayanların

işləri və" sözləri "uşaq" sözü ilə, "Yetkinlik yaşına çatmayanların işləri və" sözləri "Uşaq" sözü ilə əvəz edilsin;

**2.5.** 43.1-ci maddədən "394-1," rəqəmləri çıxarılsın və həmin maddəyə "602-3," rəqəmlərindən sonra "602-4," rəqəmləri əlavə edilsin;

**2.6.** 81-1.1-ci, 127-3-cü maddələrdən və 127-4.1-ci maddənin birinci cümləsindən ", 540.1-ci" sözləri çıxarılsın;

**2.7.** 102.1-ci maddəyə "mühafizəsi," sözündən sonra "qida təhlükəsizliyi," sözləri əlavə edilsin və həmin maddədə "və 602-3-cü" sözləri ", 602-3-cü və 602-4-cü" sözləri ilə əvəz edilsin;

**2.8.** 116.1-ci maddəyə "209," rəqəmlərindən sonra "220.1, 220.2," rəqəmləri əlavə edilsin;

**2.9.** 192.7-ci maddənin dispozisiyasında "İşəgötürən" sözü "Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş hallarda işəgötürən" sözləri ilə əvəz edilsin;

**2.10.** 220-ci maddə aşağıdakı redaksiyada verilsin:

"**Maddə 220. Qida təhlükəsizliyi haqqında qanunvericiliyin pozulması**

**220.1.** "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan qida zənciri obyektlərinin təsdiq olunmadan qida sahəsində fəaliyyət göstərməsinə görə –

fiziki şəxslər iki yüz manatdan üç yüz manatadək məbləğdə, vəzifəli şəxslər səkkiz yüz manatdan min manatadək məbləğdə, hüquqi şəxslər iki min manatdan iki min beş yüz manatadək məbləğdə cərimə edilir.

**220.2.** "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan qida zənciri obyektlərinin və subyektlərinin, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların istehsalı və emalını həyata keçirən obyektlərin qeydiyyata alınmadan qida sahəsində fəaliyyət göstərməsinə görə –

fiziki şəxslər iki yüz manatdan üç yüz manatadək məbləğdə, vəzifəli şəxslər səkkiz yüz manatdan min manatadək məbləğdə, hüquqi şəxslər iki min manatdan iki min beş yüz manatadək məbləğdə cərimə edilir.

**220.3.** Qida zənciri subyektləri tərəfindən qida və (və ya) yem məhsullarının ilkin istehsalı, istehsalı, emalı, dövriyyəsi, utilizasiyası və məhv edilməsi proseslərinin həyata keçirilməsi zamanı "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müəyyən edilmiş tələblərə əməl edilməməsinə görə –

fiziki şəxslər yüz manatdan yüz əlli manatadək məbləğdə, vəzifəli şəxslər dörd yüz manatdan altı yüz manatadək məbləğdə, hüquqi şəxslər min manatdan min beş yüz manatadək məbləğdə cərimə edilir.

**220.4.** "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq qeydiyyatı tələb olunan, lakin qeydiyyatdan keçməmiş məhsulların istehsalına, emalına, satış məqsədilə saxlanmasına, satışına və ya başqa cür özgəninkiləşdirilməsinə görə –

fiziki şəxslər iki yüz manatdan üç yüz manatadək məbləğdə, vəzifəli şəxslər səkkiz yüz manatdan min manatadək məbləğdə, hüquqi şəxslər iki min manatdan iki min beş yüz manatadək məbləğdə cərimə edilir.

**220.5.** Qida məhsullarının ilkin istehsalı, istehsalı, emalı, dövriyyəsi və utilizasiyası proseslərinə ilkin və dövri tibbi müayinələrdən keçməmiş, yaxud müxtəlif yoluxucu xəstəliklərin daşıyıcıları olan və ya infeksion xəstəliklərə yoluxmuş əməkdaşların buraxılmasına görə –

fiziki şəxslər iki yüz manatdan üç yüz manatadək məbləğdə, vəzifəli şəxslər səkkiz yüz manatdan min manatadək məbləğdə, hüquqi şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə cərimə edilir.

**220.6.** İdxal olunmuş məhsulların idxal sağlamlıq aktı olmadan satış məqsədilə saxlanmasına, satışına və ya başqa cür özgəninkiləşdirilməsinə görə –

fiziki şəxslər üç yüz əlli manatdan beş yüz manatadək məbləğdə, vəzifəli şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə, hüquqi şəxslər üç min manatdan beş min manatadək məbləğdə cərimə edilir.

**220.7.** Siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən yem üçün istifadəsi nəzərdə tutulan genetik modifikasiya olunmuş orqanizmlərin, habelə yalnız genetik modifikasiya olunmuş orqanizmlərdən ibarət olan və ya tərkibində genetik modifikasiya olunmuş orqanizmlər olan və ya tərkibində genetik modifikasiya olunmuş orqanizmlərdən əldə edilmiş məhsul olan yem məhsullarının ilkin istehsalına görə –

fiziki şəxslər iki yüz manatdan üç yüz manatadək məbləğdə, vəzifəli şəxslər səkkiz yüz manatdan min manatadək məbləğdə, hüquqi şəxslər iki min manatdan iki min beş yüz manatadək məbləğdə cərimə edilir.

**220.8.** "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müəyyən edilmiş tələblərə cavab verməyən qida və yem məhsullarının, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların istehsalına, emalına, satış məqsədilə saxlanmasına, satışına və ya başqa cür özgəninkiləşdirilməsinə görə –

fiziki şəxslər yüz əlli manatdan iki yüz manatadək məbləğdə, vəzifəli şəxslər altı yüz manatdan səkkiz yüz manatadək məbləğdə, hüquqi şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə cərimə edilir.

**220.9.** Təhlükəli qida və yem məhsullarının ilkin istehsalına, istehsalına, emalına, satış məqsədilə saxlanmasına, satışına və ya başqa cür özgəninkiləşdirilməsinə görə –

fiziki şəxslər üç yüz əlli manatdan beş yüz manatadək məbləğdə, vəzifəli şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə, hüquqi şəxslər dörd min manatdan altı min manatadək məbləğdə cərimə edilir.

**220.10.** Qida və yem məhsulları, habelə qida məhsulları ilə təmasda olan material və məmulatlar Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilməzdən əvvəl müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş formada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) elektron qaydada bildirişin göndərilməməsinə görə –

vəzifəli şəxslər səkkiz yüz manat məbləğində, hüquqi şəxslər min beş yüz manat məbləğində cərimə edilir.";

**2.11.** 221-ci maddə üzrə:

**2.11.1.** aşağıdakı məzmunda 221.1-1-ci və 221.3-1-ci maddələr əlavə edilsin:

**"221.1-1.** Tibb müəssisələri üçün qablaşdırılmış dərman vasitələrinin pərakəndə satışına görə –

inzibati xətanın bilavasitə obyekti olan dərman vasitələri müsadirə edilməklə vəzifəli şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə, hüquqi şəxslər beş min manatdan yeddi min manatadək məbləğdə cərimə edilir.";

**"221.3-1.** Bu Məcəllənin 221.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xəta nəticəsində ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına yüngül zərərin vurulmasına görə –

inzibati xətanın bilavasitə obyekti olan dərman vasitələri müsadirə edilməklə vəzifəli şəxslər iki min manatdan iki min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər yeddi min manatdan doqquz min manatadək məbləğdə cərimə edilir.";

**2.11.2.** 221.3-cü maddənin dispozisiyasında "fərqli" sözü "yuxarı" sözü ilə əvəz edilsin;

**2.11.3.** 221.4-cü maddə üzrə:

**2.11.3.1.** dispozisiyada "maddəsində nəzərdə tutulmuş xətanın" sözləri ", 221.1-1-ci və 221.3-1-ci maddələrində nəzərdə tutulmuş xətaların" sözləri ilə əvəz edilsin;

**2.11.3.2.** sanksiyada "manatdan iki min beş yüz" sözləri "beş yüz manatdan üç min" sözləri ilə, "yeddi min manatdan doqquz" sözləri "doqquz min manatdan on bir" sözləri ilə əvəz edilsin;

**2.11.4.** 221.8-ci maddənin dispozisiyasında "dərman vasitəsi deyildir" sözləri "DƏRMAN VASİTƏSİ DEYİLDİR" sözləri ilə, "fəallığa malik qida əlavələrinin" sözləri "aktiv qida məhsullarının" sözləri ilə əvəz edilsin;

**2.11.5.** 221.9-cu maddə üzrə:

**2.11.5.1.** dispozisiyada "fəallığa malik qida əlavələrinin həkim reseptinə" sözləri "aktiv qida məhsullarının reseptə" sözləri ilə əvəz edilsin;

**2.11.5.2.** sanksiyada "əlli manatdan yüz" sözləri "yüz manatdan yüz əlli" sözləri ilə, "yüz əlli manatdan iki" sözləri "üç yüz manatdan dörd" sözləri ilə əvəz edilsin;

**2.11.6.** aşağıdakı məzmunda 221.12 – 221.14-cü maddələr əlavə edilsin:

**"221.12.** "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan hal istisna olmaqla, dərman vasitələrinin dövlət reyestrinə daxil edilməyən dərman vasitəsinin reseptə yazılmasına görə –

vəzifəli şəxslər yüz manatdan yüz əlli manatadək məbləğdə, hüquqi şəxslər üç yüz manatdan dörd yüz manatadək məbləğdə cərimə edilir.

**221.13.** Dərman vasitəsinin Azərbaycan dilində olan istifadə təlimatı qablaşdırmanın içərisində və ya qablaşdırmanın yanında dərman vasitəsini müşayiət etmədiyi təqdirdə, həmin dərman vasitəsinin dövlət qeydiyyatı haqqında vəsiqənin sahibi tərəfindən aptek təşkilatının Azərbaycan dilində olan istifadə təlimatı ilə təmin edilməməsinə görə –

vəzifəli şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə, hüquqi şəxslər beş min manatdan yeddi min manatadək məbləğdə cərimə edilir.

**221.14.** Dərman vasitəsinin Azərbaycan dilində olan istifadə təlimatı qablaşdırmanın içərisində və ya qablaşdırmanın yanında dərman vasitəsini müşayiət etmədiyi təqdirdə, istehlakçının tələbi əsasında aptek təşkilatı tərəfindən kağız formasında çap edilərək ona təqdim edilməməsinə görə –

əlli manat məbləğində cərimə edilir.";

**2.12.** 280-ci maddənin dispozisiyasında "Enerji" sözü "Ötürücü və ya paylayıcı sistem operatorunun, enerji" sözləri ilə əvəz edilsin;

**2.13.** 286.2-ci maddənin dispozisiyasında "Elmi" sözü "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq qeydiyyata alınan genetik modifikasiya olunmuş orqanizmlər, habelə elmi" sözləri ilə əvəz edilsin;

**2.14.** aşağıdakı məzmunda 352-1-ci maddə əlavə edilsin:

**"Maddə 352-1. Ödənişli avtomagistrallardan istifadə qaydalarının pozulması**

**352-1.1.** Ödəniş məntəqələrindən keçmədən kənar yollardan (yerlərdən) istifadə etməklə, habelə ödənişsiz gediş hüququna malik istifadəçilər üçün müəyyən edilmiş xidməti keçid zolağından belə hüququ olmayan istifadəçilər tərəfindən ödənişli avtomagistrallara daxil olmağa və ya oradan çıxmağa görə –

yüz əlli manat məbləğində cərimə edilir.

**352-1.2.** Buraxılış məntəqələrinin normal işinə mane olmağa, o cümlədən buraxılış məntəqələrində nəqliyyat vasitələrinin keçidini bağlamağa, gediş üçün maneəni özbaşına götürməyə (şlaqbaumu açmağa) görə –

iki yüz manat məbləğində cərimə edilir.";

**2.15.** 394-1-ci maddə ləğv edilsin;

**2.16.** 428.4-cü maddənin dispozisiyasında "Həkim resepti" sözləri "Resept" sözü ilə, "fəallığa malik qida əlavələrinin dərman vasitəsi olmadığı, həkim resepti" sözləri "aktiv qida məhsullarının dərman vasitəsi olmadığı və müalicəvi xüsusiyyətlərə malik olmadığı haqqında məlumat verilmədən, "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq qeydiyyata alınmasını təsdiq edən qeydiyyat nömrəsi göstərilmədən, resept" sözləri ilə əvəz edilsin;

**2.17.** aşağıdakı məzmunda 428-1.6-cı maddə əlavə edilsin:

**"428-1.6.** Turizm və rekreasiya zonalarının ərazisində "Turizm haqqında" Azərbaycan Respublikasının Qanunu ilə qadağan edilmiş fəaliyyətlə məşğul olmağa görə –

fiziki şəxslər dörd yüz manatdan altı yüz manatadək məbləğdə, vəzifəli şəxslər iki min manatdan iki min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər üç min manatdan dörd min manatadək məbləğdə cərimə edilir.";

**2.18.** 447-ci maddə üzrə:

**2.18.1.** 447.0.3-cü maddəyə "göstərilməsinə" sözündən sonra "(bu Məcəllənin 220.3-cü, 220.8-ci və 220.9-cu maddələrində nəzərdə tutulmuş hallar istisna olmaqla)" sözləri əlavə edilsin;

**2.18.2.** 447.0.5-ci maddəyə "görülməsinə" sözündən sonra "(bu Məcəllənin 220.9-cu maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla)" sözləri əlavə edilsin;

**2.18.3.** "Qeyd" hissəsində "üç yüz" sözləri "beş min" sözləri ilə əvəz edilsin;

**2.19.** 449-cu maddə üzrə:

**2.19.1.** adında, dispozisiyada və sanksiyada "yeyinti" sözü "qida" sözü ilə əvəz edilsin;

**2.19.2.** "Qeyd" hissəsinin mətni 1-ci bənd hesab edilsin və həmin hissəyə aşağıdakı məzmunda 2-ci bənd əlavə edilsin:

**"2.** "Qida təhlükəsizliyi haqqında" Azərbaycan

Respublikasının Qanununa uyğun olaraq qeydiyyata alınan genetik modifikasiya olunmuş orqanizmlərə bu maddənin qüvvəsi şamil edilmir.";

**2.20.** 452-ci maddə üzrə:

**2.20.1.** 452.2-ci maddənin dispozisiyasına "ləvazimatları," sözündən sonra "pərakəndə satış üçün nəzərdə tutulan əczaçılıq məhsulları (pambıq, tənzif, bint, sarğı materialları, leykoplastrlar və digər analoji məmulatlar)," sözləri əlavə edilsin və həmin maddənin dispozisiyasında "uşaq yeməkləri, müalicəvi mineral sular, bioloji fəallığa malik qida əlavələri" sözləri "xüsusi təyinatlı qida məhsulları, təbii mineral sular, bioloji aktiv qida məhsulları" sözləri ilə əvəz edilsin;

**2.20.2.** aşağıdakı məzmunda 452.2-1-ci maddə əlavə edilsin:

**"452.2-1.** Reseptə yazılmış təsiredici maddə üzrə aptek təşkilatında mövcud olan dərman vasitələri və onların qiymətləri barədə aptek təşkilatının satıcısı tərəfindən istehlakçıya məlumat verilməməsinə görə –

iki yüz manat məbləğində cərimə edilir.";

**2.21.** 453-cü maddənin dispozisiyasında "ərzaq malları barəsində isə həm də tərkibi, yararlılıq müddəti, kaloriliyi, sağlamlıq üçün zərərli maddələrin normativ sənədlərin tələbləri ilə müqayisəli miqdarı" sözləri "qida məhsulları barəsində isə həm də qida və enerji dəyəri, tərkibi, miqdarı, keyfiyyət göstəriciləri, istehsal tarixi, yararlılıq müddəti, tərkibindəki allergenlər, mənşəyi" sözləri ilə əvəz edilsin;

**2.22.** 455-ci maddənin adında, 455.1-ci və 455.2-ci maddələrin dispozisiyasında "yeyinti" sözü "qida" sözü ilə əvəz edilsin;

**2.23.** aşağıdakı məzmunda 455-1-ci maddə əlavə edilsin:

**"Maddə 455-1. Alkoqollu içkilərin müəyyən edilmiş minimum qiymətdən aşağı qiymətə satılması**

Pərakəndə satışının minimum qiyməti müəyyən edilmiş alkoqollu içkilərin həmin qiymətdən aşağı qiymətə satılmasına görə –

fiziki şəxslər yüz manat məbləğində, vəzifəli şəxslər səkkiz yüz manat məbləğində, hüquqi şəxslər iki min manat məbləğində cərimə edilir.";

**2.24.** 539-cu maddənin "Qeyd" hissəsi və 540.1-ci maddə ləğv edilsin;

**2.25.** 544-cü maddə üzrə:

**2.25.1.** adı aşağıdakı redaksiyada verilsin:

**"Maddə 544. İstehlakçıların hüquqlarının müdafiəsi və ya qida təhlükəsizliyi sahəsində dövlət nəzarətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanının fəaliyyətinə mane olma";**

**2.25.2.** 544.1-ci maddənin dispozisiyasında "müdafiəsini" sözü "müdafiəsi və ya qida təhlükəsizliyi sahəsində dövlət nəzarətini" sözləri ilə və "orqanının vəzifəli şəxsləri" sözləri "orqanı" sözü ilə əvəz edilsin;

**2.25.3.** 544.2-ci maddənin dispozisiyasında "istehlakçıların hüquqlarının müdafiəsini həyata keçirən müvafiq icra hakimiyyəti orqanının vəzifəli şəxslərinin" sözləri ", yaxud qida təhlükəsizliyi sahəsində dövlət nəzarətinin həyata keçirilməsi çərçivəsində müvafiq icra hakimiyyəti orqanının" sözləri ilə əvəz edilsin və həmin maddənin dispozisiyasına "tələblərini" sözündən sonra "(qərarlarını)" sözü əlavə edilsin;

**2.26.** 549.2-ci maddənin dispozisiyası aşağıdakı redaksiyada verilsin:

**"549.2.** Bələdiyyə qərarlarının qəbul edildiyi vaxtdan 3 iş günü ərzində onların surətinin bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın informasiya sistemində yerləşdirilməməsinə görə –";

**2.27.** 578.6-cı maddənin dispozisiyasından "və ya iş icazəsi itirildikdə," sözləri çıxarılsın və həmin maddənin dispozisiyasında "belə icazənin" sözləri "iş icazəsinin" sözləri ilə əvəz edilsin;

**2.28.** aşağıdakı məzmunda 598.8-1-ci və 602-4-cü **maddələr əlavə edilsin:**

**"598.8-1.** Qeyri-hökumət təşkilatları, o cümlədən xarici qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və nümayəndəlikləri tərəfindən qrant və ianələr, həmçinin onlardan istifadə üzrə təfsilatlı illik maliyyə hesabatının "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən müəyyən edilən nəzarət orqanına təqdim edilməməsinə, yaxud vaxtında, tam və ya düzgün təqdim edilməməsinə görə –

vəzifəli şəxslər min manatdan min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər iki min beş yüz manatdan üç min manatadək məbləğdə cərimə edilir.";

**"Maddə 602-4. Kosmik fəaliyyət haqqında qanunvericiliyin pozulması**

**602-4.1.** Kosmik fəaliyyət haqqında qanunvericiliyin pozulmasına, yəni:

**602-4.1.1.** Azərbaycan Respublikasının vətəndaşı və ya hüquqi şəxsi Azərbaycan Respublikasından kənarda kosmik obyekt üzərində əmlak hüququnu əldə edənədək bu barədə milli kosmik operatora əvvəlcədən yazılı məlumat verməməsinə;

**602-4.1.2.** Azərbaycan Respublikasının kosmik obyektlərinin dövlət reyestrində qeydiyyata alınmış kosmik obyektin mülkiyyətçisinin kosmik obyektin istismardan çıxarılması barədə dərhal milli kosmik operatora yazılı məlumat verməməsinə;

**602-4.1.3.** Azərbaycan Respublikasından kənarda kosmik obyektin istehsalını sifariş etmiş Azərbaycan Respublikasının vətəndaşı və ya hüquqi şəxsi sifariş verdiyi andan 30 (otuz) gün müddətində bu barədə milli kosmik operatora yazılı məlumat verməməsinə görə –

fiziki şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə, vəzifəli şəxslər iki min beş yüz manatdan üç min manatadək məbləğdə, hüquqi şəxslər dörd min manatdan beş min manatadək məbləğdə cərimə edilir.".

**Maddə 3.** Bu Qanunun 1.1-ci, 1.3 – 1.6-cı, 2.7-ci (qida təhlükəsizliyi sahəsinə münasibətdə), 2.8-ci, 2.10-cu, 2.13-cü, 2.18-ci, 2.19-cu, 2.21-ci, 2.22-ci və 2.25-ci maddələri 2025-ci il martın 1-dən qüvvəyə minir.

**İlham ƏLIYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 27 dekabr 2024-cü il
№ 115-VIIQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251 (Cild I); 2024, № 1, maddələr 8, 18, № 3, maddə 250, № 7, maddə 772, № 11, maddə 1189; Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 72-VIIQD və 77-VIIQD nömrəli, 27 dekabr tarixli 111-VIIQD, 114-VIIQD və 115-VIIQD nömrəli qanunları) 308-2-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

**"Maddə 308-2. Dövlət satınalmaları haqqında qanunvericiliyi pozma**

**308-2.1.** "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun yol verdiyi hallar istisna olmaqla, satınalan təşkilatın vəzifəli şəxsi tərəfindən satınalma prosedurları keçirilmədən, habelə nəzarət orqanının razılığı tələb olunan satınalma metodlarını belə razılıq olmadan tətbiq etməklə və ya keçirilmiş satınalmanın nəticələri haqqında yekun protokol nəzarət orqanı tərəfindən təsdiq edilmədən bağlanılmış müqavilələr əsasında maliyyə vəsaitlərinin xərclənməsi, bu əməllər xeyli miqdarda ziyan vurduqda –

cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən üç mislinədək miqdarda cərimə edilməklə üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, yaxud üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**308-2.2.** Satınalan təşkilatın vəzifəli şəxsi tərəfindən ərzaq məhsullarının (dövlət ehtiyatları üçün alınan ərzaq məhsulları istisna olmaqla) mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınmasının, habelə müdafiə və ya dövlət təhlükəsizlik ehtiyacları ilə bağlı satınalmaların müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş satınalma prosedurları keçirilmədən baş tutması, bu əməllər xeyli miqdarda ziyan vurduqda –

cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən üç mislinədək miqdarda cərimə edilməklə üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, yaxud üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**308-2.3.** "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun yol verdiyi hallar istisna olmaqla, satınalan təşkilatın vəzifəli şəxsi tərəfindən həmin Qanunda müəyyən edilən maraqlar toqquşması ilə bağlı tələblərə cavab verməyən təchizatçı ilə satınalma müqaviləsi bağlanılaraq maliyyə vəsaitlərinin xərclənməsi, bu əməllər xeyli miqdarda ziyan vurduqda –

cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən üç mislinədək miqdarda cərimə edilməklə üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, yaxud üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**308-2.4.** Bu Məcəllənin 308-2.1–308-2.3-cü maddələrində nəzərdə tutulmuş əməllər:

**308-2.4.1.** qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə;

**308-2.4.2.** təkrar törədildikdə;

**308-2.4.3.** külli miqdarda ziyan vurduqda;

**308-2.4.4.** hədə-qorxu tətbiq olunmaqla törədildikdə –

cinayət nəticəsində vurulmuş ziyanın üç misli miqdarında cərimə edilməklə üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, yaxud üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki ildən dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Qeyd:**

**1.** Bu Məcəllənin 308-2.1–308-2.3-cü maddələrində "xeyli miqdar" dedikdə əlli min manatdan iki yüz əlli min manatadək olan məbləğ, bu Məcəllənin 308-2.4.3-cü maddəsində "külli miqdar" dedikdə isə iki yüz əlli min manatdan yuxarı olan məbləğ başa düşülür.

**2.** Bu Məcəllənin 308-2-ci maddəsində "nəzarət orqanı" və "satınalan təşkilat" dedikdə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan nəzarət orqanı və satınalan təşkilatlar başa düşülür.".

**Maddə 2.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202 (Cild I); 2024, № 1, maddə 18, № 2, maddə 135, № 4, maddə 362, № 5 (I kitab), maddələr 487, 489, 492, 503, № 7, maddələr 750, 768, 771, 772, № 12 (I kitab), maddə 1280; Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 72-VIIQD və 77-VIIQD nömrəli, 27 dekabr tarixli 111-VIIQD və 115-VIIQD nömrəli, 29 dekabr tarixli 118-VIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**2.1.** 38.1-ci maddənin ikinci cümləsinə "mübarizə haqqında," sözlərindən sonra "dövlət satınalmaları haqqında," sözləri əlavə edilsin;

2.2. 445-1-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 445-1. Dövlət satınalmaları haqqında qanunvericiliyin pozulması**

**445-1.1.** "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun yol verdiyi hallar istisna olmaqla, satınalan təşkilat tərəfindən satınalma prosedurları keçirilmədən, habelə nəzarət orqanının razılığı tələb olunan satınalma metodlarını belə razılıq olmadan tətbiq etməklə və ya keçirilmiş satınalmanın nəticələri haqqında yekun protokol nəzarət orqanı tərəfindən təsdiq edilmədən bağlanılmış müqavilələr əsasında maliyyə vəsaitlərinin xərclənməsinə görə –

vəzifəli şəxslər dörd min manatdan altı min manatadək məbləğdə cərimə edilir.

**445-1.2.** Satınalan təşkilat tərəfindən ərzaq məhsullarının (dövlət ehtiyatları üçün alınan ərzaq məhsulları istisna olmaqla) mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınmasının, habelə müdafiə və ya dövlət təhlükəsizlik ehtiyacları ilə bağlı satınalmaların müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş satınalma prosedurları keçirilmədən baş tutmasına görə –

vəzifəli şəxslər altı min manatdan səkkiz min manatadək məbləğdə cərimə edilir.

**445-1.3.** Müşahidə şurasının (direktorlar şurasının) tərkibi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırılmaqla təsdiq edilən kommersiya hüquqi şəxsləri tərəfindən "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məlumatların və elanların özlərinin rəsmi internet səhifələrində yerləşdirilməməsinə görə –

vəzifəli şəxslər üç min manatdan dörd min manatadək məbləğdə cərimə edilir.

**445-1.4.** "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun yol verdiyi hallar istisna olmaqla, açıq tender və ya ikimərhələli tenderdən yayınmaq və (və ya) təchizatçılar arasında rəqabəti məhdudlaşdırmaq məqsədilə eyni xüsusiyyətli (xarakterli, növlü, tipli) və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş satınalma predmetlərinin təsnifat kodları üzrə eyni sinifdə olan oxşar satınalma predmetinin ayrı-ayrı hissələrə (müqavilələrə) bölünməsinə görə –

vəzifəli şəxslər iki min manatdan dörd min manatadək məbləğdə cərimə edilir.

**445-1.5.** "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun yol verdiyi hallar istisna olmaqla, satınalma komissiyası tərəfindən təchizatçıların satınalmalarda iştirakının məhdudlaşdırılmasına, habelə onlar arasında ayrı-seçkilik yaradan tələblərin, meyarların və prosedurların müəyyənləşdirilməsinə görə –

vəzifəli şəxslər üç min manatdan beş min manatadək məbləğdə cərimə edilir.

**445-1.6.** "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun yol verdiyi hallar istisna olmaqla, həmin Qanunda müəyyən edilən maraqlar toqquşması ilə bağlı tələblərə cavab verməyən təchizatçı ilə satınalma müqaviləsi bağlanılaraq maliyyə vəsaitlərinin xərclənməsinə görə –

vəzifəli şəxslər dörd min manatdan altı min manatadək məbləğdə cərimə edilir.

**445-1.7.** "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş müddətlərdə:

**445-1.7.1.** satınalan təşkilatın qalib təchizatçının təklifini aksept etməməsinə və ya satınalma müqaviləsini imzalamamasına;

**445-1.7.2.** satınalan təşkilat tərəfindən satınalma müqaviləsi üzrə ödəmələrin (o cümlədən avans ödənişinin) aparılmamasına;

**445-1.7.3.** satınalan təşkilat tərəfindən təchizatçıların şikayətlərinin və müraciətlərinin araşdırılaraq müvafiq qərarın qəbul edilməməsinə və həmin qərarın şikayət edən və ya müraciət edən təchizatçıya göndərilməməsinə görə –

vəzifəli şəxslər üç min manatdan dörd min manatadək məbləğdə cərimə edilir.

**445-1.8.** Satınalma müqaviləsinin icrasına başlanılması üçün müvafiq dövlət orqanlarından (qurumlarından) razılıq (müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan icazələr istisna olmaqla) alınması tələb olunduğu təqdirdə, satınalan təşkilat tərəfindən belə icazələrin müqavilə imzalanana qədər əldə olunmasının təmin edilməməsinə görə –

vəzifəli şəxslər dörd min manatdan beş min manatadək məbləğdə cərimə edilir.

**445-1.9.** Nəzarət orqanının satınalma predmetinə (onun icrasına) baxış keçirə bilməsi üçün satınalan təşkilat tərəfindən lazımi şərait yaradılmamasına görə –

vəzifəli şəxslər altı min manatdan səkkiz min manatadək məbləğdə cərimə edilir.

**445-1.10.** Satınalmaların həyata keçirilməsi zamanı satınalan təşkilat tərəfindən nəzarət orqanının qanuni tələblərinin və ya qərarlarının yerinə yetirilməməsinə görə –

vəzifəli şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə cərimə edilir.

**Qeyd:**

**1.** Bu Məcəllənin 445-1-ci maddəsi həmin maddədə göstərilən əməllər Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələrinə əsasən cinayət məsuliyyətinə səbəb olmadıqda tətbiq edilir.

**2.** Bu Məcəllənin 445-1-ci maddəsində "nəzarət orqanı" və "satınalan təşkilat" dedikdə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan nəzarət orqanı və satınalan təşkilatlar başa düşülür.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 28 fevral 2025-ci il
№ 143-VIIQD

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

**“Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2025-ci il 28 fevral tarixli 143-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2025-ci il 28 fevral tarixli 143-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

**1.1.** Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 308-2.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

**1.2.** həmin Məcəllənin 308-2.2-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

**1.3.** Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 445-1.2-ci, 445-1.3-cü (hər iki halda) və 445-1.4-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

**1.4.** həmin Məcəllənin 445-1.3-cü maddəsində hər iki halda “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

**1.5.** həmin Məcəllənin 445-1.2-ci və 445-1.4-cü maddələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti “Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2025-ci il 28 fevral tarixli 143-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**3.** “Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 8 fevral tarixli 278 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 257 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**3.1.** 2.1-ci bənddə “və 137.2-ci” sözləri “, 137.2-ci və 308-2.2-ci” sözləri ilə əvəz edilsin;

**3.2.** 2.1-1-ci bənddə “maddəsində” sözü “və 308-2.2-ci maddələrində” sözləri ilə əvəz edilsin.

**4.** “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259 (Cild I); 2024, № 2, maddələr 151, 157, № 7, maddələr 806, 812, 814, 815, № 8, maddələr 937, 948, № 12 (I kitab), maddə 1294, (II kitab), maddələr 1359, 1378, 1384; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 fevral tarixli 335 nömrəli Fərmanı) 4-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**4.1.** 4.1-ci bəndə “429.0.2,” rəqəmlərindən sonra “445-1.2, 445-1.3 (hər iki halda), 445-1.4,” sözləri əlavə edilsin;

**4.2.** 4.2-ci bənd 4.2-1-ci bənd hesab olunsun və aşağıdakı məzmunda 4.2-ci bənd əlavə edilsin:

**“4.2.** həmin Məcəllənin 445-1.3-cü maddəsində (hər iki halda) “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;”;

**4.3.** 4.3-1-ci bəndə “363.2-ci,” sözlərindən sonra “445-1.2-ci, 445-1.4-cü,” sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 19 mart 2025-ci il
№ 355

**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

**Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və "Xidməti və mülki silah haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 13-cü və 17-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251 (Cild I); 2024, № 1, maddələr 8, 18, № 3, maddə 250, № 7, maddə 772, № 11, maddə 1189, № 12 (II kitab), maddələr 1330, 1350; Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 77-VIIQD nömrəli, 27 dekabr tarixli 114-VIIQD və 115-VIIQD nömrəli qanunları) 228-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

**"Maddə 228. Qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə**

**228.1.** Qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, saxlama, daşıma və ya gəzdirmə –

iki ilədək müddətə islah işləri və ya iki ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**228.2.** Bu Məcəllənin 228.1-ci maddəsində nəzərdə tutulmuş əməllər:

**228.2.1.** qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə tərəfindən törədildikdə;

**228.2.2.** təkrar törədildikdə;

**228.2.3.** şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə –

üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**228.3.** Qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələri və qurğuları satma –

dörd ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**228.4.** Bu Məcəllənin 228.3-cü maddəsində nəzərdə tutulmuş əməllər:

**228.4.1.** qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) tərəfindən törədildikdə;

**228.4.2.** şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə;

**228.4.3.** təkrar törədildikdə;

**228.4.4.** mediadan, o cümlədən internet informasiya ehtiyatlarından və ya informasiya-telekommunikasiya şəbəkələrindən istifadə etməklə törədildikdə –

beş ildən on bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**228.5.** Qanunsuz olaraq qaz silahını, soyuq silahı, o cümlədən soyuq atıcı silahı əldə etmə, satma və ya gəzdirmə, milli geyim ləvazimatı hesab olunan ərazilərdə və ya ovçuluq peşəsi ilə bağlı olaraq soyuq silahı gəzdirmə halları istisna olmaqla –

üç yüz iyirmi saatdan dörd yüz saatadək ictimai işlər və ya iki ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Qeyd:** Bu maddədə göstərilən əşyaları könüllü surətdə təhvil verən şəxs, əgər onun əməllərində başqa cinayət əməlinin tərkibi yoxdursa, cinayət məsuliyyətindən azad edilir.".

**Maddə 2.** "Xidməti və mülki silah haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 137 (Cild I); 2024, № 5 (I kitab), maddə 488; Azərbaycan Respublikasının 2024-cü il 29 dekabr tarixli 119-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

**2.1.** 7-ci maddənin II hissəsinə "mülki silah" sözlərindən sonra "(odlu silah istisna olmaqla)" sözləri və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Azərbaycan Respublikasında iyirmi bir yaşına çatmış vətəndaşların mülki odlu silah əldə etmək hüququ vardır.";

**2.2.** 18-ci maddənin I hissəsinin 3-cü bəndində "üçüncü" sözü "dördüncü" sözü ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 7 mart 2025-ci il
№ 153-VIIQD

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

## "Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 dekabr tarixli 432 nömrəli Sərəncamına uyğun olaraq **qərara alıram:**

**1.** "Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı" təsdiq edilsin *(əlavə olunur).*

**2.** Bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsini və icrasına nəzarəti Azərbaycan Respublikası Prezidentinin Administrasiyası həyata keçirsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 11 fevral 2025-ci il
№ 477

*Azərbaycan Respublikası Prezidentinin 2025-ci il*
*11 fevral tarixli 477 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir*

## Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı

## TƏDBİRLƏR PLANI

| Sıra №-si | Tədbirin adı | İcra müddəti | İcraçı orqanlar (qurumlar) |
|---|---|---|---|
| 1. | Azərbaycan Respublikasının Dövlət Suverenliyi Gününün və Azərbaycan Respublikası Konstitusiyasının qəbulunun 30 illiyinin geniş qeyd olunması, bununla əlaqədar yerli və beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi | 20 sentyabr, 12 noyabr | Aidiyyəti dövlət orqanları (qurumları)<br>Tövsiyə olunur:<br>Milli Məclis,<br>Konstitusiya Məhkəməsi,<br>Ali Məhkəmə,<br>Baş Prokurorluq,<br>İnsan hüquqları üzrə müvəkkil (ombudsman) |
| 2. | "Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda silsilə tədbirlərin keçirilməsi | İl ərzində | Aidiyyəti dövlət orqanları (qurumları)<br>Tövsiyə olunur:<br>Milli Məclis,<br>Konstitusiya Məhkəməsi,<br>Ali Məhkəmə,<br>Baş Prokurorluq,<br>İnsan hüquqları üzrə müvəkkil (ombudsman) |
| 3. | Milli Məclisin "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş xüsusi iclasının keçirilməsi | İl ərzində | Milli Məclis (tövsiyə olunur) |

| | | | |
|---|---|---|---|
| 4. | "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş forumların, konfransların, simpozium-ların, dəyirmi masaların, seminarların, müsa-biqələrin, müxtəlif mədəni-kütləvi tədbirlərin təşkili, vətənpərvərlik mahnılarının (marşların) yazılması, beynəlxalq turizm sərgilərində Azərbaycan milli stendində "Konstitusiya və Suverenlik İli" haqqında məlumatların təqdim edilməsi | İl ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası,<br>Mədəniyyət Nazirliyi,<br>Elm və Təhsil Nazirliyi,<br>Gənclər və İdman Nazirliyi,<br>Müdafiə Nazirliyi,<br>Daxili İşlər Nazirliyi,<br>Diasporla İş üzrə Dövlət Komitəsi,<br>Dövlət Sərhəd Xidməti,<br>Dövlət Təhlükəsizliyi Xidməti,<br>Dövlət Turizm Agentliyi,<br>Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi,<br>Medianın İnkişafı Agentliyi,<br>Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi,<br>yerli icra hakimiyyəti orqanları,<br>Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri,<br>Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi |
| 5. | Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri tərəfindən "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş tədbirlərin keçirilməsi | İl ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası,<br>Xarici İşlər Nazirliyi |
| 6. | Azərbaycan diaspor təşkilatları, koordinasiya şuraları, Azərbaycan Evləri və həftəsonu məktəbləri tərəfindən "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş tədbirlərin keçirilməsi | İl ərzində | Milli MəcliAzərbaycan Respublikası Prezidentinin Administrasiyası,<br>Diasporla İş üzrə Dövlət Komitəsi |
| 7. | Azərbaycan Respublikasının şəhər və rayonla-rında "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş ağacəkmə aksiyalarının keçirilməsi | İl ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası,<br>Ekologiya və Təbii Sərvətlər Nazirliyi,<br>yerli icra hakimiyyəti orqanları<br>Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri |
| 8. | "Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi" yubiley medalının təsis edilməsi | İl ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası,<br>Milli Məclis (tövsiyə olunur) |
| 9. | "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş poçt markalarının buraxılması | Sentyabr ayı ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası,<br>Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi,<br>Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi |

| | | | |
|---|---|---|---|
| **10.** | Yerli və xarici mütəxəssislərin iştirakı ilə Azərbaycan Respublikasının dövlət suverenliyinin təmin olunmasına həsr edilmiş elmi-praktik konfransların təşkili, elmi tədqiqat işlərinin aparılması, əsərlərin, hüquqi şərhlərin, monoqrafiyaların, məqalələrin nəşri, kitabların buraxılması | İl ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası,<br>Elm və Təhsil Nazirliyi,<br>Mədəniyyət Nazirliyi,<br>Ədliyyə Nazirliyi,<br>Daxili İşlər Nazirliyi,<br>Dövlət Təhlükəsizliyi Xidməti,<br>Dövlət Miqrasiya Xidməti,<br>Azərbaycan Milli Elmlər Akademiyası,<br>Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi,<br>Sosial Tədqiqatlar Mərkəzi,<br>Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi<br>Tövsiyə olunur:<br>Konstitusiya Məhkəməsi,<br>Ali Məhkəmə |
| **11.** | İdman yarışlarının və beynəlxalq turnirlərin, "Zəfər yürüşü" tədbirlərinin təşkili | İl ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası,<br>Gənclər və İdman Nazirliyi,<br>Müdafiə Nazirliyi,<br>Daxili İşlər Nazirliyi,<br>Fövqəladə Hallar Nazirliyi,<br>Dövlət Sərhəd Xidməti,<br>Dövlət Təhlükəsizliyi Xidməti,<br>Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri |
| **12.** | "Konstitusiya və Suverenlik İli" ilə bağlı ölkə ərazisində müvafiq poster və bannerlərin yerləşdirilməsi, rəqəmli bilbordlarda və monitorlarda videoçarxların nümayiş etdirilməsi | 20 sentyabr,<br>12 noyabr | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası,<br>Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi,<br>Dövlət Reklam Agentliyi,<br>Heydər Əliyev Mərkəzi,<br>"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi,<br>Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi,<br>Dənizkənarı Bulvar İdarəsi,<br>"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti,<br>"Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyəti,<br>yerli icra hakimiyyəti orqanları,<br>Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri,<br>Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi |

| | | | |
|---|---|---|---|
| **13.** | Mediada sənədli filmlərin, verilişlərin, videoçarxların və digər materialların verilməsi, rəsmi qəzetlərin xüsusi buraxılışının hazırlanması, jurnalistlərin və blogerlərin işğaldan azad edilmiş ərazilərə səfərlərinin təşkili | İl ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası,<br>Ədliyyə Nazirliyi,<br>Dövlət Təhlükəsizliyi Xidməti,<br>Heydər Əliyev Mərkəzi,<br>Medianın İnkişafı Agentliyi,<br>Audiovizual Şura,<br>Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi,<br>Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi,<br>Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC),<br>"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti,<br>"Azərbaycan" qəzeti,<br>"Xalq" qəzeti,<br>"Respublika" qəzeti,<br>"Bakinski Raboçi" qəzeti,<br>Baş Prokurorluq (tövsiyə olunur) |
| **14.** | "Konstitusiya və Suverenlik İli" ilə əlaqədar Azərbaycan Respublikasında adsız zirvələrə, Bakı şəhərində və digər böyük şəhərlərdə prospekt, küçə, meydan və müvafiq ərazi vahidlərinə, metro stansiyalarına yeni adların verilməsi | İl ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası,<br>Nazirlər Kabineti,<br>Ekologiya və Təbii Sərvətlər Nazirliyi,<br>Geodeziya və Kartoqrafiya Agentliyi,<br>yerli icra hakimiyyəti orqanları,<br>Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri,<br>Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi,<br>Milli Məclis (tövsiyə olunur) |
| **15.** | Xeyriyyə aksiyalarının keçirilməsi, Azərbaycan Respublikasının dövlət suverenliyinin və ərazi bütövlüyünün bərpası uğrunda şəhid olmuş şəxslərin ailələrinin və müharibə veteranlarının sosial məsələlərinin həlli istiqamətində tədbirlərin davam etdirilməsi | 20 sentyabr,<br>12 noyabr | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası,<br>Müdafiə Nazirliyi,<br>Daxili İşlər Nazirliyi,<br>Dövlət Sərhəd Xidməti,<br>Dövlət Təhlükəsizliyi Xidməti,<br>Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi,<br>Səhiyyə Nazirliyi,<br>Maliyyə Nazirliyi,<br>Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi,<br>yerli icra hakimiyyəti orqanları,<br>Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri |

| | | | |
|---|---|---|---|
| **16.** | Yeniyetmələr və gənclər üçün olimpiadaların, müsabiqələrin, marafonların, debatların və təlimlərin keçirilməsi, “Zəfərin izi ilə” layihəsi çərçivəsində məktəblilərin, tələbələrin və könüllülərin işğaldan azad edilmiş ərazilərə səfərlərinin təşkili, təhsil müəssisələrində ilk dərs gününün “Konstitusiya və Suverenlik İli”nə həsr edilməsi, xüsusi dərslərin və mühazirələrin təşkili | İl ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası,<br>Elm və Təhsil Nazirliyi,<br>Gənclər və İdman Nazirliyi,<br>Mədəniyyət Nazirliyi,<br>Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi,<br>Dövlət Miqrasiya Xidməti,<br>Gənclər Fondu,<br>Medianın İnkişafı Agentliyi,<br>Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi,<br>Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri,<br>Konstitusiya Məhkəməsi (tövsiyə olunur) |
| **17.** | “Konstitusiya və Suverenlik İli” ilə bağlı qrant müsabiqələrinin keçirilməsi | İl ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası,<br>Gənclər Fondu,<br>Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi |
| **18.** | “Konstitusiya və Suverenlik İli”nə həsr olunmuş hərbi təlimlərin keçirilməsi | İl ərzində | Müdafiə Nazirliyi |

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

## X.R.Vəliyevin 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının prokurorluq orqanlarında uzunmüddətli səmərəli fəaliyyətinə görə **Xanlar Rüstəm oğlu Vəliyev** 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 17 mart 2025-ci il
№ 527

**AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN**

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun**

**Q Ə R A R I**

# Azərbaycan Respublikası Konstitusiyasının 62-ci maddəsinin tələbləri baxımından Azərbaycan Respublikası CPM-nin 442.1-ci maddəsinin həmin Məcəllənin 207.5, 215.7 və 216.2-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair

**2 dekabr 2024-cü il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, Fikrət Məmmədov (məruzəçi-hakim), İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 33-cü maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Bakı şəhəri Səbail Rayon Məhkəməsinin müraciəti əsasında Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 442.1-ci maddəsinin həmin Məcəllənin 207.5, 215.7 və 216.2-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim F.Məmmədovun məruzəsini, maraqlı subyektlər Azərbaycan Respublikası Milli Məclisi Aparatının mülahizəsini, Azərbaycan Respublikası Ali Məhkəməsinin, Bakı Apellyasiya Məhkəməsinin, Azərbaycan Respublikası Vəkillər Kollegiyasının mütəxəssis mülahizələrini, ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Cinayət prosesi kafedrasının professoru, hüquq elmləri doktoru M.Qəfərovun rəyini və iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

## MÜƏYYƏN ETDİ:

Bakı şəhəri Səbail Rayon Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) müraciət edərək Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra – Cinayət-Prosessual Məcəllə) məhkəmə nəzarətinin həyata keçirilməsinə dair 442.1-ci maddəsinin həmin Məcəllənin 215.7 və 216.2-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsini xahiş etmişdir.

Müraciətdən görünür ki, R.Sarıyev polis əməkdaşları tərəfindən qanunsuzluğa məruz qalması ilə bağlı Bakı şəhəri Nizami Rayon Prokurorluğuna şikayət edərək bu əməllərə yol vermiş şəxslər barəsində müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Həmin prokurorluq tərəfindən R.Sarıyevin müraciəti Azərbaycan Respublikası Baş Prokurorluğunun "İşin Təşkili Qaydaları"nın 238.4 və 346.14-cü bəndlərinin tələblərinə uyğun olaraq Baş Prokurorluğa göndərilmişdir.

Həmin Qaydaların 158.9–158.10-cu maddələrinə uyğun olaraq Baş Prokurorluğun Xidməti araşdırmalar idarəsi apardığı araşdırma ilə əlaqədar izahatların alınması, məhkəmə-tibbi ekspertizanın keçirilməsi və araşdırmadan irəli gələn digər hərəkətləri icra edərək toplanmış materialların təqdim edilməsinə dair göstərişin verilməsini Bakı Şəhər Prokurorluğuna tapşırmışdır.

Bakı şəhəri Nizami Rayon Prokurorluğu tapşırığa uyğun olaraq toplanılmış materialları Baş Prokurorluğun Xidməti araşdırmalar idarəsinə göndərmiş və həmin idarə tərəfindən cinayət hadisəsi müəyyən edilmədiyindən Cinayət-Prosessual Məcəllənin 39.1.1-ci maddəsinə əsasən cinayət işinin başlanılmasının rədd edilməsi barədə qərar qəbul edilmişdir.

R.Sarıyev Bakı şəhəri Səbail Rayon Məhkəməsinə şikayət edərək qeyd edilən qərarın məhkəmə nəzarəti qaydasında ləğv edilməsini xahiş etmişdir.

Həmin məhkəmə cinayət-prosessual qanunvericiliyinə uyğun olaraq istintaq aidiyyətinin dəyişdirildiyi hallarda məhkəmə nəzarətinin ərazi aidiyyətinin müəyyən edilməsi, habelə Cinayət-Prosessual Məcəllənin 442.1-ci maddəsində göstərilən "ibtidai araşdırmanın aparıldığı yer" müddəasının həmin Məcəllənin 207-ci maddəsində göstərilən ayrı-ayrı istintaq hərəkətlərinin aparıldığı yeri, yaxud 207.5-ci maddəyə əsasən cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarın qəbul edildiyi yeri nəzərdə tutması ilə bağlı məhkəmə təcrübəsində fikir ayrılığı olduğundan qeyd edilən məsələlərə aydınlıq gətirilməsi, qanunvericiliyin eyni qaydada tətbiq edilməsi və hüquqi müəyyənlik prinsipinin təmin edilməsi məqsədilə Konstitusiya Məhkəməsinə müraciət etmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətlə əlaqədar aşağıdakıların qeyd edilməsini zəruri hesab edir.

Azərbaycan Respublikası Konstitusiyasının (bundan

sonra – Konstitusiya) 60-cı maddəsinin I və IV hissələrində hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilmiş, dövlət orqanlarının, siyasi partiyaların, hüquqi şəxslərin, bələdiyyələrin və vəzifəli şəxslərin hərəkətlərindən və hərəkətsizliyindən inzibati qaydada və məhkəməyə şikayət etmək hüququ təsbit edilmişdir.

Konstitusiyanın 71-ci maddəsinin I və VII hissələrinə əsasən, Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının pozulması ilə əlaqədar mübahisələri məhkəmələr həll edir.

Beynəlxalq müqavilələrdə də insan hüquq və azadlıqlarının məhkəmə tərəfindən müdafiə edilməsi ayrılmaz və toxunulmaz hüquq kimi müəyyən edilmişdir.

Belə ki, məhkəmə təminatı Ümumdünya İnsan hüquqları Bəyannaməsinin 8-ci maddəsində “hər bir şəxs Konstitusiyanın və ya qanunun ona verdiyi hüquqların pozulması zamanı səlahiyyətli məhkəmələr tərəfindən hüquqlarının bərpa olunması hüququna malikdir”, "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın (bundan sonra – Konvensiya) 6-cı maddəsinin 1-ci bəndində “hər kəs, onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsi ilə, ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir”, “Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt”ın 14-cü maddəsində “hər bir şəxs, ona qarşı irəli sürülən istənilən cinayət ittihamına baxılması zamanı və yaxud hər hansı bir mülki prosesdə onun hüquq və vəzifələrinin müəyyən edilməsi zamanı qanun əsasında yaradılan səlahiyyətli, müstəqil və qərəzsiz məhkəmə tərəfindən ədalətli və açıq araşdırma hüququna malikdir” kimi müddəalarda təsbit edilmişdir.

Məhkəmə müdafiəsi hüququnun əlçatanlığının və ədalət mühakiməsinin səmərəliliyinin təmin edilməsinə xidmət edən məhkəmə aidiyyəti ilə bağlı müddəalar Konstitusiyanın 62-ci maddəsində təsbit edilmişdir. Həmin maddəyə görə, hər kəsin onun işinə qanunla müəyyən edilmiş məhkəmədə baxılması hüququ vardır. Şəxsin razılığı olmadan onun işinə başqa məhkəmədə baxılmasına yol verilmir.

Konstitusiya Məhkəməsinin Plenumu Konstitusiyanın 62-ci maddəsi ilə bağlı qeyd etmişdir ki, göstərilən maddədəki “qanunla müəyyən edilmiş məhkəmə” müddəası işlərin aidiyyət qaydalarını, o cümlədən ərazi üzrə aidiyyət məsələlərini, qanuni məhkəmə tərkibinin mövcudluğunu, prosessual şərtləri və s. subyektiv elementləri nəzərdə tutur (“Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 110.1-ci maddəsinin şərh edilməsinə dair” 2021-ci il 17 mart tarixli Qərar).

“Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 15-ci maddəsi işlərin Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş məhkəmə aidiyyətinin dəyişdirilməsini və ya əsassız olaraq qanuni hakimin icraatından alınmasını qadağan edir.

Konstitusiya Məhkəməsinin Plenumu “Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 30-cu maddəsinin şərh edilməsinə dair” 2013-cü il 28 mart tarixli Qərarında ədalət mühakiməsinin həyata keçirilməsi zamanı məhkəmə aidiyyətininin vacibliyini qeyd edərək hesab etmişdir ki, bu institut şəxsin hüquqlarının və qanuni maraqlarının əsas prosessual təminatlarından biri kimi qəbul olunur. Bu isə məhkəmə aidiyyəti qaydalarının qanunla dəqiq müəyyən edilməsini və aydın başa düşülməsini tələb edir. Əks halda məhkəmə və tərəflər qarşısında bu və ya digər işin hansı məhkəmədə baxılması məsələsində qeyri-müəyyənlik yaranması ilə yanaşı, məhkəmə tərəfindən işə ağlabatan müddətdə baxılmasında çətinlik yarana və şəxsin pozulmuş hüquqlarının səmərəli bərpa edilməsi mümkünsüz ola bilər.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsi (bundan sonra – Avropa Məhkəməsi) də məhkəmə və ərazi aidiyyəti qaydalarının, prosessual hüquq normalarının pozulmasını və səlahiyyətlərin aşılmasını ciddi səhv kimi qiymətləndirir və Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndinin tələblərini belə pozuntularla qəbul edilən məhkəmə qərarlarının ləğv edilməsinə əsas kimi tanıyır (Luçkina Rusiyaya qarşı iş üzrə 2008-ci il 10 aprel, Pşeniçnıy Rusiyaya qarşı iş üzrə 2008-ci il 14 fevral və Sutyajnik Rusiyaya qarşı iş üzrə 2009-cu il 23 iyul tarixli Qərarlar).

Cinayət mühakimə icraatının əsas prinsip və qaydalarını müəyyən edən Cinayət-Prosessual Məcəllənin 29, 67.4 və 68.4-cü maddələrinə əsasən, heç kəs onun işinə aidiyyəti qanunla müəyyən edilmiş məhkəmədə baxılması hüququndan məhrum oluna bilməz. Şəxsin razılığı olmadan onun işinə başqa məhkəmədə baxılmasına yol verilmir. Hər bir rayon (şəhər) məhkəməsinə yalnız məhkəmənin yurisdiksiyasında baş vermiş cinayətlərlə bağlı işlər və digər materiallar aiddir. Eyniliklə, hər bir hərbi məhkəməyə yalnız məhkəmənin yurisdiksiyasında baş vermiş cinayətlərlə bağlı işlər və digər materiallar aiddir.

Beləliklə, məhkəmə aidiyyəti prinsipi (ərazi, predmet və ya şəxs üzrə) prosessual qənaət prinsipinə riayət edilməsinə, cinayət təqibi ilə bağlı bütün halların hərtərəfli, tam və obyektiv araşdırılmasına, pozulmuş hüquqların bərpasına qısa müddətdə nail olunmasına xidmət edir, habelə məhkəmə müdafiəsi hüququnun əlçatanlığını və səmərəliliyini təmin edir.

Bu baxımdan məhkəmə aidiyyətini müəyyən edən normaların hüquqi müəyyənlik prinsipinin tələblərinə cavab verməsi mühüm əhəmiyyət kəsb edir.

Belə ki, hüquqi müəyyənlik qanunun aliliyi prinsipinin ayrılmaz tərkib hissəsi olmaqla hüquqi münasibətlərə stabillik gətirir, həmin münasibətlərin iştirakçıları üçün aydın hüquqi əsaslar yaradır. Məhz həmin prinsip əsasında qurulan hüquq normaları, o cümlədən prosessual qaydalar hər-hansı hərəkətləri öncədən planlaşdırmağa və müəyyən etməyə imkan verir.

Oxşar mövqe Avropa Məhkəməsinin Sunday Times Birləşmiş Krallığa qarşı iş üzrə 1979-cu il 26 aprel tarixli Qərarında ifadə edilmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətdə qaldırılan məhkəmə nəzarəti qaydasında icraatın ərazi aidiyyətinin müəyyən edilməsi ilə bağlı aşağıdakıların qeyd edilməsini vacib hesab edir.

Məhkəmə nəzarətinin həyata keçirilməsinə dair icraat hüquq və azadlıqların pozulmasına dair məlumatlar olduğu halda cinayət təqibini həyata keçirən (əməliyyat-axtarış, təhqiqat, istintaq, prokurorluq) orqanların vəzifəli şəxslərinin hərəkət və qərarlarının qanuniliyi üzərində məhkəmə nəzarətini işə salır. Məhkəmə nəzarəti icraatında məhkəmə əsasən iki vəzifə icra edir: cinayət təqibi üzrə müvəkkil edilmiş orqanlar və vəzifəli şəxslər tərəfindən edilən ayrı-ayrı hərəkətlərin və qəbul olunan qərarların qanuniliyinin təmin olunması; cinayət prosesi iştirakçılarının hüquq və azadlıqlarının qorunması (Konstitusiya Məhkəməsi Plenumunun “Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 449.2.3-cü maddəsinin şərh edilməsinə dair” 2009-cu il 5 avqust tarixli Qərarı).

Cinayət-Prosessual Məcəllənin 122.2.3-cü maddəsinə uyğun olaraq, həmin Məcəllənin 449.3-cü maddəsində nəzərdə tutulmuş təhqiqatçının, müstəntiqin və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun (bundan sonra – prokuror) hərəkətlərindən və ya qərarlarından məhkəmə nəzarəti funksiyasını həyata keçirən məhkəməyə şikayət verilir.

Məhkəmə nəzarəti istintaq hərəkətlərinin məcburi aparıldığı, prosessual məcburiyyət tədbirinin tətbiq edildiyi, əməliyyat-axtarış tədbirinin həyata keçirildiyi və ya ibtidai araşdırmanın aparıldığı yer üzrə səlahiyyəti daxilində müvafiq birinci instansiya məhkəməsi tərəfindən həyata keçirilir (Cinayət-Prosessual Məcəllənin 442.1-ci maddəsi).

İbtidai araşdırmanın aparıldığı yer müddəasına Cinayət-Prosessual Məcəllənin 216.1-ci maddəsində aydınlıq gətirilərək göstərilmişdir ki, ibtidai araşdırma cinayətin törədildiyi yer üzrə (inzibati ərazi vahidi üzrə) aparılır.

Nəzərə alınmalıdır ki, bu norma eyni təhqiqat və ya istintaq orqanının tabeçiliyində olan və müxtəlif inzibati ərazi vahidlərində (rayon, şəhər və s.) fəaliyyət göstərən orqanlar arasında cinayət işlərinin bölüşdürülməsi məsələlərini tənzimləməklə ərazi aidiyyətini müəyyən edir. Aidiyyət məsələsi həll edilərkən, ibtidai araşdırmanın predmet aidiyyəti (hansı istintaq orqanına aid olduğu) dəqiqləşdirilməli, sonra isə həmin ibtidai araşdırmanın ərazi aidiyyəti (hansı inzibati ərazi vahidində aparılması) müəyyən edilməlidir.

Cinayətin törədildiyi yer dedikdə isə ictimai təhlükəli əməlin (hərəkət və ya hərəkətsizliyin) obyektiv cəhətinin təzahür etdiyi yer başa düşülməlidir. Bu zaman cinayətin növündən asılı olaraq (uzanan, davam edən və s.) cinayət və cinayət-prosessual qanunvericiliyinin normalarının tələblərinə riayət edilməklə cinayətin törədildiyi yer müəyyən edilməlidir.

Qeyd edilməlidir ki, cinayət prosessual qanunvericiliyində ibtidai araşdırma yerinin dəqiq göstərilməsi və onun məhz cinayətin törədildiyi yerlə əlaqələndirilməsi cinayət işinin tam, obyektiv və hərtərəfli araşdırılması, prosessual qənaət və işlərə ağlabatan müddətdə baxılması prinsiplərindən irəli gəlir. Bu qayda iş üzrə sübutların daha qısa müddətdə toplanılması və yoxlanılmasının, işin həqiqətə uyğun olan faktiki hallarının müəyyənləşdirilməsinin təmin edilməsinə, bütövlükdə ibtidai araşdırma prosesinin səmərəliliyinə xidmət edir.

O da nəzərə alınmalıdır ki, qanunverici Cinayət-Prosessual Məcəllənin 216.1-ci maddəsində ibtidai araşdırmanın aparılma yerini həmin Məcəllənin 215.2-ci maddəsində göstərilən hər hansı orqanın (prokurorluq və ya müvafiq icra hakimiyyəti orqanları) fəaliyyət yeri ilə şərtləndirməyərək ibtidai araşdırmanın bilavasitə cinayətin törədildiyi yer üzrə aparılmasını müəyyən etmişdir.

Bununla da, Cinayət-Prosessual Məcəllənin 216.1-ci maddəsinin “ibtidai araşdırma cinayətin törədildiyi yer üzrə (inzibati ərazi vahidi üzrə) aparılır” müddəası ibtidai araşdırmanın ərazi üzrə aidiyyətini müəyyən etməklə həmin Məcəllənin 215.2-ci maddəsində sadalanan orqanlar tərəfindən ibtidai istintaq aparılarkən rəhbər tutulan məcburi göstəriş kimi nəzərdə tutulmuşdur.

İbtidai araşdırmanın aparıldığı yer Cinayət-Prosessual Məcəllənin 216.1-ci maddəsinə uyğun olaraq, cinayətin törədilmə yerinə görə müəyyən edildiyi üçün həmin Məcəllənin 215.7.1–215.7.5-ci maddələrində göstərilən müstəsna hallarda Azərbaycan Respublikası Baş Prokurorunun əsaslandırılmış qərarı ilə cinayət işinin bir istintaq orqanından digər istintaq orqanına verilməsi ibtidai araşdırma yerinin dəyişməsi kimi qiymətləndirilə bilməz.

O da qeyd olunmalıdır ki, həmin Məcəllənin 216.2-ci maddəsində cinayət işi üzrə məhkəməyədək icraatın hərtərəfli, tam, obyektiv və vaxtında aparılmasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Baş Prokurorunun, Naxçıvan Muxtar Respublikasının ərazisində, həmçinin Naxçıvan Muxtar Respublikası Prokurorunun qərarı əsasında ibtidai araşdırmanın aparıldığı yerin aşağıdakı hallarda dəyişilməsi nəzərdə tutulmuşdur:

cinayətin aşkar olunduğu yer üzrə;

şübhəli və ya təqsirləndirilən şəxsin olduğu yer üzrə;

şahidlərin əksəriyyətinin olduğu yer üzrə.

Ümumi qaydadan bu istisna Cinayət-Prosessual Məcəllənin 8.0.3-cü maddəsinin tələblərindən irəli gəlir. Həmin maddədə cinayətləri tezliklə açmaq, cinayət təqibi ilə bağlı bütün halları hərtərəfli, tam və obyektiv araşdırmaq cinayət mühakimə icraatının vəzifələrindən biri kimi müəyyən edilmişdir.

Bu zaman Cinayət-Prosessual Məcəllənin 442.1-ci maddəsində nəzərdə tutulan ibtidai araşdırmanın aparıldığı yer müddəası cinayətin baş verdiyi yeri deyil, həmin Məcəllənin 216.2-ci maddəsindəki cinayətin aşkar olunduğu və ya şübhəli və ya təqsirləndirilən şəxsin, habelə şahidlərin əksəriyyətinin olduğu yeri (inzibati ərazi vahidi), yəni ibtidai araşdırmanın təşkil olunduğu yeri (inzibati ərazi vahidini) ehtiva edir.

Əlavə olaraq qeyd edilməlidir ki, qanunverici məhkəmə nəzarətinin həyata keçirilməsinə dair ümumi müddəalar müəyyən edərkən məcburi aparılan istintaq hərəkətlərinin, prosessual məcburiyyət tədbirinin və ya ibtidai araşdırmanın aparıldığı yerlərin fərqli inzibati ərazi vahidləri üzrə aparılmasının mümkünlüyündən çıxış etmişdir.

"Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında" 2017-ci il 1 dekabr tarixli Qanunu ilə həmin Məcəlləyə edilmiş dəyişikliklərin məqsədlərindən biri də məhkəmə nəzarətinin həyata keçirilməsi imkanlarının genişləndirilməsinə və xüsusi icraatın effektivliyinin yüksəldilməsinə yönəlmişdir.

Həmin Qanunla Cinayət-Prosessual Məcəllənin 442.1-ci maddəsinə dəyişiklik edilərək "və ya əməliyyat-axtarış tədbirinin həyata keçirildiyi" sözləri "əməliyyat-axtarış tədbirinin həyata keçirildiyi və ya ibtidai araşdırmanın aparıldığı" sözləri ilə əvəz edilmiş, bununla da qeyd olunan maddədə məhkəmə nəzarəti qaydasında vəsatət, təqdimat və şikayətlə prosessual məcburiyyət tədbirinin tətbiq edildiyi və ya digər istintaq hərəkətlərinin məcburi aparıldığı yerlə yanaşı, alternativ olaraq ibtidai araşdırmanın aparıldığı yerin birinci instansiya məhkəməsinə də müraciət edilə biləcəyi müəyyən olunmuşdur.

Göstərilənlərə əsasən, Cinayət-Prosessual Məcəllənin 442.1-ci maddəsində nəzərdə tutulmuş ibtidai araşdırmanın aparıldığı yer müddəası cinayətin törədildiyi yeri ehtiva etməklə ayrı-ayrı istintaq hərəkətlərinin və ya əməliyyat axtarış tədbirinin həyata keçirildiyi yerlə eyniləşdirilməməlidir.

Konstitusiya Məhkəməsinin Plenumu törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatlara baxılması nəticəsində cinayət işinin başlanmasının rədd edilməsi haqqında qəbul edilən qərarın qanuniliyi üzərində məhkəmə nəzarətinin ərazi aidiyyətinə aydınlıq gətirilməsi üçün aşağıdakıların qeyd edilməsini vacib hesab edir.

Cinayət-Prosessual Məcəllənin 38.1-ci maddəsində cinayətin izlərinin qorunmasının və götürülməsinin əhəmiyyəti baxımından hazırlanan, yaxud törədilən cinayətin əlamətlərini əks etdirən əməllər barədə məlumat alındığı halda cinayət prosesini həyata keçirən orqanlar tərəfindən müvafiq tədbirlər görülməsi müəyyən edilmişdir.

Qanunvericiliyin bu tələbinə əsasən, həmin Məcəllənin 207-ci maddəsində törədilmiş və ya hazırlanan cinayət haqqında daxil olmuş məlumatla bağlı (cinayət işinin dərhal başlanması, böyük ictimai təhlükə törətməyən aşkar cinayətə dair şikayət üzrə təhqiqatçı tərəfindən cinayət işi başlamadan sadələşdirilmiş icraatın aparılması və s. istisna olmaqla) təhqiqatçı, müstəntiq və ya prokuror tərəfindən zəruri hallarda müəyyən hərəkətlərin yerinə yetirilməsi nəzərdə tutulmuşdur. Onların sırasına ilkin yoxlama və Məcəllənin 207.4-cü maddəsində nəzərdə tutulmuş istintaq və digər prosessual hərəkətlər aid edilmişdir.

Həmin məlumatların alındığı hər bir halda təhqiqatçı, müstəntiq və ya prokuror cinayət işi başlamaq, cinayət işinin başlanmasını rədd etmək, məlumatı istintaq aidiyyəti üzrə göndərmək və xüsusi ittiham qaydasında təqib olunan cinayətə dair məlumatı məhkəmə aidiyyəti üzrə göndərmək haqqında qərarlardan birini qəbul etməlidir (Cinayət-Prosessual Məcəllənin 207.5-ci madəsi).

Sadalanan maddələrdən göründüyü kimi, cinayət-prosessual qanunvericilik bəzi hallar istisna olmaqla cinayət işinin başlanmasını törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatlara baxılmasının nəticəsi ilə şərtləndirmişdir. Bu isə məntiqi olaraq məlumatların baxılması yerinin törədilmiş və ya hazırlanan cinayətin baş vermə yerini ehtiva etməsinə dəlalət edir.

O da göstərilməlidir ki, Cinayət-Prosessual Məcəllənin 213.1 və 213.2-ci maddələrində törədilmiş və ya hazırlanan cinayət haqqında məlumatın digər istintaq orqanına göndərilməsi hallarından biri kimi barəsində məlumat verilən cinayətin araşdırılması onun səlahiyyətinə aid olmaması və cinayətin həmin orqanın fəaliyyət dairəsinin hüdudlarından kənar ərazidə törədildiyi müəyyən edilmişdir.

Qeyd edilən normaların əlaqəli təhlili əsasında Konstitusiya Məhkəməsinin Plenumu belə qənaətə gəlir ki, göstərilən normalar yurisdiksiyası bütün ölkə ərazisinə şamil olunan ibtidai istintaq orqanlarına deyil, bir inzibati ərazi vahidini əhatə edən istintaq orqanlarına münasibətdə ərazi aidiyyəti məsələsini tənzimləyir.

Bu baxımdan məlumatlara yurisdiksiyası bir inzibati ərazi vahidi ilə məhdudlaşan ibtidai istintaq orqanının baxması nəticəsində cinayət işinin başlanmasının rədd edilməsi haqqında qəbul edilən qərar üzərində məhkəmə nəzarətini cinayətin törədildiyi yer üzrə birinci instansiya məhkəməsi həyata keçirməlidir.

Törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatlara yurisdiksiyası bütün ölkə ərazisinə şamil olunan ibtidai istintaq orqanı tərəfindən baxılması nəticəsində qəbul edilmiş qərardan verilmiş şikayətlərlə bağlı məhkəmə nəzarətinin ərazi aidiyyəti məsələsi isə qanunvericiliklə tənzimlənməmişdir.

Bununla bağlı Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatlara yurisdiksiyası bir inzibati ərazi vahidi ilə məhdudlaşmayan ibtidai istintaq orqanı tərəfindən baxılması nəticəsində qəbul edilən qərar üzərində məhkəmə nəzarətinin həyata keçirilməsi qaydalarının qanunvericilik qaydasında müəyyənləşdirilməsinə zərurət vardır.

Qanunvericilikdə boşluq müvafiq normanın mövcud olmamasını nəzərdə tutmaqla, son nəticədə Əsas Qanunda təsbit edilmiş müvafiq insan hüquq və azadlıqlarının həyata keçirilməsi üçün məhdudiyyət yarada bilər. Bu boşluq mahiyyətcə qeyri-konstitusion norma ilə eyni hüquqi nəticəyə malikdir və onun aradan qaldırılması ümumi qaydada qanunvericinin funksiyasına (səlahiyyətinə) aid olsa da, həmçinin konstitusiya məhkəmə icraatı vasitəsi ilə həll edilə bilər. Oxşar mövqe Konstitusiya Məhkəməsi Plenumunun E.Axundovun şikayətinə dair 2023-cü il 6 oktyabr tarixli Qərarında ifadə edilmişdir.

Bu baxımdan qanunverici Cinayət-Prosessual Məcəllədə müvafiq təkmilləşdirilməni həyata keçirənədək törədilmiş və ya hazırlanan cinayətlər barədə məlumatlara yurisdiksiyası bir inzibati ərazi vahidi ilə məhdudlaşmayan ibtidai istintaq orqanı tərəfindən baxılması nəticəsində qəbul edilən cinayət işinin başlanılmasının rədd edilməsi haqqında qərar üzərində məhkəmə nəzarətinin həmin orqanın yerləşdiyi yer üzrə birinci instansiya məhkəməsi tərəfindən həyata keçirməsi məqsədəmüvafiq hesab edilməlidir.

Göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

– törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatlara yurisdiksiyası bir inzibati ərazi vahidi ilə məhdudlaşmayan ibtidai istintaq orqanının baxması nəticəsində cinayət işinin başlanmasının rədd edilməsi haqqında qəbul etdiyi qərar üzərində həyata keçirilən məhkəmə nəzarətinin ərazi aidiyyətinin Konstitusiyanın 62-ci maddəsinin tələbləri baxımından müəyyənləşdirilməsi Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə edilməlidir;

– göstərilən məsələ qanunvericilik qaydasında həll edilənədək yurisdiksiyası bir inzibati ərazi vahidi ilə məhdudlaşmayan ibtidai istintaq orqanı tərəfindən cinayət işinin başlanmasının rədd edilməsi haqqında qəbul edilən qərarın qanuniliyi üzərində məhkəmə nəzarəti həmin orqanın yerləşdiyi yer üzrə müvafiq birinci instansiya məhkəməsi tərəfindən həyata keçirilməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65–67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. Törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatlara yurisdiksiyası bir inzibati ərazi vahidi ilə məhdudlaşmayan ibtidai istintaq orqanının baxması nəticəsində cinayət işinin başlanmasının rədd edilməsi haqqında qəbul etdiyi qərar üzərində həyata keçirilən məhkəmə nəzarətinin ərazi aidiyyətinin Azərbaycan Respublikası Konstitusiyasının 62-ci maddəsinin tələbləri baxımından müəyyənləşdirilməsi Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə edilsin.

2. Göstərilən məsələ qanunvericilik qaydasında həll edilənədək yurisdiksiyası bir inzibati ərazi vahidi ilə məhdudlaşmayan ibtidai istintaq orqanı tərəfindən cinayət işinin başlanmasının rədd edilməsi haqqında qəbul edilən qərarın qanuniliyi üzərində məhkəmə nəzarəti həmin orqanın yerləşdiyi yer üzrə müvafiq birinci instansiya məhkəməsi tərəfindən həyata keçirilməlidir.

3. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

4. Qərar Azərbaycan Respublikasının rəsmi dövlət qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.

5. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr Fərhad Abdullayev**

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU**

**Ə M R**

**№ 2-2-100/50-k**

**Azərbaycan Respublikası Baş prokurorunun "Azərbaycan Respublikası Baş Prokurorluğunun "İstintaq təcrübəsi" bülleteninin təsis edilməsi haqqında" 06.08.2020-ci il tarixli 11/857-k nömrəli əmrində dəyişiklik edilməsi barədə**

**Bakı şəhəri** **05 fevral 2024-cü il**

Baş Prokurorluq üzrə müvafiq əmrlərə əsasən kadr dəyişikliklərinin həyata keçirilməsini nəzərə alaraq, "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq,

**Ə M R E D İ R Ə M:**

**1.** Azərbaycan Respublikası Baş prokurorunun "Azərbaycan Respublikası Baş Prokurorluğunun "İstintaq təcrübəsi" bülleteninin təsis edilməsi haqqında" 06.08.2020-ci il tarixli 11/857-k nömrəli əmrinin 3-cü bəndində aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 12-ci abzasda "Fərid Nağıyev Bakı şəhər prokurorunun müavini" sözləri "Vüqar Nəsibov Bakı şəhər prokurorluğunun Prokurorluqda istintaqa nəzarət şöbəsinin rəisi" sözləri ilə əvəz edilsin.

**2.** Əmr elan edilməsi üçün Baş Prokurorluğun struktur qurumlarına və bütün tabe prokurorluqlara göndərilsin, "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalında dərc edilsin və "Prokurorluğun Normativ Reyestri"nə daxil edilsin.

**Azərbaycan Respublikasının**
**Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri** **Kamran Əliyev**